**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU**

# YUNESKO-nun TƏSİS ETDİYİ ÜMUMDÜNYA FƏLSƏFƏ GÜNÜNƏ HƏSR OLUNMUŞ "DƏYƏRLƏR VƏ İDENTİKLİYİN FƏLSƏFİ PROBLEMLƏRİ" MÖVZUSUNDA BEYNƏLXAQ ELMİ KONFRANSIN MATERİALLARI

**26 NOYABR 2024-cü il**

**Bakı-2024**

**Elmi redaktor:** **İlham Məmmədzadə**
fəlsəfə elmləri doktoru, professor

**Buraxılış üzrə məsul:** **Qabil Camalov**

**Redaktorlar:** **Zeynəddin Şabanov**
**Rahilə Həsənova**
**Elnarə Əliyeva**

**Kompüter tərtibatı**
**və dizayn:** **Səbinə Mustafazadə**
**Lalə Əliyeva**

# MÜNDƏRİCAT

**İlham Məmmədzadə**
Qələbə, dəyərlər və identiklik ................................................ 6

**I FƏSİL**
**MİLLİ İDEYA, SİYASƏT, FƏLSƏFƏNİN DƏYƏR VƏ İDENTİKLİK PROBLEMLƏRİ**

**Eynulla Mədətli**
Heydər Əliyevin dövlətçilik təlimində milli özünüdərk,
milli kimlik və mənəvi dəyərlər ............................................. 10
**Neil Watson (United Kingdom)**
The concept of identity in the modern world .......................... 24
**Rəna Mirzəzadə**
Azərbaycan dövlətçilik strategiyasında universal dəyərlər
və milli maraqların siyasi-hüquqi paradiqmaları .................... 28
**Füzuli Qurbanov**
Yeni tarixi mərhələdə milli ideya: fəlsəfi yanaşma ................ 38
**Laroussi Mizouri (Tunisia)**
The identity of philosophy and history: on the example of
the italian community in Tunisia in the XIX- XX centuries... 48
**Dilarə Müslümzadə**
Vətəndaş cəmiyyətinin identikliyi haqqında .......................... 67
**Şölət Zeynalov**
Dialoq, identiklik və ekoloji problemlərin həllinə
Azərbaycan paradiqması kontekstində nəzəri baxış ............... 76
**Günel Məlikli**
Prezident İlham Əliyev – milli dirçəliş fəlsəfəsi..................... 92
**Лала Мовсумова**
Минный террор как одна из форм войны против
мирного населения .............................................................. 101

## II FƏSİL
## METODOLOJİ PROBLEMLƏR, SÜNİ İNTELLEKT VƏ DƏYƏRLƏR

**Əbülhəsən Abbasov**
Fəlsəfi meqabilik və ədəbi tənqid: İsmayıl Şıxlı və Herbert Markuze yaradıcılığında ideya-ideallar identikliyi.. 112
**Könül Bünyatzadə**
Sufi fenomenologiya yeni dövrün fəlsəfi konsepsiyası kimi 133
**Ziba Ağayeva**
Universal dəyərlər müasir texnika və texnologiyalar kontekstində .................................................. 142
**Zeynəddin Şabanov, Həbib Hüseynov**
Fəlsəfənin təqdimi və dəyərləndirilməsi ................................ 154
**Rövşən Hacıyev**
Sosiohumanitar elmlərdə idraki fəaliyyətin və qanunların özünəməxsusluğuna dair ..................................... 161
**Hüseyn İbrahimov**
Fəlsəfə və müasirlik .............................................................. 171
**Зохра Алиева**
Искуственный интеллект в современном мире................ 175
**Həsənağa Məmmədli**
Müasir dinşünaslıq – fənlərarası tədqiqat kompleksi kimi ... 183

## III FƏSİL
## FƏLSƏFƏ TARİXİ, ESTETİKA VƏ DƏYƏRLƏR PROBLEMİ

**Arzu Hacıyeva**
Heydər Hüseynov və tarix qarşısında məsuliyyətimiz.......... 194
**Faiq Ələkbərli**
Mirzə Şəfi Vazehin dini-fəlsəfi və əxlaqi-estetik görüşləri .. 207
**Aytək Məmmədova**
Dünya fəlsəfəsində iz qoymuş Orta əsr Azərbaycan filosofları haqqında ................................................................ 221

**Nailə Əsədova**
Azərbaycan rəssamlarının estetik fikrində insan gözəlliyi
və təbiət gözəlliyi mövzuları ................................................ 232
**Zaur Rəşidov**
Ənvər Əhmədovun tədqiqatlarında Orta əsrlər İslam
fəlsəfəsi: tənqidi təhlil ........................................................ 239
**Aypara Abbasova**
Aşıq yaradıcılığında poeziya ilə fəlsəfənin vəhdəti .............. 251
**Ruslan Xəlilov**
Personalizmdə insana dəyər anlayışı
(Nizami Gəncəvi kontekstində) ............................................ 259

# QƏLƏBƏ, DƏYƏRLƏR VƏ İDENTİKLİK

**İlham Məmmədzadə**
Fəlsəfə elmləri doktoru, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

## Giriş əvəzi

Ümumdünya Fəlsəfə Günü[1] bütün dünya filosofları üçün mühüm bir gündür və hər bir ölkənin bu gün fəlsəfədə nəyin aktual olduğu barədə öz rəyi var. Bu da o deməkdir ki, bu konkret aktuallığı, sözün müəyyən mənasında, izah etmək lazımdır. Tarixi Qələbəmiz – işğalçını qovduğumuz, ərazi suverenliyinə nail olduğumuz, Ümummilli Liderin, qalib Prezidentin, Ordunun fəaliyyətinin, qurbanların xatirəsi və qəhrəmanların fədakarlığının, ümummilli məqsədlərə çatmağımızda vətəndaşları birləşdirən azərbaycançılıq ideologiyasının rolunu başa düşdüyümüz deməkdir. Lakin bu həm də bundan sonra necə yaşamaq, Qələbənin Azərbaycanda, Cənubi Qafqazda və s. uzunmüddətli sülh və firavanlığa çevirilməsi üçün onun verdiyi təkanın zaman ərzində necə saxlamaq lazım olduğunun anlayışı zərurətini və s. nəzərdə tutur. Qeyd edilməlidir ki, indi fəlsəfə və ideologiyada dəyərlər və identikliyin vəhdəti deyilən amilin əhəmiyyətini, Qələbəni nələrin gətirdiyini və onun davamını təmin etdiyini aşkar və müəyyən etmək, əsaslandırmaq vacibdir.

Əlbəttə Qələbəmiz ilk növbədə, ölkə Prezidentinin iradəsi, ağlı və səylərinin, onun öz bacarıqlarını xalqın vahid məqsədə can atmasına çevirə bilməsinin nəticəsidir. Onun müharibə dövründəki və ondan sonrakı bütün çoxtərəfli fəaliyyəti həm bunu sübut edir, həm də onu göstərir ki, Qələbənin mənası təkcə

[1] Ümumdünya Fəlsəfə Günü – 2005-ci ildə Ümumdünya Təşkilatı UNESCO hər il noyabr ayının üçüncü cümə axşamı Fəlsəfə Gününün qeyd edilməsini elan etmişdir. Bu gün dünyanın 70-dən çox UNESCO üzv ölkəsində qeyd olunur. Bu il həmin gün noyabr ayının 21-nə düşür.

Qarabağın azad edilməsindən deyil, həm də Qarabağ və Azərbaycanın çiçəklənməsindən, Cənubi Qafqazın geosiyasi reallığının dəyişdirilməsindən, inkişafa yönəldilmiş cəmiyyətdə xüsusi dəyər mühitinin yaradılmasından ibarətdir. Həm də ki, söhbət təkcə Cənubi Qafqazdan getmir, çünki, Prezidentimiz əmindir ki, indi Cənubi Qafqazda çox şey bizdən amma həm də bizə qonşu olan ölkələrdən – hətta lap Mərkəzi Asiyaya, Çinə və s. qədər – asılıdır. Beləliklə, Azərbaycanın Qələbəsi bölgənin və dəyişilməyə qadir olan daha böyük Avrasiyanın geosiyasi reallığını dəyişdirdi. Bizcə, onun bu səylərinin həyata keçirilməsi Azərbaycanımızı kökündən dəyişdirəcək. Biz buna inanırıq, çünki, biz dünyada ərazi münaqişəsini öz gücü ilə aradan qaldıraraq beynəlxalq hüququ bərpa etmiş yeganə dövlətik.

Dünyada baş vermiş müharibələrin tarixi göstərir ki, qələbələr çox vaxt düşmənin məhvi və onun dövlət quruluşunun dəyişdirilməsi ilə başa çatır. XX əsrin həm I, həm də II Dünya müharibələri beləcə başa çatmışdır. Amma Azərbaycanın heç vaxt belə məqsədləri olmayıb və üstəlik, onun öz ərazisi üzərindəki suverenliyi Ermənistanın iqtisadi inkişafı üçün imkan yaradır. Zəngəzur dəhlizi təkcə Azərbaycan və Türkiyənin deyil, Ermənistanın da inkişafı üçün şərait yaradır. Əlbəttə, bu məsələnin həlli qarşıdurma xarakterli hərbiləşdirilmiş, mifoloji, revanşist erməni şüurunun dəyişdirilməsini, qonşularla uzunmüddətli diplomatik işin aparılmasını nəzərdə tutan çətin işdir. Bununla belə, Azərbaycanın məqsədləri açıq və təmizdir. Bizim sülh müqaviləsinə yanaşmamız da buradan irəli gəlir. Bu müqavilədə həm biz maraqlıyıq, həm də Ermənistan maraqlıdır. Çünki, o təkcə bizim üçün deyil, həm də onlar üçün sülh və inkişafa xidmət edir. Amma eyni zamanda yaddaşımız, münaqişənin tarixi erməni revanşizmi və mifologiyasının dəyişdirilməsini və onların konstitusiyasından bizə qarşı ərazi iddiaları olan maddənin çıxarılmasını ciddi surətdə tələb edir. Yaddaş hər bir qələbə üçün qaçılmazdır; o, qəhrəmanları, dəhşətləri, Xocalı ağrısını

unutmamağı nəzərdə tutur, amma söhbət qələbə və sülhdən getdikdə dəyərlər və əxlaq özünün və başqalarının xatirələrinə yanaşmada ölçü tapmaqdan ibarət olur. Buna görə də bizə yaddaş, xatirələr sosiologiyası, muzeylər, münaqişənin və erməni təcavüzü cinayətlərinin tarixi və s. lazımdır.

Qələbə və sülh iqtisadiyyata, ölkəmizi qələbəyə apara, silahlı qüvvələrimizi gücləndirə, islahat yolu ilə dəyişdirə bilən iqtisadiyyata dayaqlanır, müharibədən sonra isə o, ölkəni güclü, inkişaf etmiş, çiçəklənən etməlidir. Bunun üçün islahatlar aparılmalı, istehsalçı və kapital, istehsal və istehlak münasibətləri dəyişməli, insanların münasibətləri yenilənməlidir. Bir çox işlər, o cümlədən siyasi partiyalar arasında dialoq, gənc, yeni mütəxəssis və peşəkarlara yönəlmə və s. artıq başlamışdır. Bu kontekstdə COP-29[2]-un Azərbaycanda keçirilməsi təşəbbüsü, yeni "yaşıl" təmiz enerjiyə keçid, Xəzər dənizi, təmiz su uğrunda mübarizə və s. bu kimi işlərin aparılmasının səbəbləri aydındır. Bəli, həyatımızın keyfiyyəti ekologiyadan çox asılıdır. Həm də ki, ekologiya təkcə ətraf mühit və iqlimi deyil, həm də insanların bir-birinə münasibətini də əhatə edir. Prezidentin belə bir mühüm tədbirin Bakıda keçirilməsi təşəbbüsü ancaq bizim necə olduğumuzu dünyaya göstərmək deyil, həm də bizim dünya ilə və özümüzlə həmrəy olduğumuz deməkdir. Həmrəylik və əməkdaşlıq ölkənin islahat yolu ilə dəyişdirilməsi mexanizmidir; bu, Bakının müsbət dəyişikliklər mərkəzinə çevrilməsidir. Bu planda Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində fəaliyyəti də, fransız imperializminə, istismara və s. qarşı apardığı mübarizə də başadüşüləndir.

Qələbə fəlsəfəsi haqqında material hazırlayarkən biz ideologiyanı, elmi və əlbəttə, fəlsəfəni nəzərə almıya bilmərik.

---

[2] COP – United Nations Climate Change Conference – Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (hər il keçirilir). Azərbaycan Tərəflər Konfransının bu ilin 11–24 noyabr tarixlərində Bakıda keçiriləcək 29-cu sessiyasının (COP29) sədridir.

Aydındır ki, həmrəylik və əməkdaşlıq sözün köhnə mənasında iqtisadiyyata deyil, yeni şüur iqtisadiyyatına, rəqəmsal iqtisadiyyata, süni intellekt və elmi inqilaba xas olan amillərdir. Əvvəllər bütün bunlar başqalarına məxsus idi, biz isə öyrənməli, bəzən kor-koranə təkrarlamalı, alıb mənimsəməli idik və s. İndiki şəraitdə hər şey bizim öz əlimizdədir, qabiliyyətlərimizdən və geosiyasi reallığı–və təkcə onu yox–dəyişdirmək bacarığımızdan asılıdır. Amma elmdə inqilab ancaq onun nailiyyətlərinin iqtisadiyyata, istehsalata tətbiq edilməsi, bir istehsaledici enerjinin başqa bir təmiz enerji ilə əvəz edilməsi deyil, həm də insanların şüurunun dəyişməsidir. Buna görə də ölkə Prezidenti yeni məqsədlər, yeni milli ideya axtarışı elan etdi. Əvvəlki milli ideya artıq reallaşmış – Qarabağ artıq bizimdir. Böyük Qayıdış gedir. Burada üzvlərinin qayıdışda bilavasitə iştirak etdiyi Türk Dövlətləri Təşkilatının əhəmiyyətini qeyd etmək lazımdır, onların Qələbəyə və Qarabağın bərpasında göstərdikləri dəstək və yardımı heç zaman unutmamalıyıq.

Sonda, bir az fəlsəfə barəsində, onun bu çoxcəhətli və uzunsürən yeniləşmə prosesində necə iştirak edə biləcəyi və etməli olması haqqında. Bu, ilk növbədə, azərbaycançılıq ideologiyasında, milli ideya və ideologiya üçün yeni fikirlərin axtarışında, yaddaşın, mədəniyyətin, keçmişin və tarixin mənalarının araşdırılmasında fəal iştirakdır. Sosiologiya fəlsəfəsinə, unudulmamalı, qorunub saxlanılmalı və gələcəyə ötürülməli olan şeylərə diqqətdir. AMEA-da aparılan araşdırmalar çərçivəsində bu istiqamətlərdə çox işlər görülür. Amma vacib olan təkcə bu funksiya deyil, həm də yeni metodologiyaların axtarışıdır – elə həmin süni intellekt (Sİ) fəlsəfəsində, dünya alimləri ilə əlaqələrin genişləndirilməsində, onlara təsir göstərməkdə, onlarla birgə nəşrlərdə və s. Bu kontekstdə konfrans materiallarının üç bölməyə – metodologiya, Sİ və ideologiya; siyasət və Qələbə fəlsəfəsi; fəlsəfə tarixi, yaddaş etika və estetikası və s. – bölünməsi başadüşüləndir.

# I FƏSİL

## MİLLİ İDEYA, SİYASƏT, FƏLSƏFƏNİN DƏYƏR VƏ İDENTİKLİK PROBLEMLƏRİ

### HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİNDƏ MİLLİ ÖZÜNÜDƏRK, MİLLİ KİMLİK VƏ MƏNƏVİ DƏYƏRLƏR

**Eynulla Mədətli**
Tarix elmləri doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Hər bir millətin öz milli kimliyini, necə təşəkkül etdiyini, hansı inkişaf yolu keçdiyini, dilinin, dininin və mədəniyyətinin necə yarandığını və təkamül etdiyini dərk etməsi zəruri tarixi prosesdir. Xüsusilə də XX əsrin axırlarında bütün dünyada baş verən və getdikcə dərinləşməkdə olan qloballaşma kimi qaçılmaz proses şəraitində insanın bir fərd kimi əsrlərlə formalaşmış xalq və millət olaraq özünəqayıdışında, tarixi milli-mənəvi kökləri və dəyərləri bərpa etməsində, mövcud olan dəyərləri qoruyub saxlaması və gələcək nəsillərə ötürməsində məlum çətinliklər meydana çıxır. Milli özünəqayıdışa nail olmadan xalqın qloballaşma girdabına atılması, onun olan-qalan, az-çox qorunub saxlana bilmiş milli irs və özünəməxsusluğunun, etnik zəmində zaman-zaman şəkillənmiş özəlliklərinin, hər bir şəxsin, eləcə də ailənin, konkret insan cəmiyyətinin varlığının vacib şərtlərindən olan adət və ənənələrin qaynayan bu nəhəng dünya qazanında əriyib yox olması, qalanlarının isə deqradasiyaya məruz qalması baş verə bilər (1, s. 22).

Əlbəttə, milli özünəqayıdış prosesi hər bir insanın özünü dərk etməsindən başlanır. Özünüdərketmə hələ qədim zamanlardan filosofları, mütəfəkkirləri düşündürmüşdür. Orta əsrlər Azərbaycan fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri

olan Nəsirəddin Tusinin fəlsəfi dünyagörüşündə və İmadəddin Nəsiminin poeziyasında insanın özünü dərk etməsi fəlsəfənin və sufizmin məlum yolları ilə, mərhələ-mərhələ insanın cismani qaranlıqdan xilas olub, ülvi mərtəbəyə yüksələ bilməsini ehtiva edir. Şəriət-təriqət-mərifət və həqiqət yolunu keçərək arifliyə qədəm qoyan insan özünü dərk etməklə, varlıq ilə Haqqı (Allahı) bir vəhdət şəklində görəcək səviyyəyə gəlir.

Əlbəttə, bu məsələyə Hegel kimi fərqli yanaşanlar da olmuşdur. Belə ki, "özünüdərketmə"yə dair fikirlərini ortaya qoyan Hegelə görə, burada söhbət heç də hər bir insanın öz müsbət və mənfi, üstün və zəif cəhətlərini anlamasından getmir. Əsas məsələ, ümumiyyətlə, insanın özünü dərk etməsidir (2, c. 248-249).

Milli özünəqayıdış bu mənada həm də mühüm siyasi əhəmiyyət daşıyan cəmiyyət hadisəsidir. Çünki milli dövlət quruculuğu Vətənin bütün vətəndaşlarını vahid birləşdirici amal, məfkurə və fəaliyyət ətrafında səfərbər etmək üçün öz dövlətinə fədakarcasına xidmət edən milli qeyrət və təəssübkeşliyə malik insanlarla mümkündür. İlham Məmmədzadə yazır: "Uzun illər gəldiyimiz qənaətin real təsdiqi odur ki, bu uğurlu siyasətin Zəfər mərhələsinədək keçdiyi yolda Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasına əsaslanan və Prezident İlham Əliyevin daha da inkişaf etdirdiyi güclü dövlət ideyalarının cəmiyyətimizə tətbiqi xüsusi rol oynadı (3, s. 15). Əlbəttə, azərbaycançılıq ideologiyası öz mənbəyini ilk növbədə milli özünüdərk və özünəqayıdış prosesindən götürür və milli mənsubiyyətlə əlaqədardır. Ulu Öndər Heydər Əliyevin vurğuladığı kimi, ölkəmizdə milli mənsubiyyət azərbaycanlı olmaqdır və bu, hər bir vətəndaşımız üçün iftixar mənbəyidir. Bu məqamda belə bir sual doğur: milli özünüdərkdə və özünəqayıdışda milliliyi necə anlamalıyıq?

Bu mənada Rəbiyyət Aslanovanın yanaşması diqqət çəkir. Belə ki, onun fikrincə, "millilik, sağlam millətçilik millətin

vəhdətini və təşkilatlanmasını ali dəyər kimi qəbul edən ideologiyadır" (4, s. 83). Burada şübhəsiz ki, millət deyəndə yalnızca bir etnosun mənsubları deyil, tarixən vahid coğrafi məkanda aborigen olaraq, yaxud qədim zamanlardan məskunlaşaraq bir yerdə yaşayan, eyni dili, inancı, mədəniyyəti, adət-ənənələri, mənəvi-psixoloji keyfiyyətləri daşıyan, özlərini vahid Vətənin övladı kimi hiss edən cəmiyyət nəzərdə tutulur. Orta əsrlərdə xalq adlandırılan belə cəmiyyətlərin millətləşməyə keçidi ölkəmizdə XIX əsrdən etibarən baş vermiş, həmin dövrlərdən milli ideya təşəkkül etməyə başlamışdır. Ölkəmizdə milli dövlətçilik quruculuğu uğrunda mübarizə ilk dəfə XX əsrin əvvəllərində milli dövlət – Azərbaycan Xalq Cümhuriyyəti qurulması ilə sonuclandı. 1918-1920-ci illərdə Azərbaycanın ilk milli dövləti, eləcə də İslam Şərqinin ilk demokratik cümhuriyyəti milli kimlik, milli mənsubiyyət, milli ideologiya kimi anlayışları real həyati müstəvidə gerçəkləşdirdi. Aparıcı və həlledici qüvvəsi Azərbaycan türk milləti və onun siyasi partiyası "Müsavat" olan bu demokratik cümhuriyyət quruluşunda və siyasətində etnik millətçiliyi deyil, Vətən və vətəndaşlıq millətçiliyini üstün tuturdu (5, s. 15). Azərbaycan mənsubluğu türk etnik mənsubluğundan öndə idi, bu, hakimiyyət təmsilçiliyində və idarəçilikdə də gözlənilirdi. Sovet dövründə bu meyarlar tamamilə dəyişdirilib kommunist ideologiyasına uyğunlaşdırılsa da, xalqın tarixi genetik yaddaşında əsrlərin sınağından çıxmış, qəlblərdə, zehin və düşüncələrdə rüşeym kimi xəlvətdə qalmış milli yaddaş, özünüdərk və özünəqayıdış hissi hələ yaşamaqda idi. 1988-ci ilin sonlarında Sovet dövlətinin ədalətsizliyinə üsyan edən xalqımızın özünüdərki və özünəqayıdışı təlatümlü bir prosesdən keçdi.

Yeni tarixi şəraitdə, XX əsrin son onilliyində milli dövlətçiliyimizin memarı olan Heydər Əliyev xalqımızın milli özünəqayıdışının təşkilatçısı və təminatçısı olaraq bu ümummilli vəzifəni dövlət siyasətinin tərkib hissəsinə çevirdi, öz nitq və çıxışlarında, praktik dövlətçilik fəaliyyətində bütün Azərbaycan

vətəndaşlarını bu tarixi missiyanı həyata keçirməyə səfərbər etdi. Ulu Öndər Azərbaycanın qədim Atropatena və Albaniyadan başlanan zəngin tarixinə yaxşı bələd olduğu kimi, onun qarşıdakı illərdə, ümumən gələcəkdəki inkişaf perspektivlərini də aydın görürdü. “Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir”- deyən Heydər Əliyev bu müstəqilliyin əsas təminatçısı olan milli ideyalı, bəşəri düşüncəli, çağdaş görüşlü Azərbaycan vətəndaşının yetişdirilməsinə böyük önəm verirdi. Mədəniyyətin qurucu amillərindən birinin və ən əsasının insan faktoru olduğu gerçəyini nəzərə alsaq, Ulu Öndərin bu mənada atdığı siyasi-praktiki addımların son dərəcə əhəmiyyətli olduğunu deyə bilərik.

Heydər Əliyev xalqımızın taleyində və dövlətçilik tarixində müstəsna xidmətləri olan lider şəxsiyyət və fenomendir. Onun parlaq şəxsiyyəti və müdrik liderliyi müstəqil dövlət quruculuğunda müstəsna rol oynadı. Füzuli Qurbanov yazır: “Heydər Əliyev partiya, dövlət və cəmiyyətə uğurlu liderliyin keyfiyyətlərini özündə ehtiva edən Böyük Lider-Şəxsiyyət kimi, ölkəni ilk mərhələdə xaosdan çıxarıb sabitliyə qovuşdurdu. Bu zaman xilaskarlıqla cəmiyyətdə siyasi, hüquqi, sosial, ideoloji və mənəvi-əxlaqi düzən yaratmaqla və quruculuğun həmin dönəmə uyğun sintezini siyasi-praktiki fəaliyyyətində, yəni eksklüziv olaraq, gerçəkləşdirdi (6, s. 247).

Heydər Əliyevin Azərbaycanda milli özünəqayıdış və özünüdərk istiqamətində atdığı siyasi addımları, bu istiqamətdə formalaşdırdığı və tətbiq etdiyi siyasi strategiya və ideologiyanı analiz etmək belə bir şəxsiyyətin Azərbaycanın dövlətçilik tarixindəki əvəzolunmaz rolunun daha dərindən dərk edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Onun ölkəmiz üçün göstərdiyi xidmətlər xalqımızın sadəcə müstəqillik qazandıqdan sonrakı illəri ilə məhdudlaşmır, bu taleyüklü xidmətlər onun respublikamıza rəhbərlik etdiyi müstəqillikdən əvvəlki dövrü də əhatə edir. Bunu Azərbaycanın dövlətçilik tarixinə nəzər salanda bariz şəkildə görmək olar. Respublikaya rəhbərlik etdiyi 14 il

ərzində Heydər Əliyev rəsmi ideologiya çərçivəsində, bir sıra hallarda da onun hüdudlarını aşaraq milli ruhu, milli tarixi yaddaşı, milli dünyagörüşü öz fəaliyyətində önə çəkərək Azərbaycanda bütöv bir milli-ziyalı nəslinin formalaşmasına şərait yaratdı və bu prosesə rəhbərlik etdi (7, s. 266).

Azərbaycanın müstəqilliyinin ilk çətin illərində Heydər Əliyevin Naxçıvanda başladığı dövlət quruculuğu fəaliyyəti və ölkə rəhbərliyinə gəldiyi zaman gördüyü ilk işlər, həyata keçirdiyi tədbirlər, çoxsaylı çıxış və müsahibələrində təlqin etdiyi fikir və ideyalar ilk növbədə xalqımızın milli özünüdərkinə, özünəqayıdışına yol açırdı, müstəqil yaşamağın və inkişaf etməyin mümkünlüyünə xalqda inam yaradırdı, bunula da möhkəm vətəndaş həmrəyliyinə nail olunmasına, Vətənə və onun bölünməzliyinə inam və sədaqət aşılayırdı. Ulu Öndər milli özünəqayıdışın yalnız hər bir vətəndaşın milli ideyaya sahib çıxması, bunun fəal daşıyıcısı olması, tarixi keçmişimizə yeni dövrün tələblərinin gözü ilə baxması, tarixin dərslərindən düzgün nəticələr çıxarması ilə təmin oluna biləcəyini hamıdan yaxşı dərk edirdi.

Ümumiyyətlə, Ulu Öndər 1990-1993-cü illərdə Naxçıvanda əvvəl Ali Məclisin deputatı olaraq, sonra isə Ali Məclisin sədri kimi müstəqil dövlətçiliyin ən vacib şərti olan milli ideyanı, milli təfəkkürü, insanlarda milli özünüdərki, sovet sistemi zamanı tərk etdirilmiş milli-mənəvi dəyərləri və ənənələri canlandırmaq, onların emosional müstəvidən real həyat müstəvisinə keçib dövlət quruculuğunda zəruri vasitə kimi istifadə edilməsinə önəm verirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin səyi və iradəsi ilə Ali Məclisin 16 dekabr 1991-ci il tarixli qərarı ilə 1989-cu ilin 31 dekabrında Naxçıvan MR ərazisində İran və Türkiyə ilə olan sərhəd çəpərlərinin yıxıldığı günün- 31 dekabrın Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi qeyd edilməsi rəsmiləşdirildi. Başdan-başa Heydər Əliyevin ideya və fikirlərini özündə ehtiva edən bu tarixi qərarda deyilirdi ki, Sovet

imperiyası tərkibinə qatıldığı 70 il ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan türkləri təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışlar. İmperiya siyasəti dünya türklərini bir-birindən təcrid etmək məqsədilə pantürkizm məfhumunu Şərq aləmində təhlükəli bir ideya kimi təbliğ edərək, dünya türklərinin, o cümlədən Sovet İttifaqında yaşayan türklərin arasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bütün bunlara baxmayaraq Azərbaycan türkləri milli dövlət quruculuğu, milli və mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər. Buradakı dəyərləndirmədən də göründüyü kimi, həm çar Rusiyası dövründə, həm də Sovetlər dönəmində azərbaycanlıların özünüdərki və milli özünəqayıdış prosesini əngəlləmək, bu təbii hissləri tamamilə aradan qaldırmaq üçün imperiya siyasəti planlı və məqsədyönlü işlər aparmışdı. Lakin ölkəmizin qabaqcıl, mütərəqqi, demokratik qüvvələrinin, milli ruhlu ziyalılarının apardığı genişmiqyaslı fəaliyyət nəticəsində 1989-cu il dekabrın 31-də xalqımızı iki yerə bölən dəmir çəpərli dövlət sərhədləri yüz minlərlə azadlıqsevər oğul və qızlarımız tərəfindən sökülüb dağıdıldı beləliklə, həmin gün milli birlik və bütövlüyümüzün rəmzinə çevrildi. Ulu Öndərin imzaladığı sərəncamda deyilirdi: “31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin” (8, s. 217-218).

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən bu tarixi qərar hələ Sovet İttifaqının dağılmasından iki il əvvəl xalqımızın milli özünəqayıdış sahəsində artıq əməli addımlar atıldığından, bu oyanışın və özünüdərkin isə geridönməzliyindən xəbər verirdi. Bu tarixi qərarın verilməsi və sonralar artıq Azərbaycana rəhbərlik edərkən həmin 31 dekabr tarixini etnik mənsubiyyətindən asılı olmayaraq bütün Dünya azərbaycanlılarının həmrəylik gününə çevirməsi Ulu Öndərin azərbaycançılığı milli varlığımızın və birliyimizin bel sütunu kimi dəyərləndirməsinin nümunəsidir.

1969-1982-ci illərdə Sovet Azərbaycanına rəhbərlik edərkən sonsuz cəsarətə, dönməz qətiyyət və iradəyə malik olan Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda ana dilimizə, şanlı tariximizə, zəngin mədəniyyətimizə, bəşər sivilizasiyasına xalqımızın zaman-zaman bəxş etdiyi ölməz, dahi mütəfəkkirlərimizə, onların yaratdığı dünya mədəni-mənəvi irsini zənginləşdirən əsərlərə sahib durmaq hissi, Azərbaycan türk kimliyinin dərk edilməsi yeni tarixi şəraitdə formalaşmağa başladı. Sovet ideologiyasının yaradıcı şəxslər və qurumlar qarşısında qoyduğu "formaca milli, məzmunca sosialist" çərçivəsini aşan, milli məzmun daşıyan, milli özünəqayıdışa yol açan əsərləri təqdir və tərif etməklə, Heydər Əliyev xalqımızı qarşıdakı, o zaman, bəlkə də, ağlımıza belə gəlməyən milli müstəqilliyə hazırlayırdı.

Həmin illərdə elm, tarix, mədəniyyət sahəsində Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı tədbirlərin hər biri daşıdığı milli məzmunla gələcək milli özünüqayıdışa xidmət edirdi. Akademik Ramiz Mehdiyev yazır: "Kommunist ideologiyasının şəriksiz hökm sürdüyü Sovet dövründə "milli dövlət" anlayışı yasaq idi. Buna baxmayaraq Heydər Əliyevin respublikaya bacarıqla rəhbərlik etməsi sayəsində Azərbaycan elitasının milli mənlik şüurunda "milli maraqlar" anlayışı dərindən kök saldı. Məhz sovet dövrü çərçivəsində milli maraqların real siyasətdə ardıcıl gerçəkləşməsi keçən əsrin 80-ci illərinin sonunda ölkədə milli hərəkatın genişlənməsi üçün zəmin hazırlamış, 1991-ci ildə dövlət müstəqilliyinin qazanılması üçün baza yaratmışdır (9, s. 14).

Burada qeyd edilməlidir ki, Heydər Əliyev bu xilaskarlıq missiyasını öncə Vətənin bir hissəsi olan Naxçıvanda, sonra isə bütün Azərbaycan Respublikasında şərəflə yerinə yetirdi. Lakin o, sadəcə, xilaskar deyildi, o, müstəqilliyin ilk üç ilində, əslində, qurula bilməyən dövləti təməlindən yenidən qumaqla yanaşı, xalqımızı müstəqil yaşamağa, tarixi keçmişimizdən dərs almaq və ibrət götürməklə, dünya birliyinin ləyaqətli üzvü kimi inkişaf

və tərəqqiyə aparırdı. O, xalqımızın tarixi yaddaşına tez-tez müraciət edərək hər zaman öz nitq və çıxışlarında milli-mənəvi dəyərlərimizi qabardırdı. Azərbaycanı dünyadakı bütün azərbaycanlıların Vətəni və dayaq yeri kimi görür və bu fikirlərini ardıcıl təlqin edirdi.

1996-cı ilin fevralın 5-də İranın Təbriz şəhərində Azərbaycan Respublikasının Baş Konsulu vəzifəsinə təyinatı zamanı bu sətirlərin müəllifi (E. Mədətli) ilə söhbətində, verdiyi təlimat və tövsiyələrində onun İranla münasibətlərə, o cümlədən Cənubi Azərbaycan məsələlərinə necə önəm verdiyi, tarixi Vətəndə yaşayan 30 milyon azərbaycanlının İran vətəndaşları olsalar da, bizim soydaşlarımız olduğunu, onların İran tarixində həmişə həlledici rol oynadıqlarını və bütün hakimiyyətlərdə yüksək mövqelər tutduqlarını qeyd etmiş, müstəqil Azərbaycan dövlətinin bayrağının Təbrizdə dalğalanmasının nə qədər böyük əhəmiyyət daşıdığını anlatmışdı. Təsadüfi deyildir ki, İran İslam İnqilabının 17-ci ildönümü münasibətilə İİR-in Azərbaycandakı səfirliyinin keçirdiyi təntənəli tədbirdə şəxsən iştirak edən Heydər Əliyev öz nitqində demişdi: "Bizi İranla bağlı hər şey maraqlandırır – onun həm qədim mədəniyyəti, tarixi abidələri, böyük ədəbi, mədəni irsi və bizim bir-birinə bənzəyən, yaxud eyni olan adət-ənənələrimiz maraqlandırır. Bundan əlavə, İranda azərbaycanlılar da yaşayır. Onlar İranın vətəndaşlarıdır, onun xalqının bir hissəsidir, eyni zamanda azərbaycanlı kimi bizim soydaşlarımızdır, biz də onların soydaşlarıyıq. Bunlar hamısı ölkələrimizin bir-birinə daim dost, qardaş olmasının əsasını yaradıbdır və bizim borcumuz bunları inkişaf etdirməkdən ibarətdir" (10, s. 325).

Bu fikirləri ilə Ulu Öndər milli özünəqayıdış məsələsinə daha geniş miqyasda yanaşmağı, vətən və milli mənsubiyyət məsələsində tarixi vətənin böyük hissəsini, orada yaşayan soydaşlarımızı, hətta xarici ölkələrdəki azərbaycanlıları belə, diqqətdən kənarda tutmamağı tövsiyə edirdi.

Kommunist ideologiyasının hakim olduğu zaman ümumsovet siyasətinə və hakim kommunist ideologiyasına xələl gətirmədən xalqı milli özünüqayıdışa hazırlamaq heç də asan məsələ deyildi. Lakin Heydər Əliyev bunu bacarırdı. Akademik Yaqub Mahmudlu haqlı olaraq yazır ki, ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi və himayəsi ilə Şimali Azərbaycanda milli oyanış və müstəqilliyə doğru Böyük Dönüş dövrü başlamışdı (11, s. 83).

Aparılan tədqiqat nəticəsində məlum olur ki, ölkəmizdə dövlətçilik Heydər Əliyev sayəsində özünü təkcə siyasi və hüquqi sahədə deyil, eyni zamanda milli-mənəvi dəyərlər sahəsində göstərdi. Ulu Öndər 1918-ci ildən etibarən milli özünüdərk istiqamətində Azərbaycan Xalq Cümhuriyyətində təməli qoyulan milli məfkurəni yeni şəraitdə inkişaf etdirərək Azərbaycançılıq ideologiyasını müstəqil dövlətçilik təliminin vacib tərkib hissəsinə çevirdi. Bu ideologiyanın əsasında milli dil, mədəniyyət, milli mənsubiyyət duyğusu, milli-mənəvi dəyərlər və adət-ənənələrə hörmət, ehtiram və sevgi hissi yatır. Bu xüsus Heydər Əliyevin bütün dünya azərbaycanlılarının milli-mənəvi maraqlarını ifadə edən azərbaycançılıq məfkurəsi çərçivəsindəki nitqində də öz əksini tapır. Ümummilli liderin sözügedən nitqində keçən fikirlərə görə, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməli, azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır (12, s. 26).

Bu ideologiyanı dərindən araşdıranda Heydər Əliyevin Azərbaycanda milli özünəqayıdış istiqamətindəki xidmətlərinin nəzəri əsasını məhz azərbaycançılıq məfkurəsinin təşkil etdiyinin heç də təsadüfü olmadığını görürük. Ulu Öndərin bu məfkurə çərçivəsində atdığı mühüm siyasi və strateji addımlarının mahiyyətini və dəyərini daha dərindən anlamaq üçün Azərbaycanın siyasi tarixinə müstəqillikdən əvvəl və müstəqilliyini bərpa etdiyi dövrdən etibarən nəzər salmaq kifayətdir.

Müstəqilliyin ilk illərində özünüdərketmə və özünəqayıdış olduqca ağrılı bir proses idi. Lakin ölkəmizdə milli dövlətçilik Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində sabitləşib dayanıqlı və davamlı inkişaf yolu ilə irəlilədikcə insanlar milli özünəqayıdışın zəruriliyinə daha çox inam bəsləməyə başladılar. Çünki qloballaşmanın milli simasızlaşmaya, mənəvi aşınmaya, əxlaqi nihilizmə yol açdığı da göz önünə alınmalı və bu proses kor-koranə mütərəqqi hadisə, ya "zamanın tələbi" kimi qəbul edilməməlidir. Ona görə də Ulu Öndər mənəvi mühitin və prosesin idarə edilməsini, ona lazımi istiqamət verilməsini milli dövlətin hər bir vətəndaşının özünüdərkinə və milli-mənəvi özünəqayıdışına yönəlmiş bir dövlət siyasəti kimi görürdü.

Müstəqil Azərbaycanın rəhbərliyinə gələndə Heydər Əliyevin fəaliyyət sahəsi məzmunca və formaca daha genişləndi və illər boyu yetişdirdiyi milli ideyaları müstəqil dövlətçilik quruculuğu və idarəçiliklə üzvi əlaqələndirmə və şərtləndirmə imkanı yarandı. Əlbəttə, milli özünəqayıdışda həlledici rolu milli ideyanın formalaşdırılması və bunun əsasında ardıcıl işlərin aparılması oynayır.

1993-cü ilin ortalarından dövlət quruculuğunda milli ideyanın böyük əhəmiyyət daşıdığını yaxşı bilən Heydər Əliyev bu ideyanın milli ideologiyaya, müstəqil dövlətçiliyin etibarlı və möhkəm mənəvi bünövrəsinə və hərəkətverici qüvvəsinə çevrilməsi üçün məqsədyönlü siyasi-iqtisadi, sosial-mədəni siyasi strategiya formalaşdırdı. Eyni zamanda, Ulu Öndər elə ilk günlərdən milli ideya zəminində özünəqayıdışı keçmişə qayıdış kimi deyil, əksinə, xalqımızın tarixi, ənənəvi dəyərlərinin günümüzə daşınması, hazırki dövrün və çağdaş dünyanın ümumbəşəri dəyərlərinə söykənməsi, qapalı, özünə məftun və təcrid olunmanı aradan qaldıraraq dünyaya açılması kimi görürdü. Çünki milli ideya yalnız müasir dünya ictimaiyyətinin, beynəlxalq aləmin qəbul etdiyi şəkildə, demokratik dəyərlərə və hüquqi prinsiplərə önəm verildiyi halda qəbul edilə və hamı

tərəfindən dəstəklənən, xalqı öz ardınca apara bilən bir milli ideologiyaya çevrilə bilər.

Sözsüz ki, müstəqillik mahiyyəti etibarilə heç bir xalq üçün asan başa gələn bir məsələ olmamışdır. O cümlədən müstəqillik uğrunda mübarizə xalqımız üçün də böyük itki və faciələrə, siyasi və mənəvi sahədə bir çox problemlərin ortaya çıxmasına səbəb olmuşdur. Belə ki, ölkəmizin müəyyən əraziləri işğala məruz qalmış, çox sayda qaçqın və məcburi köçkün ağır həyat şərtləri ilə üzləşmişdir. Digər tərəfdən həmin dövrlərdə ölkədə separatçılıq meyilləri sürətlə yayılmağa başlamış, hakimiyyət böhranı demək olar ki, vətəndaş qarşıdurmasına gətirib çıxarmışdı. Belə bir vəziyyət Azərbaycanın öz müstəqilliyini yenidən itirməsi ilə nəticələnə bilərdi. Bütün bu çətinliklərə baxmayaraq, Heydər Əliyev qısa müddətdə xalqımızın milli özünüdərk və özünəqayıdışı yolunda ilk uğurların əldə edilməsinə nail oldu. Milli ideyanın bütün Azərbaycan xalqının milli, dövlət ideologiyası olan azərbaycançılığa keçməsini təmin etdi. Heydər Əliyevin apardığı daxili və xarici siyasət, həyata keçirdiyi ictimai-siyasi-mədəni tədbirlər milli özünüdərkdə milli dövlətin siyasətinin həlledici rola malik olduğunu sübut etdi. Burada da Ulu Öndərin illər boyu hazırladığı və artıq xalqımızın məfkurəvi birliyinin rəmzinə və məhək daşına çevirilmiş Azərbaycançılıq məfkurəsi, xalqımızın milli birliyi və vətəndaş həmrəyliyinin sarsılmazlığı qalib gəldi. Heydər Əliyevin o çətin anlarda Azərbaycan xalqına müraciətləri, çağırışları milli özünüdərk və özünəqayıdış prosesini gücləndirdi, milli-mənəvi dəyərlərə söykənən dövlətçiliyimizin “əbədiliyinə və dönməzliyinə” inamı qüvvətləndirdi. Nəticə etibarilə, Heydər Əliyevin siyasi əzmi və qətiyyəti sayəsində ölkədəki separatçılıq meyilləri aradan qaldırıldı və sosial-siyasi sabitlik bərqərar edildi. Məqsədyönlü iqtisadi islahatların həyata keçirilməsi ilə ölkə iqtisadiyyatı canlanmağa başladı. Bu mənada Heydər Əliyev tərəfindən atılan mühüm addımlardan biri inkişaf etmiş dövlətlərlə neft müqaviləsinin imzalanması və

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması şərtilə Ermənistanla müharibədə atəşkəs elan edilməsi idi.

Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində Azərbaycan xalqının milli-mənəvi birliyi, müstəqil dövlətçilik təfəkkürü, Azərbaycan təəssübkeşliyi əbədi olaraq bərqərar oldu. Xalqın birliyinin və milli kimliyinin qorunmasının vacibliyini dəfələrlə dilə gətirən Heydər Əliyev bunun müasir dövrün tələbləri istiqamətindəki məqsəd və vəzifələrlə yanaşı, dəyərlərin də diqqət mərkəzinə alınmasıyla mümkün olacağını düşünürdü. Heydər Əliyevin siyasət fəlsəfəsinə görə, mənəviyyat qanun və məhdudiyyətlərlə deyil, milli-mənəvi dəyərlərə sahib çıxmaqla, dəyər və prinsiplərin fərdi və ictimai şüurda dərin kök salmasıyla əlaqəli bir məsələdir (13, s. 118). Buna görə də Heydər Əliyevin daxili siyasətinin əsasını təşkil edən ən mühüm məsələlərdən biri Azərbaycanın milli-mənəvi dəyərlərinə yiyələnməklə, gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi idi. Bu mənada onun nitqlərinin birindən əxz etdiyimiz bu fikirlər diqqə-təlayiqdir: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclə-rimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz” (14, s. 295-296).

Nəticə olaraq qeyd etmək olar ki, Heydər Əliyevin Azərbaycanda milli özünəqayıdış və onun təşəkkülü istiqamə-tindəki rolu, bu istiqamətdəki siyasi strategiyasının nəzəri və praktik nəticələri əsas etibarilə iki istiqamətdə özünü büruzə verir. Bu istiqamətlərdən birincisi, “milli özünüdərk və dövlətçilik”, digəri isə “milli-mənəvi dəyərlər” məsələsidir. Ümummilli Liderin dövlətçilik fəlsəfəsinin əsasını “Azərbay-cançılıq” ideologiyası təşkil edir. Onun milli-mənəvi dəyərlər istiqamətindəki strategiyası isə özlüyündə dil, mədəniyyət, tarix şüuru, din və mənəviyyatı ehtiva edir. Sonda onu da qeyd etməliyik ki, yuxarıda qeyd edilən iki istiqamət ayrı-ayrılıqda

klassifikasiya olunsa da, Heydər Əliyevin milli özünəqayıdış siyasəti daxilində bir vəhdət təşkil edir. Tarixi təcrübə Heydər Əliyev siyasətinin və bu siyasətin fəlsəfəsinin real nəticələrini ortaya qoymaqla, onun əbədiyaşarlılığına bir daha zəmanət verir.

## Ədəbiyyat

1. Mədətli, Eynulla- Qafarov, Anar.Heydər Əliyev: Dövlətçilik, milli özünüdərk, mənəvi dəyərlər. Bakı, “Ocaq Nəşriyyat Poliqrafiya”MMC, 2023

2. Г.В.Ф. Гегель, Философия истории, С-пб, «Наука», 2000

3. Məmmədzadə, İlham - Həsənov, Sənan. Heydər Əliyev və İlham Əliyev:Güclü dövlət, qələbənin fəlsəfəsi, Büyük Qayıdış. Bakı, “Elm və Təhsil”, 2023

4. Rəbiyyət Aslanova, Müasir dövlət və dövlətşünaslıq elmi, Bakı: Azərnəşr, 2011

5. Eynulla Mədətli, Azərbaycançılığın zəfər yolu, Bakı: “Turxan” NPB, 2021

6. Qurbanov, Füzuli. Heydər Əliyev və yeni liderlik: fəlsəfi-eoomi təhlill. Bakı, “Elm və təhsil”, 2023

7. Mədətli, Eynulla. Heydər Əliyevin siyasi irsi:Azərbaycançılıq,və Azərbaycan-Türkiyə birliyinin fəlsəfəsi. Bakı, “Elm və təhsil”, 2023

8. Qayıdış (1990-1993), Bakı, Azərnəşr, 1996

9. Ramiz Mehdiyev, “Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan ümummilli lider Heydər Əliyevin qadir siyasətidir.”, Heydər Əliyev, Müstəqilliyimiz əbədidir, Elmi-biblioqrafik göstərici, cild: I, Bakı: “Şərq-Qərb”, 2013

10. Heydər Əliyev, Müstəqilliyimiz, 5-ci cild, Bakı: "Azərnəşr”, 1998

11. Yaqub Mahmudlu, Seçilmiş əsərləri, XIV cild. Bakı: “Turxan” nəşriyyatı, 2018

12. Səlahəddin Xəlilov, Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi, Elmi Redaktor və ön sözün müəllifi prof. Ramiz Mehdiyev, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002

13. Ziba Ağayeva, Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik, Bakı: Elm nəşriyyatı, 2014

14. Azərbaycan Respublikası, 1991-2001, Bakı: Yeni nəşrlər evi, 2001

# THE CONCEPT OF IDENTITY IN THE MODERN WORLD

**Dr.Neil Watson**
Political commentator, **United Kingdom**

The Concept of Identity in the Modern World by Neil Watson MA, FRSA The question of what constitutes 'identity' in the contemporary scenario is extremely timely, as the definition is not absolute and constantly changing. Firstly, it must be borne in mind that human beings are inherently social beings and need support networks, and a concept of 'identity' and thus, belonging, is a necessity. However, the concept of identity is in a state of flux, partly due to the migration crisis. Mass migration has reached epidemic proportions, mostly due to the conflicts in Ukraine, Syria and the Middle-East Arab-Israeli situation, but also for economic reasons. In many instances, it is possible to see a birth identity being replaced by that of the host country as migrants seek to integrate for practical and ideological reasons. Often the vestiges of the original identity remain for migrants and first generations, but are often subsequently lost, such as the British Asian or African-American identities, where most links to the original countries or regions have been replaced, due to assimilation of identity based on that of the host country. Identity can be religious, ethnic or nationalistic, and can be used and abused as a justification for war, such as the Russo-Ukrainian conflict, or the Israel-Hezbollah war, but also to excuse human rights abuses, such as in Iran. It is also possible to have a hierarchy of identity and coexistence of identity, such as in the USSR where the 15 Soviet republics and all ethnic groups were permitted to retain their identities, this even being used for propagandistic purposes by Moscow to prove the ideological superiority of the Soviet Union. However, the overarching identity was Russophone and Russocentric Soviet and a Soviet

identity was promulgated and assimilated across the USSR as the pinnacle of the identity hierarchy. In the contemporary world, globalisation – led by the USA – is a more subtle reamplification of a hierarchy of identity, via films, television, social media and AI. The latter two are often falsely considered by users to be related to their own personal spaces, leaving them open to international manipulation on a macrocosmic level, and often in opposition to local culture and identification sensibilities.

**Glocalisation** is an extension of this, where overarching powers misleadingly utilise falsified local identities to manipulate users. In the internet age, it is also possible to assert a new web-based identity that has no relationship to birth identity, again subtly reaffirming nationalist or hierarchical views of identity. Furthermore, it is possible for several layers of identity to coexist and inextricably intersect, such the new understanding of Turan, or Turkic, national identity combined with a national and/or religious identity. The elements and causal factors shaping an identity in the modern world need complete reassessment, due to the implications of migration, the current and evolving world order and the expanding digital universe.

## MÜASIR DÜNYADA KİMLİK ANLAYIŞI

**Neil Vatson**
MA, FRSA Siyası şərhçi,**Böyük Britaniya**

Müasir dünyada “kimlik” anlayışının nəyi əhatə etdiyi sualı olduqca aktualdır, çünki bu anlayış sabit deyil və daim dəyişir. İlk növbədə nəzərə almaq lazımdır ki, insanlar təbiətən sosial varlıqlardır və dəstək şəbəkələrinə ehtiyac duyurlar. Buna görə də “kimlik” və aidiyyət anlayışı insanların ehtiyac duyduğu əsas məfhumlardan biridir.

Lakin kimlik anlayışı bu gün dəyişikliyə məruz qalır və buna qismən miqrasiya böhranı təsir edir. Kütləvi miqrasiya epidemik səviyyəyə çatmışdır. Əsasən Ukrayna, Suriya, Yaxın

Şərqdəki ərəb-İsrail münaqişəsi kimi müharibələr səbəbindən, eyni zamanda iqtisadi səbəblərlə də insanlar kütləvi şəkildə bir yerdə başqa yerə köçürlər. Bir çox hallarda kimlik, miqrantların praktiki və ideoloji səbəblərdən inteqrasiya olmaq üçün ev sahibi ölkənin kimliyi ilə əvəz olunur. Miqrantlarda və onların birinci nəsil övladlarında doğma kimliyin izləri qalsa da, bu kimlik sonrakı nəsillərdə itir. Məsələn, Britaniya asiyalıları və ya afrikalı amerikalılar arasında, kökən ölkələri ilə əlaqələr assimilyasiya nəticəsində ev sahibi ölkənin kimliyi ilə əvəz edilmişdir.

Kimlik dini, etnik və ya millətçi ola bilər və müharibələr üçün əsaslandırma və ya bəhanə kimi istifadə edilə bilər. Məsələn, Rusiya-Ukrayna münaqişəsi və ya İsrail-Hizbullah müharibəsi bu cür kimlik toqquşmalarıdır. Eyni zamanda, İran kimi ölkələrdə insan haqlarının pozulmasını əsaslandırmaq üçün də kimlikdən istifadə edilə bilər. SSRİ dövründə isə kimliklərin iyerarxiyası mövcud idi: 15 sovet respublikası və müxtəlif etnik qrupların öz kimliklərini saxlamağa icazə verilirdi. Moskva isə bunu Sovet İttifaqının ideoloji üstünlüyünü sübut etmək üçün təbliğat vasitəsi kimi istifadə edirdi. Bununla belə, ümumi kimlik rusdilli və russosentrik Sovet kimliyi idi və bu kimlik SSRİ boyunca kimlik iyerarxiyasının zirvəsi olaraq qəbul edilirdi.

Müasir dünyada qloballaşma, əsasən ABŞ-ın rəhbərliyi ilə, kimlik iyerarxiyasının daha incə bir şəkildə yenidən gücləndirilməsidir. Bu proses filmlər, televiziya, sosial media və süni intellekt vasitəsilə həyata keçirilir. Xüsusən də sosial media və süni intellekt istifadəçilər tərəfindən şəxsi məkanları kimi qəbul edilsə də, əslində beynəlxalq səviyyədə manipulyasiyaya açıqdır və çox vaxt yerli mədəniyyət və kimlik duyğularına zidd olur.

**Glocalisation** (qlokallaşma) isə bunun bir qoludur, burada qlobal güclər saxta yerli kimliklərdən istifadə edərək istifadəçiləri manipulyasiya edirlər. İnternet dövründə doğum kimliyi ilə heç bir əlaqəsi olmayan, tamamilə yeni veb əsaslı kimlik də

yaratmaq mümkündür ki, bu da millətçi və ya iyerarxik kimlik anlayışlarını yenidən təsdiqləyir.

Bundan əlavə, bir neçə kimlik təbəqəsi eyni anda mövcud ola bilər və bir-biri ilə ayrılmaz şəkildə kəsişə bilər. Məsələn, yeni Turan və ya türkdilli milli kimlik anlayışı, milli və ya dini kimliklə birlikdə mövcuddur.

Müasir dünyada kimliyi formalaşdıran elementlər və səbəblər yenidən nəzərdən keçirilməlidir. Çünki miqrasiya, cari və inkişaf edən dünya nizamı, eləcə də genişlənən rəqəmsal kainatın təsirləri kimlik anlayışına ciddi şəkildə təsir edir.

# AZƏRBAYCAN DÖVLƏTÇİLİK STRATEGİYASINDA UNİVERSAL DƏYƏRLƏR VƏ MİLLİ MARAQLARIN SİYASİ-HÜQUQİ PARADİQMALARI

**Rəna Mirzəzadə**
fəlsəfə elmləri doktoru, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

*"Müasir Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub"*
***Prezident İlham Əliyev***

Hər xalqın mövcudluğunun siyasi inkişaf tarixi, onun milli-mənəvi və milli maraq dəyərlərində vacib yer tutur.Milli maraq dəyərlərini siyasət, tarixi inkişaf mərhələsində geosiyasi məkan, coğrafi iqlim, azadlıq, müstəqillik, təbii sərvət və ehtiyatları və s. formalaşdırır. Siyasi hadisələrdə "milli maraq" anlayışı bütün proseslərdə təsiredici qüvvə olur. **Andre Moruanın belə** bir fikri var: "Nə qədər ki Roma qəhrəmanlar şəhəri idi, çiçəklənirdi. Elə ki onu yaradan dəyərləri unutdu, məhv oldu" (10).

**Bəs Dəyər nədir...** Dəyərlər mədəniyyətdir, yaxud cəmiyyətin mədəni-mənəvi formalaşma elementidir. Dəyərlər **mənəvi qida və maddi vasitədir.** Dəyərlərin qorunması və müdafiəsi vacibdir, o, fərdlərin bir-birinə qarşılıqlı münasibətində mühüm rol oynayır. Bu nəzərdən **Salom Şvarts** 10 növ dəyər formasını göstərir: 1) Hakimiyyət; 2) Nailiyyət; 3) Müstəqillik; 4) Universializm; 5) Xeyirxahlıq; 6) Ənənə; 7) Komfortluq; 8) Təhlükəsizlik; 9) Ədalət; 10) Tolerantlıq. Bu baxımdan Salom Şvartsın təbirincə: **"Universal dəyərlər,** ümumiyyətlə davranışların müəyyənləşdirilməsini, hadisə və insanların qiymətləndirilməsini, hərəkətlərin izahını təmin edən

ictimai aktor, fərdlərin həyatında yol göstərici prinsipləri təmin edən motivasiya və məqsədlərdir" (5;70).

Dəyərlərin formalaşmasında mühüm amillər sırasına ailə, məktəb, cəmiyyət, ibadət yerləri, maddi-mənəvi irs, milli maraqlar, iş yeri, siyasi görüşlər, kütləvi informasiya vasitələri, hazırda isə sosial şəbəkələr də mühüm rol oynayır. Ulu öndər Heydər Əliyev qeyd edirdi ki: "Bizim milli mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıb... Milli mənəvi dəyərləri olmayan millət həqiqi xalq ola bilməz" (11).

Dəyərlər iki hissəyə bölünür: universal və milli dəyərlər. Ədalət, bərabər hüquqluluq, səmimilik, tolerantlıq, hörmətcillik, anlaşma, həmrəylik, məsuliyyət, etibarlılıq və s. universal dəyərlərdir. Milli dəyərlərə isə adət-ənənələr, dil, din, qəhrəmanlıq, şəhidlik, musiqi, incəsənət, teatr, milli mətbəx və s. aiddir. Ümumiləşdirəndə, dəyərlər sosiomədəni paradiqmadır. Bu baxımdan Prezident İlham Əliyevin vurğuladığı kimi: "Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir" (7).

Dünyəvilik, sekulyarlaşma ideya sısiyasətə gələndən sonra, milli maraqlar dəyərinin komponentləri də yeniləndi. Belə ki, artıq siyasətdə milli maraq dəyərləri dominant oldu və inanc, irq, cins və s. stereotiplərin daha çox vətəndaş milləti amili önə çıxdı. Vətəndaş milləti - İnsan eyni zamanda sosiomədəni kimliyi olan varlıqdır. Belə ki, Azərbaycan vətəndaşı olmaqla bahəm, müsəlman, xristian, yəhudi və s. hansısa bir dinə mənsubluğun ola bilər, olmasa belə, deməli, vətəndaşlıq kimliyi etnik mənsubiyyətdən öncədir.

Universal dəyərlərin təbliği, təşviqi, eləcə də tədqiqində nəsillərarası dəyərlərin qorunmasına həm fərd və cəmiyyət, həm də Dövlət siyasəti tərəfindən həyata keçirilən beş əsas komponentə nəzər salaq. Bu: **1)** Ardıcıllıq – yəni fərdin cəmiyyət, cəmiyyətin dövlət, dövlətin də fərd və cəmiyyətlə qarşılıqlı münasibətinin adaptasiyasıdır. **2)** Dözümlülük – yəni tolerantlıq, bu, fərdə və cəmiyyətə aid olub,eyni düşünməyən, eyni

geyinməyən və fərqli davranışlı xalqların birgə yaşam tərzi, qarşılıqlı anlaşmasının ehtivasıdır. **3)** Ədalət – hər kəsin dürüst davranması, bütün maddi resursların bərabər bölgüsüdür. 4) Səmimiyyət – bu isə dəyişməz mövqedir. Yəni, həm fərdlərarası davranışda, həm fərdlə, cəmiyyətlə dövlətarası münasibətdə düzgün, şəffaf dialoq olmasıdır. **5)** Etimad və ya inam, bu da dövlətin hər an, hər zaman istənilən təhdid, terror və s. kimi gözlənilən hadisələrin birgəyaşayış həyat tərzini pozacağını proqnozlaşdırması və buna hazır olmasıdır. Aristotelə görə: "Dövlətin baş məqsədi xeyrin və ədalətin qurulmasıdır. Əsl ədalət qanunların mövcudluğudur. Dövlətdə yaşayan insanlar mütləq şəkildə qanunlara tabe olmalıdırlar" (2).

Azərbaycanın multikultural və mədəni xəritəsinə nəzər saldıqda burada müxtəlif dinlərin (müsəlman, yəhudi, xristian və s.) olmasını insanların, yəni müxtəlif xalq və millətlərin (talış, kürd, ayrım, türk, avar, udin, ləzgi, tat, saxur və s.) birgəyaşayışını görürük ki, bu da "tolerantlığın Azərbaycan modelidir".

Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, "Öz dilini inkişaf etdirən müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini, dəyərlərini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun – vətənpərvərlik ruhunun inkişaf etməsinə xidmət göstərir" (13; 110) və "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın milli-mənəvi dəyərləri canlanıb, bərpa edilibdir" (13; 82).

Universal və milli dəyərlər faktorunda geoiqtisadi və geosiyasi amil də mühüm əhəmiyyətlidir. Belə ki, qədim İpək Yolunda ortaq nöqtədə, Şərqlə Qərb arasında körpü olan Azərbaycana ipək və cürbəcür məhsullar gətirən səyyah və tacirlər həm də müxtəlif dinlər, fərqli mədəniyyətlərə sahib insanlar olaraq qovuşmuşdular. Bu geoməkanda məskunlaşanlar öz fərqli mədəniyyətləri ilə yerlilərlə əlaqə quraraq, hətta qohumlaşmış, məskunlaşdığı bu torpağı Vətən qəbul edərək, onun müdafiəsinə belə, daim hazır olmuşlar və yaşadığı ərazini,

doğma torpağı qorumuşlar. Ulu öndər Heydər Əliyev mənəvi dəyərləri tək milli varlığın (kimliyin) yox, həm də siyasi varlığın – dövlət quruculuğu prosesinin mühüm xüsusiyyəti kimi dəyərləndirib və söyləyib ki: "Milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın aydın və perspektivli inkişaf yolu ola bilər" (11).

Pour amener les Italiens à demander la naturalisation, la France a fait appel à la loi du 20 décembre 1923 qui a renfermé deux séries de dispositions. La première série de ces dispositions reposait sur l'introduction des fondements de la naturalisation automatique, selon laquelle « …tout individu né dans la Régence de parents dont un y est lui-même né devient français, sauf pour lui de décliner cette qualité à sa majorité. Les enfants de celui qui a décliné la nationalité française n'ont plus, eux-mêmes, cette faculté, c'est-à-dire qu'à la troisième génération la naturalisation

---

[36]) Ibid.

[37]) Décret présidentiel du 29 juillet 1887 fixant les conditions exigées aux Européens pour obtenir la naturalisation : trois ans de séjour dans la Régence et être majeur de vingt -et-un an. Cette législation a été complétée en 1889, les mineurs étant admis à suivre la condition du père, sauf faculté pour eux de décliner leur nouvelle nationalité à la majorité et, mise au point par le décret du 3 octobre 1910. Enfin, une loi française du 5 aout 1914 sur la naturalisation des engagés militaires, facilite encore l'accès à la citoyenneté française (Les Italiens en Tunisie Publié le 18/05/2014, *article d'Henri* DE MONTETY, *paru dans les Politique étrangère, N°5 - 1937 - 2e année, pp. 409-425).*

[38]) DE MONTETY Henri : Les Italiens en Tunisie, dans : **les Politiques étrangères**, n°5 - 1937 - 2e année, pp. 409 - 425).

est obligatoire » ([39]). Quant à la deuxième série de dispositions de la loi du 20 décembre 1923, elle fixe les règles de la naturalisation facultative telles qu'avoir trois ans de séjour…. ([40]). Parallèlement à cette loi de 1923, la France a fait appel aux intérêts matériels des Italiens tels qu'acquérir des lots de colonisation, avoir des emplois, bénéficier des avantages sociaux et salariaux… ([41]).

Toutes ces mesures prises par la France en faveur des Italiens résidant en Tunisie, en leur accordant des privilèges matériels et sociaux afin de les inciter à accepter la naturalisation, ont provoqué la colère d'un grand nombre d'Italiens qui ont estimé qu'il s'agissait d'une violation des conventions de 1896 et portant atteinte à la citoyenneté italienne et par conséquent à leur identité.

- Refus des autorités du protectorat français en Tunisie de construire de

nouveaux établissements d'enseignement italiens dans la Régence tunisienne :

Le système scolaire a été pour la communauté italienne durant toute l'histoire de sa présence dans la Tunisie moderne et contemporaine le principal instrument de la transmission et la propagation de sa culture. Il était, toujours et à la fois, la fierté de cette communauté et la synthèse des divers éléments en son sein ([42]).

Pour empêcher la propagation de la culture italienne en Tunisie, les autorités du Protectorat français se sont opposées à la fondation de nouvelles institutions éducationnelles italiennes en Tunisie et même à l'extension de certaines de celles qui

---

[39]) Ibid., pp 409 – 425.

[40]) Ibid., p. 414.

[41]) Ibid., p. 415.

[42]) RUSSELL Janice Alberti : The Italian Community in Tunisia 1861 – 1961, p. 134.

étaient existantes ([43]). Devant cette situation critique, les Italiens en Tunisie ont opté pour la fondation des orphelinats et des sanatoriums ([44]).

- Soumission des programmes éducatifs des écoles italiennes fondées

dans la Régence de Tunis au contrôle français :

Parallèlement au refus de la construction de nouvelles écoles italiennes en Tunisie et de l'extension de certaines d'entre elles qui sont déjà existantes au cours de la fin du XIXème et la première moitié du XXème siècle, les autorités du Protectorat français ont établi un contrôle sur le système scolaire italien. Ainsi, chaque année avant le 1er octobre, les chefs des établissements privés de l'enseignement italien étaient tenus d'adresser à l'inspecteur français de la circonscription leur programme de cours, une liste de livres à utiliser, l'horaire proposé et les noms et adresses des professeurs enseignants. L'inspecteur qui était français, était libre dans sa décision. Il pouvait refusait son approbation à tout aspect du programme et à tout membre du personnel ([45]).

b) Démarche adoptée par les Italiens pour préserver leur identité en Tunisie au cours du XIXème et XXème siècles.

Afin de préserver l'identité les Italiens de Tunisie aux XIXème et XXème siècles, plusieurs initiatives ont été prises à leur profit par les autorités de Rome. Parmi ces initiatives, nous pouvons citer notamment :

- L'encadrement administratif des Italiens de Tunisie :

Pour concrétiser ce projet, une représentation consulaire a été établie dans chacune des villes suivantes ; Tunis, La

---

[43]) Ibid., p. 137.

[44]) Ibid., p. 138.

[45]) Ibid., pp. 141 – 142.

Goulette, Monastir, Sfax, Sousse, Bizerte, Mahdia et Tabarka ([46]).

- Concurrence entre les systèmes éducatifs français et italien :

A cet effet, l'Italie a fait recours à la réduction des frais de scolarité à la moitié. Elle a demandé de l'argent pour rénover les écoles. Elle a créé des écoles à La Goulette et à Sousse en 1881. Elle a introduit l'enseignement de la religion catholique dans toutes les écoles italiennes en Tunisie. Toutes ces initiatives s'inscrivent dans le cadre de l'affirmation de la primauté aux écoles italiennes dans le littoral tunisien ([47]).

- Création des écoles privées telles que l'Ecole Morpurgo en 1840 ([48]) et

l'Institut Enriquez qui a assuré des services éducatifs de l'année 1851 à l'année 1866 ([49]).

- Création des écoles financées en grande partie par le gouvernement

italien telles que l'école de garçons à Tunis (Principe di Napoli) ([50]) , l'école de filles à Tunis ([51]), l' Institut des Garçons

---

46) 46) Ministero degli Affari esteri : L'Italia i Africa, Serie storica, volume primo, tomo II, Documenti (1859 – 1882), A cura di carlo Giglio, Istituto, Poligrafico dello Stato, Roma MCMLIX, pp. 271 – 272.

47) RUSSELL Janice Alberti : The Italian Community in Tunisia 1861 – 1961, p p 82 – 83.

48) MACHEL Lelong : L'enseignement public en Tunisie, Tunis, 1883 – 1906, Tunis, Société anonyme de l'imprimerie rapide, 1906, p. 136.

49) ANOULET François : La pénétration intellectuelle en Tunisie avant le Protectorat, Revue Africaine, n° 438 – 439, 1954, p. 173.

50) MATRI Faiza : Italianité et institutions scolaires italiennes à Tunis au cours du Protectorat cas de casa dei bambini Fortunata Morana, dans : www. Academia.ed, p122.

51) Rappelons ici que François Arnoulet estime que l'Institut des Garçons et l'Institut des Filles ont été créés en 1855, à l'initiative du Consul de la communauté italienne en Tunisie. Voir à ce propos : ANOULET François : La pénétration intellectuelle en Tunisie avant le Protectorat, Revue Africaine, n° 438 – 439, 1954, p. 173.

de La Goulette en 1873 ([52]), l'Institut des filles à La Goulette : Il a été créé en 1881 ([53]) et l'Ecole italienne des Arts et Métiers ([54]).

- Création du Lycée Gymnasial « Vittorio Emmanuel II » ([55]), l'Ecole

Royale Technique Commerciale « Umberto I » en 1887 ([56]), l'Ecole primaire de garçons « Prince de Naples » en 1888 ([57]), l'Ecole primaire de garçons John Meli en 1894 ([58]), l'Ecole primaire de garçons « Umberto I » en 1890 ([59]), l'Ecole de filles « Margherita » à Salvia ([60]), l'Ecole primaire féminine Turrisi Colonna en 1895 ([61]),

- Fondation des Ecoles du soir ([62]) telles que l'école Principe de Naples ([63]), l'école Umberto I ([64]).

- Fondation des jardins d'enfants tels que le Jardin d'enfants R.

---

[52]) Archives du Ministère des Affaires Etrangères de la France, Quai d'Orsay, Dossier n° 96, les écoles italiennes, Bobine n° P 2523, p. 121.

[53]) Ibid., p. 121.

[54]) KRAIEM Mustapha : La Tunisie précoloniale, tome : 2, Tunis, 1973, pp.186 - 187.

[55]) L'ex Liceo Ginnasiale « Vittorio Emmanuelle II » lycée italien de l'Avenue Bab Djedid / Rue de l'Hiver construit à la fin du XIX (l'ancien bâtiment). Le Liceo Ginnasiale « Vittorio Emmanuelle II » a intégré l'institut « Technico Commerciale Italiano » Fondé en 1870 à la Place Halfaouine et qui fut transféré en 1899 au sein du même bâtiment de Bab Djedid (voir à ce propos : www.facebook.com › LyceeSecondaireDeBabJedidTunis)

[56]) Comitato della Camera Italiana di Commercio ed Arti : Gli Italiani in Tunisia, Imprimerie Typolithographique, Frederic Weber, Tunis, p. 103.

[57]) Ibid., pp. 104 – 105.

[58]) Ibid., 106.

[59]) Ibid., pp. 107 – 108.

[60]) Ibid., p. 110.

[61]) Ibid., p. 110.

[62]) Ibid., p. 112.

[63]) Ibid., p. 112.

[64]) Ibid., p 112.

"Giuseppe Garibaldi" ([65]), le Jardin d'enfants « Francesco Crispi » ([66]) et la garderie « Fortunata Morana » ([67]).

- Mise en place de plusieurs institutions socioculturelles telles que la

Société italienne de gymnastique ([68]), une société sportive fondée à Tunis le

10 décembre 1893, les organisations juvéniles ([69]) qui sont analogues à celles qui prospérèrent en Italie à la même époque. Elles rassemblent et encadrent les jeunes de la colonie italienne en Tunisie, le Lycée de musique « Giuseppe Verdi » ([70]), l'union patriotique italienne de Sousse ([71]), Le cercle italien de Grombalia ([72]), Les cercles militaires italiens ([73]), la Maison d'Italie ([74]) et l'hôpital colonial italien " Garibaldi" de Tunis ([75]), la Chambre du Commerce, de l'Agriculture et des Arts ([76]),

---

65) Ibid., p.111.

66) Ibid., pp. 111 – 112.

67) MATRI Faiza : Italianité et institutions italiennes à Tunis au cours du Protectorat : cas de la casa dei bambini Fortunata Morana, pp. 123 – 124 (voir : www.academia.ed).

68) WIAN (Giovanni) : « Società ginnastiche », in : *Le instituzioni Italiani in Tunisia*, XV, pp. 38-39.

69) WIAN (Giovanni) : « Le organizzazioni giovanni in Tunisia », in : *Le instituzioni Italiani in Tunisia*, XVI, pp. 40-41.

70) WIAN (Giovanni) : « Il Liceo musicale 'Giuseppe Verdi' », in : *Le instituzioni Italiani in Tunisia*, XVIII, pp. 124 - 125.

71) WIAN (Giovanni) : « L'Unione Patriotica Di Susa », in : *Le instituzioni Italiani in Tunisia*, XIX, p. 126.

72) WIAN (Giovanni) : « Il circolo italiano di Grombalia », in : *Le istituzioni Italiane in Tunisia*, XXI.

73) WIAN (Giovanni) : « Circoli militari », in : *Le istituzioni Italiane in Tunisia*, XXIV.

74) WIAN (Giovanni) : « La Casa d'Italia », in : *Le istituzioni Italiane in Tunisia*, XXV

75) WIAN (Giovanni) : « L'ospedale coloniale italiano 'Garibaldi' di Tunisi », in : *Le istituzioni Italiane in Tunisia*, VII.

76) Nullo Pasotti : *Italiani e Italia in tunisia*, op.cit., p. 65 - 67.

- Publication de la presse italienne en Tunisie : 123 périodiques italiennes

ont été publiées en langue italienne en Tunisie ([77]).

Conclusion

En dépit de la rivalité entre la France et l'Italie, les ressortissants italiens ont pu bénéficier en Tunisie des services et prestations dispensés par les organismes et associations implantés en Tunisie.

Après 1956 c'est-à-dire sous la Monarchie (du 20 mars 1956 au 25 juillet 1957) et la République indépendante, les membres de la colonie italienne se sont réduits à 45 000 Italiens. Le taux de chômage était de l'ordre de 15 %. Les lois étaient sévères. Elles favorisaient accorder l'embauche aux Tunisiens compétents. En 1969, il n'y avait que 10 000 Italiens environ en Tunisie. Certaines références nous devançaient le nombre de moins de 10000 Italiens en 1969. En 2003, ils ne sont plus qu'environ 3 000 dont à peine 900 Italiens descendent, directement, des immigrés du XIXème siècle, concentrés, principalement, dans la zone urbaine de Tunis.

## L'IDENTITE ENTRE LA PHILOSOPHIE ET L'HISTOIRE : L'EXEMPLE DE LA COMMUNAUTE ITALIENNE EN TUNISIE AUX XIXE ET XXE SIECLES

Prof. Dr. Laroussi Mizouri

Résumé

Le choix de ce sujet n'est pas fortuit. Il relève de certains facteurs dont deux nous semblent fondamentaux. Le premier facteur procède du fait que l'identité représente un sujet d'actualité et il est renouvelé tant en Italie qu'en Tunisie. En effet, de nombreux Italiens ont immigré en Tunisie au cours du XIXème et XXème siècles, s'y sont installés et ont fait de leur

---

[77]) BRONDINO Michele : La presse italienne en Tunisie, histoire et société, (1838 – 1956), Publi sud, 2005, p. 227 – 256.

mieux pour préserver leur identité. Cette problématique a pris le sens inverse depuis les années soixante-dix du XXème siècle jusqu'à nos jours. En effet, nous assistons surtout aujourd'hui à une forte immigration des Tunisiens vers l'Italie et ils cherchent, également, à préserver leur identité. Quant au deuxième facteur du choix de ce sujet, il est d'ordre scientifique. En effet, ce sujet peut s'inscrire dans le champ des thèmes de ce colloque international.

Notre méthodologie scientifique nous a orienté vers le plan suivant : d'abord, nous essayerons d'identifier la notion d'« identité» ; ensuite, nous parlerons de la « présence de la communauté italienne en Tunisie aux XIXème et XXème siècles » et enfin, nous tenterons de mettre en évidence l'attachement de la communauté italienne à l'italianité d'où la problématique de l'identité italienne en Tunisie aux XIXème et XXème siècles et la démarche adoptée par les Italiens pour préserver leur identité en Tunisie au cours du XIXème et XXème siècles.

## THE IDENTITY OF PHILOSOPHY AND HISTORY: ON THE EXAMPLE OF THE ITALIAN COMMUNITY IN TUNISIA IN THE XIX AND XX CENTURIES

Prof. Dr. Laroussi Mizouri

Abstract

My intervention is about "Identity between philosophy and history: the example of the Italian community in Tunisia in the 19th and 20th centuries". The choice of this subject is not fortuitous. It is due to certain factors, two of which seem fundamental to us. The first factor comes from the fact that identity represents a topical issue and it is renewed both in Italy and in Tunisia. Indeed, many Italians immigrated to Tunisia during the 19th and 20th centuries, settled there and did their best to preserve their identity. This problem has taken the opposite direction since the 1970s of the 20th century until today. Indeed,

we are witnessing especially today a strong immigration of Tunisians to Italy and they are also seeking to preserve their identity. As for the second factor in the choice of this subject, it is of a scientific nature. Indeed, this subject can be included in the field of themes of this international conference. Our scientific methodology has guided us towards the following plan: first, we will try to identify the notion of "identity"; then, we will talk about the "presence of the Italian community in Tunisia in the 19th and 20th centuries" and finally, we will try to highlight the attachment of the Italian community to Italianness, hence the problem of Italian identity in Tunisia in the 19th and 20th centuries and the approach adopted by the Italians to preserve their identity in Tunisia during the 19th and 20th centuries.

## FƏLSƏFƏ VƏ TARİXİN KİMLİYİ: XIX VƏ XX ƏSRLƏRDƏ TUNİSDƏKİ İTALYAN İCMASININ TİMSALINDA

Prof. Dr. Laroussi Mizouri

Xülasə

Bu mövzunun seçilməsi təsadüfi deyil. Bu, müəyyən amillərlə əlaqədardır, bunlardan ikisi bizə əsas görünür. Birinci amil şəxsiyyətin aktual bir problem olması və həm İtaliyada, həm də Tunisdə aktuallaşması ilə əlaqədardır. Həqiqətən də, bir çox italyanlar XIX-XX əsrlərdə Tunisə köçdülər, orada məskunlaşdılar və şəxsiyyətlərini qorumaq üçün əllərindən gələni etdilər. 1970-ci illərdən 20-ci əsrə qədər bu problem əks istiqamətdə inkişaf etmişdir. Həqiqətən, bu gün tunislilərin İtaliyaya intensiv köçünün şahidi oluruq və onlar da öz şəxsiyyətlərini qorumağa çalışırlar. Bu mövzunun seçilməsinə təsir edən ikinci amilə gəlincə, bu, elmi xarakter daşıyır. Həqiqətən, mövzu bu beynəlxalq konfransın mövzu dairəsinə daxil edilə bilər. Elmi metodologiyamız bizi aşağıdakı qənaətə gətirdi: əvvəlcə "şəxsiyyət"anlayışını təyin etməyə çalışmalıyıq, XIX-XX əsrlərdə Tunisdə bir İtalyan icmasının olması haqqında

danışmalı və nəhayət, İtalyan icmasının italyanlığa bağlılığını vurğulamalı, bu səbəbdən XIX-XX əsrlərdə Tunisdə kimliyi qorumaq məsələsini vurğulamalıyıq.

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İDENTİKLİYİ HAQQINDA

**Dilarə Müslümzadə**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Qələbədən sonra ictimaiyyətin diqqətini milli ideya və onun aspektləri məsələlərinə cəlb etdi. Milli ideya, sadəcə, bir ideologiya və ya siyasətin hansısa bir sahəsi kimi başa düşülməməlidir, o həm də mədəni hadisə kimi şərh edilməlidir. Yəni, ideologiya və onun dərk edilməsi milli kimlik kimi çoxölçülü bir anlayışla sıx bağlı olmalı və onun əhəmiyyəti dil, əxlaq və dəyərlər kimi məfhumları əhatə edəcək qədər genişmiqyaslı olmalıdır.

"İdentiklik" bir termin olaraq, sosial-fəlsəfi, psixoloji, hüquqi və sosio-mədəni mənalara malikdir. İdentikliyi, bir psixoloji fenomen kimi, ilk olaraq Ziqmund Freyd öyrənməyə başladı və bu, onun üçün fərdin başqa insanla, qrupla, obrazla, idealla emosional identikliyin getdiyi bir proses və nəticə demək idi. Sonralar bu termin daha geniş məna kəsb etməyə başladı.

Erikson identikliyə insanın həyatı boyu həm dəyişən, həm də dəyişməz olan vahid, bölünməz bir bütöv kimi baxırdı. Erikson qəbul edirdi ki, insan həyatı ərzində, yaş dövrlərindən asılı olaraq, bir neçə şəxsiyyət böhranı yaşayır. Bununla belə, identiklik də subyektlik kimi qorunub saxlanılır. Erikson faktiki olaraq identiklik haqqında deyil, onun mövcudluğunun gerçəkliyi, həqiqiliyi barədə yazırdı.

Erikson "İdentiklik, yeniyetməlik və krizis" əsərində şəxsiyyətin təşəkkülü mərhələlərinə varolmanın gerçəkliyinə çatmaq yolları və bunu qoruyub saxlamaq sənəti kimi baxırdı.

Milli identiklik və millət – bunlar çox mürəkkəb konstruksiyalardır və hər ikisi də qarşılıqlı təsirdə olan çoxsaylı, yəni

etnik, mədəni, ərazi, iqtisadi və siyasi-hüquqi komponentlərdən ibarətdir. Bunlar ümumi yaddaşa, ənənələrə bağlı icmaların üzvləri arasında həmrəyliyi ifadə edir və bu əlaqələr milli dövlətlər şəklində təcəssüm edə bilər, hərçənd onlar (əlaqələr) heç bir şəkildə dövlətin sırf hüquqi və bürokratik bağlarına bənzəmir. Əgər bunu konseptual olaraq nəzərdən keçirsək, onda millət ikiölçülü silsilə ilə birləşməlidir: bir tətəfdən – mülki və ərazi cəhətdən, digər tərəfdən – etnik və geneoloji cəhətdən. Və hər bir halda da – müxtəlif nisbətlərdə.

Məhz çoxölçülü olması sayəsində milli kimlik müasir həyatda və siyasətdə belə çevik, dönməz qüvvəyə çevrilir və öz xarakterini itirmədən digər güclü ideologiya hərəkatlarla effektiv şəkildə birləşdirilə bilir. Cəmiyyət etnik, mədəni və regional səciyyəviliyini saxlamaqla, milli maraqlarını və s. müəyyən etməklə, vahid bir icma kimi özünüdərk və vahid kimliyin təsdiqi prosesində millətin xüsusiyyətlərini qazanır.

Regional müxtəliflik (heterogenlik) dövlət üçün unikallıq səciyyəsi daşısa da, bu bəzən cəmiyyətin konsolidə prosesini ləngidən amil də ola bilər. Gələcəkdə vətəndaş cəmiyyətinin inkişafı və ictimai-siyasi həyatın demokratikləşməsi əsaslı şəkildə sosial yenidənqurma istiqamətini inkişaf etmiş demokratiyalarda mövcud olan tendensiyalara uyğunlaşdırmaq bacarığından asılı olacaqdır. Başqa sözlə, cəmiyyətin demokratikləşməsi yalnız iqtisadi artımın təmin edilməsini tələb etmir, həm də ümumi vətəndaşlıq prinsiplərinə əsaslanan demokratik mədəniyyətin bərqərar olmasına və inkişafına yönəlmiş tədbirlərlə dəstəklənməlidir.

Vətəndaşların vahid milli identikliyinin bərqərar olması problemi cəmiyyət üçün, xüsusən də onun tamhüquqlu millət kimi, sonrakı formalaşması üçün həlledici amildir.

Milli kimlik fərdlər üçün icmalarda həm də daxili funksiyaları yerinə yetirir. Bu halda icma üzvlərinin "vahid millət" və vətəndaş kimi birliyi çox aydın nəzərə çarpır. Hazırda buna dövlətin xalqa, vətənə sədaqət və özünəməxsus vahid bir

mədəniyyət aşılamağa ümid etdiyi məcburi və standart dövlət ümumtəhsil sistemləri vasitəsilə nail olunur.

Mədəni audentlik və birliyin milli ideallarının təsiri altında olan əksər hökumətlər məhz bu fəaliyyətə xüsusi diqqət yetirirlər. Həmçinin hər bir milləti ümumi dəyərlər, simvol və ənənələr toplusu yaradaraq, fərdlər və siniflər (təbəqələr) arasında sosial bağları inkişaf etdirməyə çağırırlar.

Y. Xabermas qeyd edirdi ki, "yalnız dil və tarixin, mənsubiyyətin ümumiliyi hisslərinin kristallaşdığı milli şüur, yalnız eyni bir xalqa mənsubluğun dərki hər hansı bir fərdi özünü vahid bir bütövün hissəsi, üzvü kimi hiss etməyə, bir-biri üçün məsuliyyət daşıyan vətəndaş olmağa vadar edir" (2, 208).

Şərti olaraq, millətin və milli kimliyin tədqiqi məsələlərində 2 yanaşma mövcuddur: primordialist (ilkçi) və konstruktiv. Primordializm tərəfdarları milli identikliyi qrup üzvləri tərəfindən paylaşılan və ümumi yaşayış ərazisini, dili, dini və s. özündə birləşdirən obyektiv xüsusiyyətlər toplusu əsasında tarixən formalaşmış mədəni və dövlət birliyi kimi şərh edirlər. Bu metodologiya çərçivəsində milli identiklik qədim zamanlardan bəri mövcud olan dəyişməz kimlik kimi başa düşülür. Burada etnos və millət arasında fərq vurğulanmır.

Konstruktiv yanaşmada isə millət, milli kimlik, siyasi-mədəni, hüquqi fenomen kimi götürülür. Bu yanaşmada əsas diqqət identiklik, o cümlədən milli identiklik anlayışına verilir. Konstruktivizmə görə, millət "real" tarixi və ya mədəniyyəti olmayan sosial quruluşa malik paradiqmadır. Milləti konseptuallaşdırmaq anlayışının nümayəndələri bu yanaşmada onu üzvlərinin fundamental razılığına əsaslanan "böyük bir kollektiv" kimi gürürlər.

Ernst Gelner milləti sənaye mədəniyyətinin məhsulu kimi görür, dünyanın milli mənzərəsinə isə cəmiyyətin "aşağı" mədəniyyətdən "yüksək" sənaye mədəniyyətinə keçidin, həmçinin savadlılığın və cəmiyyətin əksər nümayəndələrinin vətəndaş şüurunun yüksək səviyyəsinin nəticəsi kimi baxır.

Benedikt Anderson "milliyyət" məfhumuna ayrıca götürülmüş bir cəmiyyətdə tərbiyənin nəticəsi kimi baxır; belə ki, belə cəmiyyətdə insana mənsub olduğu xalqın bütün nümayəndələrinin ümumi mənşəyə və sıx qan, mədəni-tarixi bağlara malik olduğu haqda miflər aşılanır. Əslində, belə miflərin heç bir əsası yoxdur; millət "xəyali cəmiyyət", "ideoloji quruluş" olaraq qalır. Hər 2 yanaşmada vətəndaş cəmiyyəti ideyasında istifadə oluna bilər. Di gəl ki, birinci primordial yanaşma kiçik etnik qruplar arasında narazılıq yaradır ki, bu da həmin cəmiyyətdə kiçik etnosların dili, dini və ənənələrinə bağlı narazılıq faktlarına əsaslanan münaqişələrə və separatizmə gətirib çıxara bilər. Belə olan halda dövlət hər zaman vətəndaş cəmiyyətinin ziddiyyətlərini həll etməli olacaq. Belə vətəndaş cəmiyyətində fərdlərin əxlaqı həmişə böyük və kiçik etnik qruplara mənsubiyyət prinsipinə görə bölünəcək, həmçinin bu halda cəmiyyətin birliyi, homogenliyi kiçik etnik qrupların cəmiyyətə mənubluğu necə və nə dərəcədə hiss etmələri və bu mənsubluğu nə dərəcədə qəbul etmələri ilə bağlı problemlər yaşayacaq.

Ümumiyyətlə, vətəndaş cəmiyyəti ideyası etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabərhüquqlu vətəndaş olduğunu nəzərdə tutur. Onların etnik mənsubiyyətinin milli identikliklə yalnız dolayı əlaqəsi var.

Hər kəsi bərabərhüquqlu vətəndaş kimi tanıyan milli vətəndaş cəmiyyəti millət və milli vətəndaş cəmiyyəti ideyasını qəbul etməyən qrupları birləşdirməkdə problemlər yaşayır. Lakin vətəndaş cəmiyyətinin problemləri ilə məşğul olan alimlərin fikrincə, onun səmərəli fəaliyyəti milli-aksioloji əsas olmadan mümkün deyil. Milli özünüdərk nəinki vacib, hətta konkret ölkədə milli vətəndaş cəmiyyətinin formalaşması və inkişafı üçün zəruri şərtdir.

Milli özünüdərk kifayət qədər mürəkkəb struktura malikdir və ilk növbədə fərdin konkret vətəndaş cəmiyyətinə mənsubluğunu dərk etməsinə əsaslanır. Millət yalnız dövlət

çərçıvəsində struktur reallaşmanın dolğunluğuna çatır. Ona görə də milli özünüdərk dövlət qarşısında məsuliyyət hissi olmadan mümkün deyil və insanın öz vəzifələrini dərk etməsini nəzərdə tutur. Əgər hər hansı bir dövlətin vətəndaşı etnik mənsubiyyətindən və yaşadığı yerdən asılı olmayaraq millətin mənafeyini qorumağa hazır olduğunu nümayiş etdirirsə və onu həqiqətən qoruyursa, şübhəsiz ki, o, milli özünüdərkin çox mühüm komponentinə malikdir.

Milliyyət (vətəndaşlıq) – vətəndaş cəmiyyətinin mövcudluğu üçün zəruri tərkib hissədir və bəlkə də, ilkin şərtdir. Öz millətinin qayğısına qalmaq ümumi mənafeyə olan qayğını artırır və həmçinin ənənəyə sadiqliyi də nəzərdə tutur.

Ən ümumi formada milli kimlik konkret milli icmaya və onun mədəniyyətinə kollektiv mənsubluq hissi kimi başa düşülür. Amerikalı alim, Boston Universitetinin professoru Liya Qrinfildin sözlərinə görə, milli kimlik müasir anlamda "millətə" mənsubiyyətdən ibarət olan bir kimlikdir. Qrinfild milli kimliyin 5 əsas aspektinin adını çəkərək açıqlayır: 1-cisi, bu, insan inanclarıdır; belə ki, millət o vaxta qədər mövcuddur ki, onun üzvləri bir-birini həmvətəni kimi tanıyır və birgəyaşayışı davam etdirməyə çalışır; 2-cisi, ortaq tarixi keçmiş, ortaq məsuliyyətlər və birgə gələcək haqqında fikirlər; 3-cüsü, birgə ümumi fəaliyyət; 4-cüsü, eyni bir ölkədə daimi yaşayış; nəhayət, 5-cisi, "milli xarakter"anlayışı ilə bağlı olan və milli mədəniyyəti formalaşdıran ümumi xüsusiyyətlər (5, 34-36).

Beləliklə, milli-mədəni identiklik insanı müəyyən tarixi-mədəni birliyə mənsubluğuna inandıran və özünüinkişafa səbəb olan özünəməxsus birləşdirici elementə çevrilir. Bu gün milli ideyanın dirçəlişi həmişə olduğundan daha aktualdır, çünki yalnız onun əsasında vətəndaş cəmiyyətinin yaradılması üçün aksioloji baza yaratmaq olar. Avropa təcrübəsi göstərir ki, yalnız aydın milli kimlik əsasında vətəndaş fəaliyyətinin dayanıqlı, sabit əxlaqi prinsiplərini formalaşdırmaq mümkündür, əks halda

dövlət mexanizmi ictimai fikri, düşüncəni və ya ideyanı asanlıqla məhv etmək iqtidarındadır.

Burada zəruri olan əsas şey siyasətdə və mədəniyyətdə yeni, mənəvi-əxlaqi cəhətdən əsaslandırılmış konstruktiv sintezlərin formalaşmasıdır ki, bunun da əsasını milli unikal və sosial-ümumbəşəri (universal) xarakterli prinsiplərin qarşılıqlı əlaqəsi təşkil edir. Təcrübə göstərir ki, Qərb həyat tərzinin dəyərləri vətəndaş cəmiyyətinin elementlərinin formalaşmasına fəal şəkildə təsir edir, həmçinin vətəndaşı sosial fəaliyyətin fəal subyekti kimi müəyyən edən mənəvi keyfiyyətlərin əsasını təşkil edir.

Eyni zamanda sivilizasiyanın indiki inkişaf mərhələsində, qloballaşan dünyanın inkişafın informasiya mərhələsinə qədəm qoyduğu bir vaxtda şəxsiyyət azadlığının mənəvi dəyərlərinə və milli icmaların aksioloji özünəməxsusluğuna zərər vura biləcək riskləri unutmamalıyıq. Qlobal informasiya aləmində milli özünəməxsusluğu qoruyub saxlamaq kifayət qədər çətin məsələdir ki, onun da həyata keçirilməsi yalnız vətəndaş cəmiyyətinin milli dəyər prioritetlərinin sabit əsasda səmərəli fəaliyyət göstərməsi şərtilə mümkündür.

Vətəndaş əxlaqının mədəni nüvəsi olan və bütün milli ideyalar üçün məqbul sayılan əsas prinsiplər üzrə konsensus da yalnız millətlərarası etimad və tolerantlıq münasibətlərinin formalaşması üçün əsas olan vətəndaş cəmiyyətinin özəklərində yarana bilər. Bununla əlaqədar olaraq, təhsil və maarifləndirici fəaliyyətin bütün səviyyələrində gənclərə, eləcə də digər yaş qruplarından olan insanlara ictimai şüur səviyyəsində vətəndaşlıq məziyyətlərini əldə etməyə, mənimsəməyə cəhd etmək və bu keyfiyyətlərin möhkəmləndirilməsinin zəruriliyi ideyasını çatdırmaq lazımdır. Bundan əlavə, vətəndaş tərbiyəsi və təhsil istəyi milli şüurlu və humanist yönümlü vətəndaş cəmiyyətində insanın əsas əxlaqi dəyər istiqamətlərindən birinə çevrilməlidir.

Vətəndaş cəmiyyətində şəxsiyyətin mənəvi prioritetlərinin təsdiqi olan milli vətəndaş təhsili və tərbiyəsi sisteminin inkişafı vətəndaş cəmiyyəti təşkilatları, institutları və strukturlarının bilavasitə vəzifəsidir. Yəni, burada biz bir növ özünəməxsus germenevtik dairə problemi ilə – bütövün, tamın varlığının tərkib hissədən, onun tərkib hissələrinin olmasının isə tamın, bütövün mövcudluğundan asılı olması problemi ilə qarşılaşırıq. Doğrudan da, bu, vətəndaş cəmiyyətinin prioritetlərinin çoxəsrlik təsdiqi ilə təbii şəkildə deyil, aparıcı model üzrə inkişaf edən cəmiyyətlərin ən çətin problemlərindən biridir. Bu baxımdan ilk növbədə onu başa düşməliyik ki, vətəndaşlıq məziyyətlərinin dəyərinə inam, dərin şəxsi duyğular "qapalı dairə" problemini aradan qaldırmağa və milli birliyimizi yeni inkişaf mərhələsinə çıxarmağa imkan verə bilər. Bu cür dərketmə yalnız vətəndaş maarifləndirilməsi fəaliyyətinin aktivləşdirilməsi yolu ilə baş verə bilər ki, bunun da məqsədi vətəndaşların əksəriyyətini, bir tərəfdən, yalnız yaradıcılıq və fəallıq əsasında, digər tərəfdən isə birlik və qarşılıqlı yardım sayəsində milli vətəndaş cəmiyyəti qurmağın mümkün olduğuna inandırmaqdır.

Milli və vətəndaş tərbiyəsi vəzifələri aşağıdakı məqsədlərə öz töhfəsini verə bilər:

1) milli şüurun doğma torpağa, millətə mənsubiyyətin (bağlılığın) formalaşması; vətənə xidmət, sədaqət, vətənpərvərlik hisslərinin aşılanması;

2) humanist əxlaqın təsdiqi və azadlıq, bərabərlik, ədalət kimi dəyərlərə hörmətin formalaşması;

3) insan hüquqlarının fərdi azadlığı ideyaları ilə onun vətəndaş məsuliyyəti arasında əlaqənin dərk edilməsi;

4) cəmiyyətin həyatında iştirakın forma və üsullarını müəyyən etmək; qanunları və insan hüquqlarını qorumaq və dəstəkləmək; sosial müdafiə üsullarından xəbərdar olmaq bacarığı;

5) zorakılığın istənilən formasına mənfi münasibətin aşılanması və dağıdıcı millətçilik, şovinizm, faşizm, messionist hisslər kimi neqativ meyillərin aşkarlanmasının fəal şəkildə qarşısının alınması.

Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması yenidənqurmanın sonunda – məhz Azərbaycan elmi-fəlsəfi və siyasi ədəbiyyatında Qərbdə vətəndaş cəmiyyəti, orta sinif (təbəqə), liberalizm və şəxsi əxlaqın demokratik institutların formalaşmasında rolu haqqında informasiyaların yayıldığı bir zamanda başladı. Ermənistanın təcavüzkar siyasəti və Azərbaycana ərazi iddiaları dövründə ölkədə əhalinin müxtəlif təbəqələrinin güclü ictimai fəallığı yarandı. Azərbaycan müəlliflərindən İ.Məmmədzadə, R.Səttarov və T.Farodov vurğuladıqları kimi, bu misilsiz kütləvi fəallıq dalğası vətəndaş cəmiyyəti və vətəndaş iştirakının Azərbaycan mənəvi-siyasi reallığının tərkib hissəsinə çevrildiyinin sübutu idi.

Azərbaycanda güclü və həyat qabiliyyətli vətəndaş cəmiyyətinin qurulması ölkənin indiki inkişaf mərhələsində prioritet məsələlərdən biridir. Ölkədə milli vətəndaş cəmiyyətinin inkişafına və formalaşmasına töhfə verən mühüm amillərdən biri də qanunvericilik və insan hüquqlarıdır. Azərbaycan Konstitusiyasına görə, insan hüquqları və vətəndaş cəmiyyəti ölkənin inkişafının elementləri, Azərbaycanı sivilizasiyaya aparan dəyərlərdir. "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak və rəsmi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir" (8, məc.25).

Dövlətimizin rəhbərliyi üçün Azərbaycanda güclü və həyat qabiliyyətli milli vətəndaş cəmiyyətinin yaradılması ölkənin inkişafının müasir mərhələsində prioritet istiqamətlərdən biridir. Bu onu göstərir ki, cəmiyyət üçün həmrəylik və müxtəlif mədəni qrupların həmrəyliyinin konsolidasiyası

problemi vacibdir, hər şeydən əvvəl isə bu, vətəndaş cəmiyyəti üçün vacibdir.

Beləliklə, inkişaf etmiş və effektiv milli vətəndaş cəmiyyətinin yaradılması üçün əsasında yalnız ümumbəşəri və milli-əxlaqi dəyərlərin birliyinin olduğu prinsipial nəzəri bir məqamı xüsusi qeyd etmək lazımdır. Vətəndaş cəmiyyəti qlobal informasiya – istehlakçı sivilizasiyanın daimi aqressiv təzyiqi altında yalnız inkişafın milli xarakterli dəyərləri əsasında səmərəli fəaliyyət göstərə bilər. Qeyd edək ki, belə bir şəraitdə milli vətəndaş cəmiyyətinin formalaşması üçün zəruri şərtə çevrilən milli vətənpərvərlik tərbiyəsi prosesi xüsusi əhəmiyyət kəsb edir.

### Ədəbiyyat


1. Э. Эриксон. Идентичность: юность и кризис: Пер. с англ./ Общ. ред. и предисл. Толстых А. В. – М.: Издательская группа «Прогресс», 1996. – 334 с.
2. Хабермас Ю. Вовлечение другого/ Ю. Хабермас // Очерки полит. Теории. – СПб: Наука, 2001. – 417 с.
3. Гельнер Э. Нации и национализм. / Э. Гельнер. М., 1991. 456 с.
4. Shils E. The virtue of civility: selected essays on liberalism, tradition and civil society. - Indianapolis, 1997, p.395.
5. Prize 1. I National Identity and foreign Policy. Nationalism and leadership in Poland, Russia and Ukraine. – Cambridge: Cambridge University Press, 1998. – p. 332.
6. Борисенков В.П. Вызовы современной эпохи и приоритетные задачи педагогической науки / В.П. Борисенков // Педагогика. – 2004. - №1. – с. 3-10.
7. Müasir idrak problemləri. Bakı: “Elm” nəşriyyatı, 2005, 143.
8. Конституция Азербайджанской Республики. 12 июня 1995 г., 158 статей.

# DİALOQ, İDENTİKLİK VƏ EKOLOJİ PROBLEMLƏRİN HƏLLİNƏ AZƏRBAYCAN PARADİQMASI KONTEKSTİNDƏ NƏZƏRİ BAXIŞ

**Şölət Zeynalov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

**1. Reallığın ümumi xarakteristikası barədə.** Ölkəmizin müstəqilliyinin bərpa olunmasından otuz ildən artıq vaxt keçməkdədir. Bu illər ərzində Azərbaycan gənc bir dövlət kimi çox ciddi çətinliklərdən keçmiş, dövlətimizin müstəqilliyi və ərazi bütövlüyünə olan bütün təhdidləri fundamental strategiya nəticəsində dəf edərək, son ikiyüzillik tarixində heç zaman olmadığı qədər əzəmətli və beynəlxalq miqyasda qəbul edilən bir dövlətə çevrilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, suverenliyin bərpası, regionda yaratdığı yeni reallıqlar hazırda dünya dövlətləri tərəfindən ciddi müzakirə olunan mövzudur. Siyasi-nəzəri və fəlsəfi ədəbiyyatda mütəxəssislər bu reallıqları yeni dünya nizamı quruculuğu və Azərbaycanın qlobal transformasiyalar kontekstində yüksək qiymətləndirməklə yanaşı, onun regional proseslərdə yerini və rolunu başlıca aktor kimi qiymətləndirirlər. Şübhəsiz, bu uğurların təməlində dayanan amillər içərisində düzgün siyasi, iqtisadi, maliyyə, mədəni, humanitar, ordu quruculuğu və s. rasional strategiya dayanır və analizlər təsdiq edir ki, bu siyasətin həyata keçirilməsi hal-hazırda da ən yüksək formada inkişaf etdirilir. Bu strategiya nəticəsində Qarabağda terrorizmə son qoyulmuş, torpaqlar işğaldan azad edilmiş və hazırda Qarabağ özü boyda infrastruktur və çoxşaxəli iqtisadi, sosial, ekoloji,tikinti və s. bərpa-quruculuqmeydanına çevrilmişdir. Müharibədən sonrakı dövrdə Qarabağa səfər edən beynəlxalq müşahidəçilər, siyasətçilər, elm və mədəniyyət xadimləri, çoxsaylı KİV nümayəndələri öz çıxış və yazılarında qeyd edirlər ki, həqiqətən

də, erməni terrorizmi nəticəsində bölgədə daş-daş üstə qalmayıbdır. Mədəniyyət abidələri, ictimai, sosial və s. obyektlər bir sözlə, şəhərlər və kəndlər tamamilə məhv edilməklə yanaşı, fəlakət ondadır ki, regionun ekoloji tarazlığı, meşə örtükləri, faydalı qazıntı yataqları, su hövzələri də son dərəcə vəhşiliklə talanmış, bir növ insanlara qarşı aparılmış soyqırım ilə yanaşı, Azərbaycanın faunasına, florasına, çaylarına, torpaq örtüyü və s. - bütün təbiətinə ekosid aktı həyata keçirilmişdir. Bütün bunlar aydındır və fəlsəfi təfəkkür çox gözəl anlayır ki, bu kimi vandallıq aktları yalnız ideoloji cəhətdən qeyri-etik, qeyri-əxlaqi siyasi bir təfəkkürdən qaynaqlana bilərdi. Bu səbəbdən də erməni ideologiyasının əslində, son yüz yüzillik fəaliyyəti sübut etdi ki, fakt fakt olaraq qalır: Ermənistanın siyasi rəhbərliyinin etik-əxlaqi, mədəni, mənəvi, idrakı (bu yanlış ideologiyanın sürəkli yaratdığı problemdir) problemləri tarixi və psixoloji olduğundan, bu dövlət kvazi-dövlətdir və onlar həqiqi bir dövlət kimi müstəqil ola bilmir – erməni milli identikliyində digər mədəniyyətdə olanlarla dialoqa qapalılıq vardır.

Lakin yuxarıda qeyd edildiyi kimi, məhz böyük strategiya nəticəsində Azərbaycan dövləti, xalqı və onun müzəffər Ordusu Ali Baş Komandanın rəhbərliyi altında ikiyüzillik tarixi olan terrora və onun ideoloji əsaslarına son qoydu, bununla da sözün həqiqi mənasında regionda mədəni, ekoloji, sosial və s. quruculuq işləri böyük enerji ilə həyata keçirilməyə başladı. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev 2023-cü il oktyabr ayının 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldarkən böyük inam və fəxarətlə qeyd etmişdir: “Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı “Allaha şükür” deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm, və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan

bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır"(3**).**

Baş verən tendensiyaya nəzəri və praktik anlamda yanaşdıqda aydın şəkildə görürük ki, bu inkişafın təməlində, şübhəsiz, böyük bir strategiya və siyasi xətt (bəzən xarici, bəzən də daxili təhdidlərlə üzləşərək) addım-addım dövlətçiliyi inkişaf etdirmiş, istər qlobal miqyasda, istərsə də regional səviyyədə baş verən ziddiyyətlərdən onu qoruyaraq, nəhayətdə böyük Zəfərə qovuşdurmuşdur. Məsələ onunla bağlıdır ki, bu inkişafda, dialoqa açıqlıq, sekulyar dövlətçilik meyarlarına sədaqət, etik-əxlaqi dəyərlərə apelyasiya, identikliyin yeni çağırışlara cavab reaksiyasının düzgün təşkilatlandırılması, regional münaqişələrin aradan qaldırılması istiqamətində səylər, insan-təbiət, insan və başqa mədəniyyətlərarası münasibətlərdə siyasətin düzgün təsbiti ən yüksək şəkildə həyata keçirildiyindən Azərbaycanın uğuru qaçılmaz idi. Fakt ondadır ki, "bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünəlayiq yerini tuta bildi" (3). Bu işlərin həyata keçirilməsi asan olmasa da, güclü iradə, güclü strategiya, liderlik məharəti, vətənpərvərlik hissi, milli maraqların qorunması hədəfləri, həm qlobal məkanda, həm də regional qonşuluq münasibətlərində dialoq mühitinə və dialoq mədəniyyətinə, birgəyaşayış fəlsəfəsinə inam öz bəhrəsini verdi. Bununla da, haqlı olaraq Azərbaycan sözün həqiqi mənasında dünyanın sekulyar və modern dövlətləri sırasında rasional siyasəti dəstəkləyən, ekoloji təfəkkürlü, etik-əxlaqi və insani dəyərləri müdafiə edən hüquqi dövlət kimi qəbul edilməyə başlandı. Mübaliğəsiz qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin dəfələrlə yüksək tribunalardan qeyd etdiyi kimi, məhz bu siyasətin nəticəsidir ki, "artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük

coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır"(3). Fakt budur ki, ölkədə həyata keçirilən bu strategiyanın yaratdığı reallıqlar müasir identikliyin daha da dərindən qorunmasına təkan verdi.

İdentikliyin bilik cəmiyyətinin yaratdığı ekoloji, sosial, siyasi və s. risklərə dayanıqlığını artırmaqla yanaşı, modern cəmiyyətdə dövlətin daha da inkişafına gətirib çıxardı ki, bu da qlobal və regional problemdə nəzəri olaraq liderlik texnikasında məsuliyyət məsələsini daha da aktuallaşdırmış oldu.

**2. İdentiklikdə məsuliyyət, bilik və idarəetmə nəzəri problem kimi.** Tarixin fəlsəfi dərki sübut edir ki, dövlətçilik strategiyası zaman-zaman daima həm daxili, həm də xarici təzyiqlərə məruz qalır, onun inkişaf strategiyası bir sıra siyasi, sosial, humanitar, mədəni və s. faktorlar və yanaşmaların doğruluğundan asılı olur. Məsələn, nəzəri olaraq problemin tədqiqində dövlətin siyasi, hüquqi, hərbi inkişafda "... modernləşmə (tarixi inkişafda dövlət üçün–Ş. Z.) yollarının əlaqələrini aydınlaşdırmaq üçün yenə də N. Makiavellinin konsepsiyasını əhəmiyyətli görürük. Özünün "Hökmdar" əsərində o, üç qarşılıqlı münasibət səviyyəsini fərqləndirir: hökmdarın məsuliyyəti, elm və hakimiyyət, hökmdar və kütlənin vərdişləri"(5, s.172). Tarixə fəlsəfi anlamda yanaşdıqda aydın olur ki, tarix yalnız biristiqamətli, yaxud düzxətli proseslərin sinxron tendensiyası demək deyil. İstər cəmiyyətin, istərsə də dövlətlərin tarixində ziddiyyət və böhranların olması tarixi zərurət kimi qiymətləndirilir. Hazırda "*identiklik- fərdi və*

*kollektiv bizim cəmiyyətin mərkəzi mövzusuna çevrilmişdir. Özünü bərba etməyə daha qabil olmayan yalnız təbiət deyildir. Sosial və ekzistensial mənalar da defisit oldular. Hətta real siyasət (realpolitik) adlandırılanın barəsində belə, yalnız qüvvənin və ya pulun terminləri ilə deyil, həm də identikliyin terminləri ilə danışırlar. Biz yeni dinə və yeni millətçiliyə gəlib sıxmışıq, elə buna görə də identiklik barədə məsələ çox mürəkkəbdir" (7, s. 694).*

Bu baxımdan tarixdə şəxsiyyət faktoru və etik-əxlaqi siyasət bilavasitə tarixi dinamikada daima görünməkdədir. Tarixi dinamikada xalqların, millət və cəmiyyətin inkişafında bilavasitə dövlət xadimlərinin, siyasi liderlərin strateji dühası öz təsirlərini qorumaqda, ona yön verməkdədir. Bir növ, cəmiyyətin yüksək ideyalara, düzgün istiqamət və vərdişlərə, *"gündəlikdə dayanan"* məsələlərin ən vacibinə yönəlməsində dövlət başçısının, lider və şəxsiyyətin rolu danılmazdır. Tarix sübut edir ki, hadisələr və proseslərin istiqamət götürməsində "çox zaman çox şey vərdişdən asılı olur, əslində isə hökmdardan asılı olmalıdır, əgər o, modernləşmə (tarixlə - Ş. Z.) ilə bağlı məsuliyyəti öz üzərinə götürürsə, başqa sözlə, öz tərəfdarlarının maraqlarını millətin (dövlətin) maraqlarına tabe etdirilməsi, intellektual və iqtisadi elitaların yaradılması və əvvəldə onlara, bəlkə də, məhdud özünütənzimləmə hüququnun verilməsi. Lakin onun nəticə verməsi üçün iqtisadi və siyasi islahatlar istiqamətində atılan addımlarla yanaşı, müvafiq mədəniyyəti və ictimai elmləri də inkişaf etdirmək lazımdır"(5, s.172). Yuxarıda qeyd edilən tezislər göstərir ki,istənilən dövlətin, sosial cəmiyyətin, ölkənin idarə olunmasında siyasi strategiyanın düzgünlüyü və rasionallığı, legitimliyin hüquqi olması bilavasitə onun inkişafını təmin edir, davamlılığını və stabilliyini qoruyaraq tarixi sınaqdan çıxarır. Tarixin nəzəri dərki sübut edir ki, Şərq və Qərbin, Şimal və Cənubun, o cümlədən dünyanın qlobal güclərinin maraq dairəsində coğrafi anlamda yerləşmək və davamlı inkişaf etmək asan məsələ deyildir. Sivilizasiya

nəzəriyyələri ilə məşğul olan mütəxəssislər tərəfindən bu problem nəzəri anlamda geniş mənalandırılmışdır. Coğrafi mənzərə bir tərəfdən üstünlük effekti yaratsa da, mədəniyyətlərin təmas nöqtəsində çoxaspektli problemlərin də yaranmasını şərtləndirə bilir. Ancaq tarix həm də təsdiq edir ki, şəxsiyyət faktoru müxtəlif mədəniyyətləri, sivilizasiya və identiklikləri bir çətir altında “ortaq yolda”, sivilizasiyanın təhlükəsizliyi naminə birləşdirə, yaxud konsensusun əldə edilməsinin ontoloji əsaslarından çıxış edərək dialoq mühitinə də istiqamətləndirə bilər. Məsələn, Azərbaycan Respublikasının yaxın tarixi təcrübəsi göstərdi ki, dövlətin siyasi xətti və özək strategiyasında beynəlxalq hüquq və nizama, qlobal və regional münasibətlərdə kommunikasiya və dialoqa, dialoq mədəniyyətinə, elm və xüsusilə ictimai elmlərə konsolidasiya uğurlu bir əvəzsiz proqram kimi müdafiə olunduğundan və bu strateji proqramın, şübhəsiz, bəhrələri də olmalı idi. Bu, məntiqidir. Yaxud, hadisələrin inkişafı göstərir ki, bu kimi proqram və strategiyalara açıq olan və sadiq ölkələr öz tarixlərində baş verən istənilən çətinliklərdən qurtara bilər. Lakin istər regional münasibətlərdə, istərsə də qlobal tendensiyada baş verən prosesi nəzərdən keçirərkən aydın olur ki, dövlətlərin idarə edilməsində, həmişə olduğu kimi, indi də ciddi çətinliklər mövcuddur. Problemin bir tərəfi elm və biliklə, həmçinin yeni vərdişlərin mənimsənilməsi, yaxud, digər tərəfi tarix və identikliklə bağlı olsa da, onun əsas xarakteristikası bilavasitə ideologiyalarla, o cümlədən qlobal proseslərin tendensiyasını düzgün qiymətləndirilməsi və identikliyin tarixi çağırışlara adekvat reaksiyası ilə bağlıdır. Bu baxımdan tarixin çağırışlarına cavab reaksiyaları identikliyin doğru rasionallaşdırılması anlamında həmişə mövcuddur. Bu isə onu bir daha təsdiq edir ki, Makiaveli nəzəriyyəsi modern dövlət üçün öz aktuallığını qoruyur və onun inkişafı dövlət başçılarının liderlik xüsusiyyətindən, xalqın taleyinə ciddi məsuliyyətin dərkindən, elm və cəmiyyətin vərdişlərinin konsolidasiyasından ciddi şəkildə asılıdır. Burada

zəruri bir qeyd etmək vacibdir: Azərbaycanla müqaisədə identikliyin təsbiti kontekstində Ermənistanın bəxtinin gətirmədiyi göz önündədir ki, bu da onların həm lider, həm də ideologiya problemi ilə bağlıdır.

**3. Ekologiya, identiklik, dialoq və gələcək problemi.** Hazırda istər regionda, istərsə də planetar miqyasda baş verən böhranlı situasiyanın mənalandırılmasına ciddi tələbat yaranmışdır. Bu onunla bağlıdır ki, qlobal tendensiyaya filosofların münasibəti son dərəcə tənqididir və elmi texniki tərəqqinin yaratdığı imkanlar bir növ özü problemə çevirilmişdir. Üstəlik, qlobal iqlim dəyişikliklərinin yaratdığı problemlər və ekoloji disbalans sübut edir ki, yaxın on illərdə böyük nikbinlik üçün heç bir ciddi əsas mövcud deyil.

Məsələn, bir tərəfdən Rusiya-Ukrayna arasında baş verən müharibə və onun yaratdığı təhdidlər, yaxud Yaxın Şərqdə 7 oktyab 2023-cü ildə başlanan az qala yeni Dünya müharibəsinin ilkin anonsları kimi qiymətləndirilən HƏMAS-İsrail qarşıdurması, digər tərəfdən də qlobal iqlim, demoqrafik, ekoloji, siyasi, iqtisadi və s. problemlər, o cümlədən regional münaqişə və müharibələrin analizi göstərir ki, yaxın gələcəkdə dövlətlərin idarə olunmasında və regional qonşuluq münasibətlərində konsensusun əldə olunması asan məsələ olmayacaqdır. Bunu onunla əsaslandırmaq olar ki, bu və ya bu kimi "*trend böhranlar*" səbəbindən müasir sivilizasiyanın əsasları ciddi təhlükələrlə üz-üzədir. Bir sözlə, elmi ədəbiyyatın indi trendlərindən biri kimi –sivilizasiyaların toqquşma problemi aktuallıq kəsb etdiyindən onların dialoqundan danışılması, göründüyü kimi, bir növ özünə dayanıqlı tərəfdar toplamır. Ancaq ümidlər də yox deyildir. Mütəxəssislərin fikirlərinə görə, hazırda iqtisadi problemlərlə yanaşı, dünyada sosial göstəricilərdə olan fərqin kəskinləşməsi ciddi problemlər yaratmaqdadır. Eyni zamanda "ekoloji problemlər də, həm qlobal, həm lokal səviyyədə aktual olaraq qalmaqdadır. Ekoloji problemlər, o cümlədən qlobal iqlim dəyişiklikləri bəşəriyyət

üçün təhlükə mənbəyidir. 2015-ci ildə BMT və Dünya Sammitinin müəyyənləşdirdiyi Davamlı İnkişaf Məqsədləri qeyd olunan problemlərin aradan qaldırılmasını nəzərdə tutur və sözsüz ki, ümumi tərəqqiyə xidmət edəcək" (1, s.15). Bütün bunlar doğrudur və ona görə də ehtimal ki, gələcək perspektivdə ümumi tərəqqi naminə ortaq bir yolun da tapılması mümkün olacaqdır. "Lakin hazırda mövcud olan və gələcəkdə inkişaf potensialına malik qlobal problemlərin həlli üçün prinsipcə yeni yanaşmalar lazımdır" (1, s.15).Problem ondadır ki, bu gün ümumi mənzərənin elmi-nəzəri analizi və statistikası göstərir ki, qeyd olunanməsələlər həm də inkişaf tendensiyası üzrə artmaqdadır. Yeni yanaşmalar yeni *"alətlərin", yeni vərdişlərin yaranmasını,* tapılmasını tələb etsə də, beynəlxalq münasibətlərdə olan dialoq mühitində ciddi çatışmazlıqlar vardır. Məsələn, Azərbaycanın hazırda ən yüksək şəkildə COP-29 kimi nəhəng bir tədbirə ev sahibliyi etməsinə bəzi dövlətlərin qısqanc yanaşması onu göstərir ki, planetar səviyyəli problemlərin həlli bütün dövlətlər və cəmiyyətlər tərəfindən şüur müstəvisində eyni anlamda dərk olunmur (Fransa və Ermənistanı nümunə kimi göstərmək olar) ya da mövcud münasibətlər ənənəvi tarixilik problematikası kimi dərk edildiyindən qlobal problemlər ikili standartlarla öçülür. Lakin etiraf etmək lazımdır ki, məsələ yalnız iqtisadiyyat, yaxud ekoloji problemlərin çoxalması ilə də bitmir. Fəlsəfi analizlər sübut edir ki, sivilizasion problematika son dərəcə çoxaspektlidir və onların həlli və ya heç olmasa, fəlsəfi təfsiri zəmanənin idrakı problemi kimi çıxış edir. Ona görə də digər məsələlərin həllində olduğu kimi, problemin fəlsəfi dərki son dərəcə aktuallıq kəsb edir. Gələcəyin mənalandırılması isə bilavasitə fəlsəfə ilə bağlıdır. Məhz bu səbəbdən də "fəlsəfə gələcək obrazlarını tarixlə indiki zaman, reallıq və illüziya, azadlıq və determinizm arasında əlaqə və qanunauyğunluqlar axtarışında görür, burada aşkar edilmiş hər bir nümunə yeni ideya doğurur və bu, qurulacaq gələcək cəmiyyətin mədəni və intellektual inkişafının açarına, mənzərəsinə çevrilir" (8, s. 15).

Yuxarıda qeyd olunanlarla razılaşmaq məcburiyyətindəyik.Müasir qlobal problem çoxaspektlidir və xüsusilə XX əsr nəzəri fikrində sivilizasiyanın tənqidinə kifayət qədər müraciətlər olmuşdur. Faktiki olaraq bizim sivilizasiyanı dialoqu qəbul edən sivilizasiya kimi də xarakterizə etmək olar. Lakin burada dialoq, strategiya əksər məqamlarda söz oyunu kimi, hədəfə çatmaq üçün alət olaraq, ola bilər ki, daima əsas aktor kimi, hərəkətdə olan tendensiyada iştirak etsə də, lokal sivilizasiyanın taleyi bir növ əvvəlcədən müəyyən edilmiş dövlətlərin maraqlarına qurban verilməkdədir. Bunun səbəbi ondadır ki, müasir dünyada mədəniyyət, tərəqqi, iqtisadi artım, sülh, təhlükəsizlik, humanizm, qonşuluq prinsipləri, dinc yanaşı yaşama və s. kimi anlayışlar dəbdə olan tezis kimi dəyərləndirilsə də, ifrat maraqlar, siyasi ambisiyalar, tarixin dərinliklərindən qaynaqlanan müxtəlif tipoloji bölgülər və s. kimi "ideyalardan" gəlir. Bu səbəbdən dərealliqda – münasibətlər sistemində qeyd olunan problematika öz həllini tapmır. Və belə bir şəraitdə dövlətlər, cəmiyyət və təsisatlar arasında siyasi, dini, mədəni, humanitar və s. mübarizələr səngimək bilmir, əksinə, onların arasında baş verən çoxaspektli çəkişmələr daha da geriyədönməz xarakter alaraq gerçəkliyin simasını təmsil edir. Məsələn, Ermənistan uzun müddət Azərbaycanın mis, molibden, qızıl yataqlarını istismar edərək Azərbaycanın Qarabağ bölgəsində, Kəlbəcərdə, Laçında, ekoloji fəlakəti ən yüksək səviyyəyə qaldırmışdır. Aydındır ki, Vətən müharibəsi nəticəsində bütün bunlara son qoyulsa da, istər Qarabağın dirçəldilməsi məsələsi, istər təbiətə, ekologiyaya vurulan ciddi yaraların sağalması üçün uzun müddət tələb edir. Buraya Ermənistanın və onun havadarlarının yenidən revanşist cəhdlərini problemə əlavə edəriksə, mənzərə qlobal anlamda heç də nikbinlik üçün ümid yaratmır. Bu baxımdan siyasət, siyasi problematika, geosiyasət müasir gündəliyin hazırda ən aktual hadisəsi kimi, reallığın paradiqmalarından hesab olunur. Məsələn, müharibənin bitməsindən 4 il vaxt keçməsinə

baxmayaraq, Ermənistan hələ də Azərbaycan ərazilərində basdırılmış minaların xəritəsini Azərbaycana vermir. Halbuki sülhün bağlanması və tərəflərin konsensusa gəlməsi üçün bu iş son dərəcə vacibdir və əslində, BMT və beynəlxalq təşkilatlar bu işin sürətlənməsi üçün ciddi təşəbbüs göstərməlidirlər. Bir məsələ xüsusi vurğulanmalıdır ki, "mina problemi" yalnız Ermənistan-Azərbaycan münaqişəsi ilə də məhdudlaşdırılan məsələ deyil. Bu problem həm də qlobal xarakterlidir. Təsadüfi deyildir ki, 2023-cü il 25-26 may tarixində Ağdam və Bakı şəhərində "Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol" mövzusunda keçirilən beynəlxalq konfransa təbrik məktubunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir: "Azərbaycan özünün minatəmizləmə probleminin həlli ilə yanaşı, qlobal səviyyədə də humanitar minatəmizləmə prosesinə töhfə verir. Dünyada münaqişələrin və mina fəsadlarının artmasını nəzərə alaraq biz humanitar minatəmizləmənin BMT-nin qlobal 18-ci DİM-i kimi təsis edilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırda sədrlik etdiyimiz Qoşulmama Hərəkatında da Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması ideyası üzərində iş gedir"(4). Bu təşəbbüs onu sübut edir ki, Azərbaycan dünyada baş verən qlobal böhranlara qarşı daima öz töhfələrini verir və humanitar təşəbbüslərin artırılması istiqamətində dünya dövlətlərinin səylərinin birləşdirilməsinin tərəfdarıdır. Yəni, söhbət ondan gedir ki, həm identiklik məsələləri, həm qlobal ekoloji təhlükəsizliklər, bilavasitə dövlərarası münaqişələrin biryolluq həllini tələb edir.

**4. Dialoq "alətinin" fəlsəfəsinə dair.** Vətən müharibəsinə qədərki tarixdə regional gerçəklik uzun müddət siyasi diskursun, polemika və diplomatik kombinasiyaların obyekti kimi, reallığın imkan və perspektivləri kontekstində ciddi mübarizə və dialoq süzgəcinə məruz qaldı. Lakin indi hər kəsə bəllidir ki, məhz Ermənistan tərəfinin siyasi avantürası və hamilərinə arxalanaraq işğalı davam etdirmək siyasəti səbəbindən problem öz

kulminasiya nöqtəsinə müharibə nəticəsində çatdı. Bir növ iki fərqli identikliyin arasında olan problem dialoq vasitəsilə deyil, siyasi-hərbi gedişlə öz həllini tapdı. Bu onu təsdiq edir ki, münaqişə və müharibələrin həllində iştirak edən identikliklərin tarixi, siyasi, ideoloji imperativləri və s. meyarları müxtəlif olmaqla yanaşı, onların "həll alətlərinə" də münasibətləri fərqli olur. Bu səbəbdən də, şübhəsiz, müharibənin məsuliyyəti Ermənistan və ona havadarlıq edən tərəflərin üzərində tarixi fakt kimi əbədi qalacaqdır.

Bu həm də onu təsdiq edir ki, hər bir dövlət öz müstəqilliyinin qarantı kimi öz siyasi xəttini yürüdərkən strateji hədəflərinə çatmaq üçün müxtəlif aktorlardan istifadə etməklə yanaşı, bəzi məqamlarda gercəkliyi qiymətləndirmək imkanlarını deyil, tarixi-mifoloji keçmişə daha çox meyil edir – öz qorxunc və yanlış siyasi ambisiyalarını həyata keçirməkdə identikliyini təsdiq etmək üçün yanlış "alətlərdən" istifadəyə iddialı olur. Lakin istər beynəlxalq hüquq, istərsə də mədəni, siyasi, humanitar dəyərlərin interpretasiyası sübut edir ki, bu kimi zərərli xətti tutan dövlətlərin aqibəti sonda heç də yaxşı olmur. Məsələn, Cənubi Qafqazda uzun müddət öz aqressiv siyasəti ilə tanınan Ermənistanı biz konkret nümunə kimi göstərə bilərik. Qonşularla anti-dialoq, yaxud da siyasi xəttində avantüranı əsas tutan Ermənistanla məsələnin ikinci fazası müharibə ilə bitdi. Yəni, paradoks həm də ondadır ki, sözün, mədəni atributların, dialoq və diskursların çoxaspektli istifadəsinə baxmayaraq, real faktlar göstərir ki, bir çox hallarda problemlərin həllində müasir münasibətlər sistemində münaqişə və müharibələr öz həllini dialoqla deyil, məhz silahın və hərbin ədalətli gücü ilə tapa bilir. Biz bu siyasi xətt və strategiyanı ən sadə şəkildə aşağıdakı kimi qeyd edə bilərik: a) birinci faza – münaqişə + dialoq+ dialoq = müharibə; ikinci faza – müharibə + işğala son + dialoq və növbəti mərhələ. Növbəti mərhələ isə özündə çoxlu elementləri ifadə edə bilər ki, biz burada yalnız onlardan birini qeyd etməyi vacib hesab edir: ya müharibəyə

yenidən hazırlıq, ya da ümumi konsensus naminə etikaya, mədəniyyətə, bəşəri dəyərlər və dialoq mədəniyyətinə yaşıl işıq yandırmaq. Növbəti mərhələ elə bir mərhələdir ki, o öz başlanğıcını yaxın tarixi təcrübədən götürür və burada siyasi xəttin aydınlığı və strateji hədəfləri bəlli edir – sonucda sülhü və təhlükəsizliyi təmin etmək.

Hər halda Azərbaycanın yaxın tarixi sübut edirdi ki, hər şeydən öncə onun hərəkət trayektoriyasında və siyasi vektorunda sülh və əminamanlıq, birgəyaşayış və inkişaf kursu əsas amil kimi çıxış edir. Tarixdən bəllidir ki, siyasi xəttin aydınlığı, çevikliyi, məqsədliliyi və dayanıqlığı dövlətin başlıca strateji hədəflərindən biridir. Bu onunla əlaqədardır ki, dövlətin taleyi bilavasitə xalqın taleyinə son dərəcə ciddi təsir edir, onu dünya miqyasında dayanıqlı edir. Azərbaycan Respublikasının başlıca simasını məhz 30 ildə siyasi, iqtisadi, sosial, mədəni, humanitar və s. sahələrdə dayanıqlı siyasət və davamlı inkişaf kimi xarakterizə etmək tam məntiqidir. Azərbaycanın siyasi rəhbərliyinin həyata keçirdiyi bu dayanıqlı və davamlı siyasət məhz ölkəmizin istər qlobal miqyasda yüksək şəkildə qəbul olunmasına, istərsə də regional gerçəkliyin – geostrateji "gündəliyin" formalaşmasında ciddi baza rolunu oynamışdır. Fakt budur ki, Azərbaycanın son 30 illik siyasi xəttinin strateji istiqaməti sübut etdi ki, istər Ulu Öndər H.Ə.Əliyevin dövlətçilik strategiyasında, istərsə də Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi xəttinin təməlində başlıca istiqamət: *birinci,* dövlətin dayanıqlığı və təhlükəsizliyi, iqtisadiyyat və ordu quruculuğu; *ikinci*, sosial, siyasi, mədəni, humanitar problemlər və ekoloji kurs; *üçüncüsü,* beynəlxalq inteqrasiya və əməkdaşlıqlar; *dördüncüsü,* regional və qlobal sülhün təminatı; *beşincisi,* mədəniyyətlər, dinlər və sivilizasiyalararası dialoq məsələləri; *altıncısı,* beynəlxalq hüququn aliliyi; *yeddincisi,* multikulturalizm, tolerantlıq və dialoq fəlsəfəsinin təbliği və təşviqi başlıca xətt kimi çıxış edir.

Yuxarıda qeyd edilən yeddi tezisin üzərində ayrı-ayrılıqda burada geniş dayanmaq imkanında olmasaq da, burada Ulu öndər Heydər Əliyevin bir kəlamını qeyd etməyi vacib hesab edirik: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"[78] (6, s.137). Bu tezis xarici təhlükəsizliyin təmin edilməsində, daxili sosial, siyasi, mədəni strategiyanın həyata keçirilməsində, identiklik və ekoloji çağırışlara daha dayanıqlı cavab kimi vacib və zəruri amildir. Bu həm də onu şərtləndirir ki, dialoqda olan tərəflər arasında əməkdaşlıqlar üçün iqtisadiyyat həm də baza rolunda çıxış edə bilər. İstər regional sülh və təhlükəsizlik platformalarında, istərsə də Ermənistan və Azərbaycan arasında baş vermiş uzunmüddətli münaqişənin həll olunmasında Azərbaycan tərəfinin əsas strateji hədəfi dialoq müstəvisi olmuş və hal-hazırda da bu siyasi xətt inkişaf etdirilməkdədir. Məsələn, təsadüfi deyildir ki, Vətən müharibəsi zamanı qalib olmasına baxmayaraq, 2022-ci il sentyabr ayında Özbəkistanda keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində Prezident İ.Əliyev Sülhün və siyasi dialoqun vacibliyini önə çəkərək qeyd edirdi: "Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib. İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq.

Lakin təəssüf ki, bu il sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Azərbaycan silahlı qüvvələri bu təxribatın qarşısını qətiyyətlə almışdır. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir. Buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür[79] (2). Ermənistanın siyasi rəhbərliyi vaxtilə Azərbaycanın

[78]Vətən tüharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr – 10 noyabr 2022–ci il)  səh. 137

[79] Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində İlham Əliyevin nitqi .

təklif etdiyi iqtisadi layihələri qiymətləndirə bilərdi, lakin onlar bunu bacarmadılar. Və bu gün də onlar tərəfindən həmin səhvlərin təkrarlanmasının şahidi oluruq. Əks təqdirdə, Zəngəzur dəhlizindən imtina cəhdini başqa formada izah etmək mümkün deyil. Başqa sözlə desək, faktiki olaraq indi Ermənistan sülhün bağlanması və ya sülh prosesinin baş tutması işiylə deyil, prosesin imitasiyası ilə məşğuldur.

Məqalənin sonunda bir daha qeyd edək ki, identikliyin təsbiti, milli maraqların qorunması, ölkənin, dövlət və cəmiyyətin təhlükəsizliyi digər dünya dövlətləri ilə ünsiyyətdə düzgün strategiya və dialoq, dialoq mədəniyyəti ölkənin siyasi rəhbərliyinin son illər həyata keçirdiyi strateji kursun əsasını təşkil etdiyindən Azərbaycan hazırda regionun ən perspektivli ölkəsi kimi dünyanın diqqətini cəlb etməkdədir.COP-29 kimi nəhəng bir Beynəlxalq iqlim dəyişmələri və ekoloji konfransın ölkəmizdə keçirilməsi göstərir ki, Azərbaycana həm dünya ictimaiyyətinin, həm də dünya dövlətlərinin inamı var və bu inamın formalaşması bilavasitə etik-əxlaqi siyasət, ekoloji dünya düzəninin formalaşmasına verdiyi töhvələr, qeyri-aqressiv siyasət, sekulyar əsaslı dövlətçilik kursu, elm və biliyin humanitar xarakterli siyasətə istiqamətləndirilməsi vəı s. kimi platformalardan qaynaqlanır. Əlbəttə, bu cəlbetmədə bütün məsələlər heç də rəgbət, qarşılıqlı dialoq və əməkdaşlıqlar, səmimiyyət və fayda üzərində qurulmamışdır. Fakt olaraq Azərbaycanın bu ciddi uğurları, o cümlədən Azərbaycanın öz ərazilərində suverenliyini tam təmin etməsi bir sıra yaxın və uzaq ölkələrdə, beynəlxalq təşkilatlarda ciddi qısqanclıq hisslərinin yaranmasına və ölkəmizə qarşı anti-humanist siyasətin yürüdülməsinə səbəb olmuşdur. Lakin bütün bunlar, o cümlədən tarixi proses sübut edir ki, siyasi strategiyasında bəşəriliyi, insani dəyərləri, beynəlxalq hüququ əsas tutan idarəetmə formaları həmişə sonda qalib gəlmişdir. Bu baxımdan Prezident İlham Əliyevin siyasi xəttində davam etdirilən meyarlar Heydər Əliyev

---

**https://president.az/az/articles/view/57276**

siyasi kursunun davamı kimi, həmişə sülhə, təhlükəsizliyə, dinc yanaşı yaşama prinsiplərinə sadiq olduğundan, nikbinliklə demək olar ki, yaxın gələcəkdə Azərbaycanın bütün anlamda qlobal aktorlarla bir sırada olması geriyədönməzdir. Bu istiqamətdə davam edən tendensiya onun həmişə inkişafına gətirəcəkdir.

## Ədəbiyyat


1. Ələkbərov Urxan. Davamlı İnkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. Bakı, “Təhsil”, 2017, 176 səh.
2. Əliyev İlham. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində İlham Əliyevin nitqi .https:// president.az/az/articles/view/57276
3. Əliyev İlham: İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxış edib. https://president.az/az/articles/view/61587
4. Əliyev İlham: “Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol” mövzusunda beynəlxalq konfransın iştirakçılarına təbrik məktubu https://president.az/az/articles/view/59956
5. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı- “Təknur”- 2012. 216. s
6. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr – 10 noyabr 2022–ci il) Bakı, “Şərq- Qərb”, 2021, 444 səh.
7. Skirbekk Q. Gilye N. Fəlsəfə tarixi: Bakı, ZƏKİOĞLU” nəşriyyatı, 2007. 752 səh. (Tərcümə edəni A. Əsədov)
8. Zeynalov, Ş. Ə. “Dialoq mədəniyyəti və müasirlik”. Bakı “Avroba” nəşriyyatı, 2020 s. 330 səh.

9. Мамедзаде И., Махаматов Т.,.(ред. Коолл.) Баку 2024. Философия искусственного интеллекта и прообразы науки будущего s.

# PREZİDENT İLHAM ƏLİYEV – MİLLİ DİRÇƏLİŞ FƏLSƏFƏSİ

**Günel Məlikli**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Tarixin gedişatını dəyişdirməyə, milləti, dövləti dirçəlişə aparmağa yalnız istedadlı liderlər qadirdir. Amerika psixoloqu Ralf Stoqdillinin fikrincə, lideri əsasən beş keyfiyyətlə xarakterizə etmək olar: ağıl; başqalarından üstünlüyü; özünə əminlik; yüksək enerjililik; məqsədin dəqiq müəyyənləşdirilməsi [6].

Ərəb filosoflarından əl-Fərabinin fikrinə görə, dövlət ali sinfə mənsub adamların vasitəsilə yaranır. Hər bir dövlətin keçdiyi inkişaf yolunu, siyasi-ictimai, elmi-mədəni fəaliyyətini müəyyən edən milli inkişaf sistemi və bu sistemin qurulması üçün görüləcək işlərin xarakterini və ardıcıllığını müəyyən edən milli inkişaf strategiyası vardır. Dünyada baş verən siyasi proseslərin formaca mürəkkəb və məzmunca ziddiyyətli olduğu bir dövrdə həyata keçirilən siyasətin səciyyəvi xüsusiyyətləri çox mühüm nəzəri, eyni zamanda praktik əhəmiyyətə malikdir. Bu baxımdan Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyata keçirdiyi milli inkişaf strategiyasının araşdırılması elmi-praktik baxımdan zəruridir. Zaman ötdükcə ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur.

Ulu öndər Heydər Əliyev ölkəmizdə müstəqil dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, insanların, xüsusilə gənc nəslin yüksək ideyalarla yaşayan vətəndaşlar kimi formalaşması istiqamətində böyük işlər görmüşdür. Bu işlər sayəsində gənclərin səfərbəredici gücü, imkanları daim artacaq, hərtərəfli inkişafa səbəb olacaqdır. Təsadüfi deyildir ki, milyonlarla insan onun ideyalarının daim yaşaması naminə çalışır, istiqamətlərini

buna uyğun olaraq müəyyənləşdirir. Heydər Əliyevin dövlətçilik təcrübəsi və mənəvi irsi, həqiqətən, tükənməz bir xəzinədir.

Ulu öndər Heydər Əliyevin zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxararaq ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Çağdaş Azərbaycandadövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində – milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır. Yaponiyada imperatorun, Cənubi Koreyada general Pak Çonxinin, Tayvanda Çan Kayşinin, Sinqapurda Li Kvan Yunun öz xalqlarının həyatında oynadığı misilsiz rolu Azərbaycanda dirçəlişin, inkişafın banisi Heydər Əliyev oynamışdır.

Dahi şəxsiyyət Azərbaycan xalqını, Azərbaycan elmini, mədəniyyətini qışdan bahara çıxardı. Ümummilli lider Heydər Əliyev daim dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, elmin tərəqqisi üçün müstəsna işlər görmüşdür. Ümummilli lider Azərbaycanı öz müdrikliyi ilə inkişaf etdirib, bütün dünyaya tanıdıb. Məhz elə buna görə də dahi şəxsiyyətin adı hazırda, sözün həqiqi mənasında, müasir müstəqil Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

Azərbaycan elminə hər zaman həssaslıqla yanaşan Ulu öndər Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının inkişaf etməsinə qayğısını heç vaxt əsirgəməmişdi. Xalqına dərindən bağlanan, həyatını Azərbaycanın tərəqqisinə həsr edən dahi şəxsiyyət Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini daim diqqət mərkəzində saxlayıb, onun dünya

miqyasında tanınmasına nail olmuşdur. Ümummilli lider fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyi naminə xidmət etmişdir.

Heydər Əliyevin prinsipiallığı və qətiyyəti aktiv fəaliyyəti nəticəsində 1978-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında məşhur 73-cü maddə daxil edildi. O dövrdə milli dilə Konstitusiya səviyyəsində Dövlət dili statusu vermiş müsəlman respublikası Azərbaycan idi. Heydər Əliyevin "Literaturnaya qazeta"da dərc edilmiş məşhur müsahibəsinin sərlövhəsindəki "Qoy ədalət zəfər çalsın!" aforizmi Azərbaycan ictimaiyyətinin qabaqcıl nümayəndələri, məmur heyətinin böyük bir qismi üçün mənəvi-əxlaqi prinsipə çevrildi.

Bu dövrdə Akademiya şəhərciyinin tikintisi tam başa çatdırılmış, Elmlər Akademiyasında, ali məktəblərdə və başqa müəssisələrdə çalışan elmi işçilərin sayı xeyli artmış, elmi tədqiqat işlərinin sürətlənməsi müşahidə edilmiş, yeni institutlar, laboratoriyalar, konstruktor büroları açılmışdır. Elm, iqtisadiyyat və mədəniyyətin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan Elmlər Akademiyasının aldığı yüksək mükafat "Xalqlar dostluğu" ordeni 1975-ci ildə Heydər Əliyev tərəfindən təqdim olunmuşdur.

Azərbaycan elminin inkişafı məhz Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələr kimi elm sahəsində də aparılan uğurlu islahatlar sayəsində Azərbaycanın elmi böyük yüksəliş dövrü yaşayaraq inkişaf yoluna qədəm qoydu. Heydər Əliyevin böyük tarixi xidmətlərindən biri də latın qrafikasının bərpa edilməsi idi. Dahi öndər xalqın milli sərvəti, ali dəyəri olduğunu vurğulayaraq demişdir: Müasir Azərbaycanın memarı Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsas hüquqi postulatları onun bilavasitə

rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuşdur.

Ümummilli lider Heydər Əliyev – Milli dövlətçiliyimizin mükəmməl konsepsiyasını yaratdı. Nobel mükafatı laureatı Henrix Vilandın deyirdi ki, dahilər heç bir işi yarımçıq qoymurlar. Ulu öndər Heydər Əliyev də atdığı addımları yarımçıq qoymadı. Azərbaycanı yeni inkişaf yoluna çıxaran Ulu öndər Heydər Əliyevin qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün göstərdiyi böyük, müstəsna xidmətlərindən biri də özündən sonra ölkəmizə layiqincə rəhbərlik edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı - siyasi varis yetişdirməsidir. Ümummilli liderimiz 2003-cü il prezident seçkiləri dövründə deyirdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. "Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq qalaraq Azərbaycanı yeni zirvələrə dogru aparmaqdadır. Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı regionun liderinə, dünyanın sayılıb seçilən dövlətinə, kosmik klubun üzvünə çevirib. Bu gün müasir Azərbaycan Heydər Əliyevin şah əsəri kimi inkişaf edir, yüksəlir. Ölkəmiz beynəlxalq enerji təhlükəsizliyi məsələlərində söz sahibi kimi çıxış edir. Ümummilli lider bugünkü güclü, qüdrətli Azərbaycanı öz zehni, düşüncəsi, müdrikliyi ilə yaradıb inkişaf etdirib, bütün dünyaya tanıdıb.

Xalqımız üçün daha böyük xoşbəxtlik isə ondan ibarətdir ki, Ulu öndər Heydər Əliyev kimi qüdrətli dühadan sonra müstəqil Azərbaycan dövlətinə Prezident İlham Əliyevin simasında yeni tarixi epoxanın meydana çıxardığı bütün istiqamətlərdə hərtərəfli yüksək professionallığa malik yeni tipli bir lider rəhbərlik edir. Xalqımız XXI əsrin əvvəllərində məkrli qüvvələrin ortaya atdığı süni demokratiya oyunlarına uymayaraq, mövcud siyasi reallığı düzgün dəyərləndirərək

hakimiyyətdə davamlı proseslərin ardıcıl olaraq inkişaf etdirilməsinə üstünlük vermişdir. Cavan və perspektivli lider İlham Əliyevin seçkilərdə qazandığı inamlı qələbə Azərbaycan xalqının yeni tarixi epoxadakı rifahının və inkişafının gerçəkliyinə, real təminatına çevrilmişdir [1].

Bu gün ölkəmizin inkişafında və dünya səviyyəsində tanınmasına səbəb olan səriştəli siyasi rəhbər, təcrübəli diplomat prezident İlham Əliyevin Beynəlxalq münasibətlərin bütün sirlərinə məhz gənc yaşdan yiyələnməsi onun dahi bir şəxsiyyət olmasına zəmin yaradırdı. Məhz gənc yaşlarında yiyələndiyi diplomatiyanın bütün sirlərindən məharətlə istifadə edən siyasi xadim beynəlxalq arenada Azərbaycanın maraq və mənafelərini qorumuşdur. Ulu öndər Heydər Əliyevin ideyalarına və siyasi kursuna sadiq qalan cənab İlham Əliyev qısa zaman kəsiyində Azərbaycanı bütün sahələrdə zirvələrə daşımışdır. Ümumiyyətlə, onun güclü diplomatik təcrübəsi, pedoqoji fəaliyyəti, idarəetmə və liderlik təcrübəsi Azərbaycanın inkişafında, iqtisadiyyatın güclənməsində, ordu quruculuğunda, neft strategiyalarının həyata keçirilməsində böyük rol oynamışdır. Ölkə başçısı İlham Əliyevin idarəetmədə qazandığı uğurları həm genetik kodlarla onun qanına hopan amillərlə, həm də kifayət qədər ulu öndər Heydər Əliyevdən qazandığı ciddi təcrübə əldə etməsiylə mümkün olmuşdur. Prezident İlham Əliyev nadir və fenomenal şəxsiyyətdir. O, beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılanır Serbiya Prezidenti Aleksandar Vuçiçin Avropada onun ən populyar şəxs olduğunu və prezident İlham Əliyevin uğurlarının sirrini öyrənmək istədiyini vurğulaması bunun bariz nümunəsidir. Gürcüstan Prezidenti Salome Zurabişvili də bildirmişdi ki, "İlham Əliyev zəmanəmizin ən uğurlu liderlərindəndir". Məhz Prezident İlham Əliyev sayəsində bu gün Azərbaycan "davamlı inkişaf məqsədləri indeksi"nə görə dünyada hər üç ölkədən ikisini qabaqlayır. Prezident İlham Əliyevin adı tarixə artıq dünya səviyyəsində fenomenal şəxs kimi qızıl hərflərlə yazıldı.

Biz 44-günlük müharibədə Ermənistan üzərində qələbə qazandıqdan sonra aydın oldu ki, bugünkü dünyada yalnız güclü liderlər xalqla birlikdə ən böyük uğurların qazanılmasını təmin edə bilər. Ölkə Prezidenti İlham Əliyevin Cənubi Qafqaz, Qarabağ və Azərbaycanın inkişafı üzrə planları, Şuşa Bəyannaməsi, türk sivilizasiya birliyinin möhkəmləndirilməsi ölkəmizin inkişafının mütərəqqi olduğunu, onun yaxın dövlət və regionları da inkişafa cəlb etdiyini göstərir. Geosiyasətin müasirliyinin və çağdaş fəlsəfəsinin mahiyyəti bundan ibarətdir ki, inkişaf başqalarının hesabına deyil, onlarla əməkdaşlıqda həyata keçirilməli, ölkədən bölgəyə, qonşu regionlara və daha uzaqlara yönəlməlidir. Bu konsepsiya və onun gerçəkləşdirilməsi təcrübəsi Heydər Əliyev tərəfindən ərsəyə gətirilib, onun ideoloji irsinin əsas hissəsini təşkil edib və ölkəmiz onlara əməl edir [3]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərlik etdiyi müddətdə hər bir vətəndaşın prezidenti olduğunu dəfələrlə demiş və eyni zamanda bunu əməli fəaliyyətində də ortaya qoymuşdur. Prezidentliyə başladığı ilk gündən İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirərək, qarşıya qoyulmuş qlobal və lokal əhəmiyyətli məsələlərin həlli üçün bütün siyasi gücündən istifadə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəsinə və xalqına şərəflə xidmət edən görkəmli dövlət xadimi olmaqla bərabər, həm də dünya azərbaycanlılarının lideridir. Prezident İlham Əliyev eyni zamanda beynəlxalq miqyasda dünya liderlərindən biri kimi qəbul olunur. Azərbaycan Respublikasının Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasət və atdığı addımlar həm öz ölkəsində, həm də dünya ictimaiyyəti arasında yüksək qiymətləndirilir. Prezident İlham Əliyev beynəlxalq aləmdə XXI əsrin liderlik nümunəsini göstərir [2].

Dövlət rəhbərimizin simasında ənənə ilə varisliyin və möhkəm siyasi əqidə ilə müasirləşmənin vəhdəti yeni tipli liderliyin əyani təcəssümü kimi meydana çıxır. Prezident İlham

Əliyevin liderlik zirvəsini fəth etməsinin mahiyyəti ənənəyə sadiq qalmaqla, xalqa sədaqət göstərməklə daim yeniləşməyin, irəliyə doğru qətiyyətli addımlar atmağın reallaşdırılması ilə meydana çıxır.

Azərbaycan Respublikasının milli inkişaf sisteminin formalaşdırılmasında müstəsna xidmətlərə malik olan Prezident İlham Əliyevin qəbul etdiyi milli inkişaf strategiyası nəticəsində ölkəmiz bu gün yüksək inkişaf dövrünü yaşamaqdadır. Xarici və daxili siyasətdə əldə edilən uğurlar bu strategiyanın nə qədər düzgün və dəqiq planlaşdırıldığından xəbər verir. Aparılan daxili siyasət, vətəndaşların yüksək rifaha çatdırılması milli inkişaf strategiyasının əsas məqsədlərindən biridir. Dünya iqtisadiyyatının böhran vəziyyətində belə, ölkəmizə təsirlərin minimuma endirilməsi məhz bu strategiyanın effektivliyindən xəbər verir.

Məhz Ulu öndər Heydər Əliyev dühası və onun varisi Prezident İlham Əliyevin idarəetmə bacarığı sayəsində Azərbaycan bütün təhdidlərə rəğmən hazırda dünyanın ən islahatçı, sabit inkişaf edən və real müstəqilliyi olan ölkələrindən biridir.

Prezident İlham Əliyevin siyasi strategiyasının istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar.

1. İctimai-siyasi istiqamət
2. Sosial-iqtisadi istiqamət
3. Elmi-mədəni istiqamət

Təbii ki, bu istiqamətlərin hər biri də ayrı-ayrı fəaliyyət sahələrinə bölünür. İctimai-siyasi istiqamətdə aparılan işlər çoxsahəli və genişdir. Bura daxili və xarici siyasət, diplomatiya, ordu quruculuğu, vətəndaş cəmiyyətinin qurulması, qeyri-hökumət sektorunun inkişaf etdirilməsi və s. daxildir Prezident İlham Əliyev nadir və fenomenal şəxsiyyətdir. Cənab Prezident İlham Əliyevə xas olan bu xüsusiyyətlər, təkcə bu günümüz üçün deyil, gələcəyimiz üçün də böyük mənəvi, siyasi əhəmiyyətə malikdir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəetməsində rəqəmsal təşəbbüslər həyata keçirilir, bu sahədə

dövlət proqramları qəbul olunur. Azərbaycan neft, qaz, elektrik enerjisi istehsalçısı və ixracatçısı kimi də həm tranzit ölkələrin rəğbətini qazanması 31 may-3 iyun tarixlərində keçirilən "Bakı Enerji Həftəsi" bunun təzahürü idi. ". Bölgədə yeni reallıqlar yaradan müdrik siyasətçi kimi böyük əzmi sayəsində “Made in Qarabağ” brendinin dünyaya təqdim edilməsi Azərbaycan iqtisadiyyatını daha da inkişaf etdirməklə yanaşı, Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha bütün dünyaya sübut edəcəkdir. Dünya Azərbaycanın işğaldan azad edilmiş ərazilərdəki möhtəşəm quruculuq işlərinə şahidlik edir. Cənab Prezident İlham Əliyevin sayəsində Qarabağ və Şərqi Zəngəzurda qısa dövr ərzində həyata keçirilən yenidənqurma işləri: Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilanda Ağalı kəndinin yenidən qurulması işğaldan azad olunmuş ərazilərimizin bərpasının möhtəşəm nümunələrindəndir. Zaman keçəcək, gələcək nəsillər Ali Baş Komandan, Prezident İlham Əliyevin Böyük Qələbəyə doğru aparan yolda nümayiş etdiridiyi fədakarlığı, xalqın, dövlətin mənafeyi naminə atdığı addımları dərindən təhlil edəcək, onun liderliyi ilə keçilən yolun hər addımından qürur duyacaqdır. Ən əsası, Prezident İlham Əliyevin Azərbaycanı qalib dövlətə çevirmək strategiyası və bacarığı gənc nəsil və gələcək nəsillər üçün nümunə olub və olacaqdır, Azərbaycan Respublikası onun titanik fəaliyyəti ilə daha yüksək zirvələri fəth edəcəkdir.

## Ədəbiyyat


1. Həbibbəyli, İsa. İlham Əliyev erası / // Azərbaycan.- 2022.- 24 dekabr.- № 282.- S. 8.
2. Həbibbəyli, İsa. İlham Əliyevin yaratdığı gerçəkliklər // Azərbaycan.- 2022.- 10 aprel.- № 73.- S. 6.
3. Məmmədzadə İlham. Heydər Əliyevin ideya iris və maarifçi vətənpərvərlik http://philosophy.edu.az/index.php?newsid=1783

4. Мамедзаде Ильхам. Основа наших побед - в феномене Президента \ https: //br.az/read/69751/

5. Məlikli G. İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər: - Bakı: Nurlar NPM, 2018.- 200 s.

6. Məlikli G. Zamanı qabaqlayan lider // Xalq qəzeti.- 2023.- 29 dekabr, s. 5.

# МИННЫЙ ТЕРРОР КАК ОДНА ИЗ ФОРМ ВОЙНЫ ПРОТИВ МИРНОГО НАСЕЛЕНИЯ

**Лала Мовсумова**
Доктор философских наук, доцент
Институт философии и социологии НАНА

Азербайджан восстановил свою территориальную целостность, выполнил резолюции Совета Безопасности ООН, требовавшие незамедлительного, безоговорочного и полного вывода армянских оккупационных сил с территории суверенного Азербайджана. Конфликт с Арменией Азербайджан победоносно решил военно-политическим путем.

В ночь с 9 на 10 ноября 2020 года было подписано трехстороннее заявление президентов России, Азербайджана и премьер-министра Армении, положившее конец армяно-азербайджанскому конфликту. В соответствии с трехсторонним заявлением, Армения вывела свои оккупационные силы из Агдамского, Лачинского и Кельбаджарского районов Азербайджана. До этого вооруженные силы Азербайджана освободили более 300 городов и сел на поле боя, использовав для восстановления исторической спра ведливости «железный кулак».

Основными проблемами, которые сейчас, в послевоенный период, стоят перед Азербайджаном, являются разминирование освобожденных территорий и восстановление разрушенной инфраструктуры, зданий, домов, исторических памятников азербайджанского народа. Правительство Азербайджана развернуло масштабную кампанию по восстановлению освобожденных земель, получившую название «Великое возвращение».

Однако препятствием грандиозному мирному и долгожданному процессу восстановления родных земель стало повсеместное минирование абсолютно всего. На протяжении 30 лет армянские оккупанты заложили многочисленные мины не только на полях и линиях соприкосновения, но и на дорогах, тропах, перевалах, рядом с историческими памятниками, на захоронениях и на кладбищах [1]. Покинувших Нагорный Карабах армянам было недостаточно разграбления недр и природных ресурсов древнего Карабаха, они жаждали крови и смерти мирного населения, жившего и творившего на этой земле веками. Отступая и потом, под прикрытием своих тогдашних покровителей, армяне заложили на благодатных землях Карабаха сотни тысяч мин. Показательно, что азербайджанские земли минировались не только в период оккупации, выстраивая так называемую «линию обороны», мины спешно закапывали уже и после войны, воспользовавшись временем, предоставленным для освобождения земель Азербайджаном.

Так, в августе-ноябре 2023г. почти 3000 мин было обнаружено в Лачынском, Кельбаджарском и Шушинском районах Азербайджана. Большинство имело маркировку 2021 г. производства Армении. Армянские сепаратисты, перед отступлением, во многих местах оставляли противопехотные мины, устанавливали самодельные взрывные устройства, мины-ловушки (приспособление, которое срабатывается неожиданно, когда человек прикасается или приближается к кажущемуся безвредным предмету). Мины-ловушки были заложены под полами подъездов, за дверьми и во дворах жилых домов, которые и сегодня, несмотря на масштабную работу саперов по разминированию территорий продолжают взрываться, калеча и унося жизни мирного населения. Зафиксированы факты закладки

армянскими вооруженными силами в период оккупации на азербайджанских землях 1,5 миллиона мин, загрязнение 147 988 гектаров территории на высоком уровне и 675 570 гектаров – на среднем и низком уровнях. В результате минного террора, совершенного Арменией против Азербайджана, с 1991 года по настоящее время жертвами мин стали 3393 человека, включая женщин и детей, приведены такие хештеги, как #stoparmeniancrimes, #MapsForKarabakhSafety, #KarabakhSafety [2]. В результате работ по разминированию, проведенных на освобожденных территориях, обнаружено и обезврежено около 95 тысяч мин и других взрывных устройств. «Это означает, что более 100 000 человек были спасены от смерти. Азербайджанское государство день и ночь обезвреживает установленные Арменией мины. Азербайджан входит в список стран мира, наиболее загрязненных минами и наиболее пострадавших от мин. В результате минной войны Армении против азербайджанского народа на сегодняшний день жертвами мин стали 3393 азербайджанца, в том числе 358 детей и 38 женщин» АПА [3]. Эти данные отражены в информации об инцидентах с минами, представленной на мероприятии "Азербайджанская кампании против мин" и региональной кампанией "Южный Кавказ, свободный от мин".

Только за один месяц (июль 2024 г.) по обнародованной информации об операциях по разминированию, проведенных Агентством Азербайджанской Республики по разминированию на освобожденных от оккупации территориях в Тертере, Агдаме, Агдаре, Лачине, Физули, Шуше, Ходжалы, Ханкенди, Кельбаджаре, Ходжавенде, Джебраиле, Губадлы и Зангилане были обнаружены 551 противопехотная, 221 противотанковая мины, 27 872 неразорвавшихся боеприпаса [4]. Не секрет, что вооруженные формирования, которые не способны противостоять противнику в открытом бою, от бессилия всегда

переходят к скрытому террору. В пределах Азербайджана, как видно, это приобретает вид минного террора. Попытаемся в нескольких словах раскрыть суть понятия «террор», которое мы используем в статье в союзе с минами. Прежде всего, стоит сказать пару слов об этимологии этого слова. «Террор» в переводе с латинского языка означает «ужас, страх». И именно в этом состоит сущность этого явления и определяется как устрашение мирного населения, выражающееся в физическом насилии вплоть до уничтожения (это может быть физическое или психологическое давление, репрессии). Этот процесс всегда направлен на дестабилизацию и генерирование атмосферы всеобщей тревожности. И действительно, проявляться террор может по-разному, но все-таки в данной дефиниции упущен важный момент – цель. Целью в данном случае является - запугать людей. Одно из главных средств достижения целей для террористов – запугивание, создание атмосферы страха, неуверенности в безопасности жизни своей и своих близких. В течение последних 200 лет основным средством террора является применение взрывчатых веществ (ВВ) и взрывных устройств (ВУ). В настоящее время известно более сотни типов ВВ, но применение в военном деле и промышленности по различным причинам находят до 30 из них.

К концу XX и начала XXI века международный терроризм окончательно избрал в качестве излюбленного оружия минно-взрывные устройства, ставшие самым распространенным средством совершения терактов. Причина – большие разрушения, большая площадь поражения, и низкая вероятность опознания и поимки подрывника на месте преступления.

Разминирование мин – важная и актуальная тема, связанная с обеспечением безопасности людей и развитием территорий. Мины являются остатками войны и

вооруженных конфликтов, которые ведутся повсеместно в разных уголках мира. Необъятные территории, заброшенные поля и леса, победоносные гибели и раны — все это напоминает нам о необходимости высококачественного разминирования, которое способно вернуть людям мир и нормальную жизнь [5].

Проблемы, связанные с минированием и «скрытая смерть», часто сопровождающая этот процесс, настоящая трагедия и несчастье для мирных жителей не только нашей страны, но и всего мира. И, к сожалению, несмотря на то, что со времени вооруженного конфликта прошел долгий период, все еще продолжают гибнуть люди от разрыва мин. По данным ЮНИСЕФ, с 1975 года в результате разрывов мин в мире погибло почти миллион человек, причем треть из них — дети до 15 лет. Международный Красный Крест отмечает, что каждый месяц от мин погибает две тысячи человек. По статистике ООН, эта проблема является одной из самых актуальных для семидесяти стран мира.

К сожалению, Азербайджан одна из таких стран и входит в число наиболее загрязненных минами государств в мире. О масштабах минно-взрывной войны, объявленной армянскими террористами и преступниками мирному населению, свидетельствует хроника взрывов на территории Азербайджана. Как отмечалось выше, массовое минирование сегодня самое большое препятствие, которое стоит перед нами в процессе восстановления жизни на, освобожденных от оккупантов, благодатных землях Карабаха. Горький опыт показывает, что массовое минирование тех или иных территорий наносит значительный материальный и моральный ущерб, приводя к гуманитарной катастрофе. Несложно представить, как обширные участки земли до их полного разминирования

выбывают из экономического, в частности сельскохозяйственного, оборота, что существенно для перенаселенных стран с малыми территориями. Наряду с этим из-за мин беженцы и перемещенные лица боятся возвращаться домой, реальное или подозреваемое присутствие мин исключает доступ к остро необходимым ресурсам и услугам, препятствует восстановлению местной экономики после военного конфликта и подрывает необходимое социально-экономическое развитие. Гуманитарное разминирование, которое сегодня активно развернуто на освобожденных от армянской оккупации территориях Азербайджана, осуществляется с целью обеспечения безопасности населения и возвращения земель и объектов в хозяйственный оборот. Однако мины, в хаотическом порядке установленные армянскими сепаратистами на территории Азербайджана на протяжении 30 лет, в нарушение норм международного гуманитарного права, продолжают представлять серьезную угрозу для жизни людей, а также обеспечения прочного мира и безопасности в регионе Южного Кавказа.

О большой минной проблеме, с которой столкнулся Азербайджан, всегда отмечает президент Ильхам Алиев, особо подчеркивая, что на осуществление операций по разминированию на освобожденных территориях в Карабахе в госбюджете выделяются огромные финансовые средства.

Президент Азербайджана неоднократно поднимал эту проблему с самых высоких трибун. 27 июня 2022 года в польском городе Катовице продолжила работу 11-я сессия Всемирного форума городов на тему «Изменим наши города во имя лучшего будущего». На сессии в видеоформате Президент Азербайджанской Республики Ильхам Алиев выступая, отметил: «Массовое минирование - самая большая сложность, которая стоит перед

нами, и это тормозит работы по реконструкции, а также возвращении вынужденных переселенцев. По предварительным подсчетам, в период оккупации Армения заложила на этих территориях более миллиона мин…» [6]
- "…для решения вопроса разминирования Азербайджану необходимо около 30 лет" [7].

Все три мирных года азербайджанские власти продвигают эту проблему в международных организациях, привлекая к ней внимание мирового сообщества и отстаивая интересы стран, подвергшихся минной угрозе. Так, 4 апреля, по случаю – Международного дня просвещения по вопросам минной опасности и помощи в деятельности, связанной с разминированием, Президент Азербайджана Ильхам Алиев в своем Twitter-аккаунте поделился публикацией, в которой заявил: «Азербайджан объявит гуманитарное разминирование национальной Целью устойчивого развития. Наша страна активно продвигает инициативу сделать гуманитарное разминирование 18-й Целью устойчивого развития ООН. Азербайджан также выступил с предложением о создании Группы стран-единомышленников, подвергшихся воздействию мин» [8].

Между тем, разминирование территорий Азербайджана является сложным процессом, особенно за неимением точных карт минных полей. В этой связи, еще в октябре 2022 года, выступая на пленарном заседании шестого саммита Совещания по взаимодействию и мерам доверия в Азии, президент Ильхам Алиев заявлял, что Азербайджан входит в число самых загрязненных минами стран мира: «По предварительным оценкам, за время оккупации Армения установила более миллиона мин на территории Азербайджана. По подсчетам международных экспертов, Азербайджану необходимо около 30 лет и $25 млрд. для решения вопроса разминирования территорий».

В результате предпринятых руководством Азербайджана мер было предотвращено массовое уничтожение мирного населения, но, несмотря на все усилия, есть потери. Мировой опыт показывает, что эти потери, к сожалению, неизбежны.

Помощник президента Азербайджана - заведующий отделом по вопросам внешней политики Администрации главы государства Хикмет Гаджиев поделился в своем аккаунте в соцсетях публикацией в связи с продолжающимся минным террором со стороны Армении. "Жертвами наземных мин в Азербайджане являются в основном гражданские лица. Почти каждую неделю мы становимся свидетелями очередного смертоносного взрыва мины", - написал Х. Гаджиев. Помощник главы государства отметил, что с 1991 года по настоящее время жертвами мин стали 3 415 человек. В их числе 357 детей и подростков, а также 38 женщин. С 10 ноября 2020 года число жертв минного террора в Азербайджане достигло 336 человек [9].

При этом, как отмечал глава МИД Азербайджана Джейхун Байрамов, Армения не только отказывается предоставить полную и точную информацию о минных полях, но и незаконно доставляет в Азербайджан и устанавливает новые мины. Он приводил документальные доказательства того, что эти мины были произведены в Армении в 2021 г. – то есть уже после того, как официальный Ереван подписал обязательство о полном прекращении огня и всех военных действий в зоне карабахского конфликта. Армянская сторона не представила Азербайджану все карты минных полей. Три четверти полученных карт содержат ложную информацию. Сначала власти Армении отрицали существование карт минных полей, затем якобы представили по требованию

Азербайджана некоторые карты минных полей, но оказалось, что они являются недостоверными.

"Азербайджан совершенно правильно делает, что ставит этот вопрос остро, и далее он будет становиться только острее. Дело в том, что противопехотные мины после окончания войн – это проблема для очень многих стран мира. ООН традиционно много десятилетий уделяет вопросу разминирования очень большое внимание, у нее накоплен огромный опыт, целый ряд стран способны предложить своих саперов для такого рода работ в Азербайджане. Поэтому Баку должен получить помощь ООН и рассчитывать, что его обращения воспримут с пониманием", - сказал Сергей Марков. "Нужно ставить эти вопросы, пусть и сложно добиться от Еревана конкретики. Власти Армении воспринимают эти карты как элемент политической торговли и требуют уступок по каким-то другим вопросам за них. При этом Ереван обязан передать Баку карты минных полей без всякого торга", - заключил политолог [10].

И, как совершенно правильно пишет в своей статье А. Бабазаде: « Несмотря на то, что Армения ратифицировала Женевские конвенции от 12 августа 1949 года «О защите жертв войны» и Второй протокол к Конвенции «О запрещении или ограничении применения конкретных видов обычного оружия, которые могут считаться наносящими чрезмерные повреждения или имеющими неизбирательное действие», она продолжает грубо нарушать взятые на себя обязательства и требования, содержащиеся в этих документах. Армения также нарушает положения Конвенции о запрещении использования, накопления запасов, производства и передачи противопехотных наземных мин, принятой ООН в 1999 году. Между прочим, согласно упомянутым документам, после окончания войны стороны конфликта обязуются

передать карты районов, подлежащих разминированию, и не применять мины против пехоты» [11].

К сожалению, факты говорят о другом. Армения продолжает войну с Азербайджаном даже в послевоенный период. При этом она широко использует тактику намеренного минного террора, традиционно игнорируя законы международного права. «Такой метод ведения войны Арменией направлен не только на уничтожение азербайджанских граждан, но и является главным препятствием для восстановительных работ на освобожденных территориях и возвращения вынужденных переселенцев в свои дома. Поэтому не удивительно, что до сих пор Армения все еще не передала нам все карты минных полей, и всячески игнорирует это требование Азербайджана» [12]. В результате растет не только статистика, но и частота трагических событий, связанных с минным террором.

И сегодня, в мирное время, в стране есть жертвы минного террора Армении, своего рода необъявленной войны против народа Азербайджана. Руководство страны ведет титаническую работу в целях обеспечения безопасности передвижения своих граждан на освобожденных территориях и благополучного возвращения вынужденных переселенцев в родные места. Однако сама проблема, несмотря на усилия, все еще продолжает угрожать мирной жизни граждан Азербайджана.

## Литература

1. В феврале 2024 года Государственное агентство Азербайджана по разминированию ANAMA сообщило об обнаружении в Карабахе заминированного массового захоронения. "Этот метод типичен для военных преступлений Армении, заминированы даже

обычные кладбища на освобожденных территориях", — пояснили представители ANAMA.

2. #stoparmeniancrimes, #MapsForKarabakhSafety, #KarabakhSafety .
3. АПА Карабахское бюро Report.
4. News.day.az>Сколько мин было обнаружено на освобожденных территориях за месяц? От 02.09.2024.
5. Подробнее на FB.ru: https://fb.ru/article/181863/terror---eto-politicheskiy-terror-massovyiy-terror
6. Sputnik Азербайджан от 27.06.22
7. Коммерсантъ от 13.10.2022
8. Интерфакс-Азербайджан. Информационнон агентство от 05.07.2023
9. **Sputnik** Азербайджан от 04.11.2023**.**
10. Вестник Кавказа от 27.02.2021.
11. www.br.az> Нет минному террору. Абульфас Бабазаде. От 07.04.2023.
12. Caliber.Az. Минный террор Армении на пути к восстановлению Карабаха**.** Матанат Насибова. От 29.04.2023

# II FƏSİL

# METODOLOJİ PROBLEMLƏR, SÜNİ İNTELLEKT VƏ DƏYƏRLƏR

## FƏLSƏFİ MEQABİLİK VƏ ƏDƏBİ TƏNQİD: İSMAYIL ŞIXLI VƏ HERBERT MARKUZE YARADICILIĞINDA İDEYA-İDEALLAR İDENTİKLİYİ

**Əbülhəsən Abbasov**
Fəlsəfə elmləri doktoru, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Fəlsəfənin inkişaf səviyyəsi rəhbər tutulan, zəmin rolunda çıxış edən epistemoloji sistemdən bilavasitə asılıdır. Müasir tarixi zaman tələblərinə cavab verən epistemoloji sistem yoxdursa, hər hansı peşəkar fəlsəfədən və onun meqabilik kimi missiyasından söhbət gedə bilməz. Epistemologiya, onun necəliyi fəlsəfənin simasını, gücünü və məhsuldarlığını müəyyənləşdirir, fəlsəfə və başqa elm sahələrində aparılan tədqiqatların yaradıcılıq əmsalını, habelə ədəbi və mədəni mühitin durumunu şərtləndirir. Bu xüsusda vacibdir ki, fəlsəfənin təqdim etdiyi meqabiliklə fənnlərarası bilik mübadiləsi və inteqrasiyası nəticəsində formalaşan meqabilik eyniləşdirilməsin. Bu fenomenlərin oxşar, çarpazlaşan elementləri var, ancaq onlar (bir bütövlük olaraq!) məzmun-mahiyyətcə eynilik təşkil etmirlər. Digər tərəfdən, bu fenomenlərin bir-birinə qarşılıqlı təsirini araşdırmaq, onların ayrı-ayrı elm və praktika sahələrinə verdikləri töhfəni, habelə özlərinin qarşılıqlı əlaqələrindən doğan problemləri müfəssəl surətdə öyrənmək mühüm vəzifələrdən biridir. Bu müstəvidə əldə edilmiş tədqiqat nəticələri həm yeni elmi-nəzəri araşdırmaların aparılmasında, həm də müasir ədəbi-mədəni mühitin formalaşmasında və tədris-

təlim prosesinin təşkilində olduqca əhəmiyyətli rol oynaya bilər.

Bu gün fəlsəfi və fənnlərarası meqabiliyin formalaşmasında, məsələn, qeyri-səlis məntiq və riyaziyyat, sinergetika, informasiya-idarəetmə texnologiyaları və süni intellektlə bağlı nəzəriyyələr olduqca əhəmiyyətli rol oynayır. Şübhəsiz, gələcəkdə bu rol daha da artacaq. Ona görə zəruridir ki, həmin istiqamətlərə diqqət artırılsın, danılmaz xidmətləri olan görkəmli alim və mütəxəssislərin yaradıcılığına daha da həssas münasibət göstərilsin. Ümumiyyətlə, başqa elm sahələrində çalışan, parlaq elmi nəticələrilə fərqlənən alim-mütəxəssislərə, onların yaradıcılığına sayğılı və işgüzar, məhsuldar münasibət fəlsəfə və filosoflar üçün çox önəmlidir. Yalnız bu halda fəlsəfi meqabilik öz yüksək səviyyəsini saxlaya bilər.

Dünyada baş verən ictimai və qlobal transformasiyalar, ziddiyyətlərlə zəngin hadisə və proseslər, əlbəttə ki, fəlsəfəyə, onun ictimai şüurun xüsusi bir forması kimi inkişafına, yerinə və roluna, habelə tədrisinə ciddi təsir göstərməkdədir. Düzdür, fəlsəfi düşüncənin formalaşmasında və fəlsəfənin tədrisində müəyyən pozitiv yeniliklər hiss olunmaqdadır: bir sıra yeni mövzular və problemlər diqqət mərkəzinə alınmış, sovet dövrünə xas olan marksist-leninçi tədris üslubu, metod və formaları dövrün tələblərinə uyğun şəkildə əvəzlənmiş, fəlsəfi mülahizələrdə, fikir refleksiyasında plüralizm meyilləri özünü göstərməyə başlamış, ümumdünya fəlsəfi irsinə, İslam-Şərq fəlsəfəsinə, Azərbaycan ictimai fikir tarixinə maraq və həssaslıq artmışdır.

Lakin vəziyyəti obyektiv qiymətləndirsək görərik ki, narahatedici problemlər heç də az deyil. Durumun qeyri-qaneediciliyi həm fəlsəfənin nəzəri biliklər sistemi kimi inkişafına, həm əldə edilmiş tədqiqat nəticələrinin tətbiqinə, həm də fəlsəfənin fundamental əhəmiyyətli ontoloji təlim, qnoseoloji zəminlər və vasitələr sistemi, nəhayət, dünyagörüş, metodologiya, aksiologiya kimi tədrisinə aiddir. Hələ də tədqiqatlarda "iti sual"lardan yan ötüşmə, bəsit şərhçilik,

sitatçılıq, konyuktur uyğunlaşma, arqumentasiya zəifliyi, adekvat məntiqi-qnoseoloji şəbəkənin yoxluğu və yaxud zəifliyi, qabaqçıl ölkələrdə fəlsəfə sahəsində təqdirəlayiq tədqiqat və təqdimat təcrübəsinə laqeyd münasibət, faydalı nümunələrin lazımınca əxz edilməməsi özünü göstərməkdədir. Ən başlıcası, milli fəlsəfi təfəkkür tərzi və üslubunda aparılan araşdırmaların epistemoloji təminatında zəruri yeniləşmə ləng gedir və bütün bu səbəblər ucbatından fəlsəfəmiz lazımi peşəkərlıq, elmi qüdrət və eleqantlıq, evristik güc səviyyəsi əldə edə bilmir.

Nəticə olaraq, fəlsəfi fikrin inkişafı həyatın ümumi inkişaf sürətindən geri qalır, ictimai-tarixi proseslərin müfəssəl şərhini və təsvirini verməkdə, gələcəyə doğru gedişatda real və pozitiv hədəfləri, alternativləri göstərməkdə acizlik göstərir, müasir dünyanın çağırışlarına təsirli cavab verə bilmir, qlobal transformasiyaların doğurduğu problemlər qarşısında gücsüz və süst qalır. Mühüm əhəmiyyətli sosial-iqtisadi, siyasi və geosiyasi, mədəni-mənəvi hadisə və proseslər lazımınca qiymətləndirilmir, vacib təhlil və ümumiləşdirilmələr aparılmır, sanki bütün bu baş verənlərin fəlsəfəyə və filosofa aidiyyəti yoxdur. Beləliklə də, yaşadığımız gerçəklik, gedişat daha çox fürsətçil "politoloq", "siyasətçi"lər və peçəkarlığı, elmi hazırlığı şübhə doğuran "ekspert"lər tərəfindən şərh və təqdim edilir. Fəlsəfənin və filosofların (tək-tək istisnaları nəzərə almasaq!) aktual məsələlərə fikirləri bildirilmir, necə deyərlər, "səsi eşidilmir". Aydındır ki, belə olduqda, fəlsəfə müasir ictimai fikrə və proseslərin cərəyanına öz müdriklik qatqısını gətirə bilmir, passiv müşahidəçi, seyrçi rolunu üzərinə götürmüş olur.

Nəzərə alsaq ki, fəlsəfi müdrikliyin bir mühüm xüsusiyyəti informasiya və biliyin öz zamanında operativ sistemləşdirilməsi və təşkilatlandırılması ilə bağlıdır, fəlsəfənin mövcud durumunun qaneediciliyi məsələsi istər-istəməz bizdə narahatlıq yaradar. Əslinə qalanda isə, fəlsəfə tərəfindən əxz və həzm eilmiş, strukturlaşmış və sistemləşmiş informasiya, bilik tarixən həmişə öndə olub, bugünün və gələcəyin mənzərəsini verib,

dinamikasını müəyyənləşdirib. Fəlsəfənin cəmiyyətə və bəşəriyyətə təqdim etdiyi informasiya-bilik impulsunu hec bir spesifik elm, ayrı-ayrı fənnlər, habelə onların cəmi tərəfindən təqdim olunan informasiya-bilik toplusu (nə qədər əhəmiyyətli olsa da!) əvəzləyə bilməz **[3, s. 91-92]**.

Fəlsəfi informasiya-bilik toplusu təbiətinə, təşəkkülünə, genezisinə, strukturlaşma və funksionallığına görə müxtəlif elmlərin əlbirliyindən, qarşılıqlı təsirindən, hətta deyərdim, sinergizmindən qaynaqlanan informasiya-bilik cəmindən qat-qat fərqlənir, meqatəsir, nüfuzetmə baxımından isə daha yüksəkdə durur və heç də müxaniki-cəbri üsullarla əldə olunmur. Bu, fəlsəfi müdrikliyin təyinatından və dialektikasından irəli gələn bir mühüm keyfiyyətdir. Əslində, bu keyfiyyət yoxdursa, söhbət həqiqi fəlsəfədən gedə bilməz. Təsadüfi deyil ki, əsrlər boyunca fəlsəfəçilik etmək cəhdində bulunanlar çox olsa da, tarixdə tək-tək mütəfəkkirlərin adı qalıb və onlar indi də sayğı və hörmətlə xatırlanırlar.

Yuxarıda qısaca təqdim etdiyim mülahizələr kontekstində bu gün fəlsəfənin bir meqabilik kimi ədəbiyyatla təması, qarşılıqlı əlaqəsi məsələsi xüsusi önəm daşıyır. Bütün aktuallığına baxmayaraq, bu məsələ lazımınca müasir elmi tədqiqatların gündəliyinə daxil edilməyib. Bunun nəticəsində həm fəlsəfənin özü, həm də ədəbi proses, o cümlədən ədəbi tənqid bir mühüm elmi-tədqiqat sahəsi kimi ziyan çəkməkdədir. Belə olduqda, təəccüblü deyildir ki, biz öz görkəmli ediblərimizi, yazıçı və şairlərimizi layiqincə işıqlandıraraq dünya miqyasında təqdim edə bilmirik.Bu məqalədə ilk dəfə olaraq görkəmli yazıçı, alim-pedaqoq, ictimai xadim İsmayıl Şıxlının yaradıcılığı tam yeni bir ədəbi təhlil və tənqid müstəvisində araşdırılır. Belə ki, yazıçının həyat və yaradıcılığında müşahidə olunan olduqca əhəmiyyətli elementlərin dünya fəlsəfəsi fikrinin inkişafında təsirli rol oynamış H. Markuzenin zəngin irsinə məxsus elementlərlə səsləşdiyi, hətta üzvi vəhdət təşkil etdiyi göstərilir. Bununla da İsmayıl Şıxlının bir yazıçı və şəxsiyyət kimi həyat

və yaradıcılığının daha geniş, yəni, ümumbəşəri əhəmiyyət daşıdığı əsaslandırılır.

Tədqiqatın yeniliyi, birinci növbədə, ilk dəfə olaraq Azərbaycan ədəbi mühitində problemin qoyuluşunda və gündəliyə gətirilməsində, həmçinin yeni, daha adekvat tədqiqat epistemologiyasından istifadə edilməsindədir. Araşdırma nəticəsində İsmayıl Şıxlının yaradıcılığına məxsus bir çox əhəmiyyətli məqamlar, bədii fikir elementləri aşkarlanmışdır ki, onlar indiyə qədər ədəbi tənqidin və ümumiyyətlə, ədəbi prosesin diqqətindən, məqsədli təhlilindən kənarda (əslində isə – açılmamış) qalmışlar. Burada mən əsasən insanın ruhi-mənəvi aləminə, insanlar arasındakı münasibətlərə, fərdi və kollektv davranış nümunələrinə aid olduqca önəmli məqamları, situasiya və məsələləri nəzərdə tuturam. Fikrimcə, məhz bu axarda tədqiqatların aparılması, hər şeydən əlavə, İsmayıl Şıxlı yaradıcılığının milli-mənəvi qaynaqlarının daha müfəssəl və hərtərəfli öyrənilməsi üçün də böyük fayda vermiş olar. Burada, həmin mövzunun əhəmiyyətli olmasından çıxış edərək, nəzər-diqqəti hörmətli H. Qasımovun "İsmayıl Şıxlı yaradıcılığının milli-mənəvi qaynaqları" adlı bir maraqlı və kifayət qədər düşündürücü məqaləsinə yönəltmək istərdim. Müəllif, məsələn, yazır: "Hakim ideologiyanın sinfi-partiyalı ədəbiyyatı gündəmə çıxardığı bir dönəmdə sənətini ruhi-mənəvi dəyərlərin çözümünə yönəldən İsmayıl Şıxlı bununla həm də yeni ədəbi nəslin boy göstərməsinə münbit zəmin yaratmış olurdu. Belə ki, "Dəli Kür" əsəri bədii düşüncə sferasına daxil olandan sonra milli özünüifadə, milli özünüdərk uğrunda mücadilə kimi taleyönlü məsələlər ölkə ədəbiyyatında daha geniş şəkildə bədii tədqiq obyektinə çevrilməyə başladı. Bunun başlıca səbəbi "Dəli Kür" romanının aparıcı qəhrəmanı Cahandar ağanın mənəvi dəyanəti, bir azərbaycanlı kişinin milli xarakteri özündə tam ehtiva etməsi idi" **[5, s. 7]**.

Yalnız İsmayıl Şıxlı yox, bizim başqa görkəmli ədiblərimiz də, onların zəngin yaradıcılığı yeni baxışa, ciddi

fəlsəfi təhlilə həm layiq, həm də ehtiyaclıdır. Bədii fikir daşıyıcıları və onların irsi yalnız ədəbiyyat sahəsində çalışanların tədqiqat mövzusu olmamalı, bu istiqamətdə filosoflarımız da öz töhfələrini verməlidirlər. Məhz fəlsəfi arsenal vasitəsilə biz həm ədəbi tənqidin özünü zənginləşdirə bilərik, həm də görkəmli sənətkarlarımızın əsl dəyərini anlamış olarıq. Onların bir çoxunun sadəcə yazar deyil, milli və bəşəri fikir tarixində mütəfəkkircəsinə iz qoyduqlarını sübuta yetirərik. Belə etsək, çoxçeşidli və zəngin Azərbaycan ədəbiyyatının, mədəniyyət və incəsənətinin bir çox özəl xüsusiyyətlərini, ənənəvi və novator elementlərini daha müfəssəl işıqlandıraraq dünya müstəvisinə çıxarda bilərik. Qaldırdığım mövzu istiqamətində tədqiqatların davam etdirilməsi, həmçinin milli fəlsəfəmizin təkamülü onun milli səciyyə daşıyan xüsusiyyətlərinin dərindən və hərtərəfli dərki baxımından da zəruri və faydalı görünür.

İsmayıl Şıxlı yaradıcılığına, onun düşüncə və həyat tərzinə bir mühüm cəhət xasdır ki, xüsusi vurğulanmağa ehtiyaclıdır. Belə ki, bu cəhət tək-tək yaradıcı insanlarda müşahidə olunur. Söhbət insan varlığına olduqca həssas münasibətdən gedir. Təqdirəlayiq haldır ki, insan varlığına həssas münasibət yazıçı tərəfindən, sadəcə, təqdim və təsvir olunmur. Bu münasibətin faktiki, fəlsəfi, sosial-siyasi açılışı verilir, bədii obraz və vasitələrlə dərin məzmun-mahiyyəti işıqlandırılır. Mövcud olanla yanaşı, "necə olmalıdır?" sualına da cavab axtarılır. Yəni, yazıçı adi müşahidəçi, təsvirçi rolunda çıxış etmir, düzgün çıxış yollarını, vasitələrini axtarır. Məhz bu axtarış mövcud olana həm də onun tənqidi mövqeyini şərtləndirir. Qeyd edim ki, bu axtarış prosesində İsmayıl Şıxlı bütün yaradıcılığı boyunca insan varlığına həssas münasibət məsələsini sıx surətdə insan azadlığı anlayışı ilə uzlaşdırmağa, onları həmahəng tərzdə dərk etməyə və işıqlandırmağa çalışır. Əslində, özünəməxsus bir mövqe, yazıçı platforması formalaşdırır ki, bu da onu, fikrimcə, Herbert Markuze ilə yaxınlaşdırır, hətta deyərdim ki, ideya-ideallar və daxili fikir çırpıntıları baxımından doğmalaşdırır. Qənaəti

əsaslandırmaq naminə aşağıda H. Markuzenin kimliyi, onun bir mütəfəkkir olaraq bəşəriyyətə verdiyi töhfə barədə müəyyən məlumat (açıqlama) təqdim etmək istərdim.

Hələ 2006-cı ildə nəşr olunmuş "İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə" əsərində belə fikir söyləmişdim:"Bütövlükdə götürüldükdə, Hegelin fəlsəfi sistemində müasir elmi paradiqmanın məzmun-mahiyyətini, məntiqini ifadə edən, postneoklassik ideya və prinsiplərlə uzlaşan bir çox məqamlar, maraqlı və faydalı cəhətlər vardır ki, onları ilk dəfə anlayıb qeyd edənlərdən biri XX əsrin görkəmli filosofu Herbert Markuze olmuşdur **[2, s. 186]**. Konkret olaraq, H.Markuze Hegelin məhz hansı **azadlığı** bəşəriyyətə təqdim etdiyini hamıdan əvvəl anlamış və özü də bu istiqamətdə səylər göstərməyə çalışmışdır. Keçmiş əsrin 60-cı illərinin antitotalitar hərəkatlarının tanınmış ideoloqu Herbert Markuze "Eros və Sivilizasiya" əsərində yazırdı ki, Hegelin "Ruhun fenomenologiyası" azadlığın o formasının dəf olunmasına yönəlib ki, başqasına antaqonist münasibətlə müəyyənləşir" **[8, s. 104]**.

H. Markuzenin fikrincə, əsl azadlıq arasıkəsilməz fəthetmə fəaliyyətində deyil, aşkar elm vasitəsilə rahatlığa nail olmada və mövcudluğu qane etmədədir. Qarşılıqlı etiraf hələ ki azadlığın reallığını yoxlamaq üsulu kimi qalır, ancaq indi onun şərtləri – əfvetmə və barışdırmadır, lakin nə dövlət, nə cəmiyyət, buna hazır deyil. – Hegelin dövründə olduğu kimi, baxmayaraq ki, elə o dövrdə azadlıq öz "son formasını" ruhun təntənəsində tapmışdı **[7, s. 159-360]** və bu məqam Hegel tərəfindən qeyd olunmuşdur **[7, s. 106]**.

Elə buradaca bir məsələyə xüsusi diqqət yetirmək istərdim. H. Markuzenin 1955-ci ildə nəşr olunmuş həmin "Eros və Sivilizasiya" əsərini (Levi-Stross və Kon-Benditin əsərlərilə yanaşı!) bu günə qədər də "seksual inqilab"ın başlanğıcı epoxasının "mütləq əsəri" adlandırırlar ki, bu fikir də tam həqiqəti əks etdirmir. Fikrimcə, "Eros və Sivilizasiya" əsərinin böyük mənası və əhəmiyyəti onun "seksual inqilab"ın ideoloji əsası

rolunda çıxış etməsindən çox, postneoklassik fəlsəfənin bariz nümunəsi olmasındadır. Məhz o dövrdə fəlsəfədə, digər elmlərlə yanaşı, çoxşaxəli tərpənişlər baş vermişdir ki, postneoklassik təfəkkür tərzinə, qeyri-ənənəvi idraki zəminlərə tədrici keçid üçün yol açılmışdır.

Əgər Frankfurt məktəbinin Teodor Adorno və Maks Horkhaymer kimi görkəmli nümayəndələri industrial cəmiyyət zirvəsinə çatmış və zəka adlanan idealın dönüklüyü ilə xarakterizə olunan sivilizasiyanın eybəcərliklərinə işıq salıb onları önə çəkirlərsə, fərdi əzən və onun azadlığını yox edən kapitalizmin, mütləq olaraq – faşizmin (sağ totalitarizmin) və yaxud kommunizmin (sol totalitarizmin) törətdiyini qeyd edib “cəmiyyyətin tənqidi nəzəriyyəsi”ni yaratmağa çalışırlarsa, H. Markuze xeyli dərəcədə başqa yol seçir. Və hesab etmək olar ki, fikrimcə, onun seçdiyi yol öz təsiri, məhsuldarlığı və evristikliyi baxımından daha böyük hörmətə layiqdir. Markuze təlimi təkcə atəşin tənqidçilikdən ibarət deyildi, nəzəri və əməli müstəvidə yeni dialoqa, əsl insani münasibətlərə, sağlam yeniləşməyə yol açan, vasitələr təklif edən, nəzəri-praktiki zəminlər yaradan möhtəşəm platforma, paradiqma, orijinallığı və cəzibədarlığı ilə fərqlənən “ictimai mövcudolma və fəaliyyət düsturu” idi. Bu, sadəcə olaraq, niyyətlər, istək-arzular, təklif-tövsiyələr yığımı, habelə, qətiyyən (əksəriyyətin indiyə qədər etdiyi kimi) “milli dəyərlərə”, “tarixi köklərə” bayağı qayıdış çağırışları deyildi. Bəli, Markuze təlimində çağırışlar var, lakin onların məğzi-nüvəsi bunu ifadə edirdi: insan varlığına həssas və sayğılı münasibət – ən ali və müqəddəs qanundur; o, heç bir dini-siyasi-iqtisadi-milli “dəyərlər”in diktəsi, total hökmü altında olmamalıdır! İnsan konservator, etatst, ənənəviçi və yaxud novator, yenilikçi ola bilər, lakin bu seçim, ilk növbədə, onun öz hüququdur.

Bir çox həmkarları kimi, H. Markuze də Qərbin maarifçi rasionallıq idealının gerçəkliyi xeyli dərəcədə təhrif və falsifikasiya etdiyini, təbii reallığa repressiv munasibətini,

dünyanı özünəməxsus tərzdə mifolojiləşdirməsini, “Dionisiy başlanğıcı”ndan püskurən xaos qorxusu və sağ qalıb yaşamaq istəyi üzündən addımbaşı “məna” və “məqsəd” uydurmasını görür və anlayırdı. Lakin onun yaradıcı bir insan kimi böyüklüyü, düşüncə möhtəşəmliyi onda idi ki, öz missiyasını, həmçinin fəlsəfənin vəzifəsini yalnız mövcud olanı tənqid etməkdə və qılınclamaqda görmürdü, “əyri və təhrifedici” rasionallığı kənarlaşdırmaqla kifayətlənmirdi, formal məntiqin rahatlığı naminə bir tərəfdən dünyanı silib-süpürən “əjdaha”nın yerinə onun əksi olan “anti-əjdaha”nı – başqa əksliyi ortaya atmırdı, necə ki vaxtilə bunu K. Marks (soldan) və F. Nitsşe (sağdan) etmişdilər. Ümumiyyətlə, o, “mənə qədər dünya qlobal yanlışlıq üzərində qurulub və inkişaf edib!”, “dünya başı üstədir, onu ayaq üstə qoymaq lazımdır!” kimi fikirləri əlində dəstavüz etməyib və öz subyektiv zəkası yüksəkliyindən bəşər tarixinə yuxarıdan aşağı baxmayıb, messiançılığa varmayıb.

Herbert Markuze bəşər tarixinin daxili potensiyasından, mahiyyətindən doğan inkişafa hörmətlə, həssaslıqla yanaşır, indiyə qədər olanı nihilistcəsinə “asıb-kəsmir”, onu anlamaq və mümkün olan dərəcədə sonrakı pozitiv inkişafa yardımçı etmək istəyir. O, sivilizasiyanın repressiv modifikasiyalarının, məcburi sublimasiya hallarının nəticəsi və vasitəsi olduğunu heyranedici bir məharətlə açıqlayır və əsaslandırır, lakin insan tarixinin bütün sivilizasiyalı dövrünü (ibtidai-icma quruluşunun dağılması və xüsusi mülkiyyətin yaranması anından başlayaraq) Markssayağı səhv bir istiqamət kimi qələmə verməkdən çəkinir. Buna nə onun ürəyində məskən salmış ilahi eşqi, nə insaniliyi, nə də elmliyi və ədalətliliyi icazə vermir. Markuze bəşəriyyətin inkişaf və mövcudolma tarixinin heç də hansısa elmi-rasionallıq tipi ilə, yaxud da sosial qrupların bilavasitə müdaxiləsi və fəallığı ilə müəyyənləşib təyinatlandığını mütləqləşdirmir, eyni zamanda proses iştirakçılarının (insanların, sosial qrupların, dövlət və cəmiyyətlərin) rolunu da aşağılamır, danmır. Tarix üzərində Mütləq Qüvvənin böyük hökmünü dərk edən Markuze, insanlaın

öz taleləri və sivilizasiyanın gələcəyi, onun mahiyyəti barədə məsul, borclu olduqlarını əhəmiyyətli bilir. Ona görə də **qeyri-repressiv sivilizasiyanın** mümkünlüyünü vacib sayaraq bu yolda öz səylərini səfərbər etməyə çalışır. İnanır ki, nə vaxtsa mövcudluq uğrunda mübarizə əvəzinə fərdi tələbatların azad inkişafı ruhunda qarşılıqlı fayda verən əməkdaşlıq vəziyyəti yaranacaq **[10, s. 571]**. Qaneolmanın elə yeni rasionallığı zəruridir ki, onun çərçivəsində zəka xoşbəxtliklə uzlaşır, hətta üst-üstə düşür. "Azadlığın arxetipi yatırtmanın yoxluğudursa", hələ ki, "sivilizasiyaya bu azadlıqla mübarizə kimi baxmaq olar" **[8, s. 19]**. "Qeyri-azadlıq və məcbuetmə – budur mədəni azadlığın və tərəqqinin qiyməti" **[8, s. 22]**.

Qeyri-repressiv sivilizasiyaya keçidin zərurətini H.Markuze həmçinin onda görür ki, ardı-arası kəsilməyən repressiya, Erosun məhdudlaşdırılması, son nəticədə, buxovlamaq istədikləri qüvvələri – destruksiya qüvvələrini gücləndirir və azad buraxır. Destruksiya müəyyən mənada iztirab və əzilməyə qarşı sonsuz mübarizənin ifadəsidir. Bu ifadənin bir tərəfi gərginlikdən, ağrı və çatışmamazlıqdan qeyri-iradi qaçış və ölümə cazibədirsə, digər tərəfi – dağıtmaqdan, uçurmaqdan zövq almaqdır. Bəşəriyyətin sivil formada mövcudluğunu möhkəmləndirmək naminə həyata keçirilən zəruri "instinktlərin modifikasiyası" kimi repressiyaya siyasi hakimiyyət, habelə, konservativ toplum tərəfindən əlavə olunan izafi repressiya ölçü və sağlam düşüncə hədlərini keçdikdə, destruksiyanın daha dəhşətli və ağlagəlməz formalarına yol açılır ki, bundan da hər cür şarlatanlar, fırıldaqçılar, alçaq məxluqlar faydalanır. Həyati instinktlərin fasiləsiz və kobud surətdə dəf olunması son nəticədə şəxsin degenerasiyasına gətirib çıxarır ki, bu da insanın və insaniliyin insanda ölməsi deməkdir. – Qeyd edim ki, bu məqamlar İsmayıl Şıxlı yaradıcılığında ustalıqla təsvir olunur.

Xoşagəlməz halın baş verməməsi üçün yeganə yol, Ziqmund Freydin əsaslandırmasına görə, həzzalma prinsipinin reallıq prinsipinə transformasiyasıdır, yəni insanın, onun

psixoloji konstruksiyasının sublimasiyasıdır. Sublimasiya yalnız canlı orqanizmin deseksuallaşmasından ibarət edyil, o, həm də libidonun böyük hissəsinin sosial normalarla tənzimlənən əməyin instrumenti qismində çıxış etməsindən və həmin normalarla hesablaşmasından ibarətdir. Başqa sözlə desək, sublimasiya xeyli dərəcədə sosial məhsuldarlıq **prinsipi** ilə bağlıdır. Beləliklə, insan "təşkilatlanmış "**mən**"ə çevrilir. Freydizmin təməl daşı bundan ibarətdir ki, həzzalma prinsipi ilə reallıq prinsipi arasında antaqonizm qaçılmazdır və ümumiyyətlə, qeyri-repressiv cəmiyyət mümkün deyil.

Z. Freydin fikrincə, insan tarixi – onun buxovlandırılması, yatırdılması tarixidir. Məcburiyyətə yalnız insanın ictimai varlığı yox, həm də bioloji varlığı məruz qalır. Onun mövcudluğunun ayrı-ayrı tərəfləri deyil, ehtiras və instinktlər strukturunun özü də təsir altına alınır. Mədəniyyət, yaxud da sivilizasiya fərdin üzərinə məhdudiyyətlər qoyur. Bu məhdudiyyətlər (qadağalar) götürülərsə və ona təbii məqsədləri istiqamətində tam sərbəstlik və hərəkət imkanı verilərsə, hər hansı dayanıqlı asosiallaşma forması ilə uzlaşması üzə çıxar. Freydə görə, həzzalma ilə reallığın antaqonist qarşıdurması əbədi və qaçılmazdır.

H. Markuze isə Z. Freyddən fərqli olaraq, göstərilən antaqonizmin mütləqləşdirilməsi tendensiyasına etiraz səsini qaldırır. O, hesab edir ki, sosial reallığın özü də insana münasibətdə həssas olmalı və bir növ sublimasiya prosesindən keçməlidir. Yəni, mütləqliyindən azad olmalı və insanın fundamental təbii istəklərilə hesablaşmalıdır. Bu mənada o, Marksın ictimai mühitin dəyişdirilməsi, əsaslı surətdə yeniləşdirilməsi ideyasını qəbul edir və bu ideyanın freydizmlə üzvi sintezini ortaya qoymağa çalışır. Əgər marksizm cəmiyyətə baxışdan ayrıca insanın dərk olunmasına doğru gedirsə, freydizm isə, əksinə, fərdin istəklərinin təhlilindən ictimai tendensiyaların şərhinə keçirsə, Markuze hər iki düşüncə tərzini uzlaşdırmağa çalışır. Başqa cür desək, Markuze çıxış yolunu hər

iki yanaşmanın sinergiyasında görür. Tam əminliklə demək olar ki, H.Markuze problemə məhz **tənqidi-sinergetik təfəkkürün**[80] tələbləri baxımından yanaşır. Və mən bu yanaşmanı "**rasional humanizm**" adlandırardım. Yuxarıda deyilənlər artıq bunu sübut edir.

Onun əsərlərinin, düşüncə və yazı üslubunun, problemlərə yanaşma xüsusiyyətlərinin dərindən və hərtərəfli təhlili sübut edir ki, H. Markuzenin təfəkkür tərzi, fəlsəfi refleksiya özünəməxsusluğu üçün tənqidi-sinergetik təfəkkür tipinə xas olan əlamətlər, təfərrüatlər xarakterikdir. Belə ki, onun təfəkkürü öz daxili insaniliyi, tolerantlığı və dialoqsevərliyi, müxtəliflik vasitəsilə vahidliyə və qarşılıqlı fayda verən əməkdaşlığa meyilliliyilə, "yumşaq hesablamalar"a üstünlük verməklə fərqlənir, vicdan və məsuliyyət kimi instansiyaların (İ.Şıxlıda təqdim edilən) bir-birini tamamlayan gücü-qüdrəti ilə seçilir. Məhz bu səbəbdəndir ki, o, keçmişə, tarixə, dünyanın gedişinə, ayrı-ayrı mütəfikkirlərin və ictimai xadimlərin həyat və yaradıcılığına, konkret götürülmüş adi bir insanın problemlərinə böyük qayğı və həssaslıqla, hörmət və ehtiramla yanaşır, prinsipiallığı ilə bərabər, mərhəmət və rəhmliliyindən də əl çəkmir.

Görünür, bütün bu keyfiyyətlərdən hasil olan səbəbdəndir ki, Herbert Markuze cəmiyyətin yenidən təşkili və idarə olunması məsələsində Karl Marksın konseptini bütövlükdə yararsız, insan varlığına və sosiuma münasibətdə amansız, qəddar, təhlükəli və ziyanlı bilsə də, onun bəzi ideyalarının freydizmlə uzlaşması, sintezləşməsi üzərində çalışır. Onu da qeyd edək ki, bu çalışma bəzi sovet alimlərinin qələmə verdikləri

---

[80]«Tənqidi-sinergetik təfəkkür" anlayışı ilk dəfə mənim tərəfimdən (1988-ci ildə) elmi dövriyyəyə daxil edilmiş və bu əsasda yeni (postneoklassik) konsepsiya işlənib hazırlanmışdır. Bax.: Аббасов А.Ф. Сложность. Время. Синергетика: общетеоретический анализ проблем сложности и развития сложных систем. Баку: «ELM». 1991; Abbasov Ə.F. Yeniləşən cəniyyət. Müasir elmi paradiqma və idarəetmə. Bakı: "ELM". 1998.

kimi, heç də uğursuzluqla yekunlaşmır. Məhz, o cümlədən Markuzenin misilsiz xidmətləri Qərb dünyası 60-cı illərdən başlayaraq ictimai həyatın təşkili, idarə olunması və insan haqlarının müdafiəsi cəhətdən tərəqqiyə doğru köklü sıçrayış etmiş, daha da sivilləşmiş və kamilləşmişdir. Keçmiş SSRİ-nin var gücü ilə həmin dövrdə özünün bədnam "dissidentlərlə mübarizə kampaniyası"nı körükləməsindən fərqli olaraq, Qərb elitası, onun dərindən düşünən, vicdanlı siyasi və ictimai xadimləri, görkəmli fikir sahibləri İnsana, onun varlığına və hüquqlarına böyük saygı və qayğı göstərərək sistemli hərəkətə başlamış, bu istiqamətdə əzmkarlıq və fədakarlıq göstərmiş, sözün əsl mənasında, fövqəl bir missiyanı həyata keçirmişlər.

Freyd göstərirdi ki, azadlığın məhdudlaşdırılması qaçılmazdır – bu, qurulmuş sivilizasiya naminə ödəniş haqqıdır. Azadsızlığın bir çox dərinliklərini açıqlayan Freyd, insanların yatırdılmış istək-ehtiraslarının müdafiəsinə qalxır və bu məqsədlə qeyri-şüurluluq nəzəriyyəsini yaradır. Qeyri-şüurluluq tam həzzalma cəhdinə olan yaddaşdır ki, burada ehtiyac və yatırtma yoxdur. Qeyri-şüurluluqda sivilizasiyanın nailiyyətlərilə birgə bərqərar olmuş cənnət istəyi öz həyatını yaşamaqda davam edir. Psixoanalitik nəzəriyyədə yaddaş mərkəzi yer tutur, onun terapevtik funksiyası həqiqi dəyərliliyindən qaynaqlanır. Bu səbəbdən də, Freydə görə, vacibdir ki, yaddaşa daxil olasan, onun məhsullarında qeyri-şüurluluğu aşkarlayasan, yuxuları təhlil edib onlara "açıq gözlə" baxasan. Beləliklə, yalnız "sərt həqiqət"ləri kəşf etməklə qeyri-şüurluluğu məhdudlaşdıran buxovlayıcı çərçivəni sındırmaq mümkündür.

**Z**. Freyd sivilizasiya xatirinə verilən ödənişin əbədi olması ilə barışmaq istəmir. Lakin onun göstərdiyi çıxış yolu son nəticədə daxilət psixoloqiyasının dalanlarında ilişib qalır. O, problematikanın həllinin, heç olmasa, müəyyən qisminin insandan kənar aləmdə – sosial mühit və institutlarda, ictimai əlaqə və münasibətlərdə "gizləndiyini" sanki görmür. İnsanı əhatə edən mühit, elə bil ki, bir konstantadır və onun fərdə

yönümlənmiş münasibətindən hansısa həssaslıq, tolerantlıq, özünütənqid və yumşalma gözləmək əbəsdir.

H. Markuze bu mövqe ilə barışa bilmir və barışmaq da istəmir. O, hesab edir ki, cəmiyyət yeni rassionallıq əsasında qurulmalı və inkişaf etməlidir. Belə bir tərzdə ki, hissiyatı reabilitasiya etsin və onu sıxışdırıcı-əzici mədəni normativlərdən, standartlaşmış və dəb halına salınmış məhvedici adət-ənənələrdən azad bir vəziyyətə gətirsin. Lazımsa, Qərb sivilizasiyası bir sıra hökmranlıq edən dəyərlərdən əl çəkməli və cəmiyyətin transformasiyasının mütərəqqi cərəyanına yol açmalı, imkan yaratmalıdır. H. Markuzeyə görə, məhz çoxölçülü azadlığa malik şəxsiyyət qeyri-insani sosial mühiti silkələyib partlada bilər. O mühiti ki, yalnız insanın insan üzərində və insanın təbiət üzərində hökmranlığını həyata keçirir və totallaşdırır. İnsan azadlıq dərəcələri və mövcudluq ölçüləri naminə fəallaşmalı, özünə və dünyaya olan münasibətlərinə yenidən baxmalıdır.

Əgər ümumi sağlam mövcudluq, bir tərəfdən, sosial-siyasi və iqtisadi şəraitin modernləşməsinə ehtiyaclıdırsa, digər tərəfdən, insanın öz daxili dünyagörüşünün, şüurunun zəruri dəyişmə yolu ilə yeniləşməsindən asılıdır. Bu həm də H. Markuze tərəfindən ona işarədir ki, sözün əsl mənasında "azadlıq həyat üçün risklə bağlıdır; və təkcə ona görə yox ki, o, köləlikdən qurtuluşu nəzərdə tutur, həm də ona görə ki, insan azadlığının məzmunu bir insanın digərinə "neqativ münasibətilə" müəyyənləşir… Azadlığı yalnız öz şəxsi həyatını tərəzinin gözünə qoymaqla "sınamaq" olar" **[8, s. 103].**

Gördüyümüz kimi, H. Markuzedə şəxsiyyət və cəmiyyət, insan və sivilizasiya münasibətlərində qarşılıqlı fayda verən, bir-birini tənzimləyən və çəkindirən tərəflərarası fəallığa və fəaliyyətə xüsusi diqqət yetirilir. Bu isə sinergetik yanaşmanın bariz nümunəsidir. Müasir dövrün elmi kateqorial-instrumental aparatından istifadə etsək, onu da deyə bilərik ki, Markuzenin söhbət "açdığı yeni rasionalizm" də elə postneoklassik

paradiqmanın mühüm əlaməti olan sinergetik rasionalizmdir.

Deyilənlərdən çıxış edərək və məntiqin tələblərini əsas götürərək, bir məsələyə də münasibət bildirmək istərdim. Bəzi mütəxəssislər indinin özündə də belə bir ədalətsiz fikir söyləyirlər: “Qeyri-repressiv sivilizasiyanın “ağıllı” quruluşundan danışan Markuze bu ağılın özü barədə və onu kimlər rəhbər tutmalıdır sualı haqqında heç nə demir” **[11, s. 523]**. Belə olan yerdə deyirlər: “Görünən dağa nə bələdçi!”

Bəli, H. Markuze müasir qeyri-ənənəvi paradiqmaya məxsus terminlərdən, demək olar ki, istifadə etmir və bu, mümkün də deyildi. Ancaq həqiqət ondadır ki, onun toxunulan problemlərə yanaşma tərzi, mülahizə texnologiyası öz məzmun-mahiyyəti etibarilə bilavasitə sinergetik düşüncə və dünyagörüşün ruhundan qaynaqlanır.

Təsadüfi deyildir ki, H. Markuze öz fəlsəfi refleksiyasında, epistomoloji təhlilində formal məntiqin çərçivələrindən kənara çıxmağa çalışır, bu məntiqin mürəkkəbləşən müasir cəmiyyətin və dünyanın anlaşılmasında gücsüzlüyünü, qeyri-müvafiqliyini göstərir. Məsələn, “Birölçülü insan” əsərində yazır: “Formal məntiq ideyasının özü universal nəzarət və hesablanmanın mənəvi və fiziki alətlərinin inkişafında tarixi hadisədir. Bu tədbirin vəzifəsi gerçəklikdə mövcud olan pərakəndəlikdən nəzəri harmoniya yaratmaqdan, təfəkkürü ziddiyyətlərdən təmizləmək və cəmiyyət, təbiət həyatının mürəkkəb proseslərində identifikasiyalaşmadan və nəsli mahiyyətləri müəyyənləşdirməkdən ibarət olmuşdur. Formal məntiq işığında mahiyyət və görünüş arasında konflikt anlayışı, hətta mənasız da olmasa, mühüm (*expendable*) deyil: maddi tutum burada neytrallaşdırılıb, eyniyyət prinsipi ziddiyyət prinsipindən ayrılıb (ziddiyyətlər - sırf qeyri-düzgün təfəkkürün səhvləridir), son nəticələr isə məntiqi nizamdan kənarlaşdırılıb… beləliklə, formal məntiq - elmi təfəkkürə doğru uzun yolda ilk addımdır; yalnız birinci addım, çünki təfəkkür formalarının texnoloji rassionallığa uyğunlaşması üçün daha yüksək abstraksiya və

riyaziyyatlaşdırma səviyyəsi vacibdir” **[8, s. 400]**.

Bir sıra mütəxəssislər, o cümlədən Qərb alimləri **[9, s. 605]** H. Markuzenin yaradıcılığını “antiavtoritar marksizm” cərəyanına aid edirlər ki, bununla da tam razılaşmaq çətindir. Markuzenin antiavtoritar və antitotalitar olması – bu, bir inkaredilməz həqiqətdir, lakin onu nə təfəkkür tərzinə, nə mülahizə və əqli nəticələrinə görə, nə də təklif və tövsiyələrinə görə qətiyyən hansısa marksizm nümayəndəsi hesab etmək olmaz, baxmayaraq ki, o, Marksın şəxsiyyətinə, onun bəzi ideyalarına hörmətlə yanaşmışdır. Əsərlərinin obyektiv təhlili bunu sübut edir. Əlavə dəlil kimi onu da göstərmək olar ki, 1958-ci ildə nəşr edilmiş “Sovet marksizmi” əsərində H. Markuze bu ideologiyanın, öz sovet variantında, yalançı obyektivliyin şüuru rolunda çıxış etdiyini, magik xarakter daşıdığını əsaslandırır, partiya və dövlətçiliyin eybəcərcəsinə bürokratikləşərək çürüməsini göstərir. Bu əsərdə o, dialektik materializmi köntöy sxolastika və qəddar “teologiya” adlandırır. Markuze göstərir ki, totalitar sovet dövləti mərkəzləşmiş hakimiyyət daşıyıcıları – texnokratik bürokratiyanın əlində qalıb; insan repressiv dövlətin başında duranların hüquq və azadılqla bir araya sığmayan şəxsi hökmlərinin reallaşmasnda bir alətə, vasitəyə çevrilib.

Altı il sonra, 1964-cü ildə H. Markuze özünün ən məşhur əsərlərindən olan “Birölçülü adam” kitabını nəşr etdirir. Əsərdə biz birölçülü cəmiyyətdə yaşayan, şüuru miskin, şikəst, ehkamçı “fəlsəfə”nin müddəaları ilə yönümlənən bədbəxt insan obrazı ilə rastlaşırıq. Bu cəmiyyətdə tənqid total nəzarət ucbatından iflic vəziyyətinə düşüb, müxalifət və müxalifətçilik, siyasi-elmi diskurs yoxa çıxıb, fəlsəfə isə hakim siyasi xəttə bilavasitə xidmət edən texnoloji rasionalizm xəstəliyinə yoluxub və hakim qüvvənin “məntiqi” altındadır.

Texnoloji cəmiyyətdə dövlət aparatı total hakimiyyətə can atır; nəinki məşğulluq və sosial davranışı müəyyən edir, həmçinin fərdi tələbatları diktə altına alır. Texnoloji universum siyasi universuma çevrilmək cəhdindədir. Bu, tarixi proyektin

son realizasiya mərhələsidir: təbiətin ram edilərək amansızcasına istismar olunması mərhələsi.

Söz və fikir azadlığı, təşəbbüskarlıq, industriallaşmadan keçərək, cəmiyyətin acınacaqlı taleyini bölüşdürürlər. İndustrial cəmiyyət, "ümumi rifah" uğrunda vuruşaraq, təbiət və insan üzərində daha böyük və effektli hakimiyyətə ehtiyaclı qalır. Yüksək məhsuldarlıq cəhdi əməyi durmadan gərginləşdirir. Nəzarət genişlənərək cəmiyyətin bütün sferalarına yayılır, hətta şəxsi, xüsusi münasibətlərə müdaxilə edir, həmçinin alternativliyə aman vermir. İndustrial sivilizasiyada "demokratik qeyri-azadlıq" dominantlıq edir, insan azadlıq illüziyası ilə yaşayır.

Beləliklə, cəmiyyət, tənqidi fikri məhv edərək, dəyişiklik imkanının özünü öldürür. Kapitalizmin inkişafı siniflərin struktur və funksiyalarını dəyişmiş, sistemə inteqrasiya olunmuş fəhlə sinfi trasnformasiyaedici tarixi rolunu itirmişdir. Ona görə də Markuzenin fikrincə, indi yeniləşmə uğrunda mübarizə Marksın göstərdiyi yolla mümkün deyil. Birölçülü cəmiyyətin totalitar tendensiyaları ənənəvi etiraz formalarını effektsiz edir. Bununla belə, rədd edilmişlər, yadlar, istismar olunanlar, işsizlər və başqa insanlar vardır ki, dözülməz şəraitə son qoymaq istəyilə yaşayırlar. Bunların müxalifliyi sistemi laxladır, "oyun qaydaları"nı pozur, gedişatın natəmizliyini işarələndirir. Birləşmək mümkün olduqda, onlar elementar hüquqlarını tələb edirlər; bu anda da zor və təqib aparatının gücü ilə üzləşirlər. İşgəncə, azadlıqdan tam məhrumetmə və hətta ölümlə qarşılaşsalar da, bu bədnam oyunda iştirak etmək istəmirlər. Elə bu da həmin mərhələnin sonunun başlanğıcını göstərir.

Lakin, Markuzenin fikrincə, bu, o demək deyildir ki, hadisələr mütləq belə məcrada cərəyan edəcək. Bu, yalnız real imkanlardan biridir – industrial cəmiyyətin daxilində və xaricində yeni vəziyyətin işarəsidir. Böyük iqtisadi və texniki imkanlara malik mövcud cəmiyyətlər qismətsizlərə güzəştə gedib yumşaldıcı addımlar ata bilərlər; onların silahlı qüvvələri isə kifayət qədər təchiz olunmuş və öyrədilmişdir ki, fövqəladə

situasiyalarla bacara bilsinlər **[8, s. 514-515].**

H. Markuzenin fikrincə, tam mümkündür ki, barbarlığın ikinci mərhələsi sivilizasiyanın öz imperiyasının davamı olsun. Bütün bunlar bir ehtimaldır. "Cəmiyyətin tənqidi nəzəriyyəsi elə bir anlayışlara malik deyildir ki, onların vasitəsilə bu gün və gələcək arasındakı uçurum üzərində körpü atsın; vədlər vermədən və nailiyyətlər nümayiş etdirmədən o, neqativ qalır. Beləliklə, o şəxslərə münasibətdə vəfalılığını saxlamaq istəyir ki, onlar, ümidlərini itirsələr də, öz həyatlarını Böyük İmtinaya çəkməkdə davam edirlər… Yalnız ümidlərini itirənlər naminə düşüncələrdə bizə ümid verilir" **[8, s. 515]**.

Gördüyümüz kimi, H. Markuze öz üzərinə heç bir odlu-alovlu inqilab peyğəmbəri rolunu götürmür və gələcək barədə kifayət qədər ehtiyatlı danışır, çünki olduqca məsuliyyətli və vicdanlı adam idi; tarixə və insanlara "yeganə düz" fəlsəfə və çıxış yolu sırımaq iddiasından çox uzaq olub. Həmçinin, görünür, gələcək barədə nəyisə "hesablamağı" da pis bacarmırmış. Onu isə o vaxtlar da, indi də pessimizmdə suçlayıblar: guya yaxşı gələcəyə inamı zəif olub. Sual olunur: dünyanın sonrakı gedişi, həqiqətən də, barbarlığın ikinci mərhələsi ilə nəticələnibsə, Markuzenin ehtiyatlanması və "pessimizmi" ən düzgün proqnoz deyilmi?!

Əgər "sivil dünya" saydığımız Qərb, başda ABŞ və Böyük Britaniya olmaqla, öz zombiləri vasitəsilə hər gün yüzlərlə günahsız insanı qətlə yetirirsə və bunun da adını "islam terrorizmi" qoyursa, İtaliyanın naziri Məhəmməd peyğəmbərin karikaturası ilə şəkillənmiş köynək əynində "azad söz" deyərək özünü nümayiş etdirirsə, bu, barbarlıq deyilmi? Dünya xalqlarını gündə yeni bir epidemiya növü ilə təhdid edib qorxu və yoxsulluq içərisində boğurlarsa, - bu, barbarlıq deyilmi? Hər ildə milyonlarla körpə və uşaq varlı ("sivil") ağaların gözü qarşısında aclıqdan, soyuqdan, baxımsızlıqdan dünyasını dəyişirsə, - bu, barbarlıq deyilmi? Bunun adını postindustrial və informasiyon cəmiyyət də, qlobal kapitalizm də qoya bilərlər, ancaq həqiqət

ondan ibarətdir ki, bu adlar və onların arxasında dayanan mahiyyətlər insana və insaniliyə yox, kapital monstrlarının günbəgün artan istismarına, qarətçiliyinə və daha çox şiddətlənən vəhşiliyinə xidmət edir.

Məhz bunun nəticəsidir ki, SSRİ-nin dağılması əksər postsovet xalqlarına azadlıq və firavanlıq gətirmədi, əksinə, onları daha da dözülməz vəziyyətə saldı, amansız avtoritar rejimlərlə üzbəüz qoydu. Öz biznes maraqlarını, maddi-iqtisadi dividendlərini hər şeydən üstün tutan Qərb demokratiya yolunda onlara yardımçı olmadı, ülvi istək-arzularını ürəyində qoydu. Məhz Qərbin merkantil və riyakar siyasəti nəticəsində özünü SSRİ-nin varisi sayan Rusiya yenidən imperiyaçılıq, qonşu xalqları özünə tabe və istismar etmək eşqinə düşdü. Artıq 2022-ci ilin fevralından militarist və ekspansionist Rusiya öz müstəqilliyini, demokratik azad seçimini var gücü ilə qorumağa çalışan Ukraynaya qarşı qanlı-qadalı, yüz minlərlə günahsız adamın həyatı hesabına başa gələn müharibə aparmaqdadır.

Düşünürəm ki, Putin Rusiyasının təcavüzü son nəticədə elə onun özünün dağılması ilə yekunlaşacaq. O, bir çox hissələrə parçalanaraq, mövcud formatda və mahiyyətdə daimi şər mənbəyi olaraq, yaşamaq hüququnu çoxdan itirib. Mütərəqqi bəşəri duruma, Yeni Sivilizasiyaya doğru tarixi zaman bu keçidi, yəni Rusiyanın şər imperiyası kimi süqutunu və parçalanmasını zəruri edir və mütləqləşdirir. Bu gün Rusiyanın tərkib hissəsi olan bölgə və regionlarda kolonial əsarətdən azad olmaq meyilləri olduqca güclüdür və günbəgün şiddətlənməkdədir. Kinetik vəziyyətə keçməsi sürətlə yaxınlaşan ciddi potensial yetişib. Söz yox, Rusiya ilə bağlı proseslər köklü surətdə qonşu ölkələrə də (o cümlədən Azərbaycana) təsir edəcək və ümumən bəşəri durumun formalaşmasını şərtləndirəcək.

Belə bir persrektivi göz önünə alaraq, həm öz dəyərli söz-fikir sahiblərimizə, həm də ümumdünya fəlsəfi və ictimai fikir nümayəndələrinə kifayət qədər həssas olmalıyıq. Bizi yaxın gələcəkdə gözləyən yenidən rekonstruksiya problemləri, onların

doğru-düzgün həlli bunu tələb edir. Söhbət bütün sahələr üzrə yeniləşmə prosesində ciddi elmi-nəzəri, fəlsəfi, mədəni-psixoloji, etik-estetik təminatdan, müvafiq bilgilər və məlumatlar, habelə dəyərlər sisteminə söykənməkdən gedir. Xüsusən, siyasi şüurumuz və siyasi mədəniyyətimiz zəmanənin tələbləri ilə uzlaşmalı, elmi rasionallıq baxımından mükəmməl elmi və mənəvi təməllərə arxalanmalıdır. Belə olarsa, get-gedə aktuallaşan bir çox idarəetmə məsələləri də öz məqbul həllini tapar və cəmiyyətimizin düzgün, sivil məcrada yeniləşməsi reallaşar.

## Ədəbiyyat:


1. Abbasov Ə.F. Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə. Bakı: "ELM". 1998.
2. Abbasov Ə.F. İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə. Bakı: "MBN" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2006, s. 186.
3. Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq. Bakı: "Elm və təhsil". 2022, 91-92.
4. Rəsulova Ədalət. İsmayıl Şıxlının ədəbi yaradıcılığına bir baxış. 2019-10-23 // https://aqreqator.az/az/medeniyyet/33-37981
5. Himalay Qasımov. İsmayıl Şıxlı yaradıcılığının milli-mənəvi qaynaqları //
"Xalq" qəzeti.- 2009.- 5 aprel.- S. 7.
6. Аббасов А.Ф. Сложность. Время. Синергетика: общетеоретический анализ проблем сложности и развития сложных систем. Баку: «ELM». 1991.
7. Гегель. Феноменология духа. Санкт-Петербург. 1992, с.159-360.
8. Герберт Маркузе. Эрос и цивилизация. Одномерный человек. Исследование идеологии развитого индустриального общества. М. 2003.

9. Гуннар Скирек, Нилс Гильс. История философии / пер. с англ. М. 2003.

10. Джованне Реале и Дарио Антисери. Западная философия от истоков до наших дней. Т.4. Санкт-Петербург. 1997.

11. Юдин А. Парадоксы великого отказа // Послесловие к книге: «Герберт Маркузе. Эрос и цивилизация. Одномерный человек. Исследование идеологии развитого индустриального общества. М. 2003.

# SUFİ FENOMENOLOGİYA YENİ DÖVRÜN FƏLSƏFİ KONSEPSİYASI KİMİ

**Könül Bünyatzadə**
AMEA-nın müxbir üzvü, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Azərbaycan istər təbiətinə, istərsə də mədəniyyətinə görə rəngarəng və zəngin bir bölgədir. Bunun nəticəsidir ki, xalq, bir tərəfdən, yeniliyə tez adaptasiya olunur, onu mənimsəyir, digər tərəfdən, öz identikliyini qoruyur və mənimsədiyi yeniliyi təqlid etməkdən daha çox, məhz özünəməxsus cəhətlərlə zənginləşdirərək təqdim edir. Bunun təzahürünü onun musiqisində, folklorunda, hətta fəlsəfi təfəkküründə də izləmək mümkündür. Təsadüfi deyil ki, fəlsəfə tarixində təşəkkül tapmış əksər fəlsəfi cərəyanlar Azərbaycanda da geniş əks-səda doğurmuş onların görkəmli nümayəndələri məhz burada yetişmiş, hətta məktəbləri formalaşmışdır, eyni zamanda bu cərəyanların orijinal təfəkkürlü filosofları dünya mədəni irsinə misilsiz töhfələr verərək tarixə düşmüşlər.

Həqiqətə gedən yol fərddən başlayır. Dekartlın "düşünürəmsə, deməli varam" tezisindən çıxış etsək, fəlsəfi təfəkkür insanın varlığının təminatı hesab olunur. Bu isə öz növbəsində o nəticəyə gətirir ki, bir xalqın nə qədər çox düşünən nümayəndəsi olsa, bir o qədər varlığını, yəni gələcəyini də təmin etmiş olur. Hansı həqiqətin dərk ediləcəyi bilavasitə şəxsin düşüncə qabiliyyətindən asılıdır. Bəzən bu həqiqət elə fərdin öz dar, şəxsi çərçivəsindən kənara çıxmır, bəzən də universal səviyyəyə qədər irəliləyə bilir. Səviyyə nə qədər yüksək olarsa, onun yayılma arealı, ona əsaslanan da bir o qədər geniş, dərin, ümumbəşəri olar. Deməli, həqiqət nə qədər əsaslandırılmış olarsa, bir o qədər onun insana, cəmiyyətə, hətta dünyaya təsir gücü artıq olar və əvvəlki baxış bucağını dəyişmək qüdrətinə malik olar. Məsələn,

Pifaqorun fəlsəfəsinin kökündə ümumbəşəri qanunlar, universal harmoniya durur, hər şey görünməz, sirli bir qanunauyğunluğun tərkib hissəsidir. Fəlsəfənin missiyası isə insana bu mürəkkəb orqanizmdə yerini dərk etdirməkdir. Bir başqa filosof isə daha çox mövcud cəmiyyətdən çıxış edərək ideyalarını təqdim edir. Fuko, Sartr kimi. Vurğulamaq lazımdır ki, belə olan halda bir cəmiyyətin timsalında digər cəmiyyətlər üçün də aktual olan məsələlərə toxunanda, ideyanın alman, yaxud Azərbaycan mühitində yazılması əhəmiyyətini itirir, nümunə üçün adı çəkilən Zeyd, Pyer, yaxud Əhmədin milliyyəti arxa planda qalır, öndə yalnız problem, ideya durur. Düzdür, filosofun ideyalarında onun kimliyi, yaşadığı dövr sətiraltı, hətta bəzən açıq şəkildə özünü göstərir. Bununla belə, həmin filosofun özü də bir xalqın nümayəndəliyindən çıxıb bəşəriyyətə xidmət etmiş olur. Azərbaycan düşüncə tarixində də universal həqiqətin müəyyən bir parçasını işıqlandıran, onu əsər, yaxud formullar şəklində maddiləşdirən mütəfəkkirlər olmuş və olmaqdadır.

Bir fəlsəfənin dəyəri həm onun həqiqəti nə dərəcədə əks etdirməsi, eyni zamanda reallığı (hətta bu reallıq həqiqətin tam inikası olmasa belə) ehtiva etməsi ilə ölçülür, həm də onun yeni ideyalar üçün mənbə ola bilməsi ilə. Fəlsəfi sistem nə qədər geniştutumlu, zəngin olarsa, bir o qədər uzunömürlü olur. Hər nə qədər bir fəlsəfi sistem bitkin hesab edilsə də, orada növbəti ideyalar üçün çıxış, tramplin olmalıdır. Başqa sözlə desək, fəlsəfi sistem təfəkkürün inkişafında maneə yox, pillə olmağı bacarmalıdır. Nəzərə alsaq ki, istər qədim, istərsə də orta əsrlərdə Azərbaycan bir çox yeni ideyalara ev sahibliyi edib, o zaman xalqın fəlsəfi təfəkkürünün böyük potensialına inam yaranır.

Fəlsəfədə yeni söz demək çox çətindir. Çünki bunun üçün özündən əvvəlki sözləri "eşitmək", anlamaqla yanaşı, cəmiyyətə həmin an lazım olan sözü də bilməlisən. Yoxsa dediyin söz bir məqalə, yaxşı halda kitab səhifəsindən kənara çıxa bilməyəcək. Metod haqqında düşüncələrini yazan, fəlsəfə tarixində Yeni dövrün əsasını qoyan Dekart həqiqəti dərk etmək üçün müxtəlif

elmləri öyrəndiyini və bu zaman ona lazım olan elmi tapmadığını bildirir. Onun fikrinə görə, nəhəng filosoflara baxmayaraq, hələ də fəlsəfədə mübahisələrin predmeti olmayan, ona görə də şübhə doğurmayan bir mövqe yoxdur. Filosof yazır: "Başqa elmlərə gəlincə, onlar da öz prinsiplərini fəlsəfədən götürdüklərinə görə, mən inanıram ki, belə zəif təməllər üzərində möhkəm heç nə qurmaq olmaz".[81] Platonun, Leibnizin və bir çox başqa filosofun həyatını öyrənəndə də belə məlum olur ki, onların da təqdim etdikləri fəlsəfə dərin böhranda olan xalqın daxili tələbatı kimi ortaya çıxıb. XX əsrin əvvəllərində, 1917-ci ildə Albrechtə məktubunda Edmund Husserl yazırdı: "Mənim borcumdur ki, çoxillik işlərimi tamamlayım. Xüsusilə onlar yenicə başa çatmış epoxada dominant olan natural dünyagörüşü ilə teleoloji dünyagörüşü arasında barış üçün elmi əsası təmin edəcəkdir. Lakin teleoloji dünyagörüş şübhəsiz ki, haqlıdır".[82] Bəli, həqiqət universaldır və təkdir, sadəcə, hər dövrdə onun bir tərəfi işıqlanır. İnsana insan olması üçün zəruri olan həmin həqiqəti – sözü deməyə isə yalnız fəlsəfənin qüdrəti çatır.

Fəlsəfəni silah adlandırırıq, çünki o, insanı daxildən, mənən gücləndirən, iradəsini gücləndirən, seçimini aydınladan silahdır. Bəlkə də, bu səbəbdən belə bir güc mənbəyini neytrallaşdırmaq, hətta digərlərindən asılı vəziyyətə salmaq üçün müasir dünyanın aktual qüvvələri – siyasət, iqtisadiyyat – meydan sulayır, fəlsəfəni arxa plana itələməyə çalışır, onun lazımsızlığını vurğulayırlar. Maraqlıdır ki, hazırda insanı şəxsiyyət kimi məhv edən, zəiflədən bir çox sahə var ki, onlarla nəinki mübarizə aparılmır, əksinə, dəstəklənir, daha da inkişaf etdirilir. Nə qədər böyük bir paradoksdur ki, fəlsəfəni bilə-bilə

[81] Декарт Р. Сочинения в 2 т.: Пер. с лат. и франц. Т. 1/Сост., ред., вступ. ст. В. В. Соколова. М.: Мысль, 1989, с. 254

[82] *Husserl Edmund*. Ideas Pertaining To A Pure Phenomenology And To A Phenomenological Philosophy, Second Book, Studies In The Phenomenology Of Constitution Translated By Richard Rojcewicz and Andre Schuwer, 1989 by Kluwer Academic Publishers, p.XIX

arxa plana itələməklə yanaşı, öz sahələrinin gücünü artırmaq üçün öz ***fəlsəfələrini*** yazmağa iddialanırlar! Bunu siyasət də edir, iqtisadiyyat da, hətta cəmiyyəti parçalamağa, üzvlərini üz-üzə qoymağa çalışan feminizm də və ümumiyyətlə, güc iddiasında olan hər sahə. Halbuki onları fəlsəfədə artıq deyilmiş mürəkkəb bir cümlənin – fəlsəfi sistemin ayrı-ayrı "sözlərinin morfoloji, leksik, bəzən hətta fonetik" təhlili adlandırmaq olar.

Hazırda bəşəriyyət yenə böhrandadır – mənəvi, siyasi, iqtisadi, mental. Bu böhranı texnologiyalarla, elmi nailiyyətlərlə bəzəməklə görünməz etməyə çalışırlar. Yaratdıqları "möhtəşəm mənzərədə" isə müasir inkişafla ayaqlaşa bilməyən fəlsəfəyə yer tapmırlar. Yaxud, bildirirlər ki, fəlsəfənin öyrətdiyi, təbliğ etdiyi həqiqətlər artıq aktual deyil! Hər sahənin zatən öz fəlsəfəsi var! Tam radikal həddə çatanlar isə iddia edirlər ki, fəlsəfə çoxdan öz missiyasını yerinə yetirib və meydanı daha dinamik, daha praqmatik, insanlara gündəlik (!) fayda verə bilən elmlərə, sahələrə verməlidir. Bununla bir növ insanın universal, sonsuz həqiqətlə bağlarını qırıb onu gündəlik informasiya selində boğmaq, ayrı-ayrı fərdlərin maraqları arasında xırdalamaq istəyirlər.

M*üasir dövrün böhranında boğulan insana yeni düşüncə üfüqü açmaq üçün yazılmış bir fəlsəfə lazımdır.* Bu gün insan hərtərəfli bir böhran yaşayır. Nəinki ölkələr, dinlər, cinslərarası parçalanmalar baş verir, tərəflər əks qütbə çəkilir, hətta insanın öz daxili dünyasında, düşüncələrində də dərin çökmələr yaşanmaqdadır. Qəti qərar vermək, əslində, çətindir: cəmiyyəti uçuruma gətirən böhranda olan insandır, yoxsa insana dəyər verməyən cəmiyyətlər həmin böhranın səbəbidir? Möbius lenti kimi burada da başlanğıc nöqtəni, prosesin gedişini dəqiqləşdirmək çətindir.

İnsanın bioloji varlığı dəyişmədiyi kimi, mənəvi tələbləri də dəyişmir. Hegel yazır ki, tarix boyu müxtəlif ictimai-siyasi quruluşlar, dövlətlər bir-birini əvəz etsələr də, qədim dövrün, orta əsrlərin müdriklərini düşündürən problemlər bu gün bizi də

düşündürür, bir neçə əsr bundan qabaq yaradılmış gözəl sənət əsərindən biz də zövq alırıq.[83] Biz həmin dəyərləri sadalamırıq, sadəcə, müəyyən bəşəri problemin, yaxud insanın kamilləşmə yolunun açar məqamlarının təhlilində onlara istinad edirik. Sufi fenomenologiyanın təməl prinsiplərini insanın varlığını yaradılışdan sabit saxlayan dəyərlər təşkil edir.

Müasir dövrün böhranını araşdıran amerikalı filosof və tarixçi Riçard Tarnas onu "mahiyyətcə kişi böhranı" adlandırır və bildirir ki, "Əsrimizin qarşısında boya-boy dayanan böyük məsələ budur: kişi başlanğıcı özünün "hybris"*-indən və birtərəfli planından əl çəkib, nəhayət ki, dərk olunmamış yarısını görmək və könüllü olaraq qadın başlanğıcı ilə onun bütün təzahürlərində tamamilə yeni, qarşılıqlı anlaşma və bərabərliyə əsaslanan münasibətdə olmaq".[84] Bizim fikrimizə görə, belə fəlsəfələrdən biri də sufi fenomenologiyadır ki, alimin səsləndirdiyi hər iki təklifə cavab olaraq yazılıb. O, a) *dünyanın fəlsəfi mənzərəsinə qadın baxışının əlavəsidir və b) insanın şəxsiyyət kimi bütövləşməsi və kamilləşməsi üçün fəlsəfənin təməl nöqtələri üzərində bərqərar olan sistemdir.*

Deyilənlər belə bir sual yarada bilər: əgər fəlsəfə tarixində mövcud olan bir belə fəlsəfi sistemlərə rəğmən insanlıq yenə böhrana düşübsə, yeni bir fəlsəfə bunu etməyə nə dərəcədə qadirdir? Bəli, fəlsəfi sistemlər çoxdur və hər biri öz dövründən təkan alaraq universal həqiqətə qədər uzana bilib. Başqa sözlə desək, həmin sistem artıq boğulmaqda olan insanlıq üçün nəfəslik rolunu oynayıb. İnsanların, cəmiyyətin böhrandan çıxması üçün fəlsəfə oxumaq, yaxud filosof olmaq şərt deyil. Sadəcə, mövcud durumdan daha üst qata çıxış yolu olduğunu bilmək və ora artıq kiminsə qalxdığını bilmək insanın ruhunu oyadır, depressiv haldan çıxışın olduğunu göstərir. *Fəlsəfə yalnız işığın yolunu göstərir, o işığa doğru gedi-getməmək isə*

---

[83] *Гегель Г.В.Ф.* Философия духа, s. 34

* Tanrıya nifrət hikkəsi – qədim yunan.

[84] *Тарнас Р.* История западного мышления, s. 375-377.

*qaranlıqda duran insanın öz seçimidir.*

Sufi fenomenologiya ilk baxışda iki güclü fəlsəfə – Sufizm və fenomenologiya üzərində təşəkkül tapır, daha diqqətli araşdırma isə belə deməyə əsas verir ki, bu iki təlim vasitəsilə o, fəlsəfə tarixinin ən qədim köklərinə qədər nüfuz edir, özündə bir çox ideya xəttini birləşdirir. Hələ X əsrdə sufi mütəfəkkiri Sərrac Tusi yazırdı ki, hər elm həqiqətin bir yolunu, bir tərəfini, Sufizm isə həqiqətin özünü öyrənir. Biz bilərəkdən təsəvvüf deyil, məhz Sufizm deyirik. Bununla da İslam dini üzərində təşəkkül tapan, Qurani-Kərimə istinad edən və fəlsəfə tarixinə öz prinsipləri, sabit nəzəriyyəsi ilə daxil olan dini-fəlsəfi sistemi nəzərdə tuturuq. Xatırladaq ki, təqribən erkən orta əsrlərdə müəyyən siyasi səbəblərdən, yaxud şəxsi maraqlardan yaranan sufi ordenlərin, təriqətlərin yaranması Sufizmin parçalanmasına gətirib çıxardı. Dövrün tələblərinin əlavə etdiyi yeni xüsusiyyətlər, müəyyən mərasimlər diqqəti əsl mahiyyətdən uzaqlaşdırmağa müvəffəq oldu. Maraqlıdır ki, təqribən eyni dövrdə (XI-XII əsrlər) həm də Sufizmin fəlsəfəsi yazılmışdı, təməl prinsiplər, nəzəriyyələr təqdim olunmuşdu, ancaq buna baxmayaraq hazırda Sufizm daha çox ya mistik meditasiyalar, ya ekzotik tamaşa, ya da poeziyada bir üslub kimi tanınmaqdadır. Onun saf təfəkkür tərzini, şeylərin, başlıcası isə insanın öz mahiyyətini öyrənməyə, dərk etməyə yönəli bir idrak prosesini ehtiva edən, yaradılış və Mütləq Həqiqət haqqında nəzəriyyə və kateqoriyalara malik dini-fəlsəfi məktəb olması isə arxa plana itələnib. İstənilən təhrifdən uzaq olmaq üçün biz sufi fenomenologiyada əsasən klassik dövr Sufizminə istinad edirik.

Sufi fenomenologiyanın ikinci sütunu, adından da göründüyü kimi, fenomenologiyadır, daha dəqiq desək, Husserl fenomenologiyası. Öz fəlsəfəsini ciddi elm adlandıran filosof hərənin öz həqiqətini deyil, dəqiq elmlərdə olduğu kimi, hamı üçün eyni olan obyektiv həqiqəti axtarır. Onun fikrinə görə, "saf və ya transendental fenomenologiya öz təsdiqini faktlar haqqında elm kimi yox, mahiyyətlər haqqında elm ("eydedik"

elm kimi) tapacaq. İstisnasız olaraq “mahiyyətlərin dərkini” – heç bir “faktı deyil, müəyyənləşdirən elm kimi”.[85] Belə məlum olur ki, Husserl öz fəlsəfəsini irəli sürəndə şeylərin mahiyyətinə məntiq və şüura əsaslanaraq çatmağı düşünüb, mövcud fəlsəfələr arasında tamamilə yeni bir xətt kimi təqdim edir. Fenomenologiyanın əsaslarını yazanda Husserl Aristotel fəlsəfəsindən tutmuş Kant, Dekart fəlsəfəsinə qədər yararlanmış, bir tərəfdən qaranlıq məqamlara aydınlıq gətirməklə yanaşı, digər tərəfdən də həmin düşüncələrə məntiqli sonluq verməyə çalışır. Əhəmiyyətli məqamdır ki, sonralar fenomenologiyanın özünün də fərqli qolları yarandı: ekzistensial fenomenologiya, həyat fenomenologiyası, realistik fenomenologiya və s. Sufi fenomenologiyanı belə qollardan biri adlandırmaq da olar. Yəni bu, fenomenologiyanın “təfsiri”, yaxud təhlili deyil, həm də onun təməlləri üzərində bərqərar olan yeni bir fəlsəfədir. Həm də deməkdə məqsədimiz sufi fenomenologiyanın təməllərində başqa qədim fəlsəfələrin, o cümlədən İslam hikmətinin – Sufizmin də olduğunu vurğulamaqdır.

Sufi fenomenologiya insanmərkəzli fəlsəfədir və əsas məqsədi insan haqqında təsəvvürləri və insanın baxış bucağını genişləndirməkdir. Bu məqsədlə burada həm Sufizmin, həm də fenomenologiyanın metodlarından istifadə edilir. Burada iki əhəmiyyətli xətt paralel gedir: rasional və irrasional bilik, elm və iman, maddi və mənəvi. Daha dəqiq desək, bu, hər ikisinin vəhdəti üzərindən çıxış edən bir fəlsəfədir. Sufi fenomenologiyada insan adlı sistemin nüvəsi şüurdur, buna görə də orada hər prosesin başlanğıc və son nöqtəsi kimi, şüur götürülür.

Sufizmdə ruhani təcrübənin məqsədi insan idrakının səviyyəsini yüksəltmək, maddi dünyadan uzaqlaşaraq universal həqiqətlə üz-üzə qalmaqdır. Burada əsas diqqət ruha ayrıldığına görə, irrasional biliyi alanın, daha sonra onu rasionallaşdıraraq

[85] Гуссерль Э. Идеи к чистой феноменологии и феноменологической философии. Книга первая / Пер. с нем. А.В. Михайлова; Вступ. ст. В.А. Куренного. — М.: Академический Проект, 2009. С.20-21

ümumiləşdirənin şüur olması xatırlanmır. Fenomenologiyada da fərqli mövqe formalaşıb. "Ciddi bir elm" kimi fenomenologiyanın əslində bir şüur təcrübəsi olduğu unudulub və yalnız mürəkkəb bir nəzəriyyə kimi təqdim edilir. Bununla belə, yenə də onun əsl missiyası – mahiyyəti dərk etmək funksiyası qeyd edilmir. Maraqlıdır ki, fenomenologiya deyəndə onun bütün mürəkkəb terminləri, anlayışları sadalanır, vurğulanır, ancaq bunun əsasında şüurun şeylərin nüvəsini, hətta nüvəsindəki vəhdət nüvəsini axtarması məsələsi ikinci dərəcəli məsələyə çevrilir. Dediklərimizdə maraqlı bir məqama da diqqət çəkək: hər iki təlimə münasibətdə tamamilə əks qütbə çəkilmə və mahiyyətdən uzaqlaşma halı müşahidə olunur. Bəlkə də, bu səbəbdən onlar arasında vəhdət nöqtəsi tapmaq ilk baxışda çətin görünə bilər. Sufi fenomenologiya hər ikisinin ortaq məqamı üzərində təşəkkül tapmaqla yanaşı, özündən əvvəlki təlimlərin, ilk növbədə isə məhz bu iki fəlsəfənin zəngin bazasından istifadə etməklə, düşüncədə yeni bir mərhələ açmaq iddiasındadır. Belə demək mümkündürsə, sufi fenomenologiya sufizmə məxsus ruhani təcrübə vasitəsilə fenomenoloji reduksiyanın trayektoriyasını uzadıb, düşüncəni 3-ölçülü müstəvidən 4-ölçülüyə keçirən təlimdir. Sufi fenomenologiyada artıq məlum iki fəlsəfi təlimin adından istifadə etməklə, biz oxucunun təfəkkürünü yeni terminlərlə yormaq yerinə, artıq məlum həqiqətləri fərqli bir sistemdə, fərqli funksiya ilə təqdim etməyə üstünlük vermişik. Məqsəd düşüncə üfüqünü genişləndirməkdir.

Sufi fenomenologiya təcrübə və nəzəriyyənin vəhdətidir. Tarixdə çox mükəmməl fəlsəfi sistemlər təqdim edilib. Lakin bəşəriyyətin mənəvi və ya düşüncə böhranı zaman, problemlərinin həllində məhz təcrübə ilə sabitləşən, "sınanan" fəlsəfələr kömək ola bilib. Maraqlı bir fakt kimi əlavə edək ki, bəzən təcrübə uğurlu olanda nəzəriyyəni üstələyir və onu unutdurur. Sufizm buna gözəl nümunə ola bilər. Halbuki hər ikisi bir-birini tənzimlədiyi halda həm təcrübə daim özündən bir neçə addım arxada qalan nəzəriyyəyə istinad etməkdən qurtulur, həm

də fəlsəfə real həyatla ayaqlaşa bilir, daim "təqaüdə" göndərilmək qorxusu yaşamır.

Beləliklə, Sufi fenomenologiya başlanğıcı Platona qədər gedən, Husserl tərəfindən canlandırılan bu anlayışın fəlsəfənin və elmin yeni həqiqətləri ilə zənginləşdirərək təkrar ədəbiyyata qaytaran bir fəlsəfi sistemdir. Başqa sözlə desək, məqsəd sufizm və fenomenologiyanın üzərində yeni bir "fəlsəfi bina" inşa etməklə yanaşı, oradan keçmişə və gələcəyə, maddiyə və mənəviyə, elmə və ruhani təcrübəyə yol salmaqdır. Bu isə öz növbəsində insanın fiziki varlığı ilə onun mənəviyyatı, ruhu arasında əlaqənin mahiyyətini təhlil etməkdir. Bu, idrak prosesinin imkanlarını genişləndirmək deməkdir.

## Ədəbiyyat

1. Husserl Edmund. Ideas Pertaining To A Pure Phenomenology And To A Phenomenological Philosophy, Second Book, Studies In The Phenomenology Of Constitution Translated By Richard Rojcewicz and Andre Schuwer, 1989 by Kluwer Academic Publishers

2. Гегель Г.В.Ф. "Философия духа". Энциклопедия философских наук, в 3-х т. Т. 3, М., Мысль, 1977.

3. Гуссерль Э. Идеи к чистой феноменологии и феноменологической философии. Книга первая / Пер. с нем. А.В. Михайлова; Вступ. ст. В.А. Куренного. — М.: Академический Проект, 2009.

4. Декарт Р. Сочинения в 2 т.: Пер. с лат. и франц. Т. 1/Сост., ред., вступ. ст. В. В. Соколова. М.: Мысль, 1989.

5.Тарнас Р. История западного мышления. М., Крон-пресс, 1995.

# UNİVERSAL DƏYƏRLƏR MÜASİR TEXNİKA VƏ TEXNOLOGİYALAR KONTEKSTİNDƏ

**Ziba Ağayeva**
Fəlsəfə elmləri doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

## Giriş

Hazırda dəyər problemi son yüz ildə fəlsəfənin diqqət mərkəzində duran əsas problemlərdən biridir. Dəyərlər abstrakt anlayış olub, obyektə münasibətdə mənfi və müsbət əhəmiyyət daşıyan dəyərlərə ayrılır. Hər hansı bir hadisənin və ya obyektin dəyəri onun xarakteri və ya xüsusiyyətləri ilə deyil, insan üçün əhəmiyyəti və ya dəyəri ilə müəyyənləşdiyindən, insanın nəyə və niyə dəyər verməsi onun özündən asılı olub, ictimai normalar, mənəvi ideallar və s. vasitəsilə tənzimlənir. Bu məsələ ilə fəlsəfədə fəlsəfi təlim olan – aksiologiya məşğul olur. Aksiologiyanın predmeti fəlsəfi kateqoriya kimi – dəyərdir. Dəyər sistemi insanların müxtəlifliyini təmin edir, cəmiyyət həyatını rəngarəng edərək, onu eynilikdən (homogen) xilas edir.

İnsanı əhatə edən reallıqlar özünə müxtəlif yanaşmaların sərgilənməsini şərtləndirir. Dəyərlərin seçimi, yuxarıda qeyd etdiyimiz kimi, insanlardan asılı olduğundan subyektiv mahiyyət daşıyır. Bununla yanaşı, obyektiv mahiyyətli dəyərlər də mövcuddur və onlar insanlar tərəfindən müəyyənləşdirilmir, nəsildən-nəslə ötürülərək cəmiyyətdə kök salır və insanların təfəkkürünün formalaşmasında önəmli rol oynayır. Obyektiv dəyərlərin cəmiyyətdə möhkəmlənməsi, hardasa, qismən də olsa, subyektiv dəyərlərin yaranmasını və yaşamasını çətinləşdirir, daha dəqiq decək, zəifləməsini şərtləndirir. İstənilən halda obyektiv dəyərlər insana, onun yaşam tərzinə, həyat təcrübəsinə əsaslı şəkildə təsir göstərən və nəsildən-nəslə ötürülərək, bütövlükdə insanların sosio-psixoloji mahiyyətinə təsir göstərən dəyərlərdir. Birinci halda, əgər insan dəyərlərin

yaradıcısı kimi çıxış edirsə, ikinci halda insan dəyərlərin ötürücüsü funksiyasını həyata keçirir. Dəyərlər öz mahiyyətlərinə, cəmiyyətdə tutduqları mövqelərinə görə üç yerə bölünür: 1. İnstrumental (Ali dəyərlərə çatmaq üçün vasitə); 2. Final (son nəticə – Ali dəyər); 3.Törəmə (simvolik dəyərlər). Bu dəyərlər ümumi məqsədə çatmaq üçün ali və instrumental dəyərlərin birgə, assosiativ, əlaqəli istifadəsini təmin etdiyindən böyük əhəmiyyət kəsb edən dəyərlərdir.

Antik fəlsəfəyə müraciət etsək, (Платоn "Fileb" [1] Aristotel "Evdemova etikası"[2], "Böyük etika"[3; 296-374] bir-biri ilə son dərəcə mürəkkəb və rəngarəng qarşılıqlı bağlılıqda olan üç ali dəyərin bir yerdə: ***Həqiqət, Xeyir və Gözəlliyin*** aksioloji triada olmaqla, əsas götürüldüyünün şahidi olarıq. Buna uyğun olaraq antik dövrdən başlayaraq bütövlükdə dünya özü də bu üç ali dəyərin Həqiqət, Xeyir və Gözəlliyin vəhdətində nəzərdən keçirilmişdir. Yəni, antik filosoflar mütləq rifaha aparan yolun həqiqət və gözəlliklə həyata keçdiyini (Həqiqətin xeyirlə, gözəlliyin isə xeyir və həqiqətlə) iddia edirdilər. Hegel göstərirdi ki, "qədim yunanlarda incəsənət - xalqın tanrıları təsəvvür və həqiqəti dərk etdiyi ən yüksək forma idi" [4;110]. Bu o deməkdir ki, antik dövrdə incəsənət xeyirin təsdiqi üçün həqiqəti gözəllik şəklində təmsil edirdi. Bu üç ali dəyər arasında mövcud olan zərif üzvi qarşılıqlı bağlılığı (Xeyir-mənəvi dəyər, gözəllik- estetik dəyər, Həqiqət- idrakı dəyər) tədqiq edən fəlsəfə isə nəticədə hər üç ali dəyəri vahid ad altında – "dəyər" anlayışı altında birləşdirdi.

Məlum həqiqətdir ki, orta əsrlər ilahiyyatda öz əksini tapmış dini dünyagörüşün hökmranlığı, fəlsəfənin isə ilahiyyatın xidmətçisinə çevrildiyi bir dövrdür. Fəlsəfənin əsas funksiyası Müqəddəs Yazıların şərhi, mübahisəsiz ilahi həqiqət olan kilsə doqmalarının təbliği və Allahın varlığının sübutu məsələləri olmuşdur. Lakin bununla belə, bu dövrdə paralel olaraq şəxsiyyət konsepsiyası və fərdi və ya ümumi (realistlər və nominalistlər) prioritetləri haqqında mübahisələr də inkişaf

etmişdir. Dəyər probleminə gəldikdə isə orta əsrlərdə filosoflar xeyir və həqiqət anlayışlarının mahiyyət etibarilə bir-birini əvəz etməsi fərziyyəsini irəli sürürdülər.

Dəyərlər problemi fəlsəfədə yalnız XIX əsrin ortalarından ciddi şəkildə tədqiq olunmağa başlamış və son yüz ildə daima fəlsəfənin diqqət mərkəzində olmuşdur. Fəlsəfədə "Dəyərlər fəlsəfəsi"nin yaranması alman filosofu, həkimi, psixoloqu və təbiətşünası Herman Lotzenin (1817-1881) adı ilə bağlıdır. H.Lotze "dəyər" anlayışını fəlsəfi kateqoriya səviyyəsinə yüksəltmiş və "daxili dəyərlər dünyası" kimi müəyyən etdiyi fəlsəfə sahəsini "hadisələr aləminə" qarşı qoyaraq aydın şəkildə göstərmişdir: "İnsan şüuruna görə dəyərlər aləmini hadisələr dünyasından (Welt der Gestalten) bir uçurum ayırır – Rəqəmlər dünyası" [5]. "Dəyərlər aləminin" izahında o, Kantın ""məqsədlər səltənəti" dəyərlər aləmidir, "Məqsədlər səltənətində ya hər şeyin dəyəri var, ya da ləyaqəti" [6;276 ] fikrindən çıxış edir. Dəyər nəzəriyyəsinin inkişafına "bütün dəyərlərin yenidən qiymətləndirilməsi" məsələsini qoyan Fridrix Nitsşenin yaradıcılıq fəaliyyəti, habelə "dəyər" kateqoriyasını "iqtisadi dəyər" prizmasından tədqiq edən siyasi iqtisadın inkişafı təkan verir. Haydegerin fikrinə görə, məhz Nitsşenin sayəsində akademik fəlsəfə XIX əsrin sonu XX əsrin əvvəllərində "dəyərlər fəlsəfəsinə" və "dəyərlərin fenomenologiyasına" çevrilə bildi, dəyərlərin özləri isə "özündə şeylər" kimi üzə çıxdı, hansı ki,"sistemlərdə" nizamlanmaqla, "dəyərlər etikasini" yaradır. [7;41]. Lakin bu dəyər nəzəriyyəsi cərəyanları da, aksiologiyada fenomenoloji istiqamətlər kimi Kantın - İnsan məhz azadlıq əldə etdikdən sonra ətraf mühiti dəyərləndirmək fürsəti əldə etdi. Bu fürsət dəyərlərin meydana çıxmasına səbəb olur. İnsanın dəyərlər sistemi onun azadlığının hüdudları çərçivəsindədir. Dəyərlər sistemini araşdırmaq ətraf mühitin, təbiətin özünü araşdırması qədər mürəkkəbdir – nəzəriyyəsindən uzaqlaşa bilmir.

ETT dövründə universal dəyərlər**:** Müasir texnika və texnologiya dövründə isə bu problematika yuxarıda göstərdiyimiz üç ali dəyərin (*Həqiqət, Xeyir və Gözəllik*) birliyinə zəmanətin olmaması ilə ortaya çıxır. Bu məsələ sekulyar dünyada insanlar üçün nəyin doğru, nəyin yalan, nəyin həqiqət və nəyin yanlış, xeyir özü həqiqətdirmi? sualları ilə bağlı tərəddüdlərlə əlaqələndirilir. Bu məsələ insanların əsl Həqiqətə, əsl biliyə inamlarının zəif olması, bunların onlar üçün nə dərəcədə xeyirli olub-olmaması ilə izah edilir. Gözəlliyə gəldikdə isə bu ali dəyər eyni zamanda etik keyfiyyət daşıdığından şər ola bilməz. Nəticədə, tərəddüdlər burulğanında qalan modern insan nəinki öz varlığına, eləcə də alı dəyərlərin mövcudluğuna və ya onların qəbul edilib-edilməməsinə zəmanət verə bilmir. Bundan əlavə, modern insan bu ali dəyərlərin obyektiv olaraq mövcudluğuna və ya nə dərəcədə məhz onun təfəkkürünün və ya ümidlərinin məhsulu olub-olmadığına əmin olmaqda tərəddüd edir. Müasirimiz olan alman filosofu Markus Qabriel özünün "Mən beyin deyiləm: 21-ci əsr üçün ruh fəlsəfəsi" adlı əsərində "İnsan, doğrudanmı, neyronlar arasında elektrik cərəyanı, bioloji maşın, sosial heyvandır? Dəyərlərimiz – iman, sevgi, ümid və azadlıq – sadəcə, çox inandırıcı bir illüziyadırmı? Həqiqətənmi, müasir nevrologiya haqlıdır, və mən – mənim beyniməm? kimi tərəddüdlərlə, şübhələrlə dolu suallara cavab tapmaq istəyir. Ruh fəlsəfəsi və neo-ekzistensializm ənənələrinə əməl edən, həmçinin müasir elmi araşdırmalara əsaslanan müəllif, sonda belə nəticəyə gəlir ki, insan ruhunun sferası, o cümlədən siyasət, mədəniyyət və dil, müasir elmin bizim üçün cızdığı çərçivədən daha genişdir, insanın neyroelmi təsviri isə insan ruhunun əks olunmasının çoxsaylı aspektlərindən yalnız biridir [8].

Hazırda elm, texnika və texnologiyanın inkişafı özünün kulminasiya nöqtəsinə çatdığından, bəşəriyyəti mədəni, mənəvi, iqtisadi inkişafdan daha çox, öz inkişaf həddinin hüdudlarından çox-çox kənara çıxmış müasir texnoloji dəyişikliklərlə bağlı

yaranmış problemlər narahat edir. Bu səbəbdən bütün dünyanın gələcək konturlarını şübhə altına salmış hədsiz texnoloji inkişafdan yaranan kifayət qədər kəskin və bəzən gözlənilməz etik problemlər mahiyyət etibarilə universal dəyərlərin zəruriliyini aktuallaşdırır. İlk fransız ekzistensialist filosofu Q. Marselin özünün "İnsanlar insanlığa qarşı" əsərində ifadə etdiyi kimi: "Ancaq əminliklə deyə bilərik ki, tərəqqi, xüsusilə də texniki vasitələrin son dərəcə geniş yayılması nə isə xüsusi bir mənəvi, daha doğrusu, anti-mənəvi atmosferin yaradılmasına kömək edir. Çətin ki, bu mühit hansısa dərəcədə reflektiv düşüncənin inkişafı üçün əlverişli olsun. Bu isə bizə düşünməyə imkan verir ki, niyə bu gün universallıq məhz kütləvi cəmiyyətdən kənarda, kütləviyə qarşı özünü təsdiq edə bilir. Beləliklə, bu işin əsl adı universal kütləviyə qarşı olmalıdır. Bəs universal nədir? Bundan nə başa düşmək olur? Sözsüz ki, təkrarlana bilən formulalara gətirən, daha sonra mexaniki nümayiş üçün nəzərdə tutulan hansısa abstrakt həqiqət üçün deyil. Universal – bu ruhdur, ruh isə sevgidir" [10; s.28-29]. Çünki, əgər əvvəlki dövrlərdə problem yalnız yeni texnologiyaların tətbiqində idisə, hazırki dövrdə məsələ texnologiyanın ən son nailiyyətlərinin yaratdığı risklərin bəşəriyyəti təhdid etməsindədir. Yəni, yeni texnologiyalar, süni intellekt iqtisadi deyil, etik xarakterli problem yaratdığından, burada təhdid olunan əsas hədəf kimi maddi və mənəvi dəyərlərin yaradıcısı və daşıyıcısı **olan insanın** maraqları ön plana keçir.

Düzdür fəlsəfədə hələ XIX əsrin II yarsından başlayaraq A.Şopenhauer, S.Kyerkeqor, F.Nitsşe, V.Diltey, M.Şeler və o dövrün digər məşhur filosofları tədqiqatlarının istiqamətini insana doğru çevirərək, vurğunu ali dəyər kimi, insanın üzərinə qoymaqla, fəlsəfədə antropoloji çevrilişə nail olmuşdular. Lakin müasir dövrdə dəyərə münasibət dəyişmiş, müxtəlif prizmadan baxışlar formalaşmış və müxtəlif təriflər verilmişdir. Bu təriflərin əksəriyyətində dəyərlər arzu, istək predmeti kimi və ya

insan və ya hansısa insan qrupu üçün xüsusi əhəmiyyət daşıyan, dəyəri olan obyekt kimi müəyyənləşdirilmişdir.

Hələ 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində və 1948-ci ildə İnsan Hüquqları Haqqında Ümumi Bəyannamədə təsbit olunmuş sülh, azadlıq, sosial tərəqqi, bərabər hüquqlar və insan ləyaqəti kimi universal dəyərlər səksən il bundan qabaq qəbul edilsə də, müasir dövrdə bu dəyərlərin ölkələrin maraqlarına qurban verilib-verilməməsi və insanların davranışlarında tam şəkildə həyata keçirilib-keçirilirməməsi təbii olaraq şübhə doğurur. Əks halda otuz il əvvəl Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi zamanı Xocalı, Başlıbel, Edilli və digər kəndlərdə xalqımıza qarşı soyqırım faciəsinin törədilməsini, əsir düşərgələrində ən ağır işgəncələrə məruz qoyulmasını, insan ləyaqətinin tapdalanmasını, insan azadlığının pozulmasını, yaşamaq hüququnun əlindən alınmasını, insanlığa qarşı çevrilmiş əxlaqi pozğunluq faktlarına qarşı ikili standartların həyatı keçirilməsini bu gün nümunə göstərmək mümkün olmazdı.

Müasir dövrdə dövlətləri və insanları bir-birinə yaxınlaşdıran universal dəyərlərə böyük ehtiyac duyulur. Düzdür, 8 sentyabr 2000-ci ildə Birləşmiş Millətlər Təşkilatının Minillik Bəyannaməsində 21-ci əsrdə beynəlxalq münasibətlər üçün zəruri olan: azadlıq, bərabərlik, həmrəylik, tolerantlıq, təbiətə hörmət və ortaq məsuliyyətlər kimi bir sıra fundamental dəyərlər əksər dövlətlər tərəfindən qəbul edilmişdir [9]. Lakin bu gün dünyada milyonlarla insan 2000-ci ildə qəbul olunmuş bu hüquqlardan praktiki olaraq məhrumdur. Müasir dövrdə insanlar eyni dini və ya siyasi əqidəni, mədəni irsi bölüşmədiyinə, hətta dəri rənginə görə fərqləndiklərinə görə digər insanlar tərəfindən empatiya və humanistlikdən uzaq, ziddiyyətli dəyərlərlə qarşılaşırlar. Bu isə öz növbəsində fəlakətli nəticələrə: etnik təmizləmə, soyqırım, terrorizm, qorxu, nifrət və ayrıseçkiliyin yayılmasına səbəb olur. Etik və ya mənəvi kodekslər burada köməyə gələ bilmir. Çünki onlar universal dəyərləri özündə

ehtiva edən idealın və istəyin ifadəsidir, əxlaqi uğursuzluğun baş verməməsini təmin etmək üçün göstərişdən daha çox, mühakimə oluna biləcək standartlardır. Bu səbəbdən müasir dövrdə *universal dəyərlərin mövcudluğunun zəruriliyi:* – insanların yaşaması üçün zəruri olan əməkdaşlıq, sosial birlik və fundamental hüquqların qorunmasına ümumi zəmanətin verilməsi; – münaqişələrin həllində tərəflərə mübahisələri həll etməkdə və səmərəli əməkdaşlıqda ümumi dil tapmaqda və birlikdə ədalətlilik və qarşılıqlı hörmət prinsipləri əsasında çalışmaqda yardımçı olması; – İnsan hüquqlarının qorunmasında, insanların rifah səviyyəsinin və azadlıqlarının müdafiəçisi olması; – İctimai nizam-intizamın, asayişin qorunmasında universal dəyərlərin insanları dağıdıcı hərəkətlərdən çəkindirməklə, sosial sabitliyin qorunmasına kömək etməsi; – universal dəyərlərin mənəvi normalar və elmi-texniki tərəqqi arasında əxlaqi dilemmaları təhlil etməklə, müsbət dəyişikliklərə nail olmaq üçün bir növ məsafə yarada bilməsi; – universal dəyərlərin ölkələrə, millətlərə, təşkilatlara və fərdlərə iqlim dəyişikliyi, ictimai sağlamlıq və iqtisadi inkişaf kimi qlobal çağırışlarda əməkdaşlıq etməyə, qlobal koordinasiya və kollektiv fəaliyyət qurmaqda yardımçı olması ilə izah olunur.

Göründüyü kimi, universal dəyərlər dinindən, dilindən, milliyyətindən, irqindən asılı olmayaraq tolerant, insan ləyaqətinə hörmət və həssaslıq göstərilməsini tələb edən dəyərlərdir. Bununla belə, müəyyən inanc və ya dəyərlər bir sıra insanlar tərəfindən qəbul edilmədiyinə görə bəzi dəyərlərin universal olması ideyasından imtina etmək yanlışdır. Tolerantlıq və dialoq universal dəyər kimi, cəmiyyətlərin inkişafına, fikir mübadiləsinə, əməkdaşlığa şərait yaratdığından, istər ənənəvi, istərsə də müasir cəmiyyətlər üçün yeni ideyalara açıq pəncərə qismində çıxış edir. Bütövlükdə isə insan hüquqları və universal dəyərlər demək olar ki, sinonimdir. Çünki hər ikisi müvafiq öhdəliklərin cəmini özündə ehtiva edir və bu öhdəliklər yalnız onları yerinə yetirmək mümkün olduqda xüsusi məna kəsb edir.

Qeyd etmək lazımdır ki, mental və universal dəyərlər bütövlükdə dəyərlər sistemində insanın bir varlıq kimi özü və digər insanlarla oxşarlığı və ya fərqliliyinin özünü büruzə verməsi prosesində ortaya çıxır**.** Ümumilikdə isə universal dəyərlər müxtəlif mədəniyyətlərdə, cəmiyyətlərdə və tarixi dövrlərdə insanlar tərəfindən paylaşılan əsas prinsiplər və ya inanclar toplusu olub, əksər hallarda əxlaq və əxlaqi mühakimələr üçün əsas rolunu oynayır və insana doğru ilə yanlışı, yaxşı ilə pisi ayırmaqda kömək edir. Göründüyü kimi, universal dəyərlər bütün dövrlərdə bütün insanlar üçün xüsusi əhəmiyyət kəsb edir**. Burada** dini universal dəyərlərin də zəruri mahiyyət kəsb etməklə, cəmiyyətin inkişafının müəyyən mərhələlərində və hal-hazırda da xüsusi anlam daşıdığını göstərmək lazımdır. Lakin istənilən insanın Allaha, dinə inamı olsa da, dəyərlərinin müxtəlif olduğunu nəzərə almaq lazımdır. Məsələn, terrorçunun, caninin, oğrunun universal dəyərləri ilə adi insanların universal dəyərləri fərqlidir. Terrorçu öz dəyərlərinə inanır və onun uğrunda ölməyə hazırdır. Oğru da oğurluq edərkən Allahdan kömək istəyir. İstənilən insan daima çərçivə içərisində yaşayır. Hər adamın öz çərçivəsi var və mütləq azad insan yoxdur. Hamı nədənsə, kimdənsə asılıdır. Bəzi insanlar öz daxili "mən"indən, digərləri Allahdan asılıdırlar. Daxili "mən" zəif olduğunda, zənnimizcə, Allaha inam daha güclü olur. Bu səbəbdən mütləq dəyər yalnız Allaha məxsusdur. Allaha inam obyektivdir. Allah ən yüksək ali dəyərdir. Allahın atributları (Nur, Əbədi, Uca, Sevgi, Mərhəmət, Adil, Kamil, Güclü və s. və s.).sonsuzdur və universal mahiyyət kəsb edir.

**Dəyərlər ierarxiyası:** Dəyərləri piramida formasında nizamlamaq istəsək, piramidanın üst qatında abstrakt rifahın yerləşdiyini görərik. Çünki hər bir insanın özünəməxsus dəyərləri vardır və onlar situasiyadan asılı olaraq dəyişikliyə məruz qalır. Piramidanın üst qatında duran dəyərlər insanların özlərinin hansı dəyərləri seçməsindən asılıdır. Alt qatda olan dəyərlər isə demək olar ki, hamıda eynidir. Çünki baza tələbatları

bütün insanlarda demək olar ki, eynidir. Cəmiyyət özü insan tələbatlarını ödəmək üçün kifayət qədər çoxlu dəyərlər yaradır və insanlar istədiklərini seçməkdə azaddır. Cəmiyyət yalnız maddi deyil, eyni zamanda mənəvi, ruhi, yeni, uydurulmuş, yenilənmiş dəyərlər istehsal edir. Bu isə yalnız piramidanın eninə deyil, eləcə də hündürlüyünə də təsir göstərir. Yaranan yeni dəyərlər əsasən piramidamın alt qatını genişləndirir. Tələbat dəyərləri önə çıxdığından insan üçün cəmiyyətlə, yaşam səviyyəsi, tərzi ilə bağlı dəyərlər xüsusi önəm kəsb edir. Bunlar isə öz növbəsində insanın yaratmaq, qurmaq, inkişaf etmək həvəsinə böyük stimul verir. Bu yaradılanlar, kəşflər, kreativ təfəkkürün məhsulları piramidanın üst qatında özünə yer tutur. Və bununla da piramidanın ən yüksək nöqtəsində duran azadlığa çatmasına vəsilə olur. Azadlıq mütləq dəyərdir. Azadlıqdan aşağıda duran bütün dəyərlər nisbidir, mütləq olan yalnız azadlıqdır.

Göstərmək lazımdır ki, insanlar milli mənsubiyyətini, doğma vətənini, mənsub olduğu millətin dilini, dinini, adət-ənənələrini özləri üçün obyektiv dəyər hesab edirlər. Lakin bəzi tədqiqatçılar bunun səhv olduğunu və səhv kimi də qaldığını israr edirlər. Ali dəyər kimi yalnız və yalnız azadlığın obyektiv dəyər olduğunu bildirirlər. Piramidanın kulminasiya nöqtəsində məhz azadlıq durur. Buna, sinonim kimi, xeyir, rifah, ilkin səbəb, həyatın mənası da deyə bilərik. Piramidanın ikinci qatında obyektiv dəyərlər olan gözəllik, həqiqət, ədalət və fayda (mənfəət) durur. Bu dəyərləri bir-biri ilə azadlıq bağlayır. Üst qatdan baxdıqda bunu aydın görmək olar:

Gözəllik – yeni olan hər şeyin yaranmasına, yeni ideyaların axtarışına stimul verir. Bununla da, inkişafa mane olan köhnə buxovlardan, lazım olmayan olan hər şeydən azad olmağa xidmət göstərir;

Həqiqət – konsensusun, yəni razılığın, harmoniyanın, birliyin, yekdilliyin keyfiyyətlərini simvolizə etməklə yanaşı,

biliyin dəyərini ifadə edir. Burada əsas məsələ kimi biliyin insanları nə dərəcədə azadlığa yaxınlaşdırmasıdır;

Ədalət – Haqq və düzgünlük prinsiplərinə uyğun olaraq norma və institutlarda əks olunan cəmiyyəti anlamaqda mühüm yer tutduğundan azadlığa xidmət göstərir;

Fayda (mənfəət) – praktiki əməyin, pulun cəmiyyətdəki mahiyyətini, mövqeyini özündə ehtiva edir.

Bu dörd dəyər bir yerdə cəmiyyətin fəaliyyət tsiklinin tənzimlənməsinə, yəni elmin, hüququn, iqtisadiyyatın və yaradıcılığın təşkilinə xidmət etdiyindən **universal dəyərdir.** Piramidanın üçüncü qatında duran dəyərlər qeyri-məhduddur. Bunlara plüralizm, söz azadlığı, mətbuat azadlığı, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, sevgi, məsuliyyət, bərabərlik, dostluq və s. aid edilə bilər.

Qeyd etmək lazımdır ki, cəmiyyət, elm, texnika inkişaf etdikcə ali dəyərlər dəyişir. Yəni, istənilən ali dəyər tamın bir hissəsi kimi, abstraktdır, keçicidir, müvəqqətidir, mütləq ali dəyər yoxdur. Cəmiyyət inkişafının müxtəlif mərhələləri ibtidai icma cəmiyyətindən başlayaraq mərhələli şəkildə inkişaf etmişdir. Bu mürəkkəb, uzun və məşəqqətli prosesin gedişində cəmiyyət inkişafının əsas hərəkətverici qüvvəsi kimi çıxış edən, insanları birləşdirən məhz universal dəyərlər olmuşdur.

Hazırda müasir insan qədim və orta əsr insanından hadisələrə baxış tərzinə görə radikal şəkildə fərqləndiyindən onun hadisələrə, informasiyaya münasibəti də fərqlidir. İnsanın informasiyaya münasibəti dəyişdiyindən paralel olaraq insan cəmiyyəti də köklü şəkildə dəyişməyi bacarır. İnformasiya ilə əsaslı şəkildə işləməyi bacaran insan elmin, texnologiyanın əsasını təşkil edən yeni innovativ texnologiyalar yaradır. Bütün bunlar isə öz növbəsində cəmiyyətin inkişafını şərtləndirir. Cəmiyyət inkişafının müxtəlif mərhələlərində birmənalı şəkildə ortaya çıxan ETT çətinliklərin həll olunmasında müstəsna rol oynayır. Bu isə universal dəyərlərin cəmiyyətin inkişafında həlledici mahiyyət daşıdığına dəlalət edir. Universal dəyərlər

insanın unikallığının, onun təfəkkür imkanlarının, yaradıcılıq qabiliyyətlərinin səviyyəsinin üzə çıxmasında əhəmiyyətli rol oynayır. Universal dəyərlər öz obyektivliyi ilə seçilir. Universal dəyərlərin obyektivliyi onların bütövlükdə insanlar tərəfindən qəbul edilməsinin göstəricisidir. Məsələn, təmiz su insanın obyektiv dəyər verdiyi təbiət məhsuludur. Lakin qablaşdırılmış halda subyektiv mahiyyət kəsb edir. Əgər obyektiv dəyərlər insanları birləşdirirsə, subyektiv dəyərlər onları ayırır. Obyektiv dəyərlər özlüyündə insandan asılı olmayaraq mövcud olub, yaşamaq, sağlam olmaq istəyən bütün insanlar üçün eyni səviyyədə dəyərlidir. Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, obyektiv dəyər – azadlıqdır. Digər dəyərlər isə fərdi seçim qaydasında dəyər statusu daşıdığından subyektiv olaraq dəyərlidir. İnsanlar dəyərləri qəbul etməkdə və etməməkdə konsensusa gələ bilərlər. Konsensus həqiqətin ortaya çıxmasının əsas kriteriyasıdır. Məsələn, su hamı üçün zəruridir, deməli, obyektivdir. Bəs onda azadlıq, axı obyektiv dəyər insandan asılı olmayaraq mövcuddur. Lakin bu halda subyekt yoxdursa, dəyər də yoxdur. İnsan istənilən şəraitdə daima azadlığa cəhd etmişdir. Azadlığa qaçış, yəni insanların daima təbii fəlakət və kataklizmlərdən, müharibələrdən, əsarətdən, yoxsulluqdan qaçmaq cəhdi yaşamaq uğrunda qaçış kimi dəyərləndirilmişdir. Yaşamaq, sağ qalmaq uğrunda mücadilədə daima birliyə cəhd göstərən insanların birləşməsinə səbəb olan əsas amil bütün dövrlərdə, qeyd etdiyimiz kimi, **universal dəyərlər** olmuşdur.

## Ədəbiyyat


1. Платон. «Филеб». https://www.litres.ru/book/platon-/fileb-30077953/chitat-

2. Аристотель. Евдемова этика. М., 2005. 448 с. https://www.philosophy.ru/library/evdemova-etika/

3. Аристотель. Большая этика. Соч. в 4-х т. Т.4. М.: Мысль, 1984.
https://pavroz.ru/files/aristotle4.pdf).

4. Гегель Г. В. Ф. Эстетика : в 4 т. / Г. В. Ф. Гегель. – М. : 1968. – Т. 1. 312 с.

5. Лотце Г. Микрокозм: мысли о естественной и бытовой истории человечества : опыт антропологии / Г. Лотце ; пер. [с нем.] Е. Корша
https://rusneb.ru/search/?q=https:/

6. *Кант И.* Основы метафизики нравственности. (С рецензией на книгу И. Шульца. 1783) // Сочинения в шести томах. М.: «Мысль». Т. 4. Ч. I., - с. 211—310, 544 с. (Философ. наследие).

7. Хайдеггер, М. Ницше. Том II / М. Хайдеггер; под ред. Каменев В.М., Марков Б.В. и др. Спб.: «Владимир Даль», 2007,458 с

8. Маркус Габриэль. Я не есть мозг: Философия духа для XXI века (пер. с нем.) Москва, УРСС. ЕНАНД, 2020, 304с.

9. Декларация тысячелетия Организации Объединенных Наций. https://www.un.org/ru/documents/decl_conv/declarations/summitdecl.shtml

10. Марсель Г. Люди против человеческого / Сост., вступительная статья, пер. с φρ., примечания В.П. Визгина. — М.: Центр гуманитарных инициатив, 2018. - 208 с. (Серия «Книга света»).

# FƏLSƏFƏNİN TƏQDİMİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİ

**Zeynəddin Şabanov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

**Həbib Hüseynov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Müasir ali təhsilin bütün aspektlərinə təsir edən yenilikçi proseslər gələcək məzunların bacarıqları olan konkret nəticələrin əldə edilməsinə yönəldilməsi kontekstində təhsil prosesinin yenidən qurulmasını əhatə edir. Ədəbiyyatda istənilən səviyyədə müasir mütəxəssis üçün lazım olan iki növ kompetensiyalar, yəni bacarıqlar mövcuddur: “ifrat mövzu” və “mövzuya xas olan” (bunu ümummədəni və peşəkar bacarıqlar kimi də müəyyən etmək olar). Peşəkar kompetensiyalara konkret bir peşəyə yiyələnmək üçün zəruri olan bilik və bacarıqlar daxildir; ümummədəni bacarıqlara bir mütəxəssisin yaradıcı düşünmə qabiliyyəti, fərdi inkişaf, qərar qəbuletmə müstəqilliyi və s. kimi fərdi xüsusiyyətləri aiddir.

Beləliklə, bacarıqlara əsaslanan yanaşmaya görə, müasir bir universitetdə təhsil prosesi yalnız peşə hazırlığı ilə məhdudlaşa bilməz, ona görə ki, müasir təhsil tədqiqatçılarına görə, bu hal "peşəkarlıq xəstəliyi"nə aparır. Bu termin bir mütəxəssisin öz peşəsindən başqa heç nə bilməməsini, dünyaya tam, əhatəli bir baxışının olmamasını, cəmiyyətdəki sosial dəyişiklikləri tənqidi təhlil edə bilməməsini ehtiva edir.

Tədris prosesində mövcud çatışmamazlıqlar imkan daxilində bu sahədə olan problemlərin araşdırılması və həllini tələb edir. Hazırda dünya və ilk növbədə postsovet mədəni bölgə ədəbiyyatında fəlsəfə və fəlsəfə tarixinin təqdimi və dəyərləndirilməsində fərqli və ziddiyyətli mövqelər təzahür edir.

Yaxın gələcəkdə siyasi cəhətdən zəif xalq və bölgə mədəniyyətlərinin assimilyasiya cəhdlərinə sinə gərməsi onların milli-mənəvi birliyindən asılı olacaq və hər bir xalq, o cümlədən Azərbaycan xalqı da bunu nəzərə almalı, keçmiş və müasir mədəni dəyərlərin vəhdətləşməsi yolu ilə mədəni cəhətdən qloballaşmaya təmayüllü dünyaya öz mənəvi-mədəni orijinallığını qorumaqla daxil olmaq məqsədini qarşısına qoymalıdır. Dərk edilməlidir ki, tarixən milləti tarixdə yaşadan onun mədəniyyəti və bu mədəniyyətin məhvəri və əsas tərkib hissəsi, Azərbaycan xalqının ruhunu təmsil edən onun nümayəndələri tərəfindən yaradılmış fəlsəfi əsərlər, yəni Azərbaycan fəlsəfəsidir (1, s.20).

Məhz bu baxımdan Azərbaycan fəlsəfəsi tarixinin müxtəlif dövrlərinin, onun inkişaf mərhələlərinin bir-biri ilə əlaqələrinin, tarixən və müasir orijinallığının tədqiqi və genişmiqyaslı təbliği bu fəlsəfənin ölkənin daxil olduğu müxtəlif ərazi, dil, din və s. kontekstlərdə özünəməxsusluğunun tədqiq və şərhi müasir dövrdə millətimiz və milli mədəniyyətimizin özünəməxsusluq keyfiyyətini itirmədən mövcud olmasının tələblərindəndir. Azərbaycan fəlsəfə və fəlsəfə tarixi mütəxəssisləri bu tələbi nəzərə alaraq Azərbaycan fəlsəfəsinin öyrənilməsini diqqət mərkəzində saxlamalıdırlar. Məhz bu tələbə müvafiq hazırda çoxcildli Azərbaycan fəlsəfə tarixi üzərində iş davam etməkdədir.

Avropanın əksər ali məktəblərində ümumi fəlsəfə kursu on görə keçilmir ki, həmin kurs liseylərdə artıq tədris olunmuşdur. Orta təhsil müddəti əsasən 12 il olan Avropa ölkələrində fəlsəfənin əsaslarının məhz liseylərdə tədris olunması onunla əlaqədardır ki, bu kurs ixtisas sahəsindən və ali təhsil alıb-almamasından asılı olmayaraq, bütün insanlara lazımdır. Həm də Avropada fəlsəfə sadələşdirilmiş şəkildə, mədəniyyətin tərkib hissəsi, dünyagörüşün əsası kimi keçilir. Məqsəd məhz yeniyetməlik dövründə, xarakterin və dünyagörüşün ilkin formalaşma mərhələsində gəncləri həyatın mənası haqqında,

fəzilət və ədalət haqqında düşünməyə sövq etmək, öz əməlləri üçün məsuliyyət hissi aşılamaqdan ibarətdir. Əsas məsələ budur ki, fəlsəfi dünyagörüşü və fəlsəfi düşüncə tərzi fəlsəfi cərəyanlarla, bu sahədəki tədqiqat işləri ilə qarışıq salınmasın. Sonuncular, əlbəttə, çox çətindir və nəinki məktəb, hətta ali təhsil səviyyəsi üçün də çox mürəkkəb və əlçatmazdır. Dərslik yazanlardan da elə bu tələb olunur ki, müxtəlif fəlsəfi sistemlərin təfərrüatları deyil, fəlsəfənin əqli tərbiyədə rolu, ümumən tərbiyəvi funksiyası ön plana çəkilsin (1, s.23).

ABŞ-da uşaqlar üçün Fəlsəfə İnstitutu fəaliyyət göstərir. Tanınmış rus fəlsəfə tədqiqatçısı N.Yulina 1993-cü ildə Harvard Universitetində bu məsələ ilə əlaqədar aparılan tədqiqatların nəticəsinə əsaslanaraq, bu praktikanın Rusiya üçün də əhəmiyyətli olduğunu qeyd edir. O, ABŞ alimi M.Lipmana istinadən bildirir ki, uşaqların insan və dünya haqqında, mənalı ömür haqqında düşünmələri, fəlsəfi fikir tərzinə çox erkən yiyələnmələri onların zərərli əməllərə qurşanmasının qarşısını ala biləcək ən gözəl vasitələrdən biridir. Fəlsəfi sistemlər haqqında mürəkkəb biliklər yox, fəlsəfi suallar qoymaq, "filosofluq" vərdişləri aşılamaq, daha doğrusu, uşaqlarda öz-özünə, təbii yolla yaranan bu düşüncə tərzinin qarşısını almamaq, məhdudlaşdırmamaq, əksinə, ona meydan açmaq tövsiyə olunur. Yeni təhsil paradiqmasına, "gələcəyin təhsilinə" keçid də bu problemlə əlaqələndirilir (7, c.39).

Üçüncü minilliyin sakit olmayan axarlarında bəşəriyyətin sülh, demokratiya və humanizm şəraitində yaşama və inkişafı üçün fəlsəfənin rolunun dərki beynəlxalq qurum olan YUNESKO-nun 2004-cü ildə qəbul olunan fəlsəfə strategiyasını müəyyən etmiş layihəsində öz əksini tapmışdır. Fəlsəfənin tədrisi sahəsində qarşıda duran strateji vəzifələrə aşağıdakılar daxildir:

a) hökumətlərlə siyasi səviyyədə iş aparmaq lazımdır ki, onlar fəlsəfənin tədrisinə və fəlsəfi tədqiqatlara yardımçı olsunlar;

b) dünyada fəlsəfənin öyrənilməsi zərurəti müdafiə olunsun;

c) YUNESKO-nun üzvü olan ölkələrin fəlsəfənin öyrənilməsi üzrə proqramlarının həyata keçməsi üçün müvafiq sənədlər hazırlansın;

d) fəlsəfənin tədrisi və dünyada öyrənilməsinə dair tədqiqatlar dəstəklənsin.

Adı çəkilən istiqamətlər YUNESKO-nun strategiyasının əsas istiqamətləri adlandırılır və fəlsəfənin qarşısında duran qlobal məqsədlər sırasında fəlsəfənin öyrənilməsi, fəlsəfi tədqiqatların dəstəklənməsi, adi adamlar arasında geniş yayılması, dövlətlərin fəlsəfənin öyrənilməsində maliyyələşdirmənin istiqamətləndirilməsi, fəlsəfənin tədris edilməsi və fəlsəfi tədqiqatların dəstəklənməsi məqsədilə siyasi səviyyədə hökumətlərlə iş aparılması göstərilir. Bu gün YUNESKO xətti ilə Fəlsəfə gününün qeyd edilməsində məqsədin fəlsəfi təfəkkür, fəlsəfi təhsil və fəlsəfi tədqiqatların dəstəklənməsi olduğunu nəzərə alaraq fikrimizi həmin məsələlərin təhlili üzərində quracağıq. Əvvəlcə onu qeyd etmək lazımdır ki, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda hər il Fəlsəfə günü münasibətilə beynəlxalq tədbirlər, konfranslar, dəyirmi masalar keçirilir və burada əcnəbi alimlərin iştirakı ilə maraqlı məsələlər geniş müzakirə obyektinə çevrilir.

AMEA-nın müxbir üzvü, professor S.Xəlilov filosof və fəlsəfə anlayışlarına və bu anlayışlara münasibət haqqında fikirlərini irəli sürərərək yazır ki, biz hələ özümüz üçün həqiqi fəlsəfə ilə Azərbaycanda formalaşmış "fəlsəfə" anlayışı arasında fərqi aydınlaşdırmalıyıq. Çünki çağdaş ictimai şüurda və KİV-də fəlsəfə dünyada qəbul olunduğundan xeyli fərqli mənada işlədilir. El dilində fəlsəfə az qala müdrikliyin, hazırcavablığın ekvivalenti kimi başa düşülür. Aşıq, dərviş, ağsaqqal müdrikliyi... Fəlsəfə nədir? Bunu bilmədikdə onun bir bəzək kimi, epitet kimi, tərifli söz kimi istifadə edilməsi təbii haldır. Azərbaycanda, "fəlsəfə" sözü uzun illərdən bəri məhz bu mənada

işlədilir. Kimə filosof demək olar və nəyə fəlsəfə demək olar? Bu sualın birmənalı cavabını vermək çətindir. Amma bir şey hamıya aydındır. Fəlsəfə, görünür, düşüncə ilə bağlıdır və nə isə yaxşı bir şeydir. Həyat haqqında, ölüm haqqında, həyatın mənası və ya mənasızlığı haqqında hər hansı bir düşüncə, doğrudan da, fəlsəfədirsə, onda bəs filosofların baş sındırdığı məsələlər nədir? (6, s.4).

Fəlsəfənin cəmiyyətdəki missiyasına, zəmanənin mürəkkəbliyinə, qloballaşmanın çağırışlarına münasibət bildirərək professor Ə. Abbasov yazır: "Bu gün fəlsəfə ümumi fonda öz missiyasını daşımaq zərurətindədir. Onun universal, inteqrativ xarakterli elm olduğunu nəzərə alsaq, bu ümumi mənzərənin, yaşanan dövrün ziddiyyətlərinin, tələb və xüsusiyyətlərinin fəlsəfi tədqiqatlarda, tədqiqatçı və tədqiqatlar üçün mühüm rol oynadığı daha da aydın olar. Söhbət yalnız zəmanənin mürəkkəbliyinə, qloballaşmanın çağırışlarına həssaslıqdan getmir, bu, öz yerində, əsas məqsəd və başlıca vəzifələr ondan ibarətdir ki, nəzəri və praktiki həllini tələb edən ciddi problemlərin müqabilində adekvat kateqorial-instrumental aparat, paradiqmal baza, qnoseoloji-metodoloji zəminlər, hətta zərurət olduqda, yeni leksika və elmi prosedurlar yaradılsın. Aydındır ki, fəlsəfə elmimiz və filosoflarımız daha yaxından işə başlamalı, biganə və passiv müşahidəçidən fəal iştirakçıya çevrilməli, taleyüklü problemlərin həllində öz töhfələrini verməlidirlər (3, s.10).

Professor İ.Məmmədzadənin fikrincə, belə bir nəticəyə gəlib çıxırıq ki, fəlsəfə həm cəmiyyət üçün, həm də insan üçün faydalıdır. O, bilik və şüurun, ideologiya və əxlaqın üfüqlərinin genişləndilirməsinə xidmət edir və bununla yanaşı, o, insan azadlığını mənəvi proqramlar vasitəsilə yaşam praktikasına bağlayır, yəni ağılsızlığı məhdudlaşdıra bilir (5, s.9).

Müasir gerçəkliklər həm yeni fəlsəfə (dünyagörüş), həm də yeni metodologiya tələb edir, bütövlükdə isə onlar tarixi prosesin fəlsəfəsini yenidən nəzərdən keçirməyə aparır, çünki

mövcud inkişaf prosesi gələcək üçün «açıq», gələcək isə keçmiş və indinin çərçivələri ilə sərt determinasiyalaşmışdır. Dünyanın yeni mənzərəsində sosial nizam və produktiv xaos bir-birinə qarşı durmayıb biri-digərini qarşılıqlı tamamlayır, bu iki vəziyyət sosial sistemlərin dayanıqlığına yardımçı olan sintezə can atır. İqtisadi, siyasi və sosiomədəni qloballaşma proseslərinin inteqrasiya sferasında fəlsəfənin köhnə binasının təməlinin transformasiyasını tələb edən yeni ontoloji, qnoseoloji və aksioloji problemlər yaranır.

Professor Ə.Abasovun fikrincə, müasir vəziyyətin qısa icmalı onu göstərir ki, fəlsəfənin yeni cərəyanlarının sonrakı inkişafı və adekvat düşünülməsi insanın ən köhnə fəaliyyətinə təkan verərək və metafəlsəfə adlandırılan hansısa yeni refleksiya layihəsinə ehtiyac duyur (2, s.13).

Professor Ə.Kərimov fəlsəfənin dünyada baş verənlərə tənqidi yanaşmaq, ümumbəşəri dəyər və prinsipləri qiymətləndirə bilmək bacarığı aşılamaqla, özünü həm də azadlıq məktəbi kimi təqdim etməsinə münasibət bidirərək yazır ki, istər təbiətdə, istərsə də cəmiyyətdə mövcud olan problemlərin optimal həlli fəlsəfi təfəkkürə, müdriklik nuruna möhtacdır.İnsan təfəkkürü bu problemlərin ciddi təzyiqinə məruz qalıb, onun emosional-psixoloji durumu hədsiz gərginləşib ki, bu da maddi nemətlər istehsalının əsasını təşkil edən praktiki fəaliyyətə öz təsirini göstərməyə bilməz. Müdriklik isə, Sokratın təbirincə desək, mühakimə yürütməyin, seçmə qabiliyyətinin və fəaliyyət göstərməyin düzgün prinsiplərinə, son nəticədə xeyirxah olmağa nail olmaqdır. Xeyirxah insan isə adətən səbirli, ləyaqətli və ədalətli olur. Beləliklə, sağlam məntiq fəlsəfənin rolunun azaldığını deyil, artdığını irəli sürür (4).

Hadisə və proseslərə fəlsəfi yanaşma, onların fəlsəfi təfəkkür süzgəcindən keçirilməsi dünyada sülhün bərqərar olmasında və qorunmasında mühüm rol oynayır. Fəlsəfə "ədalət", "azadlıq", "xeyirxahlıq", "yaxşılıq və pislik", "həqiqət" və s. kimi cəmiyyət üçün xüsusi əhəmiyyətə malik anlayışları

müstəqil şəkildə dərk etmək və təhlil etmək qabiliyyəti formalaşdırır.

Fəlsəfənin cəmiyyətin inkişafında, milli kimliyin dərkində, sabitliyin qorunmasında, əxlaqi dəyərlərin mühafizəsində, yeni dünyagörüşün formalaşmasındakı rolunun dəyərləndirilməsi üçün mühüm işlər görülməli, fəlsəfənin tədrisi genişləndirilməlidir. Bu istiqamətdə müvafiq sahənin mütəxəssislərinin üzərinə böyük vəzifə və yük düşür. Birlikdə bu vəzifənin öhdəsindən gəlməli, fəlsəfəyə layiqli dəyər və qiymət verilməsi üçün çalışmalıyıq.

## Ədəbiyyat


1. Abbasova Q., İslamov İ. Fəlsəfənin tədrisi metodikası. Bakı, Turan evi, 2014

2. Abasov Ə. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa, 2010

3. Abbasov Ə. Fəlsəfə və müasirlik. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan:tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa, 2010

4. Kərimov Ə. Ali məktəblərdə fəlsəfənin tədrisi zəruri fənlər qrupuna daxil edilsinhttps://525.az/news/171164-02.07.2021

5. Məmməmzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər.Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri. Bakı, Elm və təhsil, 2019, s.9

6. Xəlilov S. Fəlsəfə bizə lazımdırmı? 525-ci qəzet.- 2009.- 22 may.- s.4.

7. Юлина Н.С. Программа «Философия для детей» и профилактика деструктивного поведения молодежи. – Вопросы философии, 1999, № 3, стр. 37-41.

# SOSİOHUMANİTAR ELMLƏRDƏ İDRAKİ FƏALİYYƏTİN VƏ QANUNLARIN ÖZÜNƏMƏXSUSLUĞUNA DAİR

**Rövşən Hacıyev**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

## Giriş

Sosiohumanitar elmlər elmi idrakın mühüm tərkib hissəsi olduğu üçün elmin meyarlarına aid olan əsas xüsusiyyətləri özündə ehtiva edir. Eyni zamanda elmin bu istiqamətində idraki fəaliyyətin özünəməxsus cəhətləri və keyfiyyətləri vardır ki, bununla da sosiohumanitar elmlər təbiətşünaslıq elmlərindən xeyli dərəcədə fərqlənir. Təbiətşünaslıq elmləri insanın istəyindən asılı olmayan təbiət hadisələrini öyrəndiyi halda, humanitar elmlər insanların həyat fəaliyyətini və onların təşkil etdiyi cəmiyyəti araşdırır. İnsan isə təbiətin digər predmetlərindən ilk novbədə onunla fərqlənir ki, azad seçim imkanına malikdir. Deməli, humanitar elmlərdə qanunların ortaya çıxarılması məsələsində insan azadlığı amilinin nəzərə alınması problemi yaranır [3, s.90-91].

*İdraki fəaliyyətdə təbiətşünaslıq elmləri ilə humanitar elmlərin fərqli xüsusiyyətləri*

Yuxarıdakı fikirlərdən irəli gələrək deyə bilərik ki, klassik təbiətşünaslıq elmlərindən fərqli olaraq, humanitar sahədə qanunlar determinist (yəni birmənalı, zəruri) deyil, ehtimali səciyyə daşıyır. Bu məqama humanitar elmlərin *birinci fərqli xüsusiyyəti* kimi baxmaq olar. Başqa sözlə, humanitar sahədə əldə edilən biliklər nisbətən qeyri-müəyyən və hipotetik cəhətləri ilə fərqlənirlər [bu barədə daha ətraflı bax: 9, 7-ci fəsil]. Deməli, humanitar elmlərin qanunları da onların təbiətşünaslıqdakı statusundan bir qədər fərqlənməlidir. Hesab edirik

ki, humanitar elmlərdə "qanun" əvəzinə, "qanunauyğunluq" anlayışından istifadə edilməsi daha adekvat yanaşmadır.

*İkinci xüsusiyyət* onunla müəyyənləşir ki, sosiohumanitar elmlərdə tədqiqatın obyekti və subyekti üst-üstə düşür. Başqa sözlə, sosiohumanitar elmlərdə insan, yəni subyekt, cəmiyyət ilə yanaşı özünü də tədqiqat obyekti edir. Bu səbəbdən idraki prosesdə humanitar elmlər ilə təbiətşünaslıq elmləri arasında çox ciddi fərq yaranır. Məhz bu səbəbdən təbiətşünaslıq elmlərinin nümayəndələri humanitar sahədə dəqiq biliklərin əldə edilməsi məsələsinə, burada universal qanunların üzə çıxarılması işinə həmişə skeptik mövqedən yanaşmış, bu sahədə həqiqətin üzə çıxarılmasının mümkünsüzlüyü mövqeyindən çıxış etmişlər. Həqiqətən də, tədqiqatçının fərqli dünyagörüşü, formalaşdığı və yaşadığı dəyərlər sistemi, milli xüsusiyyətləri sosiohumanitar sahədə apardığı tədqiqatların gedişinə təsir etməyə bilməz. Bundan fərqli olaraq, XVII əsrdən etibarən formalaşmağa başlayan təbiətşünaslıq elmlərində obyektlə subyektin fərqləndirilməsi və tədqiqat prosesində subyekt amilinin qəti şəkildə nəzərə alınmaması amili hakim mövqeyə malik olmuşdur. Bu səbəbdən sosiologiya elminin banısı O.Kont da müvafiq olaraq, yaratdığı yeni elm sahəsini təbiətşünaslığın prinsipləri əsasında və ilk növbədə obyektivlik prinsipi əsasında qurmağa çalışmış və onu pozitiv elm kimi dəyərləndirməyə səy göstərmişdir.

*Üçüncü xüsusiyyət* onunla müəyyənləşir ki, humanitar elmlərdə yalnız maddi deyil (məsələn, arxiv sənədləri), bununla yanaşı insan şüuru, onun daxili aləmi, insanlararası münaisbətlər də tədqiq edilir. Bu kimi keyfiyyətləri ölçmək, hesablamaq, dəqiq müəyyən etmək mümkün deyil. Ona görə də humanitar elmlərdə riyaziyyatın təbiətşünaslıq elmləri üçün yaratdığı imkanlardan (yəni dəqiqlikdən) əksər hallarda yararlanmaq mümkün olmur. Başqa sözlə, humanitar elmlərdə obyektiv reallıqla yanaşı, subyektiv reallıq amili ilə də hesablaşmaq tələb olunur.

Humanitar elmlərin *dördüncü fərqləndirici xüsusiyyəti* tədqiq etdiyi obyektlərin unikallığı və təkrarsızlığı ilə bağlıdır. Bu səbəbdən sosiohumanitar elmlərdə tədqiq edilən obyektə əksər hallarda fərdi qaydada yanaşma tələb olunur. Məlumdur ki, təbiətşünaslıq elmlərində eyni tipli predmetlər (molekul, kimyəvi məhlul, planet, fiziki cisim və s.) və hadisələr (yağış, cəzb etmə, hüceyrənin böyüməsi və s.) tədqiq edildiyi üçün öyrənilən obyektlər arasındakı fərqliliklər cüzi, bir o qədər əhəmiyyəti olmayan cəhətlər kimi qəbul edilir və bu da universal qanunların ifadə edilməsi işini asanlaşdırır. Ona görə təbiətşünaslıqda riyaziyyatın tətbiqi ilə qanunların daha dəqiqliklə üzə çıxarılması imkanı yaranır və onlar, bir qayda olaraq, universal səciyyə daşıyırlar. Humanitar sahədə isə oyrənilən obyektin unikallığı qanunların ifadə edilməsi məsələsində özünəməxsusluq amilinin nəzərə alınmasını tələb edir.

Humanitar elmlərin *beşinci xüsusiyyəti* tədqiqat metodlarının özünəməxsusluğu ilə bağlıdır. Bu məsələni ilk dəfə elmi dövriyyəyə neokantçılar fəlsəfi istiqamətinin bir qolu olan Baden məktəbinin nümayəndələri V.Vindelband və onun davamçısı Q.Rikkert gətirmişlər [7, s.50-54]. Təbiətşünaslıq elmlərini humanitar elmlərdən ilk dəfə differensiasiya edən və ikinciləri ruh haqqında elmlər adlandıran V.Dilteyin fikirlərindən irəli gələn neokantçılar bu iki fərqli elm sahələrinin metodları məsələsini həll etməyə çalışmışlar. Vindelbanda görə, təbiət haqqındakı elmlər nomotetik səciyyə daşıyır. Elmin bu sahəsi empirik materialların ümumiləşdirilməsi nəticəsində təkrar olunan hadisələrin universal qanunlarının üzə çıxarılması ilə məşğul olur. Ruh haqqındakı elmlər isə unikal, təkrar olunmayan fenomenlərin, tarixi hadisələrin təsvir edilməsi fəaliyyəti ilə məşğul olur. Vindelbandın davamçısı Q.Rikkert isə bildirmişdir ki, birincilərdə, yəni təbiətşünaslıq elmlərində ümumiləşdirici metodlardan, ruh və ya mədəni hadisələri öyrənən elmlərdə isə idioqrafik, yəni fərdi xüsusiyyətləri tədqiq edən metodlardan istifadə edilməlidir. Eyni zamanda Baden

məktəbinin nümayəndələri hesab etmişlər ki, idioqrafik metod unikal hadisələrin təsvir edilməsi ilə yanaşı, həm də onların dəyərlərini, əhəmiyyətini üzə çıxarmağa xidmət edir. İndiki dövrdə artıq etiraf edilməlidir ki, təbiətşünaslıq sahəsində tətbiq edilən bir çox nəzəri metodlar (hipotetiko-deduktiv metod, ideallaşdırma, modelləşdirmə) humanitar elmlərdə də uğurla tətbiq edilə bilir. Lakin elmin empirik metodları haqqında bunu demək olmur. Belə ki, humanitar elmlərdə eksperiment tədqiqat üsulundan istifadə edilməsi bir çox hallarda mümkün olmur. Halbuki təbiətşünaslıq elmlərində qanunların ortaya çıxarılması işində bu empirik tədqiqat üsulu çox böyük əhəmiyyət daşıyır. Məsələn, tarixi proseslərin tədqiqində eksperiment üsulunun tətbiqi mümkün deyil, çünki hadisə artıq baş vermişdir və onu olduğu kimi yenidən təkrarlamaq, sadəcə, mümkün deyildir. Eyni fikirləri sosiologiyada milli məsələlərin, demoqrafiya proseslərinin və digər bu kimi hadisələrin tədqiqi prosesinə də şamil etmək olar. Bu məsələdə etik məqamlar da mühüm rol oynayır. Məsələn, insan üzərində eksperiment aparmaq etik baxımdam doğru deyildir (insanın sağlamlığına təhlükə yaratmaq və ya eksperiment xatirinə əməyin optimallaşdırması məqsədilə maaşını süni şəkildə azaltmaq və s.). Ona görə də humanitar elmlərdə irəli sürülən qanunlar daha çox ehtimali səciyyə daşıyır və alimlər arasında sonu görünməyən mübahisələrin baş qaldırması ilə səciyyələnir. Təbiətşünaslıq elmlərində isə eksperiment vasitəsilə qanunların verifikasiyası baş verir və dəqiqliyi ilə səciyyələnən universal nəticələrin alınması üçün imkan yaranır.

Humanitar elmlərin *altıncı fərqləndirici xüsusiyyəti* onunla müəyyənləşir ki, burada tədqiq edilən obyekt daim dəyişir və ya tarixi səciyyə daşıyır [1, s. 52]. Uzun zamanlar təbiətşünaslıq elmləri tədqiq etdiyi obyektlərə elə yanaşırdılar ki, sanki bunlar əbədidirlər, heç zaman dəyişmirlər və bunlar üçün zaman anlayışı yoxdur. Bundan fərqli olaraq həm insan, həm onun təşkil etdiyi cəmiyyət daim dəyişməkdədir. Başqa sözlə,

sosiohumanitar elmlərdə zaman anlayışı həlledici əhəmiyyətə malikdir. Ona görə də cəmiyyətin müəyyən dövrü üçün ortaya qoyulmuş qanunauyğunluğu keçmişə tətbiq etmək elə də asan məsələ deyildir və müvafiq olaraq, bu əsasda xüsusən gələcəyi dəqiq proqnozlaşdırmaq çətin məsələ olaraq qalmaqdadır.

Yuxarıdakı təhlillərimizdən aydınlaşdırmaq mümkündür ki, humanitar elmlərin iki əsas tədqiqat obyekti – insan mədəniyyəti (anlayış geniş mənada götürülür, yəni burada söhbət insan varlığı üçün xarakterik olan yaradıcı fəaliyyətdən gedir: maddi əmək alətlərinin düzəldilməsi və onun mənəvi yaradıcılığı – adət və ənələlər, dəyərlər, normalar və incəsənət) və insan varlığının təşkilati strukturu və ya yaşayış forması olan cəmiyyət elə bir fərqləndirici xüsusiyyətlərilə səciyyələnir ki, onları klassik elmin metodoloji üsulları vasitəsilə dolğun şəkildə tədqiq etmək mümkün olmur. Başqa sözlə, təbiətşünaslığa dair (yəni fizika, kimya və digər elm sahələrində) obyektlərin öyrənilməsi ilə bağlı analitik üsullarla aparılan tədqiqatlardan fərqli olaraq (burada söhbət obyektin tərkib hissələrinə ayrılmasından gedir), ümumən sosiomədəni obyektlər və mədəniyyət nümunələri bütövlük, tamlıq xüsusiyyətinə malikdirlər ki, bu da klassik idrak prinsiplərinə əsaslanan metodoloji yanaşma üçün çətinliklər yaradır, humanitar sahədə aparılan araşdırmalarda onların effektivliyini məhdudlaşdırır. Məsələ burasındadır ki, tamlıq xüsusiyyəti ilə səciyyələnən sosiomədəni obyektlərin hissələrə ayrılması şəklində tədqiq olunması onların adekvat tədqiqinə imkan vermir, çünki bu obyektlərin inteqrativ xüsusiyyətləri onların hissələrinin summativ xassələri əsasında dərk oluna bilmir.

Humanitar sahədə aparılan tədqiqat prosesində ortaya çıxan daha bir çətinlik sosiohumanitar sistemlərin mürəkkəb xarakterə malik olması ilə bağlıdır. Mürəkkəblik amili bu obyektlərin yalnız strukturu ilə müəyyənləşmir – bu məsələnin kvantitativ aspektidir (yəni kəmiyyət parametrlərini nəzərdə tutan) –, həm də strukturdaxili əlaqələrin öyrənilməsini nəzərdə

tutur – kvalitativ aspekt (yəni keyfiyyət parametrlərini nəzərdə tutan). Bu o deməkdir ki, sosiomədəni sistemlərin xassələri və fəaliyyətinin dərk edilməsi onlara aid olan elementlərin tədqiqi ilə məhdudlaşmır, həm də onlar arasındakı əlaqələrin öyrənilməsini ehtiva edir [6, s.72]. Başqa sözlə, rasional idrakın analitik üsullarının tətbiqi vasitəsilə sosiomədəni sistemlərin fəaliyyət və inkişaf qanunauyğunluqlarını adekvat şəkildə tədqiq etmək mümkün olmur.

Sosiomədəni sistem olan mədəniyyət yalnız tamlıq və mürəkkəblik xüsusiyyətləri ilə səciyyələnmir, həm də *autopoetik* cəhəti ilə də xarakterizə olunur (bu anlayış F.Varela və U.Maturanın yaratdığı autopoeziya konsepsiyasının əsas kateqoriyasıdır). Burada söhbət mürəkkəb sistemlərin özünüinkişafı prosesindən gedir. İstənilən özünüinkişaf edən mürəkkəb sistem, o cümlədən sosiohumanitar sistemlər və ya mədəni fenomenlər elə xüsusiyyətlərə malikdirlər ki, bu cəhətlərin mövcud olması səbəbindən onların klassik elmi yanaşmalar və prinsiplər (məs., yuxarıda haqqında danışdığımız "Laplas determinizmi") vasitəsilə adekvat dərki çətinliklər yaradır və əksər hallarda mümkün olmur. Məlum olduğu kimi, klassik elmi idrakın prinsipləri belə bir yanaşmadan irəli gəlir ki, obyektin hərəkətinin başlanğıc şərtlərini (yəni onun strukturunu və inkişaf qanunlarını) bilməklə, həmin obyektin gələcəkdə vəziyyətinin necə olacağını qabaqcadan dəqiq proqnozlaşdırmaq mümkündür. Özünütəşkil xüsusiyyəti daşıyan autopoetik sistemlər (bunlara insan varlığı, mədəniyyət və cəmiyyət daxildir) davamlı inkişafları prosesində daxili təşkilinin, yəni strukturunun yeni səviyyələrini yaratmaq xüsusiyyətinə malikdirlər. Bu səbəbən belə sistemlərin və ya obyektlərin keçmiş, indi və gələcəkdəki fəaliyyətləri eyni deyildir, yəni inkişafları linear xarakter daşımır, çünki qeyri-xəttidir. Başqa sözlə, sosiomədəni sistemlərin temporallıq xüsusiyyətinə malik olması mühüm amil kimi çıxış edir və bu baxımdan onları təbiətşünaslığın tədqiqat obyektlərindən keyfiyyətli şəkildə fərqləndirir.

Sosiomədəni sistemlərin idrakı prosesində klassik və hətta qeyri-klassik elmin metod və yanaşmalarının tətbiqi zamanı ortaya çıxan daha bir çətinliyi və bununla müəyyənləşən daha bir fərqləndirici xüsusiyyəti qeyd etmək lazımdır. Məsələ burasındadır ki, təbiətşünaslığın obyektlərinin öyrənilməsi prosesindən fərqli olaraq sosiohumanitar sistemlərin tədqiqatçısı yalnız müşahidə edən deyil, həm bu prosesə aktiv şəkildə nüfuz edən subyektdir. Yuxarıda artıq qeyd edildi ki, tədqiqat prosesində subyektin neytral qalması müşkül məsələdir və buna görə də elmdə əhəmiyyətli meyar olan obyektivlik prinsipinə əməl etmək faktiki baxımdan mümkün olmur. Buna görə də mədəni fenomenlərin dərki prosesi, belə demək mümkünsə, aksioloji baxımdan yüklənmiş vəziyyətdə olur. Subyekt tədqiqat prosesində hansısa mənəvi dəyərlərin, mentalitetin, dünyagörüşün daşıyıcısı kimi çıxış edir [2, s.101] və ona görə hətta özündən asılı olmadan, belə demək mümkünsə, təhtəlşüur səviyyəsində neytrallıq prinsipini qoruya bilmir. Digər tərəfdən, tədqiq edilən mədəni fenomenin özü də müəyyən dərəcədə subyektə təsir edir ki, bu amil tədqiqatın gedişində obyektivlik prinsipinin saxlanılmasına mane olur və bu da tədqiqat prosesinin adekvat şəkildə (yəni elmin tələbləri daxilində) aparılmasına öz mənfi təsirini göstərir. Başqa sözlə, sosiomədəni sistemlərə xas olan aktivlik xüsusiyyəti tədqiqat prosesində həm subyektin, həm də obyektin dəyişməsinə yol açır.

Humanitar fenomenlərin idrakı prosesində yuxarıda haqqında danışdığımız çox sayda özünəməxsus xüsusiyyətlərin, təbiətşünaslıqdan fərqli cəhətlərin özünü büruzə verməsi XX əsrdən etibarən sosiomədəni obyektlərin tədqiqi yolunda yeni metodoloji yanaşmaların meydana gəlməsini zəruri etdi. Sosiohumanitar problemlərin dərkinə yönələn yeni metodoloji yanaşmalarda (fenomenologiya, hermenevtika, struktur-funksional analiz və s.) ilk növbədə, obyektivlik prinsipinin aradan qaldırılmasına ciddi cəhdlər göstərildi [6, s. 73]. Şübhəsiz ki,

yaranmış bu yeni elmi yanaşmalar içərisində postqeyri-klassik fəlsəfənin rolu olduqca böyük və əhəmiyyətli olmuşdur.

Artıq bizə məlum olduğu kimi, postqeyri-klassik fəlsəfi idrak XX əsrin ortalarından etibarən formalaşmağa başlamışdır. Bu dövrdən etibarən elm, sadəcə, bütöv və mürəkkəb sosio-mədəni obyektlərin öyrənilməsi ilə kifayətlənməmiş, həm də mühitə açıq, onunla daim təmasda, əlaqədə olan özüinkişaf edən mürəkkəb sistemlərin öyrənilməsi ilə də məşğul olmağa başlamışdır. Bu məsələ ilə əlaqədar rusiyalı alim V.Y.Kemerov aşağıdakıları söyləmişdir: "XX əsrin 70-ci illərində mürəkkəblik problemini dərk etməyə çalışan elm təbii, ictimai və ümumən sosiomədəni sistemlərin özünütəşkili, özünü determinasiya etməsi məsələlərinin tədqiqinə cəhd etdi" [4, s.27]. Fəlsəfi idrakın bu mərhələsində sosiomədəni reallığın yalnız dinamikliyi deyil, həm də tədqiqatın obyekti ilə idrak subyektinin qarşılıqlı əlaqələri öyrənilməyə başladı. Bu prosesdə yeni yaranan və fənlərarası mühüm metodoloji əhəmiyyət daşıyan sinergetika elmi də böyük rol oynadı. Bu yeni elmi istiqamətin yaradıcılarından biri olan G.Haken hesab etmişdir ki, sinergetika "özünəməxsus insan həyatının və sosial proseslərin öyrənilməsində öz müsbət rolunu oynayacaqdır" [8, s. 59].

***Nəticə***

Yuxarıdakı təhlillər sosiohumanitar sahədə qanunların müəyyən edilməsi ilə bağlı mühüm bir nəticənin əldə edilməsinə imkan verir. Klassik və qeyri-klassik metodologiyanın sosiohumanitar obyektlərə tədbiqi ilə bağlı ortaya çıxan çətinliklərdən bir həqiqət hasil olur ki, təbiətşünaslıqda istifadə edilən qanunlar sosiomədəni sistemlər üçün yararsızdır, çünki tədqiqat obyektinin adekvat öyrənilməsinə imkan vermir. Ona görə də sosiohumanitar obyektlərin oyrənilməsi prosesində birmənalılıq xüsusiyyətilə səciyyələnən universal qanunların deyil, yalnız ayrıca götürülmüş müəyyən sistemlər (məs., bioloji növlər) üçün yararlı olan *qanunauyğunluqların* üzə çıxarılması daha doğru yanaşmadır [5, s.71]. Digər tərəfdən təhlillərimizdən belə nəticə

çıxarmaq mümkündür ki, hadisələrdə zamanın vektorallığı ilə, yəni temporallıq amili ilə səciyyələnən sosiohumanitar proseslər üçün geriyə dönmə və təkrarlanma xüsusiyyətləri ilə səciyyələnən və daha çox təbiətşünaslığa uyğun gələn "qanun" anlayışının əvəzinə, geriyədönməzlik amilini müəyyən mənada ehtiva edə bilən "qanunauyğunluq" məfhumundan istifadə edilməsi daha məqsədəuyğundur.

## Ədəbiyyat


1. Гайнуллина Л.Ф., Сафина А.М.Философские проблемы социально-гуманитарных наук (учебное пособие) Казань: Изд-во Казанск. гос. архитект.- строит. ун-та. 2020,180 с.
2. Горбухова М.Ю. Естествознание и гуманитарные науки: различие и проблема единства в контексте формирования гуманитарной культуры специалиста-естествоиспытателя // Известия Алтайского государственного университета, 2007, № 2, с.101-105.
3. Губанов Н.И., Губанов Н.Н. Особенности познавательной деятельности в социально-гуманитарных науках// Философия и общество, № 2, апрель – июнь 2010, с. 90–104.
4. Кемеров В.Е. Социальная обусловленность познания: динамика проблемы // Вопросы философии. 2008. № 10, с.20-32.
5. Плебанек О.В. Науки о природе и науки о культуре: история отношений // Вопросы философии, 2015, № 4, с.68-78.
6. Плебанек О.В. Родимые пятна общественных наук: специфика конституирования и пределы возможностей / Философские исследования (сборник научных трудов). Вып.2, Минск: Беларусская навука, 2015, с.64-75.

7. Риккерт Г. Науки о природе и науки о культуре. М.: Республика, 1998. 413 с.

8. Хакен Г. Синергетике – 30 лет. Интервью с профессором Г. Хакеном // Вопросы философии. 2000. № 3, с. 53-61.

9.Царегородцев Г.И., Шингаров Г.Х., Губанов Н.И. История и философия науки. М.: Весть, 2008. 240с.

# FƏLSƏFƏ VƏ MÜASİRLİK

**Hüseyn İbrahimov**
fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Müasirliyi dərk etmək fərdi hadisədir, müasirliyi dərk etməklə bərabər, ona təsir göstərmək, müasir insan problemlərinə diqqəti yönəltmək isə konkret elmin müasirlik gücünün ortaya çıxarılmasını, onun nəzəri metodlarının zamanın tələblərinə uyğun tətbiqini zəruri edir. Haqqında bəhs etməyə çalışacağım müasir Azərbaycan fəlsəfəsi bu ğün daha çox tarixilikdən çıxış etməkdən tam xilas ola bilmədən keçid dövrünü yaşamaq təsiri bağışlayır.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan insanının hüquq və azadlıqları sahəsində 200-dən artıq beynəlxalq konvensiyaya və sazişə imza atmışdır (1). Prezident İlham Əliyevin 2009-cu il yanvarın 31-də imzaladığı "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı isə bütün sahələrdə olduğu kimi, təhsildə də Avropa məkanına inteqrasiyanı sürətləndirməyə xidmət edir.

Dünyada mövcud cəmiyyətlərin inkişaf tempi ilə bərabər müəyyən sosio-mədəni problemləri də vardır. Belə problemlərin artmaması üçün ailədə, sosial həyatın digər sahələrində insanın tutduğu mövqe və rola əhəmiyyətli təsir etmək, insanın həyatındakı etik-mənəvi aşınmaların qarşısını almaq məhz humanitar elm sahəsində köklü yer tutan fəlsəfənin vəzifəsi olmalıdır. Belə fəlsəfənın prinsipləri müasirləşmə ideyasına rəğmən qurulmalıdır.

Müasir fəlsəfə elmi, sosio-mədəni sabitliyin qorunması və insanın artan rolunu daha yaxşı əks etdirmək gücünə yetişməlidir. Müasir fəlsəfə həm də insanı qloballaşmanın mənfi steriotiplərindən qorumalıdır. Beləliklə, bu fəlsəfə müasir

həyatımıza - cəmiyyət həyatına, psixikasına mənfi təsirlər edən digər neqativ proseslərin adət halına çevrilməməsi üçün ləyaqət hisslərini hər bir cəmiyyətə aşılamalı, humanitar elmin digər sahələrində, kütləvi informasiya vasitələrində vətəndaş cəmiyyəti strukturlarında ləyaqət hisslərini milli qürur, milli iftixar hisslərini artırmağa yönəlməlidir. Bu fəlsəfədə təbiət və cəmiyyət harmoniyada götürülməlidir. Fəlsəfədə müasirlik insan mənəviyyatına, insan ruhuna həm tarixi, həm də sosio-mədəni baxımdan yaxın bir ideyadır. Bu ideya müasir dünyanin bir çox ideyaları ilə müqayisədə insan mənəviyyatı hisslərinə daha yaxın ideoloji hadisə olması ilə də seçilir. Bu baxımdan həmin ideyanın müasir Azərbaycan fəlsəfə elminin tərkib hissəsinə çevrilməsi nəinki Azərbaycan insanı üçün, eləcə də gələcəkdə regional fəlsəfi dünyagörüşdə yeni müsbət steriotipləri artıra bilər. Dövlətçilik ideologiyamızda milli-mənəvəvi dəyərlərin bəşəri dəyərlərə inteqrasiyası müasirləşmə fəlsəfəsi problemlərinin həllində yeni metodların tətbiqindən keçir. Müasir ictimai inkişafın geniş yayılmış bir sıra konsepsiyası mövcuddur. Bu istiqamətdə tarixi materializm XIX-XX əsrlərdə (əksər ölkələrdə) elmi fikrin və inkişafın mühüm nailiyyəti hesab olunurdu. Müasir dövrdə daha yeni nəzəriyyələrin meydana gəlməsi aktuallığı artırır. İctimai inkişafa yanaşmalar da birmənalı deyildir. Modernizasiya paradiqamalrı müasir inkişafın çoxistiqamətli prioritetlərini əlaqələndirməyə kömək edir.

Bir çox tədqiqatçılar (10) ictimai – tarixi hadisələrin spesifikliyini mütləqləşdirərək, təbiət haqqında elmləri ümumi, təkrarlanan hadisə və prosesləri öyrənən elmlərin guya yalnız fərdi, təkrarolunmaz hadisə və proseslərlə məşğul olan tarix elmlərinə metafizikcəsinə qarşı qoyurlar (11). Digər tərəfdən, cəmiyyətdə, tarixdə spesifik, fərdi cəhətlərlə yanaşı olaraq, tarixi inkişafın eyni pilləsində duran müxtəlif ölkələrin və xalqların iqtisadiyyatında, sosial münasibətlərində siyasi və mənəvi həyatında təzahür edən ümumi cəhətlər də vardır. Məhz bu ümumi cəhətləri ayırmaq sosial həyatın qanunlarını kəşf etməyə imkan verir.

Elə görünə bilər ki, ictimai hadisələr, sosial proseslər insanların öz fəaliyyətinin nəticəsi olduğundan onların dərk edilməsi qədər mürəkkəb bir problem deyildir. Bəlkə, ictimai münasibətlər üzərində insanın və cəmiyyətin hökmranlığını yaratmaq da insana düşmən olan əzəmətli təbiət qüvvələrini insana tabe etdirməkdən daha asan bir vəzifədir. Lakin bəşəriyyət tarixinin göstərdiyi kimi, belə bir təsəvvür yanlışdır. XIX əsrin birinci yarısında təbiət haqqındakı elmlər artıq xeyli inkişaf etmişdi, cəmiyyət haqqındakı əsl elm isə hələ yenicə yaranırdı. Bəşəriyyət təbiət qanunlarını və qüvvələrini dərk edərək bunları addım–addım öz hakimiyyətinə tabe edirdi (12). Lakin cəmiyyət və onun qanunlarının əsl mahiyyətinin dərk olunması, aşkar edilməsi, meydana çıxarılması uzun sürən ictimai inkişaf paradiqmalarının birinin digərini əvəz etməsi zəminində cərəyan etmiş, ictimai inkişafı şərtləndirmişdir. Sosial qanunauyğunluqlara və proseslərə yiyələnmək, onları cəmiyyətin aktual paradiqmalarına tabe etmək daha mürəkkəb, daha çətin və daha uzunsürən bir prosesdir. Bu mərhələnin əsas ideya xəttini həm də beynəlxalq zəmində inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev hələ 2008-ci ildə dünyamiqyaslı qlobal mədəniyyətlərarası dialoq axtarışlarını təklif edərək "Bakı Prosesi"nin təməlini qoydu. COP-29 tədbiri və bu prosesə qarşıdakı bir ildə ev sahibliyi edəcək Respublikamızda elmdə müasirləşmə fəlsəfəsinin mahiyyətinə daha kreativ elmi yanaşma tələb olunur. Bu həm dəqiq, həm də humanitar elmlərin fəlsəfəsinə aiddir. Fəlsəfəni tarixin qədim "mundirindən" çıxarmaq isə o qədər də asan deyildir. Ancaq təşəbbüsləri artırmağın da vaxtı çoxdan yetişmişdir.

## Ədəbiyyat

1.İlham Əliyevin prezidentliyinin 365 günü və vətəndaş cəmiyyəti. Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası, Bakı: CBS, 490 s.

2. Quliyeva X. Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü. Bakı-2021

3. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. "Elm və təhsil", Bakı - 2019, 198 səh.. Səh.112

4. İsmayılov F. Müasir Qərb fəlsəfəsi. Bakı, 2004, 520 s.

7. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı,2001,456 s.

8. Əzimov K.A. , Həsənov R.M. Sosiologiya. Bakı, 2003, 457 s. 9

9. İctimai siyasət institutları: dünya təcrübəsi və Cənubi Qafqazda inkişaf perspektivləri. Bakı: Yeni Nəsil, 2002, 345 s.

10. Karl Yaspers. Tarixin mənası və təyinatı.Bakı, Zəkulla, 2008

11. Хантингтон С. Столкновение цивилизаций. М.: Акт, 2006 (570 с.)

12. https://az.scienceforming.com/10862277-what-is-a-paradigm

# ИСКУСТВЕННЫЙ ИНТЕЛЛЕКТ В СОВРЕМЕННОМ МИРЕ

**Зохра Алиева**
доктор философии по философии
Институт Философии и Социологии НАНА

*Я пришел к убеждению, что искусственный интеллект и связанные с ним дисциплины изменят человеческое сознание, как это произошло в эпоху Просвещения*
*Генри Киссинджер*

## Введение

Искусственный интеллект (ИИ) сейчас является главным двигателем технологического прогресса. Есть вероятность, что ИИ станет самым значимым, а возможно, и последним изобретением человечества. Многие уверены, что его развитие приведет нас к точке, от которой не будет возврата — это лишь вопрос времени и что произойдет с людьми, когда это случится, неизвестно. Одни ученые считают, что человек и ИИ смогут успешно работать вместе, другие же опасаются, что ИИ, став независимым, либо уничтожит человечество, либо превратит людей в своих "питомцев". Тем не менее все солидарны с тем, что на данном этапе важно контролировать разработку ИИ, чтобы обеспечить его безопасность для людей.

Сегодня мировая ситуация становится все более нестабильной из-за изменений в геополитическом распределении власти и усиливающейся конкуренции между ведущими странами. В начале 2000-х годов изменились геополитические, технологические и психологические условия, которые раньше помогали избежать войны между ядерными

державами. Изменились и способы обеспечения стратегической стабильности, особенно в свете появления новых видов оружия, таких как кибероружие и системы, управляемые ИИ. С целью сохранить стабильность, необходимо пересматривать старые концепции и разрабатывать новые стратегии, учитывающие современные угрозы и технологии.

Сначала 2000-х годов геополитический, технологический и психологический ландшафт, который в прошлом помог предотвратить войну между ядерными державами, существенно изменился. Принципиально изменились концепция и условия стратегической стабильности, сами инструменты предотвращения ядерного конфликта. Для поддержания или даже укрепления стратегической стабильности, в этих усложняющихся и быстро меняющихся условиях, многие прежние концепции и стратегии нового мышления во внешней политике изменились, учитывая тренды мирового развития и разработки инновационных средств ведения войны и методы противостояния (например, появление новых видов оружия массового уничтожения, сетецентрические и информационно-оружейные угрозы, кибервойны и др.).

Новое понимание стратегической стабильности должно включать в себя отказ сторон от совершения враждебных действий друг в отношении друга, поиск конкретных путей снижения вероятности нанесения упреждающего разрушающего удара. Новое понимание стратегической стабильности нуждается в пересмотре и корректировке. Новая концепция стратегической стабильности предполагает учёт всех появившихся в последние десятилетия факторов международной безопасности и гонки вооружений [Colby 2018]. На фоне этих процессов оружие массового уничтожения меняет свою роль как инструмент сдерживания и превосходства, поскольку

угроза гарантированного взаимного уничтожения приобретает иные формы. В ответ на это, государства и альянсы ищут новые подходы к достижению доминирования, включая прокси и кибервойну, и искусственный интеллект (ИИ), которые приобретают всё большее значение как в военной, так и в когнитивной сферах противостояния. Появление искусственного интеллекта стало значительным шагом в эволюции технологий XX века. ИИ активно совершенствуется и находит широкое применение, включая обработку данных, автоматизацию процессов и управление сложными системами. По оценкам Мирового Валютного Банка, объём мирового рынка программного обеспечения, использующего алгоритмы ИИ, к 2022 году достиг 64 миллиардов долларов, что демонстрирует стремительное развитие этой технологии. ИИ делят на два типа: слабый ИИ, который выполняет конкретные задачи, такие как анализ данных; и сильный ИИ, который в будущем может обрести способность принимать самостоятельные решения. Эти технологии становятся важным фактором глобального влияния, способным изменить как экономику, так и международные отношения. Вопрос, достигнет ли человечество и на самом деле создания сильного ИИ, остаётся открытым. Многие в прошлом утверждали, что компьютер никогда не сможет мыслить по-настоящему, например, играть в шахматы, но теперь это обычное дело [1. Dreyfus, 1972]. С усилением позиций ИИ, который уже сейчас влияет на такие сферы, как здравоохранение, транспорт и безопасность, возникает необходимость регулирования его использования. Генеральный секретарь ООН Антониу Гутерриш на глобальном саммите «ИИ во благо» в 2023 году подчеркнул, что рост применения ИИ требует ответственного подхода и контроля за его использованием, особенно с учётом риска усиления дезинформации и подрыва социальной стабильности. Он также заявил, что необходимо ввести

ограничения, действовать предельно прозрачно и обеспечить подотчетность, чтобы новые технологии приносили пользу каждому члену общества [2].

ИИ также стал важным элементом новой гонки вооружений, где в борьбе участвуют не только экономические, но и военные силы. В условиях глобализации контроль над ИИ-технологиями стал стратегическим приоритетом для таких стран, как США и Китай. Это усиливает напряжённость и недоверие на международной арене, увеличивая риск использования новых видов оружия. Использование ИИ в военной сфере, например, автономных систем вооружений и кибероружия, серьёзно изменяет подходы к стратегической безопасности (свидетельство тому-недавние испытания автономных систем в рамках альянса AUKUS. Анонсированное в сентябре 2021 года, AUKUS представляет собой трехстороннее партнерство в сфере безопасности между Австралией, Великобританией и США).

*Также следует отметить, что применение ИИ в военных конфликтах в Украине и в странах Ближнего Востока показывают, что милитаризация этих технологий усиливается. Автономные системы могут самостоятельно выбирать и атаковать цели без участия человека, что вызывает опасения по поводу возможной утраты контроля над военными действиями. Риски, связанные с ИИ, выходят за пределы военной сферы. Существует угроза усиления глобального неравенства, когда одни страны получат доступ к передовым технологиям, а другие будут отставать, что усилит экономические и социальные разрывы. Такой "цифровой разрыв" может дать странам с доступом к ИИ-технологиям значительное преимущество и подорвать стабильность международной системы. При этом активное использование цифровых технологий делает государства более уязвимыми перед внешними угрозами. Чтобы

избежать подобных рисков, необходимо уже сейчас начать переговоры об ограничении цифрового вооружения. https://ru.wikipedia.org/wiki/AUKUS

*В этом контексте интересны рассуждения китайского ученого Кай-Фу Ли, высказанные им в книге China, Silicon Valley, and the New World Order Hardcover – September 25, 2018. 278p, «Сверхдержавы искусственного интеллекта: Китай, Кремниевая долина и Новый мировой порядок». В этой заставляющей задуматься книге Ли убедительно доказывает, что благодаря беспрецедентному развитию искусственного интеллекта драматические изменения произойдут гораздо раньше, чем многие из нас ожидали. Правительство намерено к 2020–2025 годам стать центром глобальных исследований ИИ. К 2017 году доля китайских инвесторов в мировых инвестициях в ИИ составила 48 процентов, что больше доли США [3[. Действительно, поскольку американо-китайская конкуренция в области искусственного интеллекта начинает обостряться, Ли призывает США и Китай принять на себя огромную ответственность, связанную со значительной технологической мощью [2].

Большинство экспертов уже говорят, что ИИ окажет разрушительное воздействие на рабочие места. Но Ли предсказывает, что китайский и американский искусственный интеллект также окажет сильное влияние на рабочие места «белых воротничков». Является ли универсальный базовый подход решением? По мнению Ли, вероятно, нет. Но он дает четкое описание того, какие рабочие места будут затронуты и как скоро, какие рабочие места могут быть улучшены с помощью ИИ, и, что наиболее важно, как мы можем найти решения для некоторых из самых глубоких изменений в будущей истории человечества. **

Необходимость международного регулирования становится всё более очевидной. Аналогии с соглашениями о нераспространении ядерного оружия показывают, что глобальные инициативы по контролю над ИИ могли бы предотвратить его бесконтрольное распространение и использование в потенциально опасных областях. В условиях роста международной напряжённости расширение диалога по вопросам ИИ способно смягчить негативные последствия гонки технологий и способствовать ответственному развитию этой сферы. Немаловажным фактором для расширения диалога по вопросам ИИ является расширение исследований в разработках и привития нового стиля мышления. Профессор Маммедзаде отмечает, что «ИИ — это не только робот, способный правильно отвечать на вопросы, но также моделирование рассуждений или обработка образной информации и т.д.» (5.с.49). И.Маммедзаде далее замечает: «Наша цель - выявить и показать влияние систем ИИ на сознание индивида в контексте научной революции и, как следствие, формирование у него нового стиля мышления в границах конкретной страны, традиций, философии и истории своей науки» [там же стр.51], «…я глубоко убежден во взаимосвязи между модернизацией и развитием наук, без которых невозможен прорыв в современность, в общество развитых технологий и информационных культур» [6,81].
**Кай-Фу Ли — один из самых авторитетных людей в области ИИ в мире. Ученый, венчурный инвестор и человек с головокружительной карьерой (Apple, Silicon Graphics, Microsoft, Google). Он утверждает, что драматические изменения, которых все ждут от искусственного интеллекта, наступят скорее, чем предполагается.

**Заключение.** ИИ открывает перед человечеством как в геометрической прогрессии огромные возможности, так и серьёзные риски. Его влияние на международные отношения, экономику и безопасность уже ощущается, и оно будет возрастать. Очень важно направить контролирование развития ИИ в такое русло, которое принесёт пользу всем и поможет справиться с глобальными вызовами, не создавая новые угрозы. Только через сотрудничество и совместные усилия можно обеспечить безопасное и стабильное будущее для всего человечества. В условиях беспрецедентной международной напряженности расширение международного сотрудничества по вопросам развития способно было бы снизить вероятность несогласованного внедрения ИИ в военно-технологические сферы, тем самым сокращая риск создания технологических катастроф для человечества, способствуя более осторожному и устойчивому развитию данной технологии. Корни робофобии не в самих умных машинах, а в человеческих страстях, и разрядка этой новой технологической гонки (какой бы маловероятной она ни казалась в условиях сегодняшних реалий) может иметь решающее значение для долгосрочного процветания мирового сообщества.

**Литература**

1.https://nihol.uz/files

2.https://news.un.org/ru/story/2023/07/1442627 Антониу Гутерриш «Искусственный интеллект должен служить на благо всего человечества», 2023.

3.Kai Fu Lee. China, Silicon Valley, and the New World Order Hardcover – September 25, 2018.278p

4. https://makeright.ru/library/ai-superpowers-by-kai-fu-lee-sprint/ «Суперсилы искусственного интеллекта» Кай-Фу Ли

5.И.Мамедзаде и др. «Философия ИИ и прообразы науки будущего», Баку, 2024

6.Мамедзаде И. «На путях к информационному обществу: модернизация Азербайджана и некоторые проблемы и задачи наукию. / Гуманизм и философские ценности», Москва. Канон, 2011. с. 81.

# MÜASİR DİNŞÜNASLIQ – FƏNLƏRARASI TƏDQİQAT KOMPLEKSİ KİMİ

**Həsənağa Məmmədli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Dinin tədqiqində metodoloji araşdırma olmadan dinşünaslığın müasir vəziyyətini (ümumi vəziyyəti hətta belə) çətin təsəvvür emək olar. Ona görə də problemin işıqlandırılmasında, azacıq da olsa, kənara sapma dinin təkamül prosesinin metodoloji dərinliyinin vacibliyi haqqında təsəvvür yaradacaqdır. Çünki metodoloji araşdırma dinin spesifik xüsusiyyətlərindən irəli gəlir.

Bildiyimiz kimi, dinşünaslığın predmeti – dinin yaranmasının, inkişafının və funksiyasının qanunauyğunluqlarını tədqiq etməkdir və onun müxtəlif səpgili fenomenlərini, cəmiyyət tarixində onların yerini və ruhunu açıqlamaq, mədəniyyətin başqa sahələrilə dinin qarşılıqlı əlaqəsini və təsirini aşkar etmək kimi vəzifələr durur. Dinşünaslıqda əsasən fəlsəfi məzmun durur, bu da iki səbəbdən irəli gəlir. Birincisi, burada mərkəz rolu oynayan obyektin araşdırılmasında universal anlayışların və nəzəriyyələrin olmasıdır. Bu anlayışlar və nəzəriyyələr konkret elmlərə — tarixə, folklorşünaslığa, dilçiliyə, hüquqşünaslığa, etnoqrafiyaya, sənətşünaslığa və b. öz mövqelərindən dinin təhlilinə müraciət edəndə böyük kömək olur. İkincisi, din labüd olaraq insan, dünya və cəmiyyətin araşdırılmasında fəlsəfi dünyagörüş məsələlərinə müraciət edir. Bu məsələlərin araşdırılmasında dinşünaslıq fəlsəfi fikir irsinə, təbiət və ictimai elmlər tarixinə, xüsusən də müasir elmi-texniki inqilabın nəticələrinə, dinin elmi izahına istinad edir. Dinin fəsəfəsi dinşünaslığin əsas bölməsi hesab edilir. Fəlsəfə öz inkişaf yolunda dinə həmişə tədqiqat predmeti kimi baxıb. Dinin dərk olunması fəlsəfi-tarixi prosesin tərkib hissəsi olub. Bunu dinin sinkretikliyi lüzumlu edir.

Qərb dinşünasları arasında dinin təbiətinin və funksiyasının öyrənilməsində yekdil fikir yoxdur. Müasir dinşünaslıq fənnlərarası tədqiqat kompleksi kimi təqdim olunur. Dinin araşdırmaçıları müxtəlif məqsədlər güdürlər: onlar müxtəlif fəlsəfi dünyagörüşləri olan mövqedə dayanırlar; o mövqelər ki, onlar müxtəlif dini adət-ənənələrə bağlıdır. Bunların hamısı hədəflərin və tədqiqat obyektlərinin müxtəlif məzmunlu olması üçün əsas şərtdir. Dinşünaslığın bəzi fənnlərinin bir predmet sahəsinə cavab verdikdə, eyni zamanda, teologiyaya daxil ola bilərlər və yaxud da dünyəvi akademik normalara uyğun funksiya daşıya bilər. Birinci halda söhbət teologiyadan, ikinci halda isə akademik dinşünaslıqdan gedir.

Akademik dedikdə, ilk növbədə, ideoloji neytralizm nəzərdə tutulur. Bu mövqe akademik tədqiqatçı üçün daha məqbuldur, əslində, bu, obyektiv və hər şeyə açıq müşahidəçinin mövqeyidir, çünki imkan verir ki, teologiyanın təsir dairəsinə düşməyəsən, həm də dünyəvi kritisizmə, nihilizmə və ateizmə aludəçilik hisslərindən uzaq olasan. Müasir dinşünaslıq keçmiş dövrün dinşünaslığından xeyli fərqlənir (xüsusən də XIX əsrin dinşünaslığından), çünki dinin dünyəvi araşdırılması teologiya ilə tənqid ayrılığından keçirdi. Dinin təbiətinin araşdırılması özü ilə metodoloji yükü implisit formada daşıyır, ona görə ki, insanın hər hansı bir maraq dairəsində olan fəaliyyəti tələb edir ki, o fəaliyyətin xarakterini da müəyyənləşdirsin. "Din eyni zamanda nəzarət olunmayan, həyat qüvvəsini təyin edən, həm də onlarda kök salmış, nəzarət olunan həyat nizamını təcəssüm etdirir. Bununla da insanın əsas və hərtərəfli orientasiyası təmin olunur" (1, s.33).

Din dedikdə – dinşünasliq – nə başa düşüldüyünü göstərməlidir. Dinin bu və ya digər anlayışlarını açmaq və aydınlaşdırmaq imkanı verir. Söhbət bu suala cavab verilməsindən gedir: "Hansı anlayışlar, məsələlər və mümkün rabitələr dinin müəyyən anlayışlarından istifadə etdikdə araşdırma sahəsinə düşür, hansılar isə yox?" (2, s.15-24)

Bununla əlaqədar olaraq, din anlayışına aydınlıq gətirmək üçün məşhur din tədqiqatçısı Vaardenburqun verdiyi izah yerinə düşərdi. O, belə hesab edir: "Biz dini abstrakt səviyyədə "orientasiya" kimi, dinləri isə orientasiya sistemləri kimi qəbul edirik" (2, s.34). Bununla da, onun anlamında orientasiya sistemi dünyaya uyğunlaşmağa bu çərçivədə və ya "məna verən çərçivə" vasitəsilə imkan verir.

Dinşünaslıq tədqiqatları mövcud cəmiyyətin və ya mədəniyyətin "dini aspektlərinə" konkret olaraq istiqamətlənməlidir, nəinki hər hansı bir metafizik ideyaya və ya "dini substansiyaya" maraq göstərmək. Vaardenburqun fikrinə görə:

1. Demək olmaz ki, inanclar və ya başqa reallıqlar özlərilə müqəddəslik gətirirlər, onda buna da öz-özlüyündə din demək olar. Belə inanclar, ümumilikdə dini formalaşdıran elementlərdən biridir.

2. Dini şərhi olan təcrübə. Söhbət paraqnostik təcrübələrdən və təkcə inspirasiyalardan getmir. O, bütöv bir spektr yaradan kosmik bədən, ekstativ, inspirator, mistik təcrübələri özündə ehtiva edir, hansı ki, bu, dünya anlamı və ya dini ənənələr çərçivəsində hər hansı bir reallığın və ya başqa reallığı olan kommunikasiyanın təzahürü kimi izah edilir.

3. Dini şərh verilən normalar. Bütün dinlərdə mütləq normalara, qaydalara və qanunlara ilahi yaranışı təsdiq edən amil kimi baxilir. Onlar hətta bu kimi əksliklərlə halal-haram, müqəddəs-naşı, əyyaş bağlana bilirlər.

Qeyd olunan üç sfera ilə yanaşı, dinin daha dörd əlamətini göstərə bilərik:

1. Din həmişə dünyanın və həyatın təzahürlərilə təmasdadır, faktların müqayisəsi onu həmişə empirik olaraq əlçatmaz edir;

2. Buna görə də bütün dinlərdə dünyanın və həyatın təzadları ilə "başqa" təzahürlər arasında gərginlik yaşanıb.

"Nə zamansa hər hansı bir təzahür düşünülürsə, təqdim olunursa və ya "başqa" təzahürlə manipulyasiya olunursa, onda

o, dəyərli simvola və ya əlamətə çevrilir" (2. s.24). Din "özgə din" formasında da rast gələ bilər, yəni başqa bir cəmiyyətin dinləri və ya adət-ənənəsi kimi də nəzərdə tutula bilər. Bu problematikanın tətqiqi dairəsində sonrakı əsas istiqamətləri göstərə bilərik: birincisi, dinşünaslığa aid işlərin müxtəlif nəticələrini sintez etmək bacarığı olan ümumi dini nəzəriyyəni müəyyən etmək cəhdi; ikincisi, dinşünaslığa aid fənnlərin vahid metodologiyası haqqinda düşünmək; üçüncüsü, müasir dinşünaslığın ümumi xüsusiyyətlərinin üzə çıxarılması imkanlarını araşdırmaq.

Birinci iki istiqamət dinin fəlsəfəsi ilə dinşünaslıq arasında olan münasibətlərə aydınlıq gətirməyi zəruri edir. Çünki ənənəvi olaraq hesab edilir ki, məhz dinin fəlsəfəsi məzmunlu sintez funksiyasını həyata keçirmək imkanındadır və vahid metodologiyanı onun vasitəsilə tərtib etmək olar. "Dinin araşdırılması mütləq – Frenk Ueylinqin dediklərinə görə − özünün nəzəri metodlarını fəlsəfi ümumiləşməyə və inteqrasiyaya yönəltməlidir" (1, s.36).

Ayrı-ayrılıqda dinşünaslıq fənnlərinin tədqiqinin nəticələrinin sintezi mənaca onu göstərir ki, dinin fəlsəfəsi çoxəhatəli elmə çevrilir, yəni dini öyrənən, daha dəqiq desək, dinin çoxluğu və müxtəlifliyi ilə birgə əhatəli şəkildə öyrənir. Başqa sözlə, dinin fəlsəfəsi dinin ümumi nəzəriyyəsi olmalıdır.

İndiki zamanda, bizim nöqteyi-nəzərdən, belə bir vəziyyət, belə bir yanaşma praktiki olaraq mümkün deyildir. Dinşünasliq fənnləri dinin fəlsəfəsinə heç bir maraq göstərmir. Bu, onunla bağlıdır ki, dinşünasların fikrinə görə, dinin fəlsəfəsi praktiki olaraq dinin fənnlər əsasında elmi cəhətdən öyrənilməsini təmin edə bilmir və bu xüsusda heç nə də təklif edə bilmir. Bundan əlavə, dinşünaslar əvvəlki kimi hesab edirlər ki, dinin fəlsəfi tədqiqi dəyərlər səviyyəsində ölçüləndə obyektiv, neytral deyildir, "elmiliyi" aşağıdır. Onlar belə bir baxış bucağını ona görə sərgiləyirlər ki, dinin fəlsəfəsinin əsas və bəlkə də, başlıca vəzifəsi dinin həqiqilik problemini həll etməkdən ibarətdir.

Lakin dinin fəlsəfəsi də öz növbəsində dinşünaslıq kompleksinə təsirini belə izah edir ki, o, ictimai şüurda dinin təbiəti və funksiyasının mövcud vəziyyətini nəzəri olaraq tematikləşdirir. Eyni zamanda, dinin fəlsəfəsi özü bu baxışların formalaşmasında bilavasitə iştirakını göstərir, bu da onun dinşünaslığa kifayət qədər təsir gücünə malik olmasını göstərir.

Tədqiqat məsələlərinin düzgün yönəlişi istiqamətində ümumi fənnlər kompleksinin formalaşmasına cəhd edilir, həmçinin ümumi şərtlərin üzə çıxması, ümumi, yaxud unifikasiya olunmuş metodologiyanı tərtib etmək, dinşünaslığın imkanlarının və idrak sərhədlərinin kompetensiyasını dərk etmək – zamanın tələbidir.

Çox vacib metodoloji problemlərdən biri də dinşünaslıq tədqiqatlarının dil problemidir. Təəssüflər olsun ki, metodoloji diskussiyalarda bu problemə az diqqət ayrılır. Burada etnoqrafik dinşünaslığı qeyd etmək yerinə düşərdi, ona görə ki, dinin etnoqrafik tədqiqatı olmadan dini problematikanın mahiyyətini açmaq mümkün deyildir. O, dinin yaranış mənbəyini açıqlayır və dinin genezisinin mahiyyətini və bunun təhlilini dinin fəlsəfəsi yönündə özünə diqqət tələb edir.

*Etnoqrafik dinşünaslıq* – dinin mənşəyini və ilkin formalarını və ya ibtidai sinfi cəmiyyətə qədər olan dövrü, həmçinin sinfi cəmiyyətin dini həyat tərzini öyrənir. Onu , əsasən, ilkin ictimai inkişaf dövrünə gedib çıxan qədim inanclar və kultlar maraqlandırır. Əsas mənbə təzahürlərin bilavasitə müşahidə edilməsidir. O, təkcə müasir təzahürləri fiksasiya etməklə kifayətlənmir, həm də onların tarixi baxımdan yetkinləşməsini və inkişafını, qarşılıqlı əlaqəsini, asılılığını izləyir. Başqa sözlə, etnoqrafik dinşünaslıq dini inancların və kultların formalaşma tarixini və inkişafını tədqiq edir. Etnoqrafik dinşünaslığın materialları dinin müqayisəli-tarixi tədqiqindən geniş istifadə olunur. O, dinin tarixilə daha çox təmasda olur. Onların predmet sahələri tez-tez üst-üstə düşür.

İbtidai cəmiyyətdə, dindən əlavə, etnoqrafik dinşünaslığı maraqlandıran başqa cəhətlərdən biri də ictimai şüurun digər formalarını da aşkar etməkdir: incəsənət, ibtidai etika, dinlə bağlı olan müsbət bilgilərin əsasları (bunlar da ibtidai ideoloji sinkretizmlə əlaqədardır). Bunlar da ibtidai mifologiyaya aiddir, çünki dini anlayışlar mühüm rol oynayır. Bundan əlavə, ibtidai cəmiyyətin həyatında dinin yeri və əhəmiyyəti o zaman həqiqi anlamını tapacaq ki, bütövlükdə cəmiyyətin həyatı ilə sıx əlaqədə və qarşılıqlı fəaliyyətdə tədqiq olunsun, çünki ibtidai cəmiyyətin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun daxilində olan dini inanclar və adət-ənənələr onun bütün sferasına daxildir.

Etnoqrafik dinşünasliq – tarixi baxımdan sinfi cəmiyyətə qədər olan dini inanclar – bu cəmiyyətlərin müstəmləkə dövründə gedən prosesləri yeni yaranmış sinkretik kultlar da daxil olmaqla öyrənir.

Dinin yaranma problemləri − çox böyük dünyagörüşə və ümumfəlsəfi əhəmiyyətə malik olduğu üçün − qədim dünya mütəfəkirləri tərəfindən hələ o vaxtlar qoyulmuşdu. Lakin onun həqiqi elmi təhlili yeni dövrdə mümkün olmuşdur, çünki o, daha çox etnoqrafiya və arxeologiyanın nailiyyətlərinə istinad etdiyinə görə faktoloji materiallar həqiqi elmi mənzərəni yaratmağa yardımçı olur. Arxeologiya çox qədim dini inancların və kultların maddi izlərini bilavasitə bizə çatdırır, etnoqrafiyanın materialları isə arxeologiyadan alınan informasiyanı bizə şərh edir. Bu inancların və kultların rekonstruksiya olunmasına tam dolğunluğu ilə və onların qarşılıqlı asılılıqda olmasına zəmin yaradır. Etnoqrafiyanın elmi əsasla verilmiş izahları rekonstruksiya məqsədilə edilmiş olsa da, onlar bəzən xüsusi metodoloji problem yaradırlar. Etnoqrafiya mənbəşünasliq bazası kimi öz materiallarına istinad edərək, dini formaların təşkilini və inkişafını nəinki rekonstruksiya etməyə cəhd edir, bütöv bir sistem kimi, arxaik dini komplekslərə də təsir etməyə çalışır. Onun üçün ictimai inkişaf səviyyəsinin ən aşağı, yəni stadial

inkişaf dövrünün öyrənilməsi baxımından xalqların inanc və kultlarının müxtəlif elementlərindən istifadə edir. Əlbəttə, bu cür rekonstruksiyanın imkanları məhduddur, nəticələri isə hipotetikdir. Lakin irəli sürülmüş ehtimallar stadial səviyyədə eyni tərtibdə olan faktlara istinadən daha əsaslı görünür. Beləliklə, dinin yaranma mənşəyi böyük və çətin problem olaraq həm də etnoqrafiyaya aiddir. Sinifli cəmiyyətin dinlərini xalq mədəniyyətinin bir hissəsi kimi tədqiq edərkən, həmin cəmiyyətdə hakim dini sistemin (buddizm,xristianliq, islam və i.a.) necə sınmasına diqqət yetirmək lazımdır.

Dünya dinləri əsasında yaranmış sektant hərəkatlar (onlarda sosial təbəqələrin və qrupların mədəniyyəti əks olunur) öyrənilmədən dinin təkamül prosesinin yaranmasında zəncirvari ötürmə qırılır. Buraya ibtidai dini inancları (xristianlığa və islama qədərki dövr) və kultları da əlavə etmək olar; çünki onlar sinifli cəmiyyətin mədəniyyətində qorunub saxlanıblar və hakim dinlə münasibət qura biliblər (paralel mövcudluq, onlara təsir, qarşılıqlı əlaqə, onlar tərəfindən ərinmə və i.a.). Qeyd etmək lazımdır ki, burada hakim dinin etnik adət-ənənələrlə təmasda olması və onların bu dinə müəyyən təsirləri problem kimi qalmaqdadır. Bu cızılmış çəmbərə daxil olmuş problemlərin təkcə nəzəri deyil, həm də tətbiqi əhəmiyyəti vardır. Dinin – ictimai inkişafın müxtəlif səviyyələrində ictimai institutların sosial strukturu ilə müxtəlif bağlılığı vardır; bu bağlılıq ibtidai cəmiyyətlərdə daha dərindir. Bu əlaqələrin xarakterinin araşdırılması, dinin müxtəlif sosial-mədəni və etno-mədəni mühitdə (konfessiya cəmiyyələri daxil olmaqla, onlar etnoqrafik qrupların bəzi keyfiyyətlərinə malikdir) sosial funksiyalarının açıqlanması qarşımıza qoyduğumuz məsələlərdən biridir. Söhbət elə konfessional cəmiyyətlərdən gedir ki, etnoqrafik boyası daha çox nəzərə çarpmış olsun. Burada istər-istəməz sosial dinlərlə də üzləşirsən. Onların predmet sahəsi bu cür sərgilənir: harada ki ictimai cəmiyyətlə təmasda olursan, mahiyyət etibarilə ibtidai inancların sosiologiyası ilə rastlaşırsan, ona görə ki, o həm

ibtidai inancları, həm də cəmiyyəti tam həcmdə öyrənir. Harada ki sinifli cəmiyyət öyrənilir, sosial funksiyalar və onların dinlə əlaqələri etnomədəniyyət aspektində öyrənilir. Dinin sosiologiyası ilə kəsişən dinin psixologiyası da vacib bir atribut kimi mövcuddur. Bu halda bütövlükdə ibtidai inancların sosial psixologiyası tədqiqat predmetinə çevrilir və ya etnoqrafik spesifikasiyası olan etnik icmaların inanclarının sosial psixologiyası kontekstində araşdirma aparılır.

Dinin tarixi inkişafında gedən təkamül proseslərini daha dolğun anlamaq üçün etnolinqvistikanın mühüm əhəmiyyəti vardır. Nitqin etnik xüsusiyyətlərini və dinin funksiyasını, onların etnik semantikasını bilmədən, qədim dinlərin rekonstruksiyası və etnosun tarixi-dini xarakteristikasını öyrənmək mümkün deyildir.

*Etnolinqvistika* – etnos ilə dilin müxtəlif təzahürləri arasındakı qarşılıqlı müasibətləri öyrənən elmdir. Predmet sahəsində humanitar biliklərin bir çox istiqamətlərilə − sosiolinqvistika, psixolinqvistika, paralinqvistika, etnologiya, folkloristika, mifologiya , dinşünasliq, poetika – kəsişir. Metodoloji əsas kimi dilin semiotik izomorfizmi və işarə sistemlərində etnik mədəniyyət götürülür. Həmçinin dünya dinlərinin etnik icmalarla müqayisəsi, dilin etnointeqrasiya və etnodifferensasiya funksiyasının yerinə yetirilməsi əsas istinad mənbəyi olur. Dil özünün etnik aspektində etnolinqvistikanın obyekti və etnosun dil xarakteristikası kimi çıxış edir. Predmet həddindən artıq genişdir və etnogenez, etnik tarix kimi sahələri əhatə edir: etnodil prosesləri – həm daxili, həm də etnoslararası əlaqələr; etnik icmaların formalaşmasında və funksiyasında dilin rolu; dil və ənənəvi mədəniyyət; dil və düşüncənin etnik spesifikası; dünya dinlərinin etnolinqvistik təsnifatı və i.a. Etnolinqvistikanın bu cür geniş predmet sferası çox sayda nəzəri və metodiki yanaşmaları və müəyyən dərəcədə nəzəri natamamlığı özündə əks etdirir (3, s. 97,106).

Beləliklə, yuxarıda deyildiyi kimi, etnolinqvistika nəzəriyyəsində mərkəzi mövqe tutan əsas problem dilin mədəniyyətdə olan yeridir, dilin etnosla və ya etnik mədəniyyətlə birgə qarşılıqlı fəaliyyətidir. Bu vasitə ilə dil və mədəniyyətin qeyri-verbal formaları arasında qarşılıqlı əlaqə yaranır, burada dil mədəniyyətin iştirakı ilə gerçəkliyi əks etdirir və müəyyən dərəcədə mədəni kodların formalaşmasına, etnomədəni informasiyanın mənimsənilməsinə təsir edir. Ona görə də dil etnik funksiyaların aydın ifadəsini özündə əks etdirir və buna adətən, etnik arealın əsas əlamətlərindən biri kimi baxılır. Etnosda dilin spesifik mövcudlugunun olması vacib deyildir; dilin differensial və inteqral funksiyalar daşıması daha önəmlidir. Bununla belə, ümumdünya-tarixi prosesin müxtəlif dövrlərində dilin rolu etnosda olan etik demarkatorla eyni deyildir. N.İ. Tolstoy hesab edir ki, mədəniyyət "dildə istifadə və təsvir olunan əlamətlər toplusu ilə dilçiliyin istifadə etdiyi anlayışlarla formalaşır və mahiyyət etibarilə ümumi məntiqi apparata aid edilir. Çünki dilə və xalq mədəniyyətinə müxtəlif semiotik (simvollar, işarələr) fenomenlər kimi baxılır, bu da hər hansı bir müəyyən sosium ilə əlaqədardır, vacib odur ki, bu, müəyyənləşmiş etnosla baş verir" (4, s. 188).

Qərb məktəbləri üçün etnosemantikaya koqnitiv kateqoriyaların öyrənilməsinə və qapalı terminoloji sistemlərə diqqət xarakterik hal hesab olunur. Frits Ştolts dinşünaslıq araşdırmalarının dilini dini dilə münasibətdə metadil kimi başa düşür, ilk növbədə özünü dinin simvolik sistemi kimi ifadə edir.

"Dinşünasliq dili" dini anlayışları adlandırır və nizama salir. Ştoltsun yazdığlna görə, "bu dildə dini təzahürlər, dini anlayışlar yenidən rekonstruksiya olunur. Beləliklə, biz bunu metadil adlandıra və simvolik sistemlərin izahından istifadə etməklə, onların mahiyyətini hərtərəfli dolğun göstərə bilərik" (2, s.230).

Metodoloji baxımdan Ştolts çox vacib bir məsələyə toxunur. Metadil vasitəsilə aparılmış dəyişikliklərin dinə məxsus

dilin mənasını dinşünas vasitəsilə simvolik sistemdən "ayırmaq" həm də dinin həyatın özündən ayrılması deməkdir.

Dinşünaslığın təhlilində istifadə olunan elmi aparat "dinin istisnalığını" inkar edir. O deyir: "Bu o deməkdir ki, dinin əsas ölçüsü kimi qəbul edilmir. Dinlər məhz insan tərəfindən nəzarətedici distansiyasını yaxın buraxmadıqları üçün belə ifadə edilir. Teologiya fəlsəfəsinin ənənəvi kateqoriyaları ilə desək, din həqiqətə iddialıdır, özü də elə tip həqiqətə ki, bu həqiqətin elmi-nəzəri mahiyyətindən çox kənara çıxır və ya yalan... Dinşünas hər hansı bir dinlə yaxından tanış olduqca, bir o qədər də bu həqiqət qabarıq şəkildə özünü göstərir. Buna baxmayaraq o, metodiki və düşüncəli surətdə onu mötərizədən kənara çıxarır. Bununla da təhlil müəyyən mənada predmetin planlı təhrifini təmin edir" (2 s. 237).

Ümummetodoloji problematikanın baxılmasını, müasir dinşünaslığın sintetik qiymətinin izahını məşhur filosof və dinşünas Ninian Smartla başa vurmaq daha məqsədəuyğun olardı. Beləliklə, bu qiymət təkcə qeyd etdiyimiz momentlərə (xüsusən də metodoloji baxımdan) toxunmur, həm də müzakirə olunan bəzi məsələlərə də istiqamətləndirir.

Smart müasir dinşünaslığın bəzi məqamlarını ayrıca verir. Birincisi, plyuralistikdir; bir çox dinlərlə və dünyəvi dünyagörüşlərlə məşğuldur. İkincisi, ənənəvi dinlərin sərhədlərindən kənara çıxan sistem və inancların, simvolların öyrənilməsi üçün açıqdır. Üçüncüsü, o, dünyagörüşlərini həm tarixi, həm də sistematik araşdırır, "strukturlaşmış empatiya" vasitəsilə dindarların baxışını dəstəkəyir, onlar tərəfdə olur. Dördüncüsü, tematik müqayisələri həyata keçirir, çünki bu, ayrı-ayrı ənənələri işiqlandırmaqda kömək edir. Beşincisi, o, polimetodikdir: müxtəlif fənnlərin − incəsənət tarixinin, filologiyanın, arxeologiyanın, sosiologiyanın, antropologiyanın, fəlsəfənin və s. metodlarından istifadə edir. Altıncısı, o, dini ideyaların və təcrübənin hakimliyini, həm də onların insan həyatının bir çox

aspektlərilə qarşılıqlı münasibətini göstərmək istəyir. Yeddincisi, o, dünyanın və inancların müxtəlif sistemlərini başa düşmək üçün şərait yarada bilir, həm də ruhani həqiqətin axtarışında da böyük köməklik göstərir (2, s.15-20).

Lakin dinin inkişafının tarixi mənzərəsinin tam açılması üçün dinin tədqiqində dini düşüncənin inkişafının təkamül (evolyusion) yoluna da diqqət yetirmək lazımdir.

Təəssüf ki, məqalənin həcmi buna imkan vermir. Bu mövzu ayrıca tədqiqat tələb edir.

### Ədəbiyyat


1. Идеализм и религия. Реферативный сборник. М.: 1977. 295 с.
2. Зарубежные концепции философии религии. Реферативный сборник. М.: 1977. 266 с.
3. Этнография и смежные дисциплины. Этнографические субдисциплины. Школы и направления. Методы. /под ред. М.В.Крюкова, И.Зельнова. М.: Наука, 1988, 223с.
4. Толстой Н.И. О предмете этнолингвистики и ее роли в изучении языка и этноса // Ареальные исследования в языкознании и этнографии. Язык и этнос. Л., 1983 с.188

## III FƏSİL
## FƏLSƏFƏ TARİXİ, ESTETİKA VƏ DƏYƏRLƏR PROBLEMİ

## HEYDƏR HÜSEYNOV VƏ TARİX QARŞISINDA MƏSULİYYƏTİMİZ

**Arzu Hacıyeva**
Fəlsəfə elmləri doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Tarixə, keçmişdə baş vermiş hadisələrə, keçmişdə yaşamış şəxsiyyətlərin taleyinə böyük maraq çoxlarına xasdır. Biz dəfələrlə əcdadların uzaq və yaxın zamanlarda başına gələn əhvalatlardan, görkəmli simalardan, qəhrəmanlardan, sərkərdələrdən, dövlət rəhbərlərindən, müdriklərdən söhbət açan, onları həvəslə dinləyən, eşitdiklərinə emosional çılğınlıqla münasibət bildirən insanların qızğın müzakirələrinin şahidi olmuşuq. Əslində, tarix bir elm kimi, bütün bu məqamları daha peşəkar səviyyədə özündə ehtiva edir. O, mənbələri, yazılı sənədləri, arxeoloji tapıntıları, rəvayətləri, bədii əsərləri və i.a. öyrənməyimizə və təfsir etməyimizə, keçmiş haqqında bilik və anlayışlarımızı sistemli şəklə salmağa kömək edir. Aydın məsələdir ki, tarixin əsas məqsədi keçmiş hadisələri, sadəcə, qeyd etməklə bitməyib, həm də onları izah, təfsir etməkdir. Tarix ötüb keçənlərin müasirliyə təsirini öyrənir və gələcək üçün proqnozlar verir. Xalqların təhlil və tənqidi sərf-nəzər vasitəsilə öz identikliyini formalaşdırmasına, milli və mədəni özəlliyini anlamasına kömək edən yol da hər şeydən əvvəl tarixdən keçir.

Lakin tarixin müxtəlif dövrləri, mərhələləri bir-birini əvəz etdikcə, cəmiyyətdə siyasətin, ideologiyaların dəyişməsi eyni tarixi hadisələrə, tarixi şəxsiyyətlərə, onların dəyərləndirilməsinə də təsir edir. Bu, özünü hər şeydən əvvəl təfsirdə, təfsir üçün mənbələrin seçimində göstərir. Məlum olduğu kimi,

xatirələr, tarixi hadisələrin şahidlərinin qeydləri, memuarlar mənbə kimi mühüm əhəmiyyətə malikdir. Bununla belə, bu qəbildən olan mənbələrə ehtiyatla yanaşılmalıdır. Çünki bu xatirələr müəlliflərinin bəzən qəsdən, məqsədli şəkildə, bir çox hallarda isə təsvir etdikləri hadisələrin üstündən xeyli vaxt keçməsi, dəqiq tarixlərin, ardıcıllığın, ayrı-ayrı vacib nüansların unudulması ucbatından oxucuları çaşdırır, səhv məlumatlar yayır, hadisələri təhrif edərək onların obyektiv adekvat mənzərəsini yaratmağa mane olur. Bu, xüsusilə hadisənin bilavasitə şahidinin deyil, onun ağızdan-ağıza yayılan variantlarına aiddir. Məhz bu məsələyə akademik Heydər Hüseynovun 115 illiyinə həsr etdiyim "Filosof və dövrü. Konseptual yanaşmalar" (2023) adlı yeni kitabımda (3) (onun haqqında "Akademik Heydər Hüseynov" adlanan birinci monoqrafiyam (2) 2015-ci ildə işıq üzü görmüşdür) xüsusi olaraq toxunmuşam.

Məsələ burasındadır ki, professor Vilayət Quliyevin "Alimin faciəsi: Akademik Heydər Hüseynov" adlı məqaləsinin (4) 2021-ci ildə "525-ci qəzet"də dərc edilib internet məkanına çıxmasından sonra Mircəfər Bağırovun H.Hüseynovun Stalin mükafatı almış kitabını onun başına, özü də iki dəfə çırpması və tək qalanda alimin damarını kəsib intihar etmək istəməsi haqqında "maraqlı" əhvalat geniş yayılmışdır. V.Quliyev məqaləsində bu əhvalatı ona H.Hüseynovla birlikdə çalışmış İmran Seyidovun danışdığını qeyd edir. Halbuki İmran Seyidovun (1922-2001) öz sağlığında akademikin yubiley və anım günü ilə əlaqədar yazıb mətbuatda dərc etdirdiyi xatirə-məqalələrində (7, 12) belə bir hadisəyə eyham belə yoxdur.

Ən pisi odur ki, guya baş vermiş bu olayda əzabkeş akademik Heydər Hüseynovu zəif, qorxaq bir adam kimi səciyyələndirən aşağılama məqamı vardır. Bu barədə söhbət düşmüşkən, yaxınlarda həmkarlarımdan biri "başa kitab çırpma"nın gerçək fakt kimi İctimai Televiziyanın "XX yüzillik: Faktlar, hadisələr, insanlar" proqramında da səsləndirildiyini söylədi və telefonunda verilişin müəllif və aparıcısı Müsəllim

Həsənovun bu "sensasion olayı" heyrətlə xəbər verdiyi hissəni internetdən tapıb mənə göstərdi.

1950-ci ilə həsr edilən həmin verilişə daha əvvəl baxmadığıma təəssüf etdim. Amma gec də olsa, onun internetdə yerləşdirilmiş videosunu izlədim. Aparıcı elə başlanğıcdan verilişin başlıca qayəsini bildirir: "*Deyirlər, keçmişi öyrənmədən bu gün baş verənləri anlamaq, dərk etmək mümkünsüzdür. Ona görə də biz XX əsrdə ölkəmizin ərazisində olub keçənlərin ən maraqlı səhifələrini vərəqləyirik. Ötən əsrin qısa xronikası. XX yüzillik. Faktlar, hadisələr və insanlar. O faktlar, o hadisələr, o insanlar XX əsrdə bu və digər dərəcədə iz qoyublar. Biz həmin izləri sizin və bizim eşitdiyimiz şayiələr və əfsanələr əsasında yox, o dövrün qəzetləri, eləcə də arxiv sənədləri əsasında bərpa eləyirik*". Artıq bu sözlər tamaşaçıda bir çox şayiələrdən qurtulacağına, yalnız doğru xəbərlər, həqiqi faktlar eşidəcəyinə inam yaradır. Lakin, əfsuslar olsun ki, iddiaya rəğmən, verilişin nəinki şayiə və əfsanələri aradan qaldırmadığının, əksinə, yanlış informasiyalarla onların sayını artırdığının şahidi oluruq. Burada mənim qeydlərim sözügedən verilişin yalnız Azərbaycan fəlsəfə tarixinin, bir elm sahəsi kimi, təməlini qoyan Heydər Hüseynovla bağlı hissələrinə aid olacaq. Başdan başlayaq.

Məlumat xatirinə deyim ki, 1949-cu il üçün görkəmli əsərlərinə görə Stalin mükafatı alan laureatların siyahısı mərkəzdə, müttəfiq respublikalarda əsas qəzetlərin, o cümlədən Azərbaycanda "Kommunist", "Bakinski raboçiy" qəzetlərinin 8 mart 1950-ci il tarixli nömrəsində dərc edilmişdi. Və bu siyahıda ədəbi tənqid və sənətşünaslıq sahəsi üzrə "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" kitabına görə akademik Heydər Hüseynovun da adı vardı. Aparıcı isə bu siyahının "Kommunist" qəzetinin 5 mart 1950-ci il tarixli nömrəsində dərc edildiyini xəbər verir.

Daha sonra ekranda Heydər Hüseynov haqqında kompüter çapında qısa məlumat görünür. Həmin mətni aparıcı sözbəsöz oxuyur. Burada ömrünün son illərində alimin işlədiyi idarələr,

vəzifələri sadalanır, amma nədənsə onun Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olması ilə yanaşı, həm də Akademiyanın İctimai elmlər bölməsinin sədri vəzifəsini də daşıması qeyd edilmir. Bu mətndə səhv də vardır. Heydər Hüseynovun guya hansısa "Müxtəsər Azərbaycan tarixi" kitabının redaktoru olduğu bəyan edilir. Halbuki müharibə illərində Məmməd Arif və Heydər Hüseynovun redaktorluğu altında nəşr edilən ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (5) adlanır. O zaman "Ədəbiyyatımızın tarixini yaratmaq işində ilk təşəbbüs" kimi səciyyələndirilən həmin fundamental monoqrafik əsər indinin özündə də bir çox cəhətdən öz əhəmiyyətini itirməmişdir. Bu nadir kitabın müqəddiməsini də Heydər Hüseynov yazmışdı. Yeri gəlmişkən qeyd edim ki, o, birinci dəfə 1947-ci ildə baş redaktoru olduğu dördcildlik "Rusca-azərbaycanca lüğət"ə görə ikinci dərəcəli Stalin mükafatı ilə təltif edilmişdi.

Aparıcı Heydər Hüseynovun "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" əsərinə görə Stalin mükafatı alması tarixçəsinə toxunur. O deyir: "*Lakin Heydər Hüseynov bir səhvə yol vermişdi. Əsərinin Stalin mükafatına təqdim olunduğunu Bağırova deməmişdi. Bəs respublika rəhbərindən xəbərsiz bu kitab necə mükafat alıb? ... Fadeyev kitabı bəyənir və Stalin mükafatına təqdim edir. Və ona mükafat verilir. Bağırovdan xəbərsiz*".

Dediklərindən görünür ki, Müsəllim müəllimin özü Heydər Hüseynovun əsərinin mükafata təqdim edilməsi barədə M.C.Bağırovun xeyli əvvəldən xəbəri olmasını təsdiq edən sənədlərdən xəbərsizdi. Ən qəribəsi isə bundan sonra başlayır. Şayiə və əfsanələrə qarşı çıxan aparıcı-müəllif, Bağırovla Hüseynov arasında tet-a-tet keçən, barəsində dövrün qəzetlərində yazılmayan, arxivlərdə bir sənədin olmadığı görüşü sanki özü orada iştirak edibmiş kimi, hər şeyi öz gözləri ilə görübmüş kimi, detalları ilə təsvir etməyə başlayır:

*"Bağırov Heydər Hüseynovun, necə deyərlər, bu özfəaliyyətini həzm edə bilmir. Qəzetdə xəbəri oxuyan kimi onu kabinetinə çağırır. Təbrik etmək üçün yox, cəzalandırmaq üçün. Heydər Hüseynov Bağırovun kabinetinə girir. Birinci katib əsəbi oturub və ilk sualını verir. "Mükafatı necə almısan?! Kim təqdim edib? Heydər Hüseynov olanları nəql etməyə çalışır. Kitabı Fadeyevə göndərdiyini, mükafata da onun təqdim etdiyini bildirir. Bağırov Heydər Hüseynovun 733 səhifəlik qalın cildli kitabını götürərək sözün əsl mənasında iki dəfə onun başına vurur. Və onu otaqdan qovur. İsterik vəziyyətdə Akademiyaya gələn akademik Hüseynov bu təhqirə dözməyərək damarını kəsməklə intihara cəhd edir".*

İndi isə aparıcının bu rəvayətindəki yanlışlıqlara nəzər salaq. Əvvəla, artıq qeyd etdiyim kimi, Bağırovun Heydər Hüseynovun kitabının Stalin mükafatına təqdim olunmasından xəbəri vardı, bu barədə hələ 49-cu ilin noyabrında ona məlumat vermişdilər, o da etiraz etməmişdi. Sonradan üzü dönməsinin səbəbi isə sovet tarixşünaslığında Qafqazşünaslıq konsepsiyasının dəyişməsi, "yuxarıdan" ona edilən təpki ilə bağlı idi. (Bu barədə sonuncu monoqrafiyamda ətraflı bəhs etmişəm. Bax: 3, s.125-129).

İkincisi, Bağırov akademiki kabinetinə Stalin mükafatı laureatlarının siyahısının çap olunduğu gün, martın 8-də, yəni "qəzetdə xəbəri oxuduğu" gün çağırmamışdı. Bu məşum görüş daha əvvəl, fevralın 14-dən 15-ə keçən gecə (bu dəqiq tarixi alimin qızı Sara xanım bir neçə məqaləsində göstərmişdir) baş tutmuşdu. Təbiidir ki, iki nəfər arasında olan söhbətin məzmunundan yalnız ya onların öz xatirələrindən (tərəflərdən heç birinin isə belə bir xatirəsi bizə məlum deyil), ya da ki, yaxınları ilə bölüşdüklərindən xəbər tutmaq mümkündür. Odur ki, əgər televiziya verilişinin aparıcısı məşum görüşün məzmunu haqqında mütləq məlumat vermək fikrinə düşmüşdüsə, xatirələrə müraciət etməli idi. Məsələn, akademikin böyük qızı Sara xanımın sözlərinə görə, həmin gecə Bağırov atasından

Şamilin Türkiyə və İngiltərə casusu olduğunu etiraf etməsini tələb etmiş, alim isə bununla razılaşmayıb, cəsarətlə: "Hirsli başda ağıl olmaz" deyə cavab vermişdi (10). H.Hüseynovun ortancıl qızı Leyla xanımın bir müsahibəsindən isə xəbər tuturuq ki, Bağırov alimi çox ağır, kobud sözlərlə təhdid etmişdi: "Mən səni milçək kimi əzəcəyəm. Milçəkdən iz qalır, səndən isə iz də qalmayacaq". İmran Seyidov isə 1998-ci ildə yazdığı məqaləsində həmin hadisə haqqında akademiklə söhbətini belə xatırlayır: *"...mən MK-da kitabının necə qarşılandığını ehtiyatla ondan (H.Hüseynovdan) soruşdum. O, bir qədər ara verib dedi: — O, (Bağırovu nəzərdə tuturdu), bu sözləri mənim üzümə vurdu. Alnıma qoşa güllə çaxsaydı, bundan yaxşı olardı". Mən Bağırovun ona nə dediyini soruşmağa cürət etmədim...*" (6, s. 85).

Yəni, xatirələrin heç birində "başa kitab çırpmaq" əhvalatına rast gəlmirik. Göründüyü kimi, akademikin damarlarını kəsməsinin Bağırovun "təhqirinə dözməməsi" ilə əlaqəsi yox idi, dəli olmamışdı ki, ailəsini, azyaşlı övladlarını (o zaman qızlarından böyüyünyn 15, kiçiklərin 11 və 9 yaşları vardı) düşünmədən, bir xoşagəlməz görüşə, nə qədər dəhşətli olmuş olsa belə, bir hədəyə görə gənc yaşında özünə qəsd edəydi. Lakin partiyadan xaric edilmək, bax bu, həqiqətən, Stalin dövrünün ölümə bərabər fəlakətlərindən idi. Çünki belə insana "xalq düşməni" damğası vurulur və o, bunun bütün faciəvi nəticələrini (özü və ailəsinin təqib olunması, həbsxana, işgəncələrlə müşayiət edilən dindirilmələr, sürgün ya edam) gözünün altına almalı idi. Üzərində qara buludların getdikcə qatılaşdığı H.Hüseynov məhz martın 17-də onun "antipartiya fəaliyyəti" haqqında məsələsinin MK-nın büro iclasına çıxarıldığını biləndə bu addımı atmışdı (8, s. 284).

Müsəllim müəllim, canına qıymaq istəyən alimin halını "isterik vəziyyət" kimi səciyyələndirir. Görünür, belə bir səhv qənaətə gəlməsinin səbəbi bəhrələndiyi və təsiri altında olduğu məqalə ilə bağlıdır. Belə ki, V.Quliyev həmin məqaləsində

yuxarıda sözü gedən görüşü Bağırovun “isterik monoloqu” kimi təsvir edir. Jurnalist M.Həsənov ona dialoq elemenləri qatsa da, professorun Bağırova aid etdiyi isterikliyi qeyri-şüuri H.Hüseynovun üzərinə keçirmişdir. Əslində isə isterika teatrdakı kimi müxtəlif hərəkətlərlə – əl-qol oynatma, hıçqırıqlar, göz yaşları, qəhqəhə, qışqırıqlarla müşayiət olunan emosional halı göstərir. H.Hüseynov isə sakitcə, heç kəsə bir söz demədən Akademiyanın RH-dəki kabinetinə çəkilib, qapını içəridən bağlamışdı. Duyuq düşən həmkarları onu otaqda iki biləyini də kəsərək kresloya yıxılmış halda tapmışdılar. Artıq xəstəxanada həkimlər ona reaktiv depressiya diaqnozu qoymuşdular.

Martın 18-də keçirilən büro iclasının qərarına gəlincə, onun sonuncu səhifəsində, Müsəllim müəllimin dediyi kimi, heç də “tutduğu bütün vəzifələrdən azad olunsun” yazılmamışdı, o, iki əsas, yəni ÜİK(b)P MK yanında Marks-Engels-Lenin İnstitutu Azərbaycan filialının direktoru və Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifələrindən azad edilirdi.Jurnalist-aparıcı H.Hüseynova qarşı təqiblərin başlanması, partiyadan və işdən çıxarılmasını nəzərdə tutaraq sözünə davam edir: “*Amma bütün bu proseslər martın 12-də keçirilən SSRİ Ali Sovetinə seçkilərin gedişinə mane ola bilmir*”. Qəribə məntiqdir, deyilmi?! Dünyanın harasında görünüb ki, kiminsə, lap elə görkəmli alim olsun, incidilməsi, ya işdən çıxarılması dövlətin ali hakimiyyət orqanına seçkinin gedişinə mane ola bilsin. Yenə əgər bu yerdə SSRİ Ali Sovetinə seçkiləri yada salmaq zəruri idisə, H.Hüseynovun Azərbaycan SSR Ali Sovetinin deputatı olmasından, “*bu proseslər*”in onun SSRİ Ali Sovetinə deputat seçilməsinə mane olması haqqında danışmaq olardı.

Daha bir mif H.Hüseynovun kitabından Stalin mükafatının geri alınması ilə bağlıdır. Aparıcı qəti əminliklə “SSRİ tarixində belə hadisə olmamışdır” deyə növbəti səhvə yol verir. Əslində, H.Hüseynovdan əvvəl də, sonra da mükafatın geri alınması faktları mövcuddur. SSRİ EA Fəlsəfə İnstitutunun hazırladığı

çoxcildlik ümumdünya “Fəlsəfə tarixi”nin (1940-1942-cü illər) 1943-cü ildə işıq üzü görən üç cildi (11) (redaktorlar: G.F.Aleksandrov, B.E.Bıxovski, M.A.Dınnik, M.B.Mitin, P.F.Yudin və b.) birinci dərəcəli Stalin mükafatı ilə təltif edilmiş, 1944-cü ilin mayında isə MK-nın qərarı ilə, mükafat kitabın III cildindən (alman fəlsəfəsinə həsr edilən hissəyə görə) geri alınmışdı. G.F.Aleksandrovun ikinci dərəcəli Stalin Mükafatına layiq görülən “Qərbi Avropa fəlsəfəsinin tarixi” kitabı (1946) (9) 1947-ci il fəlsəfi diskussiyalarının səbəbi və əsas tənqid obyekti olmuşdur. Aleksandrov həmin kitabına görə, cəzalandırılaraq, MK katibi postundan çıxarılmış, vəzifəsi aşağı salınmışdı. H.Hüseynovun ardından Ukrayna bəstəkarı G.L.Jukovski “Səmimi qəlbdən” operasına görə təltif edildiyi III dərəcəli Stalin mükafatından 1951-ci ildə məhrum edilmişdi. Memarlar A.B.Boretski və L.M.Polyakovun “Leninqrad” mehmanxanasının layihəsinə görə 1949-cu ildə aldıqları II dərəcəli Stalin mükafatı 1955-ci ildə ləğv edilmişdi. Başqa faktlar da var. Hətta 1980-cı ildə, yəni üstündən uzun illər keçdikdən sonra, akademik A.D.Saxarov SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə bütün mükafatlarından, o cümlədən hidrogen bombasının ixtirasına görə 1953-cü ildə təltif edildiyi I dərəcəli Stalin mükafatından məhrum edilmişdi...

H.Hüseynov haqqında qəmli hekayənin sonunda Müsəllim müəllimin fantaziyaları absurdluq həddinə çatır. O deyir: “*Bağırov ziyalıların toplantısında bir fikir də səsləndirmişdi: Hüseynov damarını kəsərək intihar səhnəsi qurdu. Bizi qorxutmaq istədi. Onun haqqında deyilənləri eşidən Heydər Hüseynov bu dəfə intihar səhnəsi qurmur. Bağ evinə çəkilir, qoca anası ilə Mərdəkandakı kasıbyana bağında yaşayır. Bundan sonra yaşamağım mənasız olduğunu düşünür. Münasib vaxt və yer axtarır. Və həmin yeri və vaxtı tapa bilir. Onun az qala hər addımını izləyən anasının diqqətini yayındırır və avqustun 15-də ikinci dəfə intihar edir - damarlarını kəsməklə və bu dəfə onun həyatını xilas etmək mümkün olmur*”.

Düzü, bunları eşidəndə, "Əhməd haradadır" filmindən Zülümovla ahıl usta Əhməd arasındakı epizod yadıma düşdü. "Zülümov: "Ata-anan gəlib, səni görmək istəyirlər. Hhhh, ha". "Nə boş-boş danışırsan, mənim ata-anam 40 il bundan əvvəl rəhmətə gedib, yetim qalmışam". "Sənə yanlış məlumat veriblər"...Aparıcı bilmir ki, H. Hüseynov bağ evində həyat yoldaşı və azyaşlı qızları ilə qalırdı. Alimin guya "hər addımını izləyən" "qoca anası" isə həmin hadisədən 24 il əvvəl, 1926-cı ildə rəhmətə getmişdi. O zaman onun 18 yaşı, anasının isə rəsmi sənədə görə 60 yaşı (razılaşaq ki, bu günümüzün meyarları ilə yanaşsaq, o qədər də qoca yaş deyil) vardı.

Yuxarıda gətirdiyim kiçik mətndə üstəlik "bədiilik" naminə fikrin düzgün ifadə edilməməsi yanlış anlaşılmaya rəvac verir. Aparıcının "Heydər Hüseynov bu dəfə intihar səhnəsi qurmur" sözləri Bağırovun sözlərinin təsdiqi kimi səslənir, yəni sanki o özü də birinci intihar cəhdinin qurama, tamaşa olduğunu boynuna alır. Qaldı ki akademikin bağının "kasıbyanə" olub-olmadığına, bunu yalnız o bağda olmuş adam deyə bilər. Bizsə bilirik ki, əhalinin əksəriyyətinin, xüsusilə də həmin illərdə, həqiqətən sadə və kasıb yaşadığı sovetlər ölkəsində bağ və bağ evi tək-tək insanlarda, sovet elitasının nümayəndələrində olurdu və dəbdəbə nişanəsi sayılırdı.

Nəhayət, M.Həsənovun — "H.Hüseynov avqustun 15-də ikinci dəfə intihar edir - damarlarını kəsməklə" cümləsinə nəzər yetirək. Əvvəla, intihar, hamının bildiyi kimi, özünü öz əllərinlə öldürmək anlamına gəlir və əgər insan bir dəfə özünü öldürübsə, aydındır ki, ikinci dəfəyə ehtiyac qalmır. Aparıcının akademikin damarlarını kəsməklə yox, özünü asmaqla həyatına son qoyduğundan da xəbəri olmaması daha bir təhrifə yol açır.

Yeri gəlmişkən, veriliş boyu mətnin məzmunu animasiya elementli şəkillərlə müşayiət olunur. Danışdığım hissəyə dair şəkillər mətndə deyilənlərin "həqiqətini" möhkəmləndirir. Məsələn, şəkillərdən birində alim "kasıbyanə" bağ evində qoca anası ilə oturub söhbət edir, o birində alim əllərini irəli uzadıb

yerə yıxılmışdır, köynəyinin yaxalığı isə nədənsə tərpənir, yerdəki xətlər də, görünür, qan izləridir. Bir başqa şəkildə anası tabuta oxşar şeyin qarşısında durub ağlayır.

Düşünürəm, bəlkə də yaxşı ki, alimin özünü asdığını bilməyiblər. Yoxsa daha bir şəkildə tavandan, ya ağacdan asılmış ip... təsvirini görərdik. Bu isə alimin xatirəsinə böyük hörmətsizlik olardı. Bu məqamın həssaslığını, ağırlığını Sara xanımın yazılarından aydın hiss etmək olur. O, 134 nömrəli məktəbin yeddinci sinfində oxuyurdu. Heydər Hüseynovun intiharından sonra qızcığaz dünənə kimi dost, yaxınlarının onların ailəsindən necə üz döndərdiklərini, salamlarını belə almadıqlarını, məktəbdə müəllimlərin, yoldaşlarının münasibətinin dəyişdiyini dəhşətlə izləyir, sarsılırdı. Müəllimlər qiymətini kəsir, atasını tənqid edirdilər. Hətta rus dili müəlliməsinin zalımlığı, mənəviyyatsızlığı o dərəcəyə çatmışdı ki, övladının önündə uzun-uzadı danışdıqdan sonra havada əliylə atasının "boğazına necə ip keçirdiyini təsvir edirdi". "Bütün bunlara dözmək mümkün deyildi. Heç bilmirəm, necə tab gətirmişəm" deyən Sara xanım keçirdiyi acıları hər dəfə yenidən yaşayırdı...

Verilişdə səhvləri əyaniləşdirən başqa şəkillər də gözlərimiz önündən keçir. Onlar belə yanlış təsəvvür oyadır ki, guya Heydər Hüseynov Moskvada Stalin mükafatının təqdim edilmə mərasimində iştirak edib. Halbuki təqdimat mərasimi, adətən, mükafat elan ediləndən bir-iki ay sonra keçirilirdi. Fevraldan başı bəlada olan, partiyadan, bütün vəzifələrindən çıxarılmış, intihara cəhd etmiş, vəziyyəti düzəltmək üçün üzrhaqlıq məktubları ilə Bağırovun ürəyini yumşaltmağa çalışan, həyatla ölüm arasında çırpınan insan o mərasimə necə gedə bilərdi? Getmək istəsəydi belə, onu kim buraxardı. Şəkildə isə o (yəni rəssamın oxşatdığı H.Hüseynov) səhnədə dayanıb razı halda gülümsəyir, Stalin mükafatı döş nişanını isə onun yaxasına, Sov.İKP MK-nın baş katibi kimi tanıdığımız L.İ.Brejnevə bənzəyən bir kişi sancır. ...

Verilişdə H.Hüseynovun, necə deyərlər, “kitabını bağlayan” Bakı ziyalılarının yığıncağını əks etdirən şəkillərin konkret tarixi hadisənin mənzərəsini necə saxtalaşdırdığını təsəvvür etmək üçün dövrün xronikasına müraciət edək. “Kommunist” qəzetinin 16 iyul 1950-ci il tarixli (№ 142) sayında Azərbaycan teleqraf agentliyinin “Bakı ziyalılarının yığıncağı” başlıqlı xəbərində deyilirdi:

“*M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən Bakı ziyalılarının yığıncağı iki gün, iyulun 14-də və 15-də davam etmişdir. Filarmoniyanın yay meydançasına Azərbaycan paytaxtı ziyalılarının 2000-dən artıq nümayəndəsi —Respublika Elmlər akademiyasının həqiqi üzvləri, elm doktorları və namizədləri, ali məktəblərin professor və müəllimləri, neftçi mühəndislər, geoloqlar, konstruktorlar, inşaatçılar, müəllimlər, həkimlər, kənd təsərrüfatı mütəxəssisləri, yazıçılar, bəstəkarlar, artistlər, memarlar, rəssamlar, sovet idarələrinin qulluqçuları, Sovet ordusunun və Hərbi-Dəniz Donanmasının general və zabitləri, rəhbər partiya, sovet, həmkarlar ittifaqı və komsomol işçiləri və başqaları yığışmışdılar. Yığıncağın rəyasət heyətində M.C.Bağırov, T.Quliyev, N.H.Heydərov yoldaşlar, rəhbər partiya və sovet işçiləri, alimlər, ədəbiyyat və incəsənət xadimləri və başqaları əyləşmişdilər*” (1). Daha sonra qəzet yığıncaqda “Azərbaycan K(b)P Mərkəzi və Bakı Komitələrinin katibi M.C. Bağırov yoldaş”ın respublika ziyalılarının növbəti vəzifələri haqqında böyük məruzə etdiyi və məruzə ətrafında çıxış edənlərin adları qeyd edilir. Xatırladım ki, bu məruzədə H.Hüseynovun kitabı burjua millətçiliyinin təzahürü, nöqsanlı və zərərli kitab kimi səciyyələndirildikdən sonra, o, keçmiş dost və həmkarlarının amansız tənqidinə tuş gəlmişdi.

Şəkillərdə isə ziyalılar toplantısı bir otaqda 7-8 nəfərin iştirakı ilə keçirilir. Onlardan birində uzun masa arxasında, Bağırov başda olmaqla, 7 nəfər kostyumlu kişi – ziyalı əyləşib, o birində də həmin masanın ətrafında yeddi nəfər kişi oturub

diqqətlə natiqə qulaq asırlar. Stolun üstündə səliqəsiz şəkildə səpələnmiş vərəqlər, bloknotlar, içərisində su olan stəkanlar, hətta külqabı var. Animasiya onlardan birinin sanki siqaret çəkdiyi təəssüratı yaradır. Maraqlıdır, görəsən o hansı ziyalı imiş ki, Bağırovun hüzurunda siqaret çəkməyə cəsarət edib...

Beləliklə, bir tərəfdə, Filarmoniyada 2000-dən artıq ziyalının iştirak etdiyi izdihamlı yığıncaq, digər tərəfdə, 7-8 nəfərin yığışdığı bir otaqda keçirilən toplantı. Acınacaqlı olan odur ki, tədbirin məkan və ölçülərini saxtalaşdıran şəkillər tamaşaçıların H.Hüseynovun faciəsinin miqyasını, onun totalitar cəmiyyətdə necə təkləndiyini, haradasa, intiharının səbəbini anlamasına mane olur.

Qeyd etmək lazımdır ki, keçmiş haqqında yanlış məlumatlara, kobud səhvlərə, uydurmalara başqa verilişlərdə, filmlərdə də, kitablarda, məqalələrdə də az rast gəlmirik. Görünür, bunları görüb də, tarixi "hamının qəbul etdiyi təmsilə" bənzədiblər, onu "barəsində hamının razılığa gəldiyi yalan" hesab edib, "şayiələrin mahiyyəti" adlandırıblar. Lakin gəlin unutmayaq ki, biz təkrarolunmaz tariximiz qarşısında, haqq dünyasında olan, bizə cavab verə, etiraz edə bilməyən tarixi şəxsiyyətlərimiz qarşısında məsuliyyət daşıyırıq.

## Ədəbiyyat


1. Bakı ziyalılarının yığıncağı // "Kommunist" qəzetinin 16 iyul 1950-ci il tarixli (№ 142).
2. Hacıyeva A.Ə. Akademik Heydər Hüseynov. Bakı: Elm, 2015.
3. Hacıyeva A.Ə. Filosof və dövrü. Konseptual yanaşmalar. Bakı: Zərdabi, 2015.
4. Quliyev V. Alimin faciəsi. 525-ci qəzet, 28 avqust 2021-ci il.

5. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi. 2 cilddə. Red. Məmməd Arif və Heydər Hüseynov. Bakı: EAAzF nəşr., 1943-1944.

6. Seyidov İ. Akademik Heydər Hüseynovun ömrünün son ili haqqında. / Sabir Əsədov. Heydər Hüseynov. Bakı: "Azərbaycan" nəşriyyatı, 1998, s. 83-90.

7. Seyidov İ. "Akademik Heydər Hüseynovun ömrünün son ili haqqında", "Panorama", 16 iyul 1998-ci il.

8. Teyyub Qurban. Düşmənlərindən güclü şəxsiyyət. 3-cü kitab, Bakı: "OL" MMC, 2015.

9. Александров Г.Ф. История западноевропейской философии. Москва; Ленинград: Издательство Академии наук СССР, 1946.

10. Гражданская казнь Гейдара Гусейнова. Беседа с дочерью Г.Гусейнова Сарой Гусейновой. 22 мар, 2007 https://murtazali.livejournal.com/7731.html

11. История философии. Т.1, 2, 3. М.: Политиздат при ЦКВКП(б), 1941/1943.

12. Сеидов И. Жизнь, прерванная на излете // «Бакинский рабочий», 15 августа 2000 г.

# MİRZƏ ŞƏFİ VAZEHİN DİNİ-FƏLSƏFİ VƏ ƏXLAQİ-ESTETİK GÖRÜŞLƏRİ

**Faiq Ələkbərli**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

## Giriş

1792-ci ildə Gəncədə bənna-memar Kərbəlayı Sadıqın ailəsində dünyaya gələn Mirzə Şəfi Vazeh atası dünyadan tez köçdüyü üçün daha çox Hacı Abdulla adlı panteist görüşlü şəxsin himayəsində yaşamışdır. Gəncə mədrəsəsində orta ruhani təhsil (şəriət dərsləri, ərəb və fars dilləri və s.) alan Vazeh buranı yarımçıq tərk etdikdən sonra müstəqil şəkildə dini və dünyəvi elmləri öyrənməyə davam etmişdir [2, s.137]. Mirzə Şəfi Hacı Abdullanın köməyi ilə Cavad xanın qızı Püstə xanımın kənd və mülklərini idarə etmək üçün mirzəlik vəzifəsinə təyin olunsa da, ancaq 1826-1828-ci illər Rusiya-Qacarlar müharibəsi zamanı Püstə xanımın qardaşı Uğurlu bəylə bərabər Tehrana getməsi nəticəsində işsiz qalmışdır. Onun işsizliyi çox uzun sürməmiş, Gəncədə Şah Abbas məscidinin yanındakı mədrəsədə müəllim və xəttat kimi fəaliyyət göstərmişdir.1830-cu illərdə artıq Gəncədə xəttat, müəllim və şair kimi tanınan Mirzə Şəfi, 1840-cı ildə Tiflisə köçüb buradakı qəza məktəbində Türk (Azərbaycan) və fars dilləri üzrə müəllim vəzifəsinə təyin olunur [6, s.9].

Həmin dövrdə Tiflisdə "Divani-hikmət" ədəbi-fəlsəfi dərnəyinin yaranmasının təşəbbüskarı və təşkilatçısı kimi çıxış edən Mirzə Şəfi ilə A.A.Bakıxanov arasında tanışlıq da məhz bu dərnəkdən başlamışdır. Bu dərnəyin üzvü olan alman ədəbiyyatşünas-tərcüməçisi Fridrix Bodenştedt (yeri gəlmişkən, Bodenştedt Mirzə Şəfinin şeirlərini Almaniyada "Mirzə Şəfinin şərqiləri" başlığı ilə kitabça şəklində nəşr etdirmiş, ancaq az bir müddətdə məşhurlaşmasıyla öz adına çıxmağa başlamışdır. Hətta

uzun müddət Mirzə Şəfinin ictimai-fəlsəfi irsi Avropa və Rusiyada Bodenştedtin adına çıxarılmışdır. Yalnız 1920-ci illərdən sonra Mirzə Şəfinin haqqı özünə qaytarılmağa başlanmışdır ki, bu işdə Salman Mümtaz, Ə.Ə.Səidzadə və başqaları mühüm rol oynamışlar [3, s.153]. H.Hüseynov yazır ki, A.A.Bakıxanov Qərb əxlaq və adətləri, vəziyyəti və şəraiti haqqında geniş biliyə sahib idi və Mirzə Şəfi ona "böyük mütəfəkkir" deyə müraciət edirdi [5, s.11].

Altı il Tiflisdə yaşayan Vazeh 1846-cı ilin noyabrında Gəncəyə gəlib buradakı qəza məktəbində müəllim kimi fəaliyyət göstərsə də, ancaq 1850-ci ilin yanvarında yenidən Tiflisə üz tutmalı olur. Tiflisdə Zadəganlar gimnaziyasında Türk dili (Azərbaycan) müəllimi təyin olunan Vazeh çox keçmədən İ.Qriqoryevlə birlikdə "Kitabi-Türki" (1851) müntəxəbatını yazmışdır. 1854-1855-ci illərin qovşağında Təbrizdə nəşr olunan "Kitabi-Türki" əsəri Türk dilini (Azərbaycan) və ədəbiyyatına tədris etmək üçün yaradılmış qiymətli əsərlərdən biri hesab olunur. O, 1852-ci ilin noyabrın 28-də Tiflisdə vəfat etmiş və burada da dəfn olunmuşdur.

**Dini-fəlsəfi görüşləri.** Vazeh də Bakıxanov kimi İslam dinini, Şərq mədəniyyətini deyil, həmin din ya da mədəniyyət ətrafında sonralar yaranmış dini xurafatı və dini mövhumatı qəbul etməmişdi. Bu anlamda İslam-Şərq mədəniyyətini-fəlsəfəsini dərindən bilən, eyni zamanda dövrünün tərəqqipərvər mədəniyyəti hesab olunan Qərb mədəniyyəti ilə yaxından tanış olan Vazehin dünyagörüşündə əsas tənqid hədəfi İslam dini deyil, riyakar ruhanilər və mollalar idilər. Bu baxımdan M.F.Axundzadənin öz tərcümeyi-halında Gəncə mədrəsəsində ruhani olmaq məqsədilə dini elmləri öyrəndiyi zaman müəllimi Vazeh ona riyakar və şarlatan olmaqdansa, öz həyatını bu qaragüruhun içərisində puç etməməsini, başqa bir məşğuliyyət tapmasını məsləhət görməsini yazması Sovetlər Birliyi dövründə bir çox tədqiqatçılar tərəfindən birtərəfli, subyektivcəsinə şərh edilmişdir [5, s.108]. Belə ki, Vazeh Gəncə mədrəsəsində dərs verərkən onların arasındakı bir mükaliməni sonralar Axundzadə öz tərcümeyi-halında bu cür qələmə almışdır: "Bir gün həmin möhtərəm şəxs məndən soruşdu: "Mirzə Fətəli, elmləri öyrənməkdə

məqsədin nədir?" Cavab verdim ki: - Ruhani olmaq istəyirəm. Dedi: - Deməк, riyakar və şarlatan olmaq istəyirsən?" Təəccüb edib çaşıb qaldım ki, görəsən, bu nə sözdür? Mirzə Şəfi mənim vəziyyətimə nəzər salıb dedi: "Mirzə Fətəli! Öz həyatını bu iyrənc camaatın sıralarında zay etmə! Başqa bir peşə dalınca get!" Elə ki ondan ruhanilərə nifrət etməsinin səbəbini soruşdum, o elə mətləbləri açıb söyləməyə başladı ki, o günə qədər mənə məlum deyildi. Nəhayət, ikinci atam Məkkədən qayıdana qədər Mirzə Şəfi ürfanın bütün məsələlərini mənə təlqin etdi və qəflət pərdəsini mənim gözümdən açdı…" [1, s.217].

Əlbəttə, Vazehin burada nəzərdə tutduğu İslam dini və onun həqiqi, möhtərəm nüfuz sahibləri deyil, riyakar ruhanilik və zahidlik idi. Yəni, Vazeh Axundzadəyə savadsız, nadan ruhani olmaqdansa, dünyəvi elmləri öyrənib müsəlmanların inkişafına xidmət göstərməsini tövsiyə etmişdi. Bizcə, Vazehi narahat edən əsas məsələ dünyəvi, humanist mahiyyətli İslam dininin, Şərq-Türk mədəniyyətinin öz mahiyyətindən xeyli dərəcədə uzaqlaşıb riyakar ruhanilər, zülmkar məmurlar, məddah ziyalılar, ya da şairlərin də sayəsində tənəzzülə uğraması fonunda, Qərb dünyasında baş verən yeniliklər əsasında Avropa xalqlarının inkişaf edərək dünyaya, o cümlədən Türk-Müsəlman ölkələri üzərində ağalıq etməsi idi. Bu baxımdan M.Ş.Vazehin yaradıcılığında ən çox diqqət çəkən cəhət yalançı ruhanilərin, məddah ziyalıların, məddah şairlərin İslam dininə, Şərq-Türk mədəniyyətinə qeyri-səmimi münasibətinin tənqidi idi. Bəzi mənbələrə görə, gerilikçi din xadimlərinin hədə-qorxusundan Vazehi bir çox hallarda Cavad xanın qızı Püstə xanım müdafiə etmişdir [4, s.154-156]. Hər halda bu bir həqiqətdir ki, yenilikçi, ədalətsevər, tərəqqipərvər baxışlarına görə gerilikçi ruhanilər onu incitmiş, hədə-qorxu gəlmiş, gənclərin əxlaqını pozmaqda ittiham edib "laməzhəb" adlandırmışlar.

Deməli, Vazehin dini-fəlsəfi görüşlərində əsas yerlərdən birini XVII əsrdən sonra meydana çıxmış sxolastik dini düşüncənin, xüsusilə dini xurafatın və dini mövhumatın tənqidi tutmuşdur.

Vazehə görə, bir çox din alimləri İslam dininin qayda-qanunları ilə bağlı əsl həqiqəti millətdən gizlədərək kələkbazlara çevrilmişlər:

*Fəlakətə, işgəncəyə, kədərə*
*Üstün gəlib qılınc çəkmək gərəkdir.*
*Ümid bağla sən biryolluq hünərə,*
*Üləmalar nə desələr, kələkdir.*
*Anlaşılmaz möüzənlə, duanla*
*Sən artırma bu dünyada ələmi.*
*Qoy məqsədin bir şey olsun... gəlanla,*
*Tez ol qurtar dərdü-qəmdən aləmi! [8, s.37].*

Bəzi ruhanilərin anlaşılmayan duaları, moizələri ilə xalqın əzabını artırdığını deyən, filosof açıq şəkildə bildirirdi ki, din adı altında xurafatı, mövhumatı təbliğ edən şairlərin şeirlərinə də ikiüzlü ruhanilərin anlaşılmaz moizələri kimi, qulaq asmaq mənasızdır. Vazeh yazır:

*Nəğməsindən məscid havası gələn şairlərin,*
*Başlar ıboşdur yəqin, ağılları deyil dərin [8, s.46].*

Bir şeirində isə Vazeh yalançı müctəhidləri tənqid obyekti kimi götürür. Onun fikrincə, müctəhid irtica və xurafatı, Quranın mahiyyətindən xəbərdar olan müsəlman isə insan azadlığı və xoşbəxtliyini tərənnüm edir. Vazeh mühafizəkar və yenilikçi ruhlu müsəlman ımüqayisə edərək belə bir qənaətə gəlmişdir ki, əsl müsəlman yenilikçi ruhlu olub, elmli, bilikli olandır:

*Kim aramızdakı fərqi görür?*
*Mən kiməm və bizim müctəhid kimdir?*
*Biz ikimiz də xalqa vəz oxuyuruq ki,*
*Ağla daha çox azadlıq versin;*
*Mən nəğməylə - o isə iyrənc üz bürüşdürməklə,*
*Onun ürəyi qalın ətə batmışdır.*
*Belə ki, o görünmür əsla,*
*Halbuki, mən ürəklərdə,*
*Ağızlarda insanam.*
*Tərəddüdlə, qısa ayaqları üstündə belə*
*O, çıxış edir, qoca qaz kimi*

*Fısıldayır, sanki tosqunluqla*
*Bütün insan günahlarını mədəsində daşıyır.*
*Mən ayaqdan yüngüləm, uçuram küçə boyu;*
*O hirslənir, için çəkir – mən zarafat edirəm*
*O, gizlicə məni məsxərəyə qoymağı sevir,*
*Amma mən onun açıqca cavabını verirəm.*
*Mənim istehzalarımdan o, çox qorxur,*
*Mənə isə onun hiddətini görmək gülüncdür [5, s.114-116].*

Filosof-şair aşkar şəkildə xalqın riyakar ruhanilərə, qeyri-səmimi müctəhidlərə deyil, həqiqi möminlərə, millətsevər ziyalılara ehtiyacın olduğunu yazır. Bu anlamda Vazeh milli-dini dəyərləri təhrif edərək öz maraqlarına uyğunlaşdırmağa çalışan ikiüzlü ruhaniləri, məddah ziyalıları tənqid etməklə yanaşı, əsl din xadiminin və milli ziyalının ortaya qoymalı olduğu nümunəni də ifadə etmişdir. Ona görə də Vazehin şeirlərindəki üsyankarlıq İslam dininə deyil, ikiüzlü ruhanilərlə məddah ziyalıların da sayəsində, bu dinin əsl mahiyyətindən kənarda meydana çıxmış xurafat və mövhumata, eyni zamanda içi boş hecalara, uydurmalarla dolu nəğmələrə olmuşdu. Vazeh yazır:

*Qulağı oxşayan boş hecalardan,*
*Min cürə uydurma macəralardan,*
*Cənnət-cəhənnəmdən, dənizdən, çaydan,*
*Güldən və bülbüldən, günəşdən, aydan,*
*Hicrandan, vüsaldan, qəmdən, kədərdən,*
*Min dəfə çeynənmiş qafiyələrdən,*
*Şeir quraşdırıb mızıldayanlar!*
*Sizə şair kimi min nifrətim var!*
*Çünki tutduğunuz bu yol asandır,*
*Təkcə axmaqlarçün "ürəkaçandır".*
*Şeiriniz ürəyi gətirməz cuşa,*
*Qanan kəslər üçün bəladır başa![8, s.47].*

M.Ş.Vazeh haqlı olaraq yazırdı ki, nə din alimi, nə də şair ömürünü-gününü cəhənnəm-cənnət, gül-bülbül, hicran-vüsal və bunun kimi digər məsələlər üzərində düşünərək keçirməməli,

gerçək həyatı görməyi bacarmalı, yaxşılıqları o dünyanı qazanmaq üçün deyil, insanlıq naminə etməlidir. Bu anlamda insan həyat yaşamında daxili inam, etiqad prinsiplərinə əməl etməklə yanaşı, real dünyanın şərtlərinə də uyğun olaraq ağıllı hərəkətlər etməlidir. Çünki insanın taleyində yalnız şərmi, ya da xeyirmi baş verəcəyini gözləyərək yaşaması qədərçilikdir ki, bu da onu gerçək dünyanın şərtləri ilə ayaqlaşmasına əngəl olur. Vazeh yazır:

*Xeyirmi, yaxud da şərmi gözləyir bizi*
*Sonra taleyimizdə?*
*Məni qorxu götürmür,*
*Kim ağılla yaşayır, xoşbəxt insandır*
*Və gələcəkdə də olacaq,*
*Həmişə əsrdən-əsrə![7, s.159].*

Fikrimizcə, onun dünyagörüşündə islamlıqla bağlı əsas problem haqq-ədalətin, əxlaqi dəyərlərin tərəfdarı kimi çıxış edən İslam dini ilə bağlı deyil, həmin dinin çətiri altında min bir hoqqalardan, kələklərdən istifadə edən riyakar ruhanilərin, məddah və boşboğaz şairlərin əməlləridir. O, hesab edirdi ki, göylərə ucalıb budağı yerə dəyməyən sərv ağacı azadlığın rəmzi olub heç bir fırtınaya baş əyməsə də, ancaq onun kölgəsinə sığınıb, üstəlik onu gəmirən qurdların olması da qaçılmazdır. Deməli, ümid qülləsi olan İslam dini sərv ağacı kimi, nə qədər müqəddəs olsa da, onun da kölgəsində özünə yer tapmış saysız-hesabsız ikiüzlü ruhanilər, məddah şairlər vardır. Vazeh yazır:

*Bir yaşıl qüllədir – ümid qülləsi,*
*Ucalıb təpəsi ərşə dayanar.*
*Altında gəmirər qurdlar məzarı,*
*Üstündə ulduzlar səyrəşib yanar [8, s.48].*

Bütün bunlara əsaslanaraq deyə bilərik ki, Vazehin müsəlmanların ümid qülləsi olan məscidlərdən yan qaçmasına səbəb İslam dini deyil, İslam dininin kölgəsinə sığınıb, daha sonra da onu içdən gəmirən "qurdlar", yəni ikiüzlü ruhanilər, müctəhidlərdir. Bu anlamda o, İslam dininin saf mahiyyətini

xalqa çatdırmayan yalançı ruhanilərə, ikiüzlü mollalara nifrət etdiyi üçün ümid qülləsi olan məscidə getmədiyini yazırdı:

*Bir gün gedirdim mən bir dalda yolla,*
*Nə qafil qarşıma çıxdı bir molla.*
*- Ay mirzə, xeyir ola nə olmuş yəni,*
*Heç görmək olmayır məsciddə səni?*
*- Çünki əziz dostum, qaralır qanım,*
*Səni görən kimi azır imanım [8, s.55].*

Buradan açıq şəkildə görünür ki, Vazehin etirazı İslam dininə, onun ibadət yeri olan məscidə deyildir. O, Allahın və onun dininin adından sui-istifadə edən ruhanilərə, mollalara etiraz olaraq məscidə getmir, çünki Allahın adıyla şər iş görənlər həm də məscidi ayaqlayır və İslam dininə zərər verirlər. Vazeh yazır:

*Mən belə dedim gələn riyakarlara:*
*Kim özünə hörmət edir, Allaha pərəstiş edir.*
*Amma kim Alahın adıyla şər iş görür,*
*Qabacasına müqəddəs bir şeyi – məbədi ayaqlayır [7, s.155].*

Vazehə görə, İslamın qayda-qanunlarında müsəlmanların hər hansı bir işi məcburiyyətlə, zorla həyata keçirməsi doğru sayılmadığı halda, ancaq zaman-zaman vəziyyət dəyişilmiş, könüllülük məcburiyyətə çevrilmişdir. Ancaq Mirzə Şəfi dinin vicdani və əxlaqi məsələ olduğunu başa düşdüyü üçün müsəlmanların, o cümlədən də müsəlman qadınların zorla nəyə isə məcbur edilməsini qəbul etməmişdir. Məsələn, o, qadınların zorla çadraya bürünməsini doğru görməmiş, bunun könüllülük əsasında həyata keçirilməsini çox vacib hesab etmişdir:

*Tulla gəl çadranı.... görünsün üzün,*
*Gül də gizlədərmi, de, bağda özün?!*
*Səni qadir Allah, ey incə çiçək,*
*Yaratmış dünyaya verməkçün bəzək.*
*De, bunca lətafət, bunca məlahət,*
*Solsun dar qəfəsdə neyçün, nəhayət!*

*Tulla gəl çadranı... bilsin ki, dünya*
*Yoxdur yer üzündə sənin tək afət.*
*Qoy sənin nəzərin hər yana baxsın,*
*Baxışın qəlbləri yandırıb yaxsın [8, s.49].*

Bu cür baxışları ilə Vazeh öz dövrü üçün həm də islahatçı bir şəxsiyyət idi. O, işıqlı bir aydın kimi xalqına ikiüzlü mollaların, müftilərin deyil, yenilikçi və milli ruhlu mütəfəkkirlərin yoluyla getməyi məsləhət görürdü. Bu anlamda Vazeh gələcək həyatı, ya da axirəti düşünüb yaşamağı deyil, gerçək aləmin problemlərinə qarşı mücadilə etməyi daha məqbul hesab edirdi:

*Axmaqlar gələcək həyat üçün hüzn edirlər,*
*Burada yaşamırlar, amma yaşadırlar, bilməlisən!*
*Müfti cəhənnəm və cinlərlə qorxudur,*
*Amma ağıllı ol və məyus olmamalısan!*
*Müfti inanır: o hər şeyi yaxşı bilir.*
*Amma Mirzə Şəfini inandırmamalıdır! [5, s.116].*

**Əxlaqi-estetik görüşləri.** Onun dünyagörüşündə əxlaq-estetik problemə də aid olan həqiqət, xeyirxahlıq, düzlük, təvazökarlıq mühüm məsələlərdən biri olmuşdur. Vazeh hesab edirdi ki, ədalətin, haqqın, xeyirxahlığın olmadığı bir dünyada zor, güc hesabına nəyə isə nail olmaq nisbidir. Vazeh yazır:

*İti qılınc sürüşərək düşsə yatağa,*
*Üzü yumşaq ipək üstən sıçrar qırağa.*
*Bu dünyada kəskinlikdən, zor, gücdən artıq*
*Səmərə verər xeyirxahlıq və mehribanlıq [8, s.35].*

Bu anlamda Vazeh tutduğu yenilikçi mahiyyətli mövqeyindən heç bir zaman geri çəkilməmiş, öz təbirincə desək, həqiqəti söyləyib min təhlükə, min tufan qopmasına hazır olmuşdur:

*Qoy sən həqiqəti söyləyən zaman*
*Qopsun min təhlükə, qopsun min tufan!*
*Gəl baxma bunlara, ey Mirzə Şəfi!*
*Uca tut daima arı, şərəfi,*
*Həqiqət bir şeydir gözəllik ilə,*

*Olarmı, gözəllik gəlməsin dilə?*
*Cəzadan, təqibdən olmaqçün uzaq,*
*Bəzən sözlərni söyləmə çılpaq.*
*Asta ol, özünü daim gözlə sən,*
*Acı sözünü də de xoş sözlə sən [8, s.34].*

Yaxud da:

*Düzlüklə alçaqlıq çarpışan zaman*
*Alçaqlıq nədənsə qazanır hər an.*
*Çünki alçaqlarçün ən alçaq işlər,*
*Alçaqlıq deyildir, hünərdir, hünər [8, s.36].*

Mütəfəkkirə görə, insan əxlaqında dargörüşlülük doğru deyildir. Çünki dargörüşlülük, ya da eqoizm onun düzgünlüyünə, xeyirxahlığına əngəl olacaqdır. O yazır:

*Sən öz mənliyinin dar sarayından*
*Kənara çıxmasan, ey dostum, inan,*
*Anla ki, ömründə ola bilməzsən*
*Düzlük evində də bir dəfə mehman [8, s.40].*

Vazeh hesab edirdi ki, heç bir insan həqiqətdən, düzlükdən qaça bilməz. Yəni hər bir insan gec-tez bir gün həqiqətlə, düzlüklə üzləşib əsl gerçəkliyi biləcəkdir. O, buna misal kimi, qoca mollanın arvadını göstərir. Belə ki, qoca molla hər zaman coşub daşan arvadına bir gün güzgünü divardan götürüb qorxunc sifətini ona göstərir. Öz qorxunc sifətini gördükdən sonra həmin arvad qoca mollanın evini tərk edib görünməz olur. Vazeh yazır:

*Sənin də, ey Şəfi, bu nəğmələrin,*
*Əks edir hüsnünü axmaq kəslərin.*
*Dünyada eybinə kor olmayanlar*
*Görüb bu güzgüdə özünü anlar [8, s.42].*

Vazehin dünyagörüşündə əxlaq məsələsi ilə bağlı bir-birinə daban-dabana zidd olan müdriklik və cahillik, ağıl və axmaqlıq məsələsi də öz əksini tapmışdır. O, müdrikliyinmi, yoxsa cahilliyinmi xoşbəxtlik olmasını belə şərh etmişdir:

*Müdriklik adamı çox xoşbəxt edər,*
*Lakin elm artdıqca, çoxalar kədər.*

*Bu dünya üzündə xoşbəxtdir axmaq,*
*Aqil həsəd etməz ona da ancaq [8, s.36].*
Yaxud da:
*Şikayətmi edim, gülümmü, bilməm,*
*Dünyanın yarısı dərrakkədən kəm.*
*Edir utanmadan, eyləmədən ar,*
*Min bir axmağın sözünü təkrar.*

*Yox! Səni mədh edim, qoy ey, Yaradan*
*Ki, tutmuş dünyanı bu qədər nadan.*
*Etməsəydin bizə bu mərhəməti,*
*Olmazdı ağlın da qədri, qiyməti [8, s.38].*

Şair-mütəfəkkirə görə, məhz Yaradan bilir ki, niyə bu dünyada bu qədər nadanla yanaşı, müdrik də var. Çünki bu dünyada nadan olmasa idi, o zaman müdrikin, aqilin qədir-qiyməti də bilinməzdi. Hər halda dünyada yaxşılığın, xeyirxahlığın, əməksevərliyin əsl mahiyyətini nadan deyil, müdrik insan dərk edir. Yalnız müdrik insan daim çətinliyə sinə gərdiyi halda, nadan asana qaçmışdır. O yazır:

*Ey bəşərin xilasına edilən kömək, -*
*Ey göylərin ilk töhfəsi, sevimli əmək!*
*Sənə xidmət edənlərə təsəllisən sən.*
*Müdriklərin ilk arzusu, ilk istəyisən.*

*Ancaq nadan çətin işdən qaçar aşana,*
*Məhv olardım dirənmədən min yol asana!*
*Ey göylərin ilk vergisi!.. İnan ki, sənə*
*Daim sadiq qalasıyam, gedincə sinə [8, s.39].*

Vazehin dünyagörüşündə milli adət-ənənələrə böyük hörmət və sədaqət vardır. Bizcə, o, milli törəmizin təhrifdən təmizlənərək ona sahib çıxmağın tərəfdarı olmuşdur. O yazırdı:

*Kişisən, var isə səndə cəsarət,*
*Olsun xislətində belə bir adət:*
*Yaxşılıq edənə yaxşılıq eylə,*

*Cavab ver yamana yamanlıq ilə [8, s.38].*

Yaxud da:

*Namusa, qeyrətə sataşanları*
*Əfv edən, əslində, zəif adamdır.*
*Yumşaqlıq yaraşır qadın qəlbinə*
*Kişininki isə bil, intiqamdır![8, s.39]*

Milli-dini adət-ənənələrimizlə bağlı məsələlərdən biri də, başqaları barəsində eşitdikləri pis sözləri yaymamaq, yəni yıxılana balta vurub evini yıxmamaq, əksinə, mümkün olduğu qədər yardım əlini uzatmaqdır. Vazeh yazır:

*Başqasının barəsində pis söz eşitsə,*
*Onu yayma bir zaman, möhkəm saxla sən.*
*Asandırsa başqasının evini yıxmaq,*
*Çox çətindir amma, daşı daş üstə yığmaq!*

Eyni zamanda Vazeh yazırdı ki, insani keyfiyyəti daşıyan hər bir kəs, başqasının pis cəhətlərinə görə sevinməməklə yanaşı, ancaq özgələrin sevinclərinə də kədərlənməməlidir. Bir sözlə, insan gülüstandan əsib gələn ətirli küləklərdən ürəkləndiyi, ancaq bataqlığın üfunətindən qaçdığı kimi, bu dünyada başqalarının nə kədərinə sevinməli, nə də sevincinə kədərlənməlidir. O yazır:

*Gülüstandan əsib gələn ətirli külək,*
*Əziz dostum, söylə, sənə vermirmi ürək?*
*Niyə onda bir xoş xəbər eşidəndə sən,*
*Özgəsinin sevincinə sevinməyəsən?*
*Bataqlığın üfunətli, pis havasından*
*Axı dostum, kənar gəzib daim qaçırsan.*
*Onda vurma bədxahlığın gölünə gəl baş,*
*Qeybət dolu məclislərədən qaçıb uzaqlaş [8, s.45].*

Mirzə Şəfinin əxlaqi dünyagörüşündə təvazökarlıq, yəni eqoizmdən uzaq durmaq da mühüm yer tutmuşdur. İnsan ağlı ilə öyünməməli, özünü başqalarından üstün tutmamalı, daim öz üzərində işləməlidir. Bir sözlə, özünü ağıllı hesab edən kəs, bilməlidir ki, Günəş də şüasını yerə endirəndə işıq saçır. Deməli,

ağac bar verəndə budaqları aşağı əyildiyi, Günəş şüası yerə yaxınlaşanda işıq saçdığı kimi, insan da yalnız insanlığın xeyrinə çalışdığı zaman dəyərlidir. Şəfi yazır:

*Sən özündə mahiyyət tərbiyə et!*
*Özgə fikrinin qulu olma –*
*Gümüş kimi parıldayan hər şey*
*Qiymətli deyildir...[7, s.173].*

Bütün insanların bir-birlərinə qardaş olduğuna inanan Mirzə Şəfi hesab edirdi ki, hər hansı insan özü haqqında subyektiv deyil, obyektiv fikir yürütməyi də bacarmalıdır. Çünki yalnız öz müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətlərini də görə bilən insan başqalarına xeyir verə bilər. Özünü dərindən tanıya bilməyən insan həm özünə, həm də başqalarına zərər verə bilər. Ancaq özünə zərər verən insan günahın yarısını edirsə, başqasına zərər verən insan isə daha qorxuludur. Vazeh yazır:

*Günahın yükünü bütün insanlar daşıyırlar;*
*Amma o kəs ki özünə zərər edir,*
*Günahın yarısını edir.*
*Hər vaxt qorxuludur*
*Günahı özgələrə daşıyan toxum![7, s.187]*

Vazehin "Kitabi-Türki" əsərinin "Hikmətlər və nəsihətlər" adlanan bölümündə də xalq hikmətinə əsaslanan əxlaqi məsələlərə mühüm yer verilmişdir. Onun əsas hədəfi insanlara humanizm, dostluq, ədalət, mərdlik, insanlıq, kamillik hissləri kimi müsbət ideyalar aşılamaq, eyni zamanda pis əməllərdən uzaq tutmaqdır: "Nəfs arzunu tərk eləməz ölənədək; hər kəsin təcrübələri çoxdur, əqli dəxi çoxdur; Pislə özünü, necə ki özgəni pisləyirsən; Hər kəsin həvəsi əqlinə qalibdir, həlak olur; İbadət şəhvəti öldürür; İki kimsə doymazlar: elmi tələb eyləyən və malı tələb eyləyən; İki halətlər insanı həlak edərlər: malın çoxluğu və kəlamın çoxluğu; Alimin bir günü yaxşıdır, cahilin hamı ömründən; Yaxşılıq eləyən kişi diridir, hərçənd ölmüş ola; Qardaşların yaxşısı o kəsdir ki, həzərləndirə qardaşını şərdən və

xeyrin tərəfinə yol göstərə; Dünya şirindir cahilə və acıdır aqilə" [9, s.13-16].

Bu kitabda "insanı şərəfli, mənalı həyat sürməyə, alicənab və xeyirxah olmağa çağıran qiymətli aforistik məsləhətlərlə yanaşı, Allaha inam, ondan qorxmaq, ibadət eləmək, tövbə və s. kimi fikirlər aşılayan dini tövsiyələrə də təsadüf olunur" [2, s.174-175]. Bu da bir daha göstərir ki, Vazehin dünyagörüşündə əsas tənqid hədəfi İslam dini deyil, bu dinin adı altında yaranmış mövhumat, xurafat, eyni zamanda ikiüzlü ruhanilərin əməlləri olmuşdur.

**Nəticə**

M.Ş.Vazehin dünyagörüşü, yəni dini-fəlsəfi və əxlaqi-estetik görüşləri ilə bağlı belə bir nəticəyə gəlirik ki, o, Şərq-İslam mədəniyyətinin təhrif olunmuş adət-ənənələrinə qarşı çıxsa da, bütövlükdə bu mədəniyyətdən imtina etməmiş, sadəcə, onun Qərb mədəniyyətinə biganə qalmamasını da məqsədəuyğun hesab etmişdir. Başqa sözlə, Vazeh təmsil olunduğu mədəniyyəti, dini-əxlaqi dəyərləri inkar etməmiş, sadəcə həmin mədəniyyətin, dini-əxlaqi dəyərlərin durğun və təhrif olunmuş formada qalması ilə qətiyyən razılaşmamışdır. Bu məqsədlə Vazeh öz yaradıcılığında mövhumat və xurafat halına salınmış, üstəlik yeni dövrün tələblərinə cavab verməyən adət-ənənələri tənqid etmiş, onlara fəlsəfi rəng qatmağa çalışmışdır. Bütün bunlar isə dini məsələyə, milli özünüdərk prosesinə münasibətdə yeni bir səhifə açmışdır. Bu anlamda bizim nəzərimizdə Vazeh orta çağın sxolastik fəlsəfi təfəkküründən yeni fəlsəfi təfəkkürə keçid prosesində mühüm rol oynamış bir mütəfəkkirimizdir. O, vaxtilə Şərq-İslam-Türk mədəniyyətinin dünyada oynadığı mütərəqqi rolu görməklə yanaşı, son əsrlərdə gerilikçi fəlsəfi təfəkkürə yuvarlanmasının səbəblərini də dərindən dərk etmiş və bundan çıxış yolları göstərməyə çalışmışdır. Vazehin orta çağ sxolastik fəlsəfi təfəkkürdən yeni fəlsəfi təfəkkürə keçid prosesində çıxış yolu kimi gördüyü məsələlər isə əsla İslam-Türk mədəniyyətini tamamilə inkar

kimi təqdim edib, Qərb mədəniyyətini ideallaşdırmaq niyyəti birmənalı şəkildə olmamışdır. Vazehin şarlatan adlandırdığı ruhanilərdən, zülmkar adlandırdığı məmurlardan uzaq durmaqda məqsədi nə İslam dinindən imtina etmək, nə də Türk dövlətçiliyinə son qoyulması anlamına gələ bilməz. Vazehin buradakı hədəfi çox sadədir: İslamı təhrif edənlərə və Türk dövlətçiliyini ədalətsizləşdirənlərə qarşı mübarizə aparmaq.

**Ədəbiyyat**


1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, 4-cü cild. Bakı, Elm, 2011
2. Axundzadə Mirzə Fətəli. Əsərləri.Üç cilddə.III cild.Bakı, Şərq-Qərb, 2005
3. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi.Ali məktəblər üçün dərslik. Bakı, “Maarif”, 1966
4. Caferoğlu A. Azeri edebiyatında istiklal mücadilesi iszleri//Azərbaycan Yurt Bilgisi,Yıl: 1, sayı: 8-9, 1932, avqust-eylül, İstanbul
5. Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, “Şərq-Qərb”, 2007
6. Poetik məclislər. Toplayanı və tərtib edəni: Nəsrəddin Qarayev. Bakı,"Yazıçı" nəşriyyatı, 1987
7. Песни Мирза Шефи. И переводе Н.И.Эйферта. Москва, 1880
8. Vazeh Mirzə Şəfi. Nəğmələr. Bakı, Şərq-Qərb, 2004
9. Vazeh M.Ş., Qriqoryev İ.V. Kitabi-Türki.//Hikmət çələngi. Bakı, Gənclik, 1997

# DÜNYA FƏLSƏFƏSİNDƏ İZ QOYMUŞ ORTA ƏSR AZƏRBAYCAN FİLOSOFLARI HAQQINDA

**Aytək Məmmədova**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Azərbaycan ərazisi strateji əhəmiyyətinə, füsunkar və valehedici təbiətinə, maddi və mənəvi sərvətlərinə görə tarix boyu alimlər, səyyahlar tərəfindən tərənnüm edilmişdir. Bu torpaqlara mənsub düşüncə sahibləri və filosofları fəaliyyətləri ilə dünya elmi və mədəniyyəti xəzinəsinin zənginləşdirilməsinə böyük töhfələr bəxş etmişlər.

Orta əsrlərdə Şərq aləmində elmi biliklər və fəlsəfi fikir yüksək səviyyədə idi. Bu işdə Azərbaycan filosofları və mütəfəkkirləri özünəməxsus mühüm xidmət göstərmişlər. Orta əsr Şərq, xüsusən Azərbaycan fəlsəfəsi tarixi məsələlərini araşdıran AMEA-nın müxbir üzvü, professor Zakir Məmmədov orta əsrlərdə Şərqdən fərqli olaraq Qərbdə yalnız dini elmlərin öyrənildiyini, dünyəvi elmlərin, elmi fəlsəfənin mövcud olmadığını yazmışdır. Tədqiqatçının fikrincə, orta əsrlər Azərbaycanda, ümumiyyətlə, müsəlman Şərqində yüksək tərəqqi və inkişaf dövrü idi. Mükəmməl dini-fəlsəfi təlimlərlə yanaşı, yetkin elmi fəlsəfi sistemlər meydana gəlmişdi. X əsrdə türk filosofu Əbunəsr Məhəmməd Farabinin işləyib hazırladığı Şərq peripatetizmini Azərbaycanda Bəhmənyar (993-1066), Əfzələddin Xunəci (1194-1248), Siracəddin Urməvi (1198-1283) və b. görkəmli təbiətşünas filosoflar inkişaf etdirmişlər. O dövrdə bütün təbiət və riyaziyyat elmləri (fizika, kimya, tibb, mexanika, hesab, həndəsə, cəbr, astronomiya və i.a.) peripatetik fəlsəfə ətrafında birləşmişdi. XII əsrdə Azərbaycan filosoflarından Eynəlqüzat Abdulla Miyanəcinin (1131-ci ildə 32 yaşında edam edilib) panteist təlimi və Şihabəddin Yəhya Sührəvərdinin (1191-ci ildə 37 yaşında edam edilib) işraqilik təlimi fəlsəfi

məktəbə çevrilərək əsrlər boyu istedadlı filosoflar üçün örnək olmuşdur.

Zakir Məmmədov Bəhmənyarın anadan olduğu, yaxud uşaqlıq illərini keçirdiyi yerin Azərbaycan ərazisindən kənarda olması ehtimalını irəli sürərək yazmışdır ki, onun İbn Sinadan təhsil aldığı dövr XI əsrin əvvəllərinə təsadüf edir. İbn Sina 1002-ci ildən başlayaraq Xarəzmdə yaşamış, sonra isə Xorasan vilayətinin müxtəlif şəhərlərini gəzmişdir. Deməli, Bəhmənyarın anadan olduğu, yaxud uşaqlıq illərini keçirdiyi yerin Azərbaycan ərazisindən kənarda olması ehtimalı yaranır. Belə ki, onun müəllimi ilə öz ölkəsində görüşmək imkanı aradan qalxır. Filosofun "azərbaycanlı", "Azərbaycan ölkəsindən idi" faktının o dövrün müəllifləri tərəfindən xüsusi vurğu ilə deyilməsi də buradan irəli gəlir. Çünki azərbaycanlı olub, Azərbaycanda yaşaya-yaşaya, təbii ki, ona "azərbaycanlı", "Azərbaycan ölkəsindən idi" deməzdilər. Müqayisə üçün xatırlatmaq olar ki, qürbətdə yaşamış Əfzələddin Xunəci, Siracəddin Urməvi kimi filosoflar haqqında da "azərbaycanlı" nisbəsi işlədilmişdir [Məmmədov Zakir: 2015, s. 322].

Zakir Məmmədov "Bəhmənyar istisna sayılmaqla, orta əsrlərdə Azərbaycanda peşəkar filosoflar yaşamamışdır" kimi yanlış bir müddəanı elmi tədqiqatı ilə təkzib etmış, milli fəlsəfi irsimizin varlığını üzə çıxarıb araşdırmışdır. Alim Əbülhəsən Bəhmənyarın İbn Sinadan sonra otuz ildən bir qədər az ömür sürdüyünü yazmışdır. Şərq peripatetizminin XI əsrin ortalarına aid mərhələsi bilavasitə Azərbaycan filosofunun adı ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, orta əsrlərdə Azərbaycanda, ümumiyyətlə, müsəlman Şərqində elm, fəlsəfə, ədəbiyyat və incəsənət sahəsində böyük nailiyyətlər qazanılmışdı. XIII əsrdə yaşayıb fəaliyyət göstərmiş Şəmsəddin Xosrovşahi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi və başqa Azərbaycan filosofları geniş yaradıcılıq mündəricəsi ilə seçilir. Onlar dini və dünyəvi elmlərə dair qiymətli əsərlər qələmə almış, tarixdə özünəməxsus mövqe tutmuşlar. Şərq filosoflarının

yaratdıqları fəlsəfi təlimlər onların şagirdləri tərəfindən inkişaf etdirilərək məktəblərə çevrilirdi. Azərbaycan filosofları arasında Bəhmənyardan başlanan müəllim-şagird ardıcıllığı, yəni onun məktəbinin ənənələri də Nəsirəddin Tusi və onun fəlsəfi məktəbinin nümayəndələri tərəfindən davam etdirilmişdir.

Ensiklopedik alim Nəsirəddin Tusinin (1201-1274) milli mənşəyindən bəhs edərkən İbn əl-Füvətinin mütəfəkkirdən danışarkən qeyd etdiyi bir fakt xüsusi əhəmiyyət daşıyır. O yazır ki, Nəsirəddin Tusi Marağaya gələndə oradakı zadəgan ailəsindən olan Fəxrəddin Loğman Məhəmməd oğlu Maraği ilə görüşüb ona belə bir tapşırıq vermişdir: İrbil, Mosul və Əlcəzirəyə getsin, son 40 il ərzində Marağa və Təbrizi tərk etmiş ailələri vətənə qayıtmağa razı salsın. Fəxrəddin Maraği 500-ə qədər ailəni geri qaytara bilmişdi. Bu, Azərbaycan filosofunun öz həmvətənlərinə dərin məhəbbət hissini ifadə edir.

Nəsirəddin Tusinin yaşayıb-yaratdığı əsr Azərbaycanın, ümumiyyətlə, Yaxın və Orta Şərqin həyatı üçün mürəkkəb bir dövrdür. XIII əsrin əvvəllərində monqolların hücumları, qətl-qarətləri, işğalı Azərbaycan xalqının keşməkeşli tarixindən xəbər verir.

Orta əsrlər Şərq aləminin böyük tarixçisi Əbülhəsən Əli İbn əl-Əsir monqolların Azərbaycana hücumları haqqında şahidi olduğu tarixi faktları "Mükəmməl tarix" ("əl-Kamil fi-t-tarix") əsərində qələmə almışdır. İbn əl-Əsir monqolların hücumunu "böyük müsibət" adlandırmışdır. Monqolların tatar olduğunu bildirən tarixçi müsəlmanların ölüm xəbəri hadisələrini yazma ona çətin olduğuna görə monqolların hücumları haqqında ilk öncə bəhs etmək istəmədiyini bildirmişdir: "Kaş anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım!" İbn əl-Əsir əvvəlcə həmin hadisəni təsvir etmək istəməsə də, bu hadisəni və müsibəti yazmağa məcbur olduğunu ifadə etmişdir: "Ümumi xalqın, xüsusilə müsəlmanların düçar olduğu bu müsibət elə bir müsibətdir ki, gecələr və gündüzlər onun mislini doğurmamışdır.

Əgər bir adam – "Allah-təala dünyanı yaratdığı zamandan indiyə qədər dünya bir belə bəlaya düçar olmamışdır!" – deyərsə, doğru demiş olar. Çünki tarixlər indiyə qədər buna yaxın olan və buna bənzəyən heç bir hadisə görməmişdir" [İbn əl-Əsir: 1959, s. 161-162].

Məlumdur ki, Amu-Dəryadan Aralıq dənizinə və Dərbənddən İran körfəzinədək geniş bir ərazinin hakimi Hülakü xan Azərbaycanda məskən salır, əvvəlcə Marağanı, sonra isə Təbrizi paytaxt edir. Beləliklə, Hülakülər dövləti, yaxud başçılarına "elxan" deyilən Elxanilər dövləti yaranır.

Monqolların hücumu əsarətə düşmüş xalqların əsrlərdən bəri yaratdıqları mədəniyyət xəzinəsinə də ağır zərbə vurdu. Lakin köçəri həyat tərzi yaşayan monqollar zaman keçdikcə yerli xalqların mədəniyyətini, mənəvi dəyərlərini mənimsəməyə başladı. Məhz belə bir zamanda Nasirəddin Tusinin müstəsna xidməti sayəsində dünya elminin və fəlsəfəsinin tərəqqisi üçün yeni bir mərhələ başlayır. Dağıntılar və vəhşiliklər törədən monqollar Şərq alimlərinin və filosoflarının, xüsusilə Azərbaycan filosofu Nəsirəddin Tusinin təsiri ilə sonralar elmə və mədəniyyətə diqqət göstərmişlər. Bu mənada Nəsirəddin Tusinin başçılığı ilə 1259-cu ildə Marağa şəhərində inşa edilmiş rəsədxana dünya elminin və fəlsəfəsinin tarixində silinməz iz qoymuşdur. Onun Marağa rəsədxanasının nəzdində yaratdığı məktəbin nümayəndələri də öz müəllimləri Nəsirəddin Tusi kimi fəaliyyətləri ilə mədəniyyətin inkişafına, zənginləşməsinə böyük töhfələr vermişlər.

Nəsirəddin Tusi kimi alimlərin monqol hökmdarlarına təsiri ilə Elxanilər dövlətində elmə və fəlsəfi fikrə dəyər verilmiş, alimlərə qayğı ilə yanaşmışlar. Bu dövrdə müsəlman Şərqi ölkələrində mədəniyyətin yüksək səviyyəsi ilə əlaqədar Türkiyənin görkəmli alimi, Ord.Prof. Hilmi Ziya Ülkən göstərmişdir: "XIII əsr monqol istilasına görə bir durğunluq və qaranlıq dövr kimi görünməsinə rəğmən bir tərəfdən də bir çox

böyük elm adamlarının və yeni elm mərkəzlərinin qurulduğu əsrdir" [Ülken Hilmi Ziya: 1967, s. 131].

Ensiklopedik alim Nəsirəddin Tusi Marağa rəsədxanasını təşkil edərkən Hülakü xan vəqflərin (dini idarələrə məxsus əmlakın) ixtiyarını ona vermişdi. Zakir Məmmədov bu barədə yazmışdır ki, Nəsirəddin Tusinin "hər bir əyalətdə vəqflərlə məşğul olan, onların üşrünü (desyatinin) yığıb, rəsədxana işçilərinin əmək haqqına və rəsədxanada lazımi işlərə sərf etmək üçün gətirən naibləri vardı" [Məmmədov Zakir: 1994, s. 185].

Tarixçi Fəzlullah Rəşidəddin "Salnamələr toplusu" ("Came ət-təvarix") kitabında rəsədxana haqqında "Xoşbəxt mövlana, müdriklərin sultanı, millətin və dinin tərəfdarı (Nəsirəddin Tusi) və Hülakü xanın fərmanı ilə Marağa rəsəd-xanasının tikintisi haqqında hekayət" adlı xüsusi bölmə həsr etmişdi. Tarixçi Hülakü xanın alimə özünün münasib bildiyi bir yerdə ulduzları müşahidə etmək üçün bina tikməsinə razılıq verdiyini yazmışdır: "Fərman verildi ki, böyük xoşbəxt Mövlana, bəşər övladının müəllimi, müdriklərin sultanı, son dövrlərin ən layiqli xadimlərindən Xoca Nəsirəddin Tusi, 'Allah onu bağışlaması ilə əhatə etsin', uyğun hesab etdiyi ərazidə ulduzları müşahidə etmək üçün bina tiksin". Nəsirəddin Tusi Marağa şəhərini seçir və çox yaraşıqlı rəsədxana təşkil edir [Рашид ад-дин Фазлуллах: 1957, III, s. 68].

Nəsirəddin Tusinin şagirdi Qütbəddin Şirazi də dərin zəkasına və ensiklopedik biliyinə görə elxanilər tərəfindən dəyər verilmiş alimlərdəndir. Elxan Arqun xan Qütbəddin Şiraziyə alim kimi böyük hörmətlə yanaşmışdır. Tarixçi Fəzlüllah Rəşidəddin yazır: "Böyük Mövlanə Qütbəddin Şirazi çoxlu Şimal və Qərb ölkələrini özündə birləşdirən Məğrib dənizinin və onun boğazlarının, sahillərinin xəritəsini təqdim etmişdir. Hökmdar Arqun xana onunla söhbət etmək çox xoş gəlmişdi. Çünki o, Rum məmləkətini təsvir edirdi. Hökmdar Rumun daxili olan Amuriya şəhəri ilə maraqlanırdı və Mövlanaya bu barədə danışmağı buyurmuşdu. O, şöhrətli hökmdarı və həmin şəhərin

təsvirini özündə əhatə edən tamamilə gözəl nitq irad etmişdi. Nitq hökmdarın ürəyincə olmuşdu. O, ova çıxmaq üçün ata mindi və mövlanaya dedi: “Mən geri qayıdanda gəl söhbət edək, sən çox bəlağətli danışırsan””.

Fəzlüllah Rəşidəddin göstərir ki, Arqun xan elmin inkişafına diqqət göstərmiş, alimlərin çalışmalarını yüksək qiymətləndirmişdir. Arqun xan əlkimyaya münasibətini öyrənmək istədiyi üçün bir dəfə Qütbəddin Şiraziyə müraciət edərkən “çünki mən cahil adamam, sən isə alimsən...” – demiş, bununla da onu özündən yüksəkdə tutmuşdur.

Qeyd etmək lazımdır ki, Qütbəddin Şirazi XIII əsrin 60-ci illərinin sonlarından etibarən ictimai-siyasi fəaliyyətə başlamışdır. Filosofun siyasi fəaliyyəti Əhməd xan Təkudər (1282-1284) zamanında genişlənir. O, Elxanın sərəncamı ilə Misirə məmluk sultanı Mənsur Seyfəddin Kalaunun yanına səfir göndərilir. Qütbəddin Şirazi monqollar və misirlilər arasındakı münasibətləri yaxşılaşdırır, səkkiz il uğurlu siyasi fəaliyyət göstərdikdən sonra Elxanilər dövlətinin o zaman paytaxtı olan Təbrizə qayıtmış, sarayda işləmişdir. Mütəfəkkir elxanilərdən Arqun xan (1284-1291), Keyxatu xan (1291-1295), Baydu xan (1295), Qazan xan (1295-1304) və Məhəmməd Xudabəndə Olcaytunun (1304-1316) hakimiyyətləri zamanı, ömrünün sonuna qədər sarayda işləmişdir.

Rəsədxanada çalışan alimlər astronomik müşahidələr aparmaqla, rəsədxana işlərində çalışmaqla yanaşı, bütün elm sahələrində dərin tədqiqatlarla da məşğul idilər. Zakir Məmmədov bu barədə yazmışdır ki, 1266-cı ildə Nəsirəddin Tusinin yanına gəlib, Marağa rəsədxanasında işləyən azərbaycanlı mühəndis Kəriməddin Əbubəkr Mahmud oğlu Salmasi kağızı həll edib alınan xəmirdən alətlər və cihazlar düzəldirmiş.

Zakir Məmmədov mənbələr əsasında sübut etmişdir ki, Kəriməddin Salmasi rəsədxanada içiboş Yer kürəsi modelini hazırlamış, onun üzərində iqlimlərin təsvirini vermişdir. Əlbəttə,

bu, coğrafi qlobus idi. Halbuki elm aləmində elə hesab edirlər ki, ilk coğrafi qlobus alman coğrafiyaçısı və səyyahı Martin Behaym (1459-1507) hazırlamışdır [Məmmədov Zakir: 2015, s. 456].

Tarixi mənbələrdən məlumdur ki, Nəsirəddin Tusi humanist və azadfikirli şəxsiyyət olmuşdur. Azərbaycan filosofunun ayrı-ayrı millətlərin müxtəlif əqidəli yüzdən çox nümayəndəsinin Marağa rəsədxanasında işləmələrinə lazımi şərait yaratması bunun parlaq nümunəsidir. Bu baxımdan o, müəllimi Kəmaləddin Musa ibn Yunus kimi azadfikirli şəxsiyyət olub, əqidə sərbəstliyinə xüsusi əhəmiyyət vermişdir. Çünki Kəmaləddin Musa ibn Yunusun da məşğələlərində müsəlmanlarla bərabər xristianlar və yəhudilər də iştirak edirmişlər.

Nəsirəddin Tusinin təbiətşünaslıq, astronomiya, riyaziyyat və b. dəqiq elmlərə dair traktatları bütün dünyada məşhurdur. Şərq və Qərb alimləri bu barədə geniş rəy söyləmiş, onun xidmətlərini yüksək qiymətləndirmişlər. Azərbaycan filosofunun fəlsəfə, məntiq, siyasət və etikaya dair traktatlarına gəldikdə, onlar lazımi səviyyədə yayılmış olmasa da, orta əsr fəlsəfə tarixinin qiymətli inciləridir.

Nəsirəddin Tusinin, ümumiyyətlə, Şərq peripatetiklərinin fəlsəfi təlimində fizika, metafizika və riyaziyyat bütövlükdə varlığın öyrənilməsinə xidmət etdiyi üçün burada yalnız hiss və duyğulara əsaslanan empirizm, eləcə də abstrakt təfəkkürü mütləqləşdirən rasionalizm mövqeyindən çıxış etmək mümkün deyildir. Çünki Şərq peripatetikləri hər iki idrak konsepsiyasını bir-birindən ayırmamışlar.

Qeyd etmək lazımdır ki, bir sıra fəlsəfi məsələlərin qoyuluşunda və həllində Şərq peripatetikləri Yeni dövr Avropa filosoflarından daha artıq dərəcədə elmi mövqe tuturdular. Yeni dövr Avropa filosofları idrakın hissi və əqli mərhələlərinə birtərəfli yanaşır, bunlardan gah birinə, gah da digərinə üstünlük verirdilər. Sensualizm, yaxud empirizm ilə rasionalizmi təmsil

edən filosoflar qnoseoloji baxışlarına görə kəskin fərqlənirdilər. Sensualizm (latınca "sensus" – hiss, duyğu) – duyğuları idrakın yeganə mənbəyi qəbul edən təlim ilə empirizm (yunanca – təcrübə) – təcrübəni biliklərin yeganə mənbəyi hesab edən, bütün biliklərin sanki təcrübədə və təcrübə vasitəsilə əsaslandırıldığını göstərən təlim qnoseologiyada hissi mərhələni ifadə edirdi. Rasionalizm (latınca "rationalis" – əqli olan) təliminə görə, mötəbər biliyin məntiqi əlamətləri – ən ümumi və zəruri olanlar təcrübədən və onu ümumiləşdirmədən çıxarıla bilməz, onlar yalnız ağlın özündən: ya fitri ideyalardan, ya da ağlın sərəncamındakı anlayışlardan əxz edilə bilər.

Yeni dövr Avropa fəlsəfəsi üçün həmin cərəyanların bir-birinə qarşı qoyulub, bu və ya digərinə üstünlük verilməsi demək olar ki, ümumi hal almışdı. Sensualizm (empirizm) ilə rasionalizm arasında belə kəskin hədd qoyulması filosofların tədqiqat mövzularının, öyrəndikləri sahələrin xüsusiyyətləri ilə, araşdırma metodlarının spesifikliyi ilə də müəyyən qədər əlaqədar idi. Sensualistlər bilavasitə təbiət hadisələrini araşdırmaqla məşğul olmuş, maddi aləmin predmetlərinin inikası üçün, onlar haqqında lazımi məlumatlar üçün hissi qavrayışları, empiriklər isə təcrübəni qənaətbəxş hesab etmişlər. Rasionalistlərin tədqiqatlarında isə riyaziyyat, qismən də metafizika məsələləri başlıca yer tutduğundan abstrakt təfəkkürə üstünlük vermişlər. Beləliklə, birtərəflilik – sensualizm və ya rasionalizm mövqeyində durmaq Yeni dövr Avropa filosoflarının dünyagörüşləri, fəlsəfi təlimləri üçün səciyyəvi idi. Həmin birtərəfliliyi Şərq peripatetiklərinə də aid etmək düzgün olmazdı. İdrakda hissi ilə rasionalın vəhdətini qəbul edən Şərq peripatetikləri bu yerdə XVII-XVIII əsrlərin Qərb metafizik filosoflarından daha artıq irəlidə idilər [Məmmədova: 2024, s. 80].

Zakir Məmmədov XII əsrdə dünya şöhrətli Azərbaycan filosofu Şihabəddin Yəhya Sührəvərdinin (1154-1191) yaratdığı

işraqilik fəlsəfi təliminin Nəsirəddin Tusiyə və onun fəlsəfi məktəbinin nümayəndələrinin yaradıcılığına böyük təsir göstərdiyini qeyd etmişdir. Tədqiqatçı yazır ki, İşraqilik fəlsəfi təliminin banisi Şihabəddin Yəhya Sührəvərdi yaradıcılığında peripatetizmə, sufizmə və işraqiliyə aid əsərlər qələmə almışdır. Filosofun peripatetizmə dair əsərlərində məntiq, metafizika və təbiyyat məsələləri dərindən araşdırılmış və inkişaf etdirilmişdir. Şihabəddin Sührəvərdi işraqilik fəlsəfəsinin banisi kimi daha böyük şöhrət qazanmışdır. O, "İşıq heykəlləri" ("Həyakil ən-nur"), "İşraq fəlsəfəsi" ("Hikmət əl-işraq"), "İşığa dair traktat" ("Risale-yi pərtovname") və başqa əsərlərində yeni bir təlimin əsaslarını işləyib hazırlamışdır.

Şihabəddin Yəhya Sührəvərdi XII əsrdə bəşər elmi-fəlsəfəsi fikrinin çox böyük nümayəndələrindən biri olmaqla, Şərq və Qərb ölkələrində geniş şöhrət tapdığı üçün onun maraqlı həyat yolu, zəngin elmi-fəlsəfi yaradıcılığı, xüsusən dərin məzmunlu işraqilik fəlsəfəsi əsrlər boyu görkəmli mütəfəkkirlərin, alimlərin diqqətini özünə cəlb etmişdir [Məmmədov Zakir: 2009, s. 192].

Azərbaycan filosofu Şihabəddin Yəhya Sührəvərdinin fəlsəfi irsinin müsəlman Şərq ölkələrinə, o cümlədən Qərb ölkələrinə təsiri məsələlərini araşdıran Zakir Məmmədov yazmışdır: "İnkişaf etmiş feodalizm dövründə müsəlman Şərqi xalqlarının alimləri, filosofları tərəfindən yaradılmış yüksək səviyyəli zəngin elmi-fəlsəfi fikirlər məkan və zaman məhdudluğu bilməmişdir. Ərəb dilində mövcud ədəbiyyatın ən bariz nümunələri XI-XII əsrlərdən etibarən latın dilinə çevrilərək, Qərb dünyasına da nüfuz etmişdi. Əbubəkr Məhəmməd Razi, Əbunəsr Farabi, İbn Sina, Əbuhamid Qəzali, İbn Rüşd kimi mütəfəkkirlərin bəzi traktatları gizli şəkildə də olsa, o dövrdə artıq İtaliya, Fransa və başqa Qərb ölkələrində oxunur, öyrənilirdi. Şərq filosofları ilə maraqlanan xristian ideoloqları, heç şübhəsiz, orijinal işraqilik təlimini yaratmış Şihabəddin Yəhya Sührəvərdi ilə maraqlanmamış olmazdılar.

Başqa Şərq filosofları ilə yanaşı, Şihabəddin Sührəvərdinin də əsərlərinin Renessans mədəniyyətinin ideya mənbələrindən sayan Əbu Rəyyan həmin dövr ədəbiyyatının banilərindən A.Dantenin (1269-1321) "İlahi komediya" əsərinə işraqiliyin təsirini xüsusi qeyd etmişdir. Azərbaycan filosofunun həyatı, yaradıcılığı və dünyagörüşü Qərb ölkələrində çox sonralar ciddi tədqiqat obyektinə çevrilmişdir" [Məmmədov Zakir: 2009, s. 212-213].

Marağa rəsədxanasında çalışan alimlərdən bir çoxu işraqi filosofun kitablarını tədris və təbliğ etməklə kifayətlənməmiş, onlara dəyərli şərhlər qələmə almışlar. Bu baxımdan Nəsirəddin Tusinin istedadlı şagirdi Qütbəddin Şirazinin İşraqi ədəbiyyatın şah əsəri "İşraq fəlsəfəsi" ("Hikmət əl-işraq") kitabına yazdığı şərhi 1295-ci ildə tamamlamışdır. Bir cəhət də xüsusi olaraq göstərilməlidir ki, Qütbəddin Şirazi elmdə obyektiv mövqedən çıxış etmiş, müxtəlif təlimləri təəssübkeşlik etmədən öyrənmişdir. Heç şübhəsiz, burada ona müəllimi N.Tusinin də böyük təsiri olmuşdur. Belə olmasaydı, o, Marağa rəsədxanasında təhsil alarkən işraqilik fəlsəfəsini öyrənə bilməzdi.

Zakir Məmmədov qeyd edir ki, XI-XII əsrlərdə bəşər fəlsəfəsi tarixi Azərbaycan, ümumiyyətlə, müsəlman Şərq filosoflarının sayəsində elmi fəlsəfədən xali olmamışdır. XII əsrdə Şərq peripatetizmi, panteizm və işraqilik dünya fəlsəfi fikrinin inkişafında zirvələrdir [Məmmədov Zakir: 1994, s. 80].

Qeyd edildiyi kimi, XIII əsrdə köçəri həyat yaşayan, işğal etdikləri əraziləri xarabalığa çevirən monqollara müsəlman Şərq ölkələri alimlərinin və mütəfəkkirlərinin, xüsusilə Nəsirəddin Tusinin böyük təsiri olmuşdur. Məhz bu təsir nəticəsində Şərq aləmində elmi biliklər və mədəniyyət yenidən əvvəlki vəziyyətinə qayıtdı, yüksəliş baş verdi. Bu işdə isə çoxcəhətli yaradıcılıq irsinə malik Azərbaycan filosofu Nəsirəddin Tusinin xidməti misilsizdir. Ensiklopedik alim yaratdığı Marağa rəsədxanasına müxtəlif millətlərin nümayəndələri olan alimləri cəlb etməklə, onların elmi fəaliyyətlərinə şərait yaratmaqla,

Şərqdə, ümumiyyətlə, dünyada elmin, mədəniyyətin və fəlsəfi fikrin inkişafına böyük təkan verdi.

Dünya fəlsəfəsi tarixində Bəhmənyar, Eynəlqüzat Abdulla Miyanəci, Şihabəddin Yəhya Sührəvərdi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi kimi orta əsr Azərbaycan filosofları fəlsəfi təlimləri ilə müstəsna xidmət göstərmiş, özünəməxsus iz qoymuşlar.

## Ədəbiyyat


İbn əl-Əsir. Əl-Kamil fi-t-tarix. Ərəb dilindən tərcümə edən: M.Əfəndizadə. Bakı, 1959

Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994

Məmmədov Zakir. Bəhmənyarın fəlsəfəsi. //Zakir Məmmədov. Seçilmiş əsərləri. Bakı, Elm, 2015. səh. 267-476

Məmmədov Zakir. Şihabəddin Yəhya Sührəvərdi (həyatı, yaradıcılığı və dünyagörüşü). Bakı, Elm, 2009

Məmmədova Aytək Zakirqızı. Əbədiyyət qazanmış ensiklopedik alim – Nəsirəddin Tusi. Bakı, 2024

Рашид ад-дин Фазлуллах. Джами ат-таварих. Перевод с персидского языка А.К.Арендса, т. III, Баку, 1957

Ülken Hilmi Ziya. İslam felsefesi kaynakları ve tesirleri. Ankara, 1967

# AZƏRBAYCAN RƏSSAMLARININ ESTETİK FİKRİNDƏ İNSAN GÖZƏLLİYİ VƏ TƏBİƏT GÖZƏLLİYİ MÖVZULARI

**Nailə Əsədova**
fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Estetikanın ən əsas kateqoriyası olan gözəllik elə bir anlayışdır ki, ona dəqiq bir tərif vermək, demək olar ki, qeyri-mümkündür. Təbiətdəki və insandakı gözəlliyi görən, duyan və bu gözəlliklərdən zövq alan sənətkarlarımız gözəllik haqqında bir çox dəyərli fikirlər irəli sürmüşlər. Dahilər, böyük söz ustadları üçün gözəllik anlayışı fərqli anlamlar daşımışdır və hər biri öz baxış bucağından çıxış edərək gözəllik haqqında müxtəlif fikirlər söyləmiş, gözəlliyə öz təriflərini verməyə çalışmışlar. Bəs haqqında çox saylı fikirlər söylənmiş, yazılmış və tarix boyu bütün zamanlarda vəsf edilmiş gözəllik özü nədir axı? Bəlkə, qəşəng zahiri görkəmdir, bəlkə, saf, təmiz qəlbdir, bəlkə təbiət, bəlkə, məhəbbətdir, sevgidir? Əlbəttə, bunlar hamısı gözəllikdir, lakin mənim fikrimə görə, gözəllik ilk növbədə ahəng, harmoniyadır. Hər bir şeydə: xarici görünüşdə, qəlblərdə, təbiətdə, məhəbbətdə, sevgidə ahəng və harmoniya varsa, orada gözəllik də vardır.

Həyat, bütün aləm başdan-başa əsrarəngiz gözəlliklərlə doludur. Bütün bu gözəllikləri insan hiss üzvləri vasitəsilə duyur və qavrayır. Gözəllik bədii düşüncədə təzahür edən, təcəssümünü tapan estetik idealı üzə çıxaran anlayışıdır. Gözəllik insanlara fərəh, təbəssüm, yaşama sevinci bəxş edir, insanların həyat eşqini oyadır. Buna görə də gözəlliyin mahiyyəti məhz insanda yaranan sevinc hissindən ibarətdir. Təzahür formalarından asılı olmayaraq, gözəlliyin mahiyyəti demək olar ki, həmişə birdir. İnsan gözəlliyi görməkdən, duymaqdan savayı, həm də gözəlliklər yaradır. Gözəllik adi əmək prosesində, ailədə,

məişətdə, ictimai münasibətlərdə və xüsusilə incəsənətdə meydana çıxır. İncəsənətdəki gözəllik real həyat həqiqətlərinin doğru inikası zamanı yaranır. Bədii əsərlərdə əks olunan gözəllik sənətkarların uydurduğu bir şey deyildir. Sənətkarlar həyat həqiqətlərini, həyatın gözəlliklərini duyur, dərk edir və eyni zamanda həyatın bu gözəlliklərini sənət əsərləri vasitəsilə insanlara ötürürlər.

**Azərbaycan rəssamlarının estetik fikrində insan gözəlliyi**

Gözəl qadın obrazları zaman keçdikcə rəngkarlıq incilərində diqqəti daha çox cəlb edir. Bu gözəl qadın obrazlarını sənətin gücü ilə əbədiləşdirən rəssamlar bununla qadın zərifliyini, qadın müdrikliyini tərənnüm etmişlər. Əsrlər boyu qadın dünyanm ən cəzbedici və ən gözəl varlığı sayılıb. Dünyanın bütün sənətkarları öz əsərlərində qadın gözəlliyini yorulmadan tərənnüm etmişlər.

Azərbaycan təsviri sənətində də demək olar ki, elə bir rəssam yoxdur ki, yaradıcılığında qadın gözəlliyini əks etdirən əsərlər yaratmasın.Tanınmış rəssamlarımız Mikayıl Abdullayev (1921-2002), Böyükağa Mirzəzadə (1921-2007), Vəcihə Səmədova (1924-1965) qadın gözəlliyini tərənnüm edən kifayət qədər möhtəşəm əsərlər yaratmışlar.

Rəssam Mikayıl Abdullayev öz tablolarında Azərbaycan qadınlarının gözəlliyini vəsf etməklə yanaşı, həm də onların əməksevərliyini əks etdirmişdir. Məsələn, “Masallı qızları”, “Lənkəranlı qız”, “Çəltik becərənlər”, “Tarlada”, “Xaçmaz qızları”, “Qarabağlı qızlar”, “Astarada çay yığımı” kimi əsərlərində rəssam Azərbaycan qadınlarının gözəlliyini, əməksevərliyini inandırıcı boyalarla əks etdirmişdir. Rəssamın Azərbaycan qadının gözəlliyinə pərəstişi yaratdığı tablolarda aydın sezilir, xüsusilə də rəqqasə Əminə xanım Dilbazinin portretində. Rəssam tabloda Azərbaycan xalq rəqslərinin mahir ifaçısı Əminə xanım Dilbazini xalq rəqslərindən birini ifa edən zaman təsvir etmişdir. O, Əminə xanıma xas olan incə

hərəkətləri, onun həyatsevər xarakterini düzgün təsvir edə bilmişdir.

Azərbaycanın tanınmış fırça ustası Böyükağa Mirzəzadə demək olar ki, ən çox rəngkarlığın portret janrında işləməyə üstünlük verirdi. Rəssam insanların simasını, onların fərdi xüsusiyyətlərini, xarakter və əhval-ruhiyyəsini yaratdığı portretlərdə dəqiqliklə əks etdirirdi. Böyükağa Mirzəzadənin portret janrında yaratdığı boyakarlıq əsərlərinin əsas mövzusu demək olar ki, qadın gözəlliyidir. Qadın ğözəlliyini əks etdirən bu portret əsərlərində dahi rəssam yalnız qadının xarici gözəlliyini deyil, həm də daxili gözəlliyini, məlahətini ifadə etməyə can atırdı.

Tanınmış rəssamın yaradıcılığında Azərbaycanın incəsənət adamlarının portretləri xüsusi yer tutur. Belə portretlər arasında rəssamın “Müğənni xanımın portreti”ni xüsusi qeyd edə bilərik. “Müğənni xanımın portreti” XX əsr Azərbaycan ifaçılıq sənətində, bəlkə də, heç kəsin heç zaman qalxa bilməyəcəyi bir zirvədə olan Azərbaycanın qadın xanəndələri arasında “Çahargah” muğamının ilk ifaçılarından olan Zeynəb Xanlarovaya həsr olunmuşdur. Rəssam gözəl müğənnini səhnədə ifa etdiyi zaman təsvir etmişdir. Zeynəb Xanlarovanın qızılı rəngdə olan paltar və ayaqqabısı, al qızılgüllə bəzənmiş saçları olduqca canlı və real təsvir olunub. Gözəl müğənninin obrazı olduqca cəlbedici və rəngarəngdir. Obrazın əllərinin, üzünün rəngi və gül dəstəsində qırmızı boya yaxmaları əsərin koloritini zənginləşdirir və emosional təsir qüvvəsini daha da qüvvətləndirir.

Tanınmış portret rəssamı Böyükağa Mirzəzadə Azərbaycanın digər müğənni xanımlarının - Sara Qədimovanın, Sona Aslanovanın, həmçinin rəqqasə Roza Cəlilovanın portretlərini də böyük ustalıqla yaratmışdır. “Çəhrayı geyimli qız”, “Çiçəklər ilə qadın portreti”, “Ritanın portreti” rəssam Böyükağa Mirzəzadənin ən uğurlu işlərindən hesab olunur. Rəssam “Ritanın portreti” əsərində yarım profildən irigözlü

xanım fiqurunu təsvir edib. Sol əlini çöhrəsinə söykəmiş vəziyyətdə, nəzərlərini uzaqlara yönəltmiş obrazın şux görünüşü tamaşaçının diqqətini cəlb edir. Rəssam bu əsərdə rənglərdən məharətlə istifadə etməklə, əsərin koloritini ustalıqla həll edib. Rənglər dünyasının incəliklərinə və dərinliklərinə varan Böyükağa Mirzəzadənin yaratmış olduğu bu əsərlər istər kompozisiya, istər kolorit və istərsə də obrazın xarakterinin ifadə edilməsi baxımından rəngkarlıq sahəsində özünəməxsus yer tutub. Bu əsərlər yüksək peşəkarlığı, təkrarolunmaz milli koloriti ilə səciyyələnərək neçə-neçə nəslin estetik tərbiyəsində və zövqünün formalaşmasında böyük rol oynamışdır. O, yaratdığı əsərləri ilə Azərbaycan təsviri sənət tarixinə öz adını əbədi həkk edib.

Əməkdar incəsənət xadimi Vəcihə Səmədova da öz əsərlərində gözəl qadın obrazları yaratmışdır. Yaratdığı qadın obrazlarının hər biri özünəməxsus gözəlliyə malikdir. Vəcihə Səmədovanın əsərləri içərisində aktrisa Leyla Bədirbəylinin portreti olduqca duyğulandırıcıdır. "Aktrisa Leyla Bədirbəylinin portreti" füsunkar gözəlliyə malik bir qadının portretidir. Vəcihə Səmədova bu tabloda aktrisanın gözəlliyini, şəxsiyyətini vəsf edir, onun mənəvi dünyasının harmoniyasını rənglərin əlvan dili ilə əks etdirir. İnsan hisslərini dərindən açmaq rəssamın bütün portretləri üçün səciyyəvidir. Vəcihə Səmədovanın tabloları parlaq rənglərlə dolğundur.

## Azərbaycan rəssamlarının estetik fikrində təbiət gözəlliyi

Azərbaycanın gözəl təbiəti, insana ruh verən əsrarəngiz mənzərələri zaman-zaman bütün sənətkarların ilham qaynağı olub. Vətənimizin təbii gözəlliklərini əsərlərində vəsf və tərənnüm edən görkəmli sənətkarlardan biri də Xalq rəssamı Hüseyn Əlirza oğlu Əliyev (1911-1991) olub.

Hüseyn Əliyev məşhur mənzərə ustasıdır. O, ecazkar təbiətin canlı lövhələrini xarakterik cizgilərlə təsvir etməyi sevirdi. O, doğma vətənin füsunkar təbiətini seyr etməkdən

xüsusi zövq alardı. Azərbaycanın füsünkar, bənzərsiz təbiətini rəssam öz fırçası ilə kətan üzərində canlandıraraq sanki yeni bir möcüzələr yaradirdı. Sənətkar vətən torpağının ecazkar təbiətinin gözəlliklərini, bütün varlığı ilə bağlandığı ana yurdunun, Azərbaycanın dilbər guşələrini böyük həvəslə əsərlərində təsvir edirdi.

"Yəhər Təpə", "Mahmud bulağı", "İlanlı dağ", "Zəngəzur mənzərəsi", "Zəngəzur dağları", "Şəki şəlaləsi", "Comərdli mənzərəsi", "Meşədə qış", "Payız", "Qürub çağı" kimi Azərbaycan təbiətinə həsr etdiyi tabloları, sənət nümunələri rəssamın ən məşhur əsərləridir.

Fırçası ilə möcüzələr yaradan rəssam Hüseyn Əliyev 17 mənzərədən ibarət "Göygöl mənzərələri" adlı albomunda Azərbaycan təbiətinin incilərindən sayılan Göygölün müxtəlif variantlarda təsvirini yaratmışdır. Xalq rəssamı böyük məharətlə yaratdığı bu tablolarda Göygölün gözəlliyini çox böyük ustalıqla əks etdirmişdir. Bu mənzərə tablolarındakı rəng çalarları fərqli və gözoxşayandır. Onun bu mənzərə tablolarında qurduğu kompozisiyalar, rəng ötürmələri, koloritlik öz bənzərsizliyi ilə seçilir. İstedadlı rəssamın 17 mənzərədən ibarət "Göygöl mənzərələri" adlı albomu son dərəcə orijinal və qeyri-adi gözəlliyə malik əsər kimi bütün sənətsevərlərin diqqətini cəlb edir.

Azərbaycan boyakarlıq sənəti tarixində mənzərə janrının yaradıcılarından sayılan Səttar Bəhlulzadə (1909-1974) böyük bir sənətkarlıqla Azərbaycanın füsunkar təbiətinin tablolarını yaratmışdır. Rəssamın yaratdığı bütün mənzərə tabloları Azərbaycan boyakarlıq sənətinin ən dəyərli inciləridir. Bu qiymətli, dəyərli sənət inciləri milli mədəniyyətimizin parlaq nümunələri kimi qorunub saxlanılır. Təbiət vurğunu olan sənətkar Azərbaycanın müxtəlif rayonlarını qarış-qarış, sevə-sevə gəzərək, Azərbaycan təbiətinin əsrarəngiz gözəlliklərini fırçasının möcüzəsi ilə kətan üzərinə köçürürdü. O, Azərbaycanın dağ mənzərələrini, düzənliklərini, mavi Xəzərini,

yaşıl meşələrini, meyvə bağlarını, pambıq tarlalarını öz əsərlərində vurğunluqla tərənnüm etmişdir. Təsviri sənətdə təbiətin tərənnümçüsü olan sənətkar "Doğma düzənliklər", "Gölməçələrdə ördəklər", "Cıdır düzü", "Dumanlı dağlar", "Yaşıl xalça", "Neft daşları", "Suraxanı atəşgahı", "Xəzər üzərində axşam", "Qudyalçay sahili", "Qızılbənövşəyə gedən yol", "Bahar nəğməsi", "Yaşıl xalça", "Bağlar arasında", "Cıdır Düzü", "Yuxarı Daşaltı", "Çaxmaq meşəsi", "Vətənimin baharı", "Naxçıvan", "Axşamçağı Ordubad bağlarında" adlı möhtəşəm mənzərə lövhələri yaratmışdır. Səttar Bəhlulzadənin təsvir etdiyi bütün bu təbiət mənzərələri seyrçilərin ruhunu və zövqünü oxşayır.

Böyük sənətkar "Doğma düzənliklər", "Gölməçələrdə ördəklər" lövhələrində Lənkəranın rəngarəng təbiətini geniş düzənliklərini, yamyaşıl ağaclarını, yaşılbaş ördəklərini təsvir etmişdir. "Cıdır düzü", "Dumanlı dağlar", "Yaşıl xalça", "Yuxarı Daşaltı" lövhələrində isə Qarabağın səfalı yerlərinin gözəlliklərini əks etdirmişdir. "Əmircan", "Buzovna", "Xəzər üzərində axşam", "Xəzər gözəli", "Əbədi məşəllər", "Suraxanı atəşgahı", "Abşeron tacı" kimi mənzərə əsərlərini Abşeronun təbiətinə həsr etmişdir. Qubanın təbiətindən ilhamlanan rəssam Qubanın təbiətinə həsr olunmuş silsilə mənzərə əsərləri yaratmışdır. Sənətkar "Bahar nəğməsi", "Qudyalçay sahili", "Qızılbənövşəyə gedən yol" adlı tablolarında Quba təbiətinin füsunkar gözəlliyini tərənnüm etmişdir. Rəssam Səttar Bəhlulzadənin lirik, poetik mənzərələr ustası olması onun "Bahar nəğməsi" adlı mənzərə tablosunda aydın nümayiş olunur. Rəssam bu mənzərə əsərində təbiətin rəngarəngliyini, Şahdağın ağ zirvəsinə doğru uzanan geniş ərazinin gözəlliyini təsvir etmişdir. Sənətkar bu rəsmdə ağacları, mavi səmani və buludları, yaşıl çəmənlikləri fırçasının möcüzəsi ilə rənglərdən böyük ustalıqla istifadə edərək təsvir etmişdir. Rəssamın təsvir etdiyi bütün bu təbiət rəsmlərində boyalardakı ahəng, rəng zənginliyi, rəng keçidləri, rənglərin uzlaşması, rənglərin harmoniyası,

rənglərin vəhdəti əsas yer tutur. Bunun da ən əsas səbəbi rəssamın çəkdiyi mənzərə əsərlərində kompozisiya quruluşunun, işlətdiyi boyalarda kolorit gözəlliyinin bənzərsizliyi idi.

Sənətkarın kətan üzərində canlandırdığı bütün bu gözəlliklər onun romantik ruhlu olmasından və poetik əhval-ruhiyyəsinin yüksək olmasından irəli gəlir. "Həyat gözəllikdir" deyən rəssam Səttar Bəhlulzadə fəlsəfəyə bağlı bir insan idi. Belə ki, onun özünəməxsus aləmi var idi. Bəlkə, elə buna görədir ki, yaratdığı əsərlər rəssamın daxili aləmini, onun iç dünyasını nümayiş etdirir. Azərbaycan rəssamı Səttar Bəhlulzadə öz poetik düşüncələrini ağ kətan üzərinə həkk edən istedadlı sənətkarlardan idi.

# ƏNVƏR ƏHMƏDOVUN TƏDQİQATLARINDA ORTA ƏSRLƏR İSLAM FƏLSƏFƏSİ: TƏNQİDİ TƏHLİL

**Zaur Rəşidov**
fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

**Giriş**

XX əsrdə Azərbaycanın görkəmli fəlsəfə tarixi tədqiqatçılarından biri də Ənvər Mirzəquliyeviç Əhmədov (1920-1984) olmuşdur. Onun həm orta əsrlər İslam dünyasında özünün ən yüksək zirvəsinə çatmış ərəb-müsəlman fəlsəfi fikri, həm də XIX-XX əsrlər Azərbaycan maarifçilik fəlsəfəsi və bu dövrün bəzi görkəmli nümayəndələrinin görüşləri haqqında əsaslı araşdırmaları vardır. Ə.Əhmədovun "Azərbaycan maarifçilik fəlsəfəsi" (Философия азербайджанского просвещения) adlı tədqiqat işi, Sovetlər dönəmində Azərbaycanda maarifçilik dövrü haqqında yazılan ən sanballı, əhatəli və son dərəcə informativ əsərlərdəndir (3), (17). O, maarifçilik fəlsəfəmizin memarlarından olan Abbasqulu ağa Bakıxanovun da (1794-1846) elmi-fəlsəfi irsini dərindən tədqiq etmiş mütəxəssislərdən biridir (4). Ə.Əhmədovun əsas araşdırma mövzusu olmasa da, onun orta əsrlər İslam dünyasında mövcud olmuş ən başlıca dini-fəlsəfi təlimlərin tədqiqinə həsr edilmiş tədqiqat əsəri də mövcuddur. "Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi" (Арабо-мусульманская философия средневековья) adlı bu tədqiqatında Ə.Əhmədovun kəlam fəlsəfəsi, onun başlıca qollarından olan mötəzilik, əşərilik və maturidilik, eləcə də İslam dünyasında geniş yayılmış sufizm, işraqilik, hürufilik haqqında müəyyən düşüncələri vardır. Qeyd olunan kiçikhəcmli tədqiqatında Ə.Əhmədov Sovetlər dönəmi kontekstində orta əsr İslam dünyasında mövcud olan əsas fəlsəfi təlimlərin ümumi mənzərəsini təsvir etməyə çalışmışdır.

**Orta əsrlərdə ərəb-müsəlman fəlsəfəsi**. Qeyd etmək lazımdır ki, Sovetlər dövrünün ideoloji istiqamətinin ictimai və humanitar elmlər qarşısında qoyduğu məcburi tələblər, Ə.Əhmədovun "Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi" əsərində olduqca açıq bir şəkildə özünü göstərir. Məlumdur ki, qeyd olunan dönəmin materializm və ateizm ruhu aparılan bütün fəlsəfi tədqiqatlarda axtarılması və əsasən də, nəyin bahasına olursa-olsun tapılması vacib olan üstün ideoloji elementlər qismində çıxış etmişdir. Hətta əksər hallarda fəlsəfə tarixçilərimiz birliyə daxil olan digər Sovet tədqiqatçıları kimi, aşkar təhriflər hesabına bütün İslam dini-fəlsəfi təlimlərinin mahiyyətlərini birmənalı materializm və ateizm kimi şərh etməkdən də çəkinməmişlər. Bu mənada İslam fəlsəfəsinin fərqli qolları, materializm, ateizm və əsasən də, bu ikisi arasında ortaq mövqe kimi, panteizm dünyagörüşü elan edilərək Sovetlər dönəmində tədqiq olunan İslam dini-fəlsəfi təlimlərinə biçiləcək ən uyğun fəlsəfi model kimi, demək olar ki, bütün İslam filosoflarının da irsinə verilən son uyğun tərif kimi çıxış etmişdir. Ə.Əhmədovun ümumilikdə İslamın fəlsəfi təlimlərinə münasibəti eyni xətt və ya metodoloji yanaşma əsasında inkişaf etsə də, o, bütün orta əsr İslam fəlsəfi epistemasına birmənalı və Sovet fəlsəfə tarixində ənənəvi qəbul olunmuş formada panteizm kimi də dəyər vermir. O yazır ki, "ərəb-müsəlman fikrinin əsas kontekstini mistik panteizm təşkil etsə də, bu fəlsəfənin bütün struktur komponetlərində, panteizm və əsasən də, naturfəlsəfə heç də hər dəfə öz əksini tapmır" (2, s.14). Ümumiyyətlə, "ərəb-müsəlman fəlsəfəsi" termininin kəsb etdiyi mənanın birmənalı olmaması və bu ifadənin mahiyyət etibarilə çox ziddiyyətli olması da məlumdur. "Ərəb fəlsəfəsi", "İslam-müsəlman fəlsəfəsi", "Şərq fəlsəfəsi", "ərəbdilli fəlsəfə" və bu kimi digər birmənalı ifadələrin tədqiq edilən məsələnin – İslam dünyasındakı fəlsəfi təlimlər – mahiyyətini düzgün əks etdirməməsi Sovetlər dönəminin bəzi fəlsəfə tarixçiləri tərəfindən xüsusi olaraq qeyd edilmişdir (20, s.77).

Ə.Əhmədov “Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi” adlı tədqiqatında orta əsrlərdə İslam dünyasında formalaşmış dörd əsas dini-fəlsəfi istiqamətdən birincisi olan kəlam fəlsəfəsi və bu spekulativ (abstrakt, mücərrəd) fəlsəfənin əsas cərəyanlarından biri, mötəzilik təliminin nümayəndələrindən olan Vasil İbn Əta (699-748), İbrahim ibn Səyyar ən-Nəzzam (775-845), əşərilik təliminin nümayəndələrindən isə Əbül Həsən-əl-Əşəri (874-936) və eləcə də kəlam fəlsəfəsi vasitəsilə İslamın türklər arasında yayılmasında müstəsna rolu olan maturidilik təliminin əsas nümayəndəsi Əbu Mansur əl Maturidinin (852-944) görüşləri haqqında da müəyyən fikriləri vardır. Ə.Əhmədov ümumilikdə bütün mütəkəllimlərin (kəlamçılar və ya İslam sxolastları) irisni “teoloji rəngə boyanmış atomizm kimi təqdim edir” (2, s.14). Mütəkəllimlərin irsində, xüsusən də qədim yunan fəlsəfi təlimlərilə bilavasitə tanışlığı olan ən-Nəzzamın əsərlərində Antik fəlsəfənin, eləcə də qədim yunan atomistlərindən – Levkipp (e.ə. 500-440), Demokrit (e.ə. 460-370), Epikür (e.ə. 342-270) və digərlərinin fəlsəfi görüşlərinə xas müəyyən elementlər açıq şəkildə öz əksini tapsa da, mütəkəllimlərin hamısını birbaşa və birmənalı olaraq atomistlər kimi təqdim etmək də doğru deyil. Bu məqam həm də İslam apologetləri (yun. “müdafiə edirəm”) olan mütəkəllimlərin, özünəməxsus fəlsəfi sistemlərini də şübhə altında qoyur. Bir növ onları özünəxaslıqdan və ya orijinallıqdan kənar eklektiklər kimi göstərmiş olur. Digər tərəfdən, Ə.Əhmədov hesab edir ki, “mütəkəllimlər kəskin bir şəkildə aləmin əbədiliyi prinsipinə qarşı çıxırdılar. Çünki aləmin əbədiliyi fikri aləmlərin Tanrısı ideyasını istisna edərək, vahid Tanrı və ilahi yaradılış konsepsiyasını da məhv edirdi” (2, s.22). Düşünürük ki, birbaşa olaraq İslam dinindən qidalanan kəlam fəlsəfəsinin bir çox fəlsəfi məsələlərdə İslamın başlıca prinsiplərilə uzlaşması təsadüfi hal deyil. Əksinə, kəlam fəlsəfəsinin ümumilikdə İslam ilə sıx bağlılığını nəzərə aldıqda bu hal tam olaraq zəruridir. Önəmli olan məqam kəlam

fəlsəfəsində İslamın əsas suallarının dini kontekstdə deyil, daha dərin və fəlsəfi şəkildə qoyuluşudur.

Ə.Əhmədovun İslam dünyasında əsas fəlsəfi istiqamətlərdən biri və ya bəzən bilavasitə İslam fəlsəfəsi kimi də tanınan Şərq peripatetizmi və ya məşşailik, eləcə də bu təlimin əsas nümayəndələri haqqında da müəyyən fikirləri vardır. O yazır ki, "Əbu Yusif əl-Kindi (801-873) Tanrı anlayışını Aristoteldə (e.ə.384-322) olduğu kimi, "ilk səbəb", "ilkin hərəkətverici" anlayışları ilə əvəz etdi" (2, s.27). Sonrakı dövr məşşailik təlimi nümayəndələrindən fərqli olaraq əl-Kindi Aristotel fəlsəfəsinin ilkin əsaslarına və aristotelizmin ellinizm təlimləri, xüsusən də yeni-platonçuluq-neoplatonizm fəlsəfəsi tərəfindən fərqli formalarda şərhlərindən doğan eklektik mahiyyətinə daha çox bağlı olan bir filosof idi. Bu cəhətdən onun fəlsəfi sistemində Tanrı əksər ellinizm təlimlərində olduğu kimi, yaradıcıdan, hər şeyi heçdən yaradan qüvvədən daha ziyadə, məhz ilk səbəb qismində təqdim olunurdu.

Ə.Əhmədov qeyd edir ki, "Əbu Nəsr əl-Fərabinin (872-950) irsində Tanrı və təbiət əlaqəsi iki növ varlıq olan vacib və mümkün varlıqlarla əvəz edilir" (2, s.27). Yəni, Şərq peripatetizminin nümayəndələri arasında ilk dəfə vacib və mümkün varlıqlar bölgüsünü aparan filosof məhz əl-Fərabi olmuşdur. Daha sonra əl-Fərabi varlıqlar problemini fərqli kontekstlərdən şərh edərək, bu iki varlıq arasındakı qarşılıqlı əlaqəni Platon (e.ə.427-347) fəlsəfəsinə uyğun bir formaya salmışdır. Ə. Əhmədov yazır ki, "əl-Fərabiyə görə, vacib varlıqdan emanasiya (*axma və ya tökülmə – Z.R.*) yolu ilə ilk intellekt, ondan isə aksidental (*təsadüfi olaraq – Z.R.*) olaraq çoxluqlar meydana gəlmişdir" (2, s.28). Düşünürük ki, Platon fəlsəfəsinin (daha dəqiq desək, neoplatonizmin nəzəri əsaslarını formalaşdırmış Plotinin (205-270) fəlsəfi sistemində doğulan Platon) tələblərinə görə, çoxluqlar, moduslar, mövcudlar ilk intellektin bilavasitə özündə yox, onun vasitəsilə mümkün varlıqda-aləmdə törəyir. Ümumiyyətlə, platonizm fəlsəfəsi "ilk intellekt" terminindən

istifadə edərək yaradılışın mahiyyətində zəruri bir ahəngin durduğunu göstərməyə çalışır. Bu ahəng və ya intellekt isə öz növbəsində düşünülmüş, əndazəli, müəyyən biçimə uyğun formada təzahür edərək görünə bilər, kaloqaqatiya (etik-estetik ideal, ahəngdarlıq, həmahənglik, uyğunluq, zahiri və xarici olan tərəflərin harmoniyası) prinsipi əsasında təbiətdə əks oluna bilər. Bu mənada platonizmdəki intellekt qanunauyğunluq, nizam mənalarını verir və yaradılışın xaotik yox, bilavasitə nizamlı olmasına işarə edir. "İslam fəlsəfəsində Platonik formalar doktrinası, eləcə də "Platonik formalar" və ya "Platonik misallar" terminləri əvvəldən yaxşı məlum olsa da" (6, s.159), bu məqam Şərq peripatetizminin birmənalı olaraq Antik yunan fəlsəfəsinin klassik mərhələsindən qaynaqlandığını söyləməyə əsas vermir.

Ə.Əhmədov yazır ki, "məşşailiyin ən görkəmli nümayəndəsi olan İbn Sina (980-1037) məntiqi mühakimələr nəticəsində aləmin əbədiliyi fikrinə gəlmişdir" (2, s.28). Eləcə də o, qeyd edir ki, "məşşailik təliminin ən böyük nümayəndələrindən biri olan İbn Rüşdə (1126-1198) görə, təbiət, varlıq Tanrı üçün əbədi imkan halında çıxış edir. Tanrı-varlıq isə əbədi olaraq aləmin həqiqətinin gerçəkləşməsi səbəbi olur" (2, s.30). Düşünürük ki, aləmin əbədiliyi və təbiətin Tanrı, onun təcəllisi üçün bilavasitə imkan mərtəbəsi olması fikirləri şəriətə zidd səslənsə də, konseptual olaraq Quranın məntiqilə zidd deyil. Bu kimi fəlsəfi fikirlərin İslam fəlsəfəsinə Antik yunan fəlsəfəsindən keçdiyi iddia edilsə də, Quranda da fərqli konnotasiyalarda bu qəbildən olan fikirlərə rast gəlmək olur.

Ə.Əhmədov haqlı olaraq qeyd edir ki, "Aristotel fəlsəfəsinin şərhi zamanı İslamın dünyagörüş sistemi məşşailərə daha çox təsir etmişdir" (2, s.32). Düşünürük ki, nəinki məşşailərin, ümumilkdə İslami fəlsəfi təlimlərin hamısında əsas sistemyaradıcı element elə bilavasitə İslam və ya bu dinin metafizik əsaslarının özüdür. Orta əsrlərdə İslam dünyasında

formalaşan bütün fəlsəfi sistemlər bilavasitə bu dinin prizmasında nəzərdən keçirilərək, İslam vasitəsilə sistemləşdirilirdi. Quranın fərqli interpretasiyalarında da Antik yunan fəlsəfəsi və xüsusən də Aralıq dənizi hövzəsi mədəniyyətlərindən müəyyən elementlərin ehtiva olunduğu məlumdur. Aralıq dənizi hövzəsi mədəniyyətlərinin tarix boyu sıx əlaqələrdə olduğunu nəzərə aldıqda bu hal təbiidir.

Ə.Əhmədov yazır ki, "məşşailiyin ontologiyası iki tamamilə fərqli növ varlıqlar olan vacib və mümkün varlıqlara əsaslandığından panteizmdən daha çox, dualizmdir" (2, s.33). Tanrı ilə təbiəti fərqli, yəni vacib və mümkün varlıqlar olaraq təyin edən məşşailiyin panteizm kimi təsnifatlandırılması birmənalı olaraq doğru deyil. Amma vacib və mümkün varlıqları dualizm kontekstində "tamamilə fərqli" kimi qəti şəkildə mənalandırmaq da həqiqəti əks etdirmir. Çünki, məşşailiyin ontologiyasında bu varlıqlar daima kəsişirlər, bir-birinin mövcudluq halı kimi çıxş edirlər.

Ə.Əhmədov İslamın digər bir fəlsəfi qolu və eləcə də peripatetizm-məşşailik fəlsəfəsinin davamı və müəyyən anlamda onun tənqidi əsasında meydana gələn işraqilik təlimi, daha doğrusu, işraqiliklə eynimənalı qəbul etdiyi yeni-platonçuluq (neoplatonizm) haqqında yazır ki, "neoplatonizm bütün mövcudatın, Tanrının bətnindən hasil olan ilahi nurun təcəssümü olması ideyasına əsaslanır" (2, s.40). Ə.Əhmədov işraqilik fəlsəfəsini birmənalı olaraq neoplatonizm təlimilə eynimənalı hesab edir. Düşünürük ki, müəyyən yaxınlıqlar, hətta bəzi məqamlarda eyniyyət təşkil etməsinə baxmayaraq, özünəməxus bir sistem olan işraqiliyi birmənalı olaraq neoplatonizm kimi təqdim etmək heç bir halda doğru yanaşma deyil. Digər tərəfdən, işraqilik fəlsəfəsinin əsasını təşkil edən nur anlayışı xüsusi olaraq Quranda da rast gəlinən əsas metafizik anlayışlardan biridir. Bu mənada Ə.Əhmədov yazır ki, "nur ideyası Quranın bir çox surələrində açıq şəkildə öz əksini tapsa da, fəlsəfi əsasını müsəlman mütəfəkkirləri tərəfindən, Plotinin (205-270)

emanasiya təliminin qəbulundan sonra qazanmışdır" (2, s.40). "Neoplatonizmin orta əsr ərəb-müsəlman fəlsəfəsində daha uyğun forması nurlanma təlimi və ya işraqilikdir" (2, s.41). Ə.Əhmədov hesab edir ki, "XII əsrdə ərəb-müsəlman mütəfəkkirlərinin yeni-platonçu görüş sistemləri özlərinin zirvəsinə işraqilik fəlsəfəsinin yaradıcısı hesab olunan filosof və şair Şihabəddin Sührəvərdinin (1154-1191) nur metafizikasında çatmış oldu" (2, s.44). Ş.Sührəvərdinin işraqilik təlimi yeni-platonçu elementlərilə zəngin olsa da, əslində, bu təlim məşşailiyi tənqid edərək, onun fəlsəfi cəhətdən tamlıq qazanmasına xidmət etdi. Digər tərəfdən, işraqilik təlimi təlim olaraq Sührəvərdi ilə tamamlanmadı. Bu təlim XV-XVI əsrlərədək uzun bir inkişaf yolu keçdi. Xüsusilə, Cəlaləddin Dəvaninin (1426-1502) teoloji-fəlsəfi görüşlərində yenidən aktuallıq qazandı.

Ə.Əhmədov işraqilik fəlsəfəsilə, digər İslam dini-fəlsəfi təlimləri arasındakı müəyyən yaxınlıqlara da xüsusi olaraq diqqət yetirir. O, hesab edir ki, "ərəb-müsəlman neoplatonizmi özündə kifayət qədər mistik elementlər ehtiva edirdi ki, bu da onu sufizm ilə yaxınlaşdırırdı" (2, s.41). "İsmaililərin təlimilə qarışmış neoplatonizm özünün yüksək inkişaf mərhələsinə X əsrdə "ixvan əs-səfa" (saflıq qardaşları) adı ilə tanınan, bir qrup alim tərəfindən tərtib edilən fəlsəfi ensiklopediyada çatmış oldu" (2, s.42). Ə.Əhmədov hesab edir ki, "saflıq qardaşlarının idrak nəzəriyyəsi kəskin bir şəkildə Platonun ruh və ya şeylərin timsalı olan ideyalar haqqında təliminin də təsirinə məruz qalmışdır" (2, s.43). Yuxarıda qeyd olunduğu kimi, Aralıq dənizi hövzəsi mədəniyyətlərinin xüsusiyyətlərini nəzərə aldıqda Ə.Əhmədovun qeyd etdiyi məqamlar tam təbiidir.

Eləcə də Ə.Əhmədov İslamın digər fəlsəfi təlimlərindən biri olan hürufiliklə təsəvvüf arasındakı bənzərliklərə də diqqət yetirir. O yazır ki, "varlığın vəhdətinin əsasını təşkil edən ümumi mistik sevgi hürufilərdə də ən yüksək ali kamillik və gözəllikdən ayrı deyil və bu cəhətlərilə hürufizm sufizmə yaxındır" (2, s.49).

Bununla belə, hürufiliklə təsəvvüf arasında bənzərliklərlə yanaşı, onlar arasında əsaslı fərqlər də mövcuddur (14). Qeyd edək ki, hürufilik təliminin də birmənalı olaraq panteizm kimi təqdim edilməsi Sovetlər dönəminin fəlsəfə tarixinə xas olan məqamlardandır. Zümrüd Quluzadə (1932-2021) də hesab edirdi ki, "hürufizm panteizmdir" (8, s.11, s.55). O yazırdı ki, "sufizm dünyagörüşünün əsası panteizmdir" (8, s.29, s.63). Bənzər yanaşma onun "VII-XVI əsrlərdə Azərbaycan fəlsəfəsi tarixindən" adlı əsərində də mövcuddur (10, s.160-161). Z.Quluzadə hesab edirdi ki, "islam ilə hürufizm arasında mahiyyətcə fərqlər mövcuddur. Bu cəhətdən hürufizmi hansısa bir cəhətdən islami cərəyanlar və müsəlman təlimlərinə aid etmək mümkün deyil" (8, s.71). Digər tərəfdən, Sovetlər dönəmində hürufilik təliminə dövrün tələblərinə uyğun olaraq materializm kimi də tərif verilirdi. Məsələn, Əliəjdər Seyidzadə (1899-1970) hürufizm və bu təlimin ən əsas nümayəndələrindən biri olan Seyid İmadəddin Nəsiminin (1347-1418) görüşlərini materializm kimi qiymətləndirirdi (19, s.28). Qeyd edək ki, müasir dövrdə bu kimi birmənalı yanaşmalar artıq öz aktuallığını itirmişdir. Müasir tədqiqatçılar hürufilik təliminin İslamda küfr olaraq qəbul edilən panteizm və ya vücudiyyə ilə əlaqəli olmadığını, əksinə, bu İslami təlimin bilavasitə İslam dininin özü ilə sıx bağlılığına xüsusi diqqət yetirirlər. Məsələn, O.Mirasımov yazır ki, "Cavidannamə"nin özünə xas əsas xüsusiyyətlərindən biri də onun sərbəst yaradıcı və bəzi hallarda təkcə Quran və hədislərdə öz əksini tapan qisimlərdən başqa, Bibliya mətnləri və apokriflərin (*gizli, məxfi, həqiqiliyinə inanılmayan söz, fikir və yazı, xristianlıqda müqəddəs dini mətnlərin bir parçası kimi qəbul edilməyən kitablar və mətnlər-Z.R.*) inanılmaz dərəcədə heyratamiz şərhindədir. Amma vaxtilə hürufilərə qarşı olan ittihamların və eləcə də müasir dövr tədqiqatçıları tərəfindən tənqidi qarşılanan bu ittihamların əksinə olaraq, "Cavidannamə"də açıq şəkildə ümumi İslami doqmalara qarşı əks olacaq hər hansı nəzəriyyələrə rast gəlmək mümkün

deyil" (12, s.222). Hürufilərin mümkün mətnlərinin tərcüməsi və hürufilik təlimi üzrə silsilə tədqiqatları ilə tanınan F.Usluər də yazır ki, "heç bir hürufi Quran hökmlərini rədd etmirdi" (1, s.20).

İşraqilik təlimini yeni-platonçuluq kimi başa düşən Ə.Əhmədov, "sufiliyi də panteizm, vücudiyyə və ya hüluliyyə kimi təqdim edir" (2, s.50). Vücudiyyə termini panteizmə uyğun gəlsə də, təsəvvüfü panteizm-vücudiyyə və xüsusən də İslam dini, eləcə də demək olar ki, İslamın bütün əsas dini-fəlsəfi təlimlərində böyük günah sayılan hülul kimi təqdim etmək kökündən yanlışdır. Təsəvvüfün mahiyyətini düzgün dərk edə bilməyən, daha doğrusu, düzgün dərk etmək istəməyən Ə.Əhmədov hesab edir ki, "ərəbcədən tərcümədə mövcudluğun vəhdəti olan vəhdəti-vücud konsepsiyası da panteizmdir" (2, s.50). O yazır ki, "sufi panteizminin formalaşdığı ilk dönəmlərdən Tanrı təkcə insan ilə yox, eləcə də bütün təbiətlə eyniləşdirilirdi" (2, s.51). "İbn Ərəbinin panteizmi bütün mövcudların substansional vəhdəti fikrinə əsaslanır" (2, s.54). Qeyd edək ki, panteizm və vəhdəti-vücud probleminin əsasən eyniyyət prinsipi əsasında həlli Sovetlər dövründə S. Rzaquluzadə (18), Q.Kərimov (7), Z.Quluzadə (9), Z. Məmmədov (11), Ş.İsmayılov (5) və digər Sovetlər dövrü Azərbaycan fəlsəfə tarixçiləri tərəfindən aparılan araşdırmalarda geniş şəkildə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, vəhdəti-vücud və panteizm arasında forma etibarilə müəyyən bənzərliklər olsa da, bu iki fikir axını bir-birindən köklü surətdə fərqlənirlər (13), (15), (16).

Gerçəklikdə təsəvvüf və bu dini-fəlsəfi sistemin əsas fəlsəfi təlimi olan vəhdəti-vücud haqqında əsassız mühakimələrini davam etdirən Ə.Əhmədov son dərəcə bəsit elmi mühakimələrilə yanaşı, adi səhvlərə də yol verir. Belə ki, o yazır: "'Məkkə fəthləri' (Fütuhatül-Məkkiyyə) əsərinin müəllifi Ömər ibn Fəriddir (1182-1235)" (2, s.56). Bu nəhəng və əhatəli əsərin (magnum opus) Mühyiddin ibn Ərəbiyə (1165-1240) məxsus olması, yəqin ki, heç kimdə şübhə doğurmur. Bu fakt

Ə.Əhmədovun bəlli tədqiqatını qələmə aldığı dönəmdə, İslam fəlsəfə tarixinə dair digər və eləcə də Azərbaycan fəlsəfə tarixinə həsr edilmiş tədqiqatlarda da dəfələrlə öz əksini tapmışdır.

Ə.Əhmədovun çoxsaylı təhriflərdən ibarət bu araşdırmasında ara-sıra həqiqəti əks etdirən, amma tədqiqatının ümumi məntiqilə ziddiyyət təşkil edən mühakimələrə də rast gəlmək mümkündür. Məsələn, o yazır ki, "İbn Ərəbidə olduğu kimi, Cəlaləddin Rumidə (1207-1273) də ön plana çıxan məqam insanın Tanrı ilə substansional yox, mənəvi vəhdətidir" (2, s.66). Amma Ə.Əhmədovun tədqiqatından çıxan ümumi məntiq vəhdəti-vücudda Tanrı, aləm və insan arasında substansional vəhdəti qaçılmaz edirdi.

**Nəticə**. Ə.Əhmədovun orta əsrlər İslam dünyasında mövcud olmuş fəlsəfi təlimlər və bu təlimlərin əsas nümayəndələri haqqındakı fikirləri Sovetlər dönəminin fəlsəfə tarixi üçün böyük əhəmiyyət kəsb etsə də, bu fikirlərin müasir dövrdə də eyni dərəcədə öz aktuallığını qoruduğunu iddia etmək çox çətindir. Amma bununla belə, Sovetlər dönəminin ideoloji xəttini əsas tutan bu və bu kimi digər tədqiqat əsərlərinin öz dövrü üçün ilkin maarifləndirici əhəmiyyəti də danılmazdır. Düşünürük ki, müasir dövrdə bu kimi tədqiqat əsərlərinin öz aktuallığını qoruması, onların birmənalı təlqin edilməsi vasitəsilə yox, bilavasitə sağlam elmi tənqidilə mümkündür. Qeyd olunan bu mühim amil bəlli dönəmdə məcburi ideoloji şərtlər çərçivəsində və məhdud imkanlar daxilində məhsuldar elmi fəaliyyət göstərmiş fədakar fəlsəfə tarixi tədqiqatçılarımızdan biri olan Ə.Əhmədov, eləcə də onunla eyni aqibəti yaşamış digər çoxsaylı XX əsr fəlsəfə tarixçilərimizin unudulmaması və müasir dövrdə də aparılan tədqiqatlar zamanı əsərlərinə müraciət edilməsi üçün vacib məqamlardandır.

## Ədəbiyyat

1. Amiloğlu. (2014). Arş-name Tercümesi hurufi şiirler 1. Hazırlayan: Prof. Dr. Fatih Usluer. İnceleme-Tenkitli Metin. İstanbul: Türkiye Yazma Eserler Kurumu Başkanlığı, 504 s.
2. Ахмедов, Э. М. (1980). Арабо-мусульманская философия средневековья. Баку: Маариф, 68 с.
3. Ахмедов, Э. М. (1983). Философия Азербайджанского просвещения. Баку: Азернешр, 291 с.
4. Ахмедов, Э. М. (1989). А.К.Бакиханов: Эпоха, жизнь, деятельность. Баку: Элм, 228 с.
5. Исмаилов, Ш. (1976). Философия Махмуда Шабустари. Баку: Элм, 169 с
6. Kaukua, J. (2022). Suhrawardi's Illuminationism: A Philosophical Study. Leiden: Brill, 265 p.
7. Керимов, Г. (1969). Аль-Газали и суфизм. Баку: Элм, 109 с.
8. Кули-заде, З. (1970). Хуруфизм и его представители в Азербайджане. Баку: Элм, 265 с
9. Кули-заде, З. (1983). Закономерности развития восточной философии XIII-XVI вв. (регион ислама) и проблема Запад-Восток. Баку: Элм, 283 с.
10. Кули-заде, З. (1992). Из истории азербайджанской философии VII-XVI вв. Баку: Азернешр, 235 с.
11. Мамедов, З. (1993). Азербайджанские философы и мыслители средневековья. Баку: Элм, 88 с.
12. Mir-Kasimov, O. (2014). Introduction: the Conception of "Motherly" (Ummi) Knowledge in the Jawidan-Nama of Fadl Allah Astarabadi (d. 796/1394) // Unity in Diversity Mysticism, Messianism and the Construction of Religious Authority in Islam. Edited by Orkhan Mir-Kasimov. Leiden: Brill, s. 221-246.
13. Рашидов, З. (2019). Учение о единстве бытия (вахдат ал-вуджуд) как философское выражение исламского единобожия (таухид) // Махачкала: Дагестанский

государственный университет, Журнал Исламоведение, № 3 (41), Том 10, с. 103-116.

14. Рашидов, З. (2020). Сравнительный анализ религиозно-философских доктрин хуруфизма и единства бытия (вахдат ал-вуджуд) // София: Философски алтернативи, Vol XXIX, Институт по философия и социология (ИФС) към БАН, с. 49-59.

15. Rəşidov, Z. (2017). Sufizmin vəhdəti-vücud təlimində varlıq problemi // Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, № 28, s. 183-196.

16. Rəşidov, Z. (2018). Mistik kəşfdən keçən kamillik yolu və ya vəhdəti-vücud fəlsəfəsinin əsas qnoseoloji problemi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, № 4, s. 104-115.

17. Rəşidov, Z. (2022). Ənvər Əhmədovun tədqiqatlarında Azərbaycan maarifçilik fəlsəfəsi: tənqidi təhlil // Bakı: Metafizika, Beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı, Vol. 5, № 4, Serial № 20, s. 54-76.

18. Рзакулизаде, С. (2011). Из истории философской мысли Азербайджана. Баку: Текнур, 574 с.

19. Сеид-задэ, А. А. (1946). Материализм – основа философии Несими // Труды института философии, Том II. Баку: Издательство Академии Наук Азербайджанской ССР, s. 28-38.

20. Закуев, А. К. (1950). К вопросу о названии средневековой «арабской» Ближневосточной философии // Известия Академии Наук Азербайджанской ССР, № 2. Баку: Издательство А.Н Азербайджанской ССР, s. 77-83.

# AŞIQ YARADICILIĞINDA POEZİYA İLƏ FƏLSƏFƏNİN VƏHDƏTİ

**Aypara Abbasova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

Xalqımız qədim dövrlərdən bu günə kimi bəşəriyyətə nümunə olan milli-mənəvi keyfiyyətlərə, qədim mədəniyyətə malik olan bir xalqdır. Danılmaz faktdır ki, xalqımız hər zaman öz zəngin tarixi, mədəniyyəti, incəsənəti ilə seçilmiş və bununla qürur duymuşdur. Tarixi çox uzaq keçmişlərə gedən, uzun inkişaf yolu keçən hər bir sənət növü sanki müəyyən bir vaxtda birləşərək, vəhdət təşkil edərək mədəniyyətimiz haqqında tam, dolğun təsəvvür yaratmağı bacarmışdır. Azərbaycanın zəngin mədəniyyət çeşməsində musiqi, poeziya qədimliyi, özünə-məxsusluğu, rəngarəngliyi ilə xüsusi seçilmişdir. Vətənimizdə yerləşən və UNESCO-nun maddi-mədəniyyət abidələri siyahısında yer alan Qobustan qayaüstü təsvirlərində yallı gedən insan təsvirləri musiqimizin nə qədər uzaq keçmişə aid olduğunu bir daha sübuta yetirir. Eyni zamanda poeziyamızın da uzaq keçmişə aid olduğunu qürurla deyir və yenə də UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında olan Oğuz-türk dastanı, Azərbaycanın xalq ədəbiyyatında poetik dili ilə seçilən və ən qədim yazılı abidəsi hesab edilən “Dədə Qorqud” dastanını misal göstərə bilərik.

Ümumiyyətlə, Azərbaycan milli musiqi sahəsində aşıq yaradıcılığı, xalq mahnıları, muğamlar xüsusu yer tutur. Poeziya ilə musiqi arasında olan münasibət məsələlərinə nəzər saldıqda isə bilirik ki, bu məsələ hər zaman diqqət mərkəzində olmuşdur. Məlum olduğu kimi, poeziya hər hansı bir hadisənin, fikrin müəyyən ardıcıllıqla, dilin məna, səs, ritm elementlərinin ardıcıllığını pozmadan, müəyyən nizamla və eyni zamanda hadisəni və ya fikri sıxlaşmış, sıradanlıqdan uzaqlaşmış bir şəkildə, ifadə etmə sənəti olaraq təyin olunur. Poeziyada əsasən

onu yaradan xalqın tarixi, milli mənliyi, adət-ənənələri, həyatı, məişəti, yaşam tərzi, duyğuları, dünyaya baxışları, hətta siyasi baxışları belə öz əksini tapa bilir. Poeziyaya müxtəlif tariflər verilsə də, sonda məğzi eynidir. Yəhya Kamal Beyatlı şeiri "Bildiyimiz musiqidən fərqli bir musiqi" olaraq adlandırarkən, Cahid Sıtkı Tarancıya görə, şeir "sözlərlə gözəl şəkillər yaratmaq sənətidir". Əhməd Haşim şeiri "söz ilə musiqi arasında olan, lakin sözdən çox musiqiyə yaxın olan bir dil" olaraq tərif edir. Nəcib Fazil Kısakürək isə şeir üçün "mütləq həqiqəti axtarış işidir" deyir (1). Professor Adil Əsədova görə poeziya ilhamlandırır, insanı öz həyat işini vəcdlə görməyə səsləyir və bununla da, yeni bir gerçəklik quruculuğunun başlanğıcını qoyur. Poeziya ideala çağırış və idealın xalis şəkildə tərən-nümüdür (2, s.145).

Bəli, poeziya bir dünyagörüş olaraq insanların ürəyindən keçənlərin bir sətirdə, bir misrada ən incə duyğularla təsvir edilə bilməsidir. Poeziya keçmiş xatirələri, indiki hal-vəziyyəti, gələcək arzuları özündə əks etdirir. Ancaq onu da qeyd edək ki, poeziya indiki zamandan çox keçmişlə (xatirələrlə), gələcəyin (arzuların) dilində danışır. Poeziya istəyəndə insanı ağlada və ya güldürə bilir. Poeziya insanda qəhrəmanlıq, özgüvən, sevgi, arzulamaq, məqsədə çatmaq və eyni zamanda nifrət, ruh düşkünlüyü hisslərini belə oyatmağı bacarır. Poeziya hər hansı bir tablonu, heykəli, rəqsi, musiqini, hətta hər hansı bir hadisəni təsəvvürdə yarada bilir. Məhz elə ona görə də poeziyanın fəlsəfi anlamı dedikdə Səlahəddin Xəlilovun belə bir kəlamı yada düşür: "Dünyanı dərin anlamaq üçün elm lazımdırsa, dünyanı daha incə duymaq üçün poeziya var. Poeziya duyğuların yaratdığı obrazlarla ifadə olunursa, elm elmi termin və anlayışlarla ifadə olunur".

Fəlsəfə duyğulu idrak və poetik səviyyəyə qalxmış elmdir. Poeziyadan danışanda fəlsəfədən söz açmamaq qeyri-mümkündür. Onda hələ də aktual olan bir ənənəvi sual ortaya çıxır: Poeziya və fəlsəfəni hər zaman bir arada görmək olurmu

və yaxud hər poeziyada fəlsəfə gərəkdirmi? Bir daha görkəmli filosof-alim S.Xəlilova müraciət edək. O yazır: “Fəlsəfə hissiyat və təəssuratlardan, həm də məntiqi təhlil və mühakimələrdən istifadə edir. Fəlsəfənin dili, ifadə forması sanki poeziya ilə elmin sintezidir”. Bəli, bu məsələ, yəni fəlsəfə ilə poeziya arasında olan qarışıqlı münasibət hər zaman şairlərin, filosofların diqqət mərkəzində olmuşdur . Bundan başqa, poeziya və fəlsəfə haqqında mərhum xalq şairi Bəxtiyar Vahabzadə ilə görkəmli alim Adil Əsədovun söhbəti də maraq doğurmaqla bahəm, bir çox məsələlərə aydınlıq gətirir. Söhbətdən bəzi maraqlı məqamlara nəzər salaq. Adil Əsədov: Fəlsəfilik sizin poeziyanın əsas cəhətidirmi? (3)

Bəxtiyar Vahabzadə: Fəlsəfilik təkcə mənim yaradıcılığımın deyil, ümumiyyətlə, poeziyanın ayrılmaz xüsusiyyətidir. Nizami deyirdi: “Qocalıqda belin ona görə bükülür ki, dünyadan çıxmaq üçün onun qapısına üz tutursan”. Xaqani deyirdi ki, qoca özünün son məkanı olan torpağa salam vermək üçün başını aşağı salır. Qocalığın bu təsvirləri fəlsəfi deyilmi?

Adil Əsədov: Fəlsəfə həyatı mənalandırır və bununla da estetik idealın yenidən doğuluşunu şərtləndirir. Fəlsəfədə poetiklik poeziyada fəlsəfiliklə əvəz olunur (4, s.) . Poeziyanın elmiliyi məsələsinə nəzər saldıqda isə belə bir tərifin olduğunu görə bilirik. Elmi poeziya elmi-fəlsəfi dünyagörüş olmaqla, biliklərin poetik ifadəsi kimi xarakterizə edilir. Elmi poeziyanın ilk rüşeymlərinin məhs Yunanıstan və Çində meydana gəldiyi deyilir, termin olaraqsa ilk dəfə fransız filosof-şairi Rene Gil tərəfindən işlədilmişdir. Rene Gilə görə, şeir yazmaq üçün ideya, söz ehtiyatının mənbəyi mif deyil, məhz elmi dünyagörüş olmalıdır. Elmi poeziya sonralar Şərq və eyni zamanda Azərbaycan poeziyası üçün də səciyyəvi xarakter almışdır. Belə ki, istər qədim Şərq, istərsə də Orta Şərq poeziyasında təbiət elmləri, hüquq, astronomiya, məntiq, fəlsəfə, loğmanlıq xüsusi yer tuturdu. Həmin dövr üçün şairin elmli olmağı mütləq sayılırdı. Belə ki, dahi şairlərimiz Nizami Gəncəvinin, Nəsrəddin

Tusinin, Mirzə Fətəli Axundzadənin və b. şeir şəklində yazıb-yaratdıqları əsərlər sözün həqiqi mənasında poetik dildə yazılmış elmi əsərlərdir. Dahi Füzuli "elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur" deyirdi. (5, s.43).

İtalyan şair-filosofu C.Bruno poeziyadan danışarkən deyirdi ki, poeziya qaydalardan yaranmır, o, qaydaları yaradır. Hətta o, dünya, yaranış, varlıq haqqında danışarkən belə, onları elmin deyil, məhz "poetik təfəkkürün məhsulu" adlandırırdı. C.Brunoya görə, elm sonradan yaranmış və ilhamla yazılmışları məntiqlə ifadə etmək üçün lazım olmuşdur. Sadəcə, elm öncədən yazılmışları oxumaq üçündür.

Poeziya ilə musiqinin qarşılıqlı əlaqəsinə gəldikdə, poeziya hər zaman musiqi ilə vəhdətdə olmuşdur. Buna misal olaraq göstərə bilərik ki, bu vəhdət Azərbaycan dastanlarının ilk böyük abidəsi olan "Dədə Qorqud" dastanından üzü bu yana özünü göstərməkdədir. Lakin musiqi poeziyadan daha öncə meydana gəlmişdir. Belə ki, elmi sübutlara əsasən musiqinin birinci meydana gəlməsinə sübut olaraq arxeoloqların paleolit dövrünə aid aşkarladıqları, alətləri misal göstərə bilərik. Məsələn, ov, düşmən hücumlarına qarşı hazırlıqlara çağırış və s. üçün istifadə edilən deşikli daşlar, dəniz ilbizlərinin çanaqlarını göstərmək olar. Müxtəlif məqsədlər üçün bu alətlərdən çıxarılan səslər sonralar musiqinin meydana gəlməsinə səbəb olmuşdur. Qobustan qayaüstü rəsmlərini və qavaldaşı xatırlayaq. Həmin dövrdə daşdan çıxarılan musiqiyəbənzər səslər altında rəqs edən insanlar, əslində, uğurlu ov üçün müəyyən ritualları icra edirdilər. Onlara görə, bu rituallar ovun uğurlu olacağına imkan yaradırdı. Müəyyən vaxt keçdikdən sonra isə söz şəklində deyilən fikirlər avazla, musiqi vasitəsilə söylənilməyə başlandı və beləcə, ilk poeziyanın rüşeymləri meydana gəldi. Bəli, musiqi poeziyanın bəzəkli bir tablosudur. Poeziya sözlərlə, musiqi notlarla təmsil olunur. Bu notlar sanki fırçanı əvəz edərək sözləri elə bəzəməlidir ki, poeziya musiqidə əriyib yaşaya bilsin. Təbii ki, gözəl musiqi poeziyanı ölməz edir. Musiqi ilə poeziyanın

harmoniyası qısametrajlı filmə bənzəyir və istər insanın həyatını, istərsə də hər hansı bir hadisəni çox asanlıqla əhatə edir. Dinləyici bu harmoniyanın sehrinə düşərək öz hisslərini yaşaya bilir; o ya kədərlənir, ya sevinir, ya sevir, ya da nifrət edir.

Türk xalqları tarixində xüsusi yeri olan aşıq sənəti sinkretik sənətdir. Yəni, bu sənət növü özündə bir çox sənət növlərini birləşdirir. Belə ki, musiqi ifaçılığı, xanəndəlik, dastançılıq, şairlik, aktyorluq, rəqqaslıq aşıq sənətinin tərkib hissəsi olaraq öz əksinin tapır. Aşıq yaradıcılığının fəlsəfəsinə "Kitabi Dədə Qorqud" dastanından üzü bu yana baxıb nəzər salmaq lazımdır. Dastandan gördüyümüz kimi, boyları söyləyən ozan şeirləri qopuz çalaraq oxuyur. Onu da qeyd edək ki, qopuz musiqi aləti olmaqla yanaşı, həm də türkdilli xalqlar üçün müqəddəs əşya hesab edilmişdir. "Dədə Qorqud ozanların piri, ustadı, yol göstəricisi və hamisidir. Bununla yanaşı, o, həm də ilk ozandır, ilk oğuznamənin fəlsəfi bünövrəsi, yaradıcısı və söyləyicisidir, qopuz havalarının ilk bəstəçisidir". (6, c.551) . "Ozan və onun qopuzu tanrı dünyası ilə bağlı olan sehirli bir vasitə kimi, düşmən, qara qüvvə üzərinə gedən ordunu öz magik gücüylə qoruyub toxunulmaz, yenilməz, məğlubedilməz edə bilər və qalibiyyəti asanlaşdırar" (7, c.64-65). İllər ötdükcə "ozan" adı sonralar dəyişərək aşıq adı ilə tanınmağa başladı. Buna əsas səbəblərdən biri isə aşığın özündə ilahi eşq fəlsəfəsini əks etdirməsidir. Belə ki, müsəlman Şərqində "aşiq" sözünün mənası eşq yolçusu, ilahi eşqə tapınan mənasını verirdi. Aşiq üçün varlığın canı, vəhdəti Tanrı eşqinə bağlıdır. Varlığı qəlbin gözüylə sezmək onda Tanrını sezmək deməkdir. İnsan öz varlığı ilə Tanrının vəhdətini məhz bu yolla anlayır. Belə olan halda, təbii ki, Yaradana olan eşq ötəri eşqdən fərqlənir. Bu eşq daha saf, daha güclü və sonsuzdur və aşıq aşiqlərin qəlbini, yolunu poetik ifadələrlə, musiqinin diliylə Tanrı eşqini daha da alovlandırırdı.

Şərq poeziyasının estetik baxımdan fərqliliyini, füsün-karlığını Hegel xüsusi vurğulayaraq Şərq poeziyasını və musiqisini şama bənzədərək demişdir: "Şam gülmək, həm ağlamaq öyrədir; o,

alov içində sevinc işığı ilə gülür, ancaq bununla belə, o, qaynar göz yaşlarında əriyir, yana-yana öz ətrafına sevinc nuru saçır".

Milli-mənəvi dəyərimiz olan aşıq yaradıcılığının poetik nümunələrini yaradan el şairləri, daha doğrusu, aşıq-şairlər düzüb-qoşduqları şeirləri musiqinin diliylə xalqa çatdırmışlar. Şeir dilimizin tarixən cilalanmasında və inkişafında xalq musiqisindən, bayatılardan, dastanlardan ibarət olan aşıq sənətinin rolu böyükdür, danılmazdır. Bəli, seir dilimizin formalaşmasında musiqi, poeziya əvəzsiz, müstəsna rol oynayır və bir xalq olaraq fəlsəfi poetik mədəniyyətimizin formalaşmasında çoxəsrlik tarixi olan aşıq yaradıcılığı isə xüsusi yer tutur. Tarixi baxımdan ozançılıq bizim eradan əvvəl VI minilliyə aid edilsə də, sonralar aşıq sənəti olaraq X-XII əsrlərdə yeni ictimai səslənmə təzahürü kimi formalaşaraq mənəvi-tərbiyəvi vasitəyə çevrilmiş və cəmiyyətin sosial-iqtisadi və kulturoloji sahələrində əhəmiyyətli rol oynamışdır.

Aşıq yaradıcılığı Azərbaycan estetik fikir ənənələrini qoruyub saxlayaraq, poetik və fəlsəfi fikrin dahi, bənzərsiz mütəfəkkiri Nizami Gəncəvi, Molla Pənah Vaqif kimi nəhənglərinin irsini təbliğ edərək sadə xalq arasında musiqi təfəkkürünün fəlsəfi mədəniyyətin carçısına çevrilmişdir.(1). Aşıq yaradıcılığında xalqımızın fəlsəfi-estetik dünyagörüşü təkrarsız bir orijinallıqla öz əksini taparaq milli təfəkkürümüzə, ruhumuza, qanımıza, canımıza hopmuşdur. Aşıq yaradıcılığında aşığın estetik idealı dastançılıqla da daha geniş bədii gerçəkliyini tapır. Buna xeyirlə şər, gözəlliklə eybəcərliyi misal göstərə bilərik. Özünəməxsus mədəni-estetik inkişaf mərhələləri olan aşıq sənəti heç bir şübhə olmadan türklüyün əski çağlardan gələn milli-mənəvi gücünün qorunmasında və etnosun perspektiv fəaliyyət üçün istiqamətlənməsində müqayisəyəgəlməz miqyasda potensial imkanlara malikdir.

Azərbaycan aşıq poeziyasının yaradıcılarını tarixdə döyüş meydanlarında da görə bilirik. Onlar düşmən üstünə gedən igidləri söz və müsiqi sədaları altında ruhlandırır, eyni zamanda lazım gəldikdə özləri də döyüş meydanlarına atılardılar. Tarixə nəzər

salsaq görərik ki, Osmanlı və Səfəvi ordularında xüsusi aşıqlar olurdu ki, onlar əsgərlərdə döyüş ruhunu gücləndirmək, qələbəyə inam yaratmaq üçün cəngilər ifa edər, mahnılar oxuyardılar. Bütün dediklərimiz həmçinin Kitabi Dədə Qorqud boylarında da öz əksini tapır. Hətta boylardan da göründüyü kimi, hər bir oğuz igidinin qılıncla bahəm qopuzu (sazı) olardı. Saza, sözə münasibət məsələləri sonralar Koroğlu dastanlarında və Şah İsmayıl Xətai hakimiyyəti dövrlərində də qabarıq şəkildə özünü göstərir. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan türkcəsini Hindistana qədər yayıb inkişaf etdirən Səfəvi hökmdarı Şah İsmayıl Xətai türk dilində şeirlər yazmaqla bərabər eyni zamanda aşıq (ozan) yaradıcılığının inkişafına da xüsusi təkan vermişdir. Tarixi mənbələrə görə, onun şairliyi ilə yanaşı, həm də gözəl ifaçılıq qabiliyyəti olmuşdur. Xətai yaradıcılığında aşıq poeziyası xüsusi yer tutmuşdur.

Aşıq poeziyasında incə duyğular, ülvi hisslər, təbiət mənzərələri, gözəllik (əxlaq, tərbiyə, mənəviyyat, hörmət və s.), sevgi (sədaqət, etibar, vətənə bağlılıq) hər zaman öz əksini tapmışdır. Bütün bunlarla yanaşı, dünyanın sirləri, doğuluş, ölüm, kainat, göy cisimləri, zaman-məkan və s. anlayışlar da aşıq fəlsəfi poeziyasında mühüm yer tutmuşdur. Var olanın varlığına münasibət, dünyanın başlanğıcı, sonu , sirri aşıq fəlsəfi yaradıcılığında xüsusi yer tutur. Məsələn, Dədə Ələsgər yaradıcılığında olan belə bir məqama nəzər salaq.

Bizdən salam olsun arif olana,
Haqq nə gündə xəlq eylədi dünyanı?
Yer ilə göy nə saatda bəhs etdi?
Yer nə üstə bəndə saldı asmanı?
Altı gündə dünya neçə don geydi,
Nə üstə əyləşdi, bərqərar oldu?
Əvvəli kim oldu ərşin bənnası?
Ulduzlar nə təhər yerbəyer oldu?

Aşıq fəlsəfi poeziyası hər zaman estetik idealın zirvəsinə can atmışdır.

## Ədəbiyyat


1. Wikipedia https://az.wikipedia.orq>wiki
2. Adil Əsədov. "Gözəlliyin fəlsəfəsi"
3. Səlahəddin Xəlilov. Fəlsəfə və poeziya: Nizami, Nəsimi və Füsuli timsalında. "Ədəbiyyat" qəzeti. 31. 07. 2021
4. Poeziya və fəlsəfə: idealın fəlsəfi mənalandırılması ilə mənanın poetik ideallaşdırılması arasında yaxınlaşmalar. "Fəlsəfə dünyası" jurnalı 2009.N1. Söhbət1.
5. Məhəmməd Füzuli. Əsərləri. Bakı, 1958.
6. Жирмунский В.М. «Тюркский героический эпос»
7. В.С. Виноградов. «Киргизская народная музыка»

# PERSONALİZMDƏ İNSANA DƏYƏR ANLAYIŞI (NİZAMİ GƏNCƏVİ KONTEKSTİNDƏ)

**Ruslan Xəlilov**
Doktorant, müəllim
Xəzər Universiteti

**Giriş**

"İnsan" məfhumu əsrlər boyu mifologiya, din və fəlsəfə kimi dünyagörüş formalarının diqqət mərkəzində dayanan məsələlərdən biri olmuşdur. Bu anlayış bütün dövrlər ərzində ümumi bir səciyyə daşımasına baxmayaraq, onun izahına müxtəlif yanaşmalar mövcud olmuşdur. İlk təsəvvürlər insan həyatının başlanğıcı qədər qədim tarixə malik olmuş və zaman keçdikcə təkamül yolu keçərək sistem, nəzəriyyə formasını almışdır. Əvvəlcə mifoloji şüur çərçivəsində izah olunan insan problemi daha sonra dini şüurda və son olaraq fəlsəfi ideyalarda öz izahına davam etmişdir. İnsan anlayışının, onun mahiyyətinin xüsusi fəlsəfi problem kimi ortaya qoyulması məsələsinə isə ilk dəfə olaraq qədim yunan fəlsəfəsində rast gəlinmişdir. Bəs tarix etibarilə XII əsrdə yaşamış Nizami Gəncəvi yaradıcılığında və XIX-XX əsrlərin qovşağında yaranmış personalizm cərəyanında insan anlayışı, insana dəyər anlayışı necə izah olunur?

Məqalədə fikir ardıcıllığına əsasən ilk öncə personalizm və onun mahiyyətinə giriş edə bilərik. Personalizm nədir sualına cavab axtardıqda belə bir fikir qarşımıza çıxır: "Əxlaqi azadlığın üstünlüyü qismində personalizm insan davranışları və bəşər tarixi haqqında düşüncə tərzidir" (1,s.58). Yəni personalizm insana olduğu kimi, tarixə də əxlaq kontekstindən baxan təlimdir. Əxlaq problemi personalizmin əsasıdır. İnsanın yaradıcı gücü və istənilən situasiyalarda əxlaq ilə davranmaq iqtidarında olması personalizmin əsas şüarlarından biridir. Həmçinin müəllifin digər bir yanaşmasına görə, "personalizm mövcudluq və xeyiri birləşdirməsə və bu əlaqəni araşdırmaqda tarixə müraciət etməsəydi, onun faydası olmazdı" (1,191). Yəni,

personalizmə görə, insanın mövcud olması artıq bir reallıqdır. Bu reallığı xeyirli, faydalı və müsbət əməllərə sərf etmək lazımdır. Personalizmdə insanın əsas rolu özünü sübut etməklə, cəmiyyətin orqanik bir vahidi olmaqdan və eləcə də ona faydalı olmaqdan ibarətdir. Çünki bəşər tarixinin davamı üçün varlığın xeyir ilə aşılanması vacibdir. İnsanın mahiyyəti ilə bağlı Nizami Gəncəvinin görüşlərini təhlil edərkən aydın olur ki, dahi mütəfəkkir insanı həm bioloji varlıq kimi, həm də sosial varlıq kimi xarakterizə edir. İnsan fiziki və son dərəcə təkrarsızlığa malik olan unikal bir varlıqdır (5,s.15). Həmçinin insan ictimai ünsiyyət, sosial mühit əsasında formalaşan şüura və zəkaya malikdir. Bu da onun biososiallığını təmin edir. Nizamiyə görə, insanda şüurlu və məqsədyönlü yaradıcılıq təfəkkürü vardır və bununla o, cəmiyyətdə öz fəaliyyətini qura bilir. O öz idrakıyla mənəvi-əxlaqi dəyərlər sistemi yaradır. Və bütün bunlara görə dahi mütəfəkkir insanı bir dəyər olaraq bütün xilqətlərdən (yaradılanlardan) üstün olduğunu bildirir. İlk yaradıcı olaraq Tanrı təbiəti və insanı yaratmışdır. Onun fikrincə, Tanrı özü-özünü yaratmışdır, insan isə onun yaradıcı qüvvəsindən yaranmışdır. Tanrı təkrarsızdır, onun varlığını tam aşkarlamaq qeyri-mümkündür. Nizami Gəncəvi qeyd edir ki, ən müdrik insan belə, Tanrının sirlərinə hakim ola bilməmişdir. Tanrının varlığı əbədi və dəyişməz, insanın varlığı isə onunla müqayisədə nisbi və sonludur.

Personalizmdə insana dəyər anlayışı. Fransız personalizminin aparıcı nümayəndələrindən biri olan Jan Lakrua (Jean Lacroix) (1900-1986) yazır ki, “son dərəcə qeyri-müəyyən dövrlərdə yaşadığımızı nəzərə aldıqda personalizm yaşam tərzimizin bələdçisi ola bilər və olmalıdır” (3,s.5). O, həmçinin qeyd edir ki, “personalist olmaq insanı, şəxsiyyəti kəşf etmək, onu tanımaq və şəxsiyyət kimi yaşamaq üçün sonsuz səy göstərmək deməkdir” (3,s.134-135). Jan Lakrua bu mövqelərində digər bir fransız personalist filosof Emmanuel Munyeyə (1905-1950) çox yaxındır. E.Munye də personalizmə

insan həyatı üçün, cəmiyyətin fəaliyyəti üçün bir bələdçi, sosial proqram, sonsuz və tükənməz səy məhsulu kimi baxırdı. Jan Lakrua (Jean Lacroix) (1900-1986) Munye ilə bərabər olaraq personalizmə bir ideologiya, fəlsəfi nəzəriyyə olaraq baxmırdı, onu insana verilən bir dəyər üsulu kimi təbliğ edirdi.

Jan Lakruanın digər bir fikrinə görə,"şəxs həmişə başqa şəxslərin yaşadığı dünyada yaşayır. "Mən" digəri ilə, digəri isə "mən"lə vəhdət təşkil edir. Şəxs özünü xaricdə bəyan etməli olan daxili məzmundur" (3,s.13). Yəni, "mən" və ya şəxsin formalaşmasında, digər "mən"lər və şəxslərin rolu son dərəcə vacibdir. İnsan sosial varlıq olduğundan onun şəxsiyyətinin formalaşması üçün ünsiyyət, dialoq, bir sözlə, başqaları faktoru önəmlidir. İnsanı şəxs olaraq tanıyaraq təsdiq edən digər "mən"lərdir. Personalizm təlim olaraq şəxsə özəl bir hadisə olsa da, onu doğuran faktor ictimaidir. Personalizm ictimai əsaslı bir fenomendir. Bu mənada, fransız mütəfəkkir qeyd edir ki, "personalizm üçün istənilən mövcudluq birgə mövcudluqdur" (3,s.99).

Personalizm mücərrəd fəlsəfə deyil, insan üzərindən şəxsiyyəti reallaşdırmaq əzmidir. Bu mənada, əgər düşünsək ki, obyekt bir insandır, o, şəxsiyyəti təşkil edən ehtiyac və istəkləri, hiss və duyğuları, seçim və meyilləri nümayiş etdirəcəkdir. Yəni, personalizmin əsas vəzifəsi insanı və onunla birgə şəxsiyyəti yetişdirməkdir. İnsanın bütün mənəvi ehtiyacları şəxsin formalaşması üçün əsasdır. Personalizm insan=şəxsiyyət proqramını əsas tutan təlimdir. Həmçinin, avropalı personalistlərin mövqeyinə görə, baxanda görmək olar ki, şəxsiyyət təbiətin fərdi substansiyasıdır, həyata keçirilməyə tabedir, onu üstələyən yaradılışda özünü tamamlamağa çağırır; o, özünü yaradan dünya kimi, özünün yaradılmasında iştirak edir. Yəni, insan bilavasitə öz şəxsiyyətinin yaradıcı-xaliqi olduğu kimi, şəxsiyyət də həm özü-özünün səbəbi, həm də özü-özünün nəticəsidir. Personalizm səbəb və nəticəni eyni anda insana müncər edən təlimdir. Həmçinin mahiyyətinə vardıqda

personalizm insan varlığında ən dərin şey, onun mənbəyidir. Yəni, şəxsiyyət varlığın əsasıdır, onun aynasıdır. Şəxsiyyətin düzgün formalaşması sonda insan cəmiyyətinin də böyük uğurudur. Çünki personalizm insanda və bəşəriyyətdə universal olanı hədəfləyir və bu, onu istənilən ideologiyadan fərqləndirir. Personalizmi teoloji istiqamətdə inkişaf etdirən Jak Maritan (Jacques Maritain) (1882-1973) hesab edir ki, "tənəzzülə uğrayan kapitalist sivilizasiyasının kommunizmdən də üstün olan yeni dünya ilə əvəzlənməsi üçün geniş mənada mənəvi və sosial dirçəliş enerjilərinin təcəssümü olan personalist və güclü humanist prinsiplərdən başqa heç nə tələb olunmur. Bunlar dövlətin insana lütfü yox, insanın insan olaraq öz azadlığını canlandırması və dövlətdən sonsuz dərəcədə üstün tutduğu sevgi sayəsində nümayiş etdirdiyi qabiliyyətdir" (6,s.279). Yəni ekzistensializmdən də təsirlənən Jak Maritan ən üstün insan cəmiyyəti və ya sivilizasiyasının, dövlət və ya dövlətdəki siyasi qurumların təklif etdiyi modellər yox, məhz bilavasitə insan amili, bəşəri faktorlar ilə sıx şəkildə bağlı olan personalist və humanist əsaslarda təşkilini əsas sayırdı. O, dini hisslər və bu hisslərin toplayıcısı olan sevgini əsas sistemyaradıcı element kimi fərqləndirirdi. Bir sözlə, Jak Maritan ən yaxşı idarə forması və uğurlu cəmiyyəti, siyasi platformalar ilə yox, insan,onun sevgisi və birbaşa onun mənəvi və eləcə də əxlaqi dəyərləri əsasında qurmağın mümkünlüyünü əsaslandırmağa çalışırdı. Bu işdə xristianlığın, insani amillərin toplaycı faktoru kimi, yenidən Qərb dünyasını inkişafa (əsasən mənəvi və əxlaqi) sövq edə biləcək qüvvə rolunda çıxış edə biləcəyini vurğulayırdı. O, xristianlıqda əsas amillərdən biri olan sevgini vəhdət yaradıcı amil kimi önə çəkirdi. Həmçinin, Jak Maritanın fikirlərinə əlavə olaraq qeyd edə bilərik ki, Qərbi Avropada personalizm bir rasional inanc forması kimi də qəbul edilirdi. Yəni, o, bir növ dini və əqli olanların yaşantı tərzidir.

*Nizami yaradıcılığında insana dəyər anlayışı.* XII əsrdə yaşamış dahi mütəfəkkirimiz öz əsərlərində Tanrının yaradıcı

məhsulu olan insanı kainat qədər dəyərə sahib bir varlıq kimi təqdim edir. Digər yaradılışlardan fərqli olaraq olaraq şüura, təfəkkürə sahib olan insan dünyaya gəldikdən bir müddət sonra öz qarşısına məqsədlər qoymalı və onun uğrunda mübarizə aparmalıdır. Burada insanın yaradıcı gücünə inam və nikbinlik ifadə olunur. Kamil insan öz nəfsinə qalib gələrək məqsədə çatandır. Yüksək əxlaqi dəyərlərə önəm verən dahi şairimiz insanın mahiyyətinin xeyirxah əməllərdə olduğunu qeyd edirdi. Həyat bir mübarizə forması olaraq xoşbəxtliyə doğru can atmaqdır və bu yolda əsas vasitə adillik nişanəsi olan insana sevgidir, humanizmdir.

Aqibəti düşünmək - yüksəliş imkanımız!
Öz sonunu düşünmək imkanımız var bizim,
Başqa xilqətlərə bu, qismət deyil, əzizim.
Sevgi, həyat nəşəsi şirin olsa da candan,
Aqibəti düşünmək ondan da xoşdur, inan.

Nizami Gəncəvi insan varlığının mahiyyətində özünü-ifadəyə və dərketməyə böyük önəm verir, onu cəmiyyətin və təbiətin qarşılıqlı əlaqəsində xüsusi rola malik olduğunu qeyd edirdi. Bu yolda insanın rasional təfəkkürü ən yaxşı vasitə olaraq hadisələrin dərinliklərinə nüfuz edə bilir. İnsan həm də bir yaradıcıdır və bu yaradıcı fəaliyyətində əsas vasitələrdən biri də sözdür. Sözün qüdrəti nələrisə yaradır, yaşadır və gələcək nəsillərə ötürür. Öz əsərlərində axirət dünyasına da inam bəsləyən mütəfəkkir insanın öz yaratdıqlarıyla hər iki cahanda (real dünya və axirətdə) dəyərə sahib olacağını qeyd edirdi.

Nizami Gəncəvi insanlara əxlaqi dəyər kontekstindən yanaşaraq “bunun xoşbəxt cəmiyyət üçün bir açar rolunu oynaya biləcəyini qeyd edirdi” (2, s.22). Ədalət, vicdan onun üçün əsas əxlaqi anlayışlardandır və bunlar həm insana, həm də cəmiyyət həyatına önəmli şəkildə təsir göstərə bilər. Səadətin açarı ədalətdədir, ədalət isə aqil insanların varlığındadır. Nizami

Gəncəviyə görə, əxlaq anlayışı həm də insanın özünənəzarət funksiyasıdır, ruhun saflığıdır. İnsan təklikdə deyil, başqalarıyla münasibətdə bu kimi keyfiyyətləri ortaya qoya bilər. Bunun üçün uyğun mühitin yaradılması da bir şərtdir. Həmçinin, bu fikirlərini qeyd etməklə, şair fəzilətli hökmdar və fəzilətli dövlət anlayışına da eyham vururdu. İnsan dəyər görə bildiyi mühitdə daha çox kamil insan kimi yetişə bilir. Bu yolda hansısa maneə, sədd anlayışı olmamalıdır. İnsanı dünyanın dəyərli bir varlığı, incisi adlandıran şair insanları fərdiliyə yox, birliyə, kollektivliyə səsləyirdi. Bu şəkildə münasibətlər çərçivəsində insanların fəaliyyətləri cəmiyyətə daha çox fayda verə bilər. Öz əsərlərində dünyanı xeyir və şər qüvvələrin mübarizəsi şəklində təsəvvür edən Nizami xeyirin şər üzərində qələbəsinə inanmaqla, həm də insanların da sülh şəraitində yaşamağına dair bir çağırış etmiş olduğunu göstərir.

Nizami Gəncəviyə görə, insan əqli və zəkasına veriləcək lazımi dəyər cəmiyyəti daxili problemlərdən də böyük ölçüdə xilas edə bilər. İnsanın əql və zəkasını formalaşdıran isə elmdir, bilikdir və deməli, bu anlayışlar da cəmiyyətdə böyük bir dəyərə malik olmalıdır.

Nəticə və ya müqayisəli təhlil**.** Qərbi Avropa personalistlərinin və Nizami Gəncəvinin fikirlərində insana dəyər anlayışını qarşılaşdırdıqda görürük ki, hər ikisində ortaq cəhət insanı daha çox mənəvi bir varlıq mövqeyindən şərh etmək, onu bir dəyər sistemi olaraq görməkdir, insanı bir şəxsiyyət kimi cəmiyyət daxilində formalaşdırıb, həm də yaradıcı bir varlığa çevirməkdir. Hər iki yanaşmada biz insanın həm də ilahi varlığın təcəssümü kimi də qeyd edildiyinin fərqinə vara bilirik. İnsan yaradıcıdır, öz fəaliyyətinin səbəbidir və nəticə olaraq o, mənəvi yetkinlik, kamillik qazanaraq şəxsiyyət kimi çıxış edir.

İki baxış arasındakı fərqə gəldikdə isə Nizamidən fərqli olaraq personalizm tərəfdarları insana əxlaqi dəyərlərdən savayı siyasi bir mövqədən də yanaşırlar, onu siyasi sistemin bir hissəsi kimi də nəzərdən keçirirlər. İnsana dəyər anlayışını bir

nəzəriyyə, sistem anlayışı halına gətirib, ona siyasilik də əlavə edirlər. Həmçinin, personalistlər bəzi hallarda dəyər olaraq insanı yalnız ideoloji varlıq kimi deyil, təbiətin bir substansiyası kimi də nəzərdən keçirirlər.

## Ədəbiyyat


1. Gilbert, Bennett A Personalist Philosophy of History, New York: Routledge, 2019. – 277 p.

2. Lipskerov K.A, Nizami Gəncəvi: Xosrov və Şirin, Azərnəşr, Bakı, 1947, 510.

3. Лакруа, Жан. Избранное: Персонализм / Пер. с франц. Москва: «Российская политическая энциклопедия» (РОССПЭН), 2004. – 608 с.

4. История современной зарубежной философии: Компаративистский подход. 1 т. 3-е издание, расширенное. Санкт-Петербург: Издательство «Лань», 1998. – 448 с.

5. İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. Əsərləri, 10 cilddə, II cild. ”Elm və təhsil”, Bakı, 2017, s.1068

6. Maritain, Jacques. Integral humanism: Temporal and spiritual problems of a new Christendom. Translated by Joseph Evans. Indiana, Notre Dame: University of Notre Dame Press, 1973, 324 p.